**İLHAM ƏLİYEV**

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ON İKİNCİ KİTAB

## AVQUST 2005 - SENTYABR 2005

AZƏRNƏŞR
BAKI - 2013

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR * FƏRMANLAR

AZƏRNƏŞR
BAKI - 2013

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik
**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2013, 400 səh.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində ölkəmizin iqtisadi, siyasi və mədəni cəhətdən daha da müasir dövlətə çevrilməsinə, ordu quruculuğunun inkişafına dair materiallar, Dağlıq Qarabağ probleminin həlli və münaqişənin nizama salınması ilə əlaqədar ölkəmizin prinsipial mövqeyi həmişə olduğu kimi, bu cilddə də geniş yer tutmuşdur.

Kitabda Prezidentin regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrası ilə əlaqədar Oğuz, Qəbələ, İsmayıllı, Şamaxı rayonlarına, eyni zamanda, ölkəmizin cənub bölgəsinə (Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı rayonları) səfərləri, bu rayonların sosial-iqtisadi inkişafına və problemlərinə həsr olunmuş çıxış və nitqləri, göstərişləri və digər materiallar toplanmışdır.

Burada, həmçinin, ölkəmizə gələn YUNESKO-nun Baş direktoru Koisiro Matsuura və onun başçılıq etdiyi nümayəndə heyəti, Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi, çoxsaylı xarici nümayəndə heyətləri ilə görüşləri, dərin məzmunlu söhbətləri, nüfuzlu mətbuat orqanlarına verdiyi bəyanat və müsahibələri, müraciət və məktubları da dərc edilmişdir.

**İSBN 978-9952-8100-7-3**

$$Я\frac{0801000000}{M-651(07)-2013}$$

**ББК-32**

© Azərnəşr, 2013

## XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏYƏ

Hörmətli Bəxtiyar Vahabzadə!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin yüksək bədiiliklə qələmə aldığınız əsərlər milli qaynaqlardan bəhrələnərək, vətənpərvərliyin tərənnümü, insanın mənəvi ucalığı və fəlsəfi düşüncələrlə səciyyələnir. Zəngin ədəbi irsimizdən və dilimizin bədii imkanlarından məharətlə istifadə edərək, yaratdığınız poeziya nümunələrində dərin məna ilə emosionallıq harmonik bir vəhdət təşkil edir.

Siz yaradıcılığını Vətənimizin azadlığı, müstəqilliyi və bütövlüyü uğrunda mübarizəyə həsr etmiş, milli şüurun yetişməsində mühüm rol oynamış və gənc nəslin milli-mənəvi dəyərlər sistemində tərbiyə olunması işinə böyük xidmətlər göstərmiş söz ustalarımızdansınız. Poeziya sənətimizin ənənələrini zamanın sınaqlarından çıxaran və yaşadan bir şair kimi, adınız ölkəmizdə daim ehtiramla çəkilir.

Dramaturji fəaliyyətinizin məhsulu olub əsl vətəndaşlıq ruhu ilə seçilən, Azərbaycan teatrlarında uğurlu səhnə təcəssümü tapan pyesləriniz şöhrətinizi daha da artırmışdır. Uzun illərdən bəri elmi-pedaqoji dairələrdə Siz gözəl tədqiqatçı alim, mahir pedaqoq və publisist kimi də tanınırsınız.

İctimai sahədə göstərdiyiniz fəaliyyət yaradıcılığınızla sıx bağlıdır. Tariximizin taleyüklü anlarında nüfuzlu el ağsaqqalı kimi, Siz həqiqi vətəndaşlıq mövqeyi nümayiş etdirmisiniz.

Xalqımızın yaşadığı qanlı Yanvar faciəsi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı etdiyiniz çıxışlar və atdığınız addımlar böyük əhəmiyyətə malikdir.

İnanıram ki, gənclik Sizin sənət zirvəsinə yüksələn və ictimai-ədəbi düşüncə tariximizi zənginləşdirən yaradıcılığınızdan tükənməz sənət mənbəyi kimi faydalanacaq, yurd sevgisi ilə

dolu poeziyanız Azərbaycanda bundan sonra da neçə-neçə nəslə mənəvi saflıq və vətənpərvərlik ruhu aşılayacaqdır.

Sizə cansağlığı arzulayıram.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 avqust 2005-ci il*

## İSVEÇ BAŞ NAZİRİ OFİSİNİN DÖVLƏT KATİBİ LARS DANİELSSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 avqust 2005-ci il*

*Prezident İlham Əliyev qeyd etdi ki, biz Azərbaycan–İsveç ikitərəfli əməkdaşlığının inkişaf etməsində maraqlıyıq, iqtisadi və digər sahələrdə əlaqələrimizin daha da genişləndirilməsi üçün böyük potensial var və bundan istifadə edilməsi çox vacibdir.*

*Avropa İttifaqının yeni qonşuluq siyasəti çərçivəsində də Azərbaycanın İsveçlə əməkdaşlığı genişləndirmək əzmində olduğunu bildirən prezident İlham Əliyev bu siyasətdə ölkəmizin çox fəal iştirak etdiyini vurğuladı.*

*Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, İsveç hökuməti bu siyasət çərçivəsində Azərbaycanın fəaliyyətini bundan sonra da dəstəkləyəcəkdir.*

*İsveçdə ölkəmizin səfirliyinin açılması barədə Azərbaycanda qərar qəbul edildiyini vurğulayan prezident İlham Əliyev dedi ki, bu bizim İsveçlə əlaqələrimizi daha da inkişaf etdirmək istəyimizin göstəricisidir. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, cənab Lars Danielssonun Azərbaycana səfəri ölkələrimizin ikitərəfli əlaqələrinin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəkdir.*

*Azərbaycan ilə müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsində İsveçin maraqlı olduğunu vurğulayan qonaq onun başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfərinin də bu istəkdən irəli gəldiyini söylədi. O dedi ki, ölkələrimizin iqtisadi əlaqələrinin inkişafı qaneedici səviyyədə deyil, ona görə də bu*

*sahədə çox iş görülməlidir. Azərbaycan ilə İsveç arasında siyasi əlaqələrin də genişləndirilməsinin vacib olduğunu vurğulayan Lars Danielsson bildirdi ki, Avropa İttifaqının yeni qonşuluq siyasəti çərçivəsində Azərbaycan İsveçin ən çox dəstəklədiyi ölkədir. Biz Azərbaycanın Avropa İttifaqı ilə daha sıx əmək-daşlıq qurmaq səylərini dəstəkləyirik. Yeni qonşuluq siyasəti çərçivəsində İsveçin Azərbaycana dəstəyi bu istiqamətdə ilk addımlardan biridir və biz bu sahədə səylərimizi davam etdi-rəcəyik.*

*Azərbaycanın İsveçdə səfirlik açması barədə qərarını alqış-ladıqlarını nəzərə çatdıran, bunun ölkələrimizin əlaqələrinin inkişaf etdirilməsi işinə xidmət göstərəcəyinə əmin olduğunu söyləyən qonaq dedi ki, biz İsveçin iqtisadi, biznes dairələrinin Azərbaycanda mövcud olan iqtisadi potensial və iqtisadi inkişaf proseslərinə cəlb olunması istiqamətində işlər aparacağıq. Azərbaycanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlər bizə çox müsbət təsir bağışlayır. Əminik ki, Azərbaycanın neft sahəsindəki uğurları ümumilikdə ölkənin iqtisadi inkişafına böyük töhfə verəcəkdir.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTANIN DAXİLİ İŞLƏR NAZİRİ VANO MERABİŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 avqust 2005-ci il*

*Ölkələrimiz arasında müxtəlif sahələrdə münasibətlərin daim inkişaf etdiyini bildirən prezident İlham Əliyev, o cümlədən Təhlükəsizlik və Daxili İşlər nazirlikləri xətti ilə uğurlu əməkdaşlıq həyata keçirildiyini nəzərə çatdırdı. Prezident İlham Əliyev bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi baxımından Gürcüstanın Daxili İşlər nazirinin respublikamıza səfərinin əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Gürcüstan arasında müxtəlif sahələrdə əlaqələr bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.*

*Nazir Vano Merabişvili Gürcüstan prezidenti Mixeil Saakaşvilinin səmimi salamlarını Azərbaycan prezidenti İlham Əliyevə çatdırdı.O, iki ölkənin müvafiq nazirlikləri arasında əməkdaşlığın genişləndirilməsindən razılıqla bəhs edərək dedi ki, Gürcüstan tərəfi Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Azərbaycan prezidenti İlham Əliyevin fəaliyyəti regional sabitliyin təmin olunmasında mühüm rol oynayır. Azərbaycan və Gürcüstan prezidentləri arasında dostluq əlaqələrinin mövcud olması ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsinə böyük töhfə vermişdir. Nazir azərbaycanlı həmkarları ilə birgə əməkdaşlığı bundan sonra da genişləndirmək əzmində olduqlarını söylədi.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını prezident Mixeil Saakaşviliyə çatdırmağı xahiş etdi. İki ölkənin prezidentləri arasında daimi tə-*

*masların mövcud olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycan–Gürcüstan münasibətlərinin uğurla inkişaf etməsinin həm ölkələrimizin, həm də regional təhlükəsizliyin təmin olunmasında mühüm rol oynadığını bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Gürcüstan arasında dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu vurğuladı.*

## DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN HƏRBİ HİSSƏLƏRİNƏ DÖYÜŞ BAYRAQLARININ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*16 avqust 2005-ci il*

Əziz sərhədçilər!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Sizi qarşıdan gələn peşə bayramınız münasibətilə, Sərhəd Qoşunlarının yaranmasının 86-cı ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Azərbaycanda sərhəd mühafizəsi yarandı. Ancaq bildiyiniz kimi, Azərbaycan Xalq Cümhuriyyəti çox yaşamadı, 1920-ci ildə süqut etdi. Beləliklə, Azərbaycanda Sərhəd Qoşunlarının formalaşması prosesi dayandı. Azərbaycan Sovet İttifaqı tərkibində yaşadığı dövrdə təbii ki, öz Sərhəd Qoşunları yox idi. Ancaq onu qeyd etməliyəm ki, Azərbaycanda Sərhəd Qoşunlarının formalaşması prosesi məhz o illərdə başlamışdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörənliyi, siyasəti nəticəsində 1970-ci illərdə Azərbaycanda çox güclü hərbi kadr potensialı yaranmağa başladı. Bu gün o illəri yada salaraq, o illər ərzində baş vermiş hadisələri, qəbul edilmiş qərarları təhlil edərək, bir daha görürük ki, o illərdə də Heydər Əliyevin fəaliyyəti Azərbaycanın gələcəkdə müstəqil yaşamasına xidmət edirdi. Məhz onun qərarı ilə Sovet İttifaqında analoqu olmayan, heç bir müttəfiq respublikalarda mövcud olmayan Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yarandı. Bu gün o məktəbin məzunları Azərbaycan ordusunda, Sərhəd Qoşunlarında çox ləyaqətlə xidmət edirlər. Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev Naxçıvanski adına Hərbi Məktəbin məzunudur. Bu gün Azərbayca-

nın təhlükəsizliyinin keşiyində duran yüzlərlə, minlərlə insan o illərdə ilk hərbi dərsləri almışlar.

Onu demək istəyirəm ki, o illərdə görülmüş işlər nəticəsində Azərbaycanın müstəqil ordusunun, Sərhəd Qoşunlarının formalaşmasına böyük təkan verilmişdir. Təbii ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra müstəqil Sərhəd Qoşunlarının yaranması aktual məsələyə çevrilmişdi. Onu da bilirik ki, 1990-cı illərin əvvəllərində Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən dərhal sonra ölkədə yaranmış anarxiya və xaos, özbaşınalıq imkan vermirdi ki, Azərbaycanda hər hansı bir sahədə irəliləyiş olsun, tərəqqi olsun, quruculuq işləri aparılsın. O cümlədən Sərhəd Qoşunlarında da vəziyyət ürəkaçan deyildi. Demək olar ki, sərhədimiz qorunmurdu, sərhədlər çox şəffaf idi və əlbəttə, Azərbaycanın təhlükəsizliyinin təmin olunmasında bu, böyük problem yaradırdı.

1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə Azərbaycana rəhbərliyə qayıtdıqdan sonra Sərhəd Qoşunlarının formalaşması sistemli xarakter aldı, məqsədyönlü şəkildə işlər görülməyə başladı və bu gün biz görürük ki, Azərbaycanın Sərhəd Qoşunları ən yüksək səviyyəyə çatmışdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan tarixində, o cümlədən ordu quruculuğunda böyük xidmətləri olmuşdur. Azərbaycanda hərbi kadr potensialının yaranmasında onun müstəsna xidmətləri vardır. Sərhəd Qoşunlarına da daim böyük diqqət göstərirdi və bu diqqət bu gün də davam edir. Məhz 2002-ci ildə Heydər Əliyevin qərarı ilə Sərhəd Qoşunları Milli Təhlükəsizlik Nazirliyindən ayrılaraq, müstəqil Dövlət Sərhəd Xidməti yarandı.

Sərhəd Xidmətinin maddi-texniki bazasının möhkəmlənməsinə böyük diqqət göstərilirdi. Sərhəd Qoşunlarının sərəncamına çoxlu texnika, infrastruktur obyektləri verilmişdir. Mən bu gün çox şadam ki, bu texnika çox yüksək səviyyədə saxlanılır, təmir olunur. Bir neçə il bundan əvvəl Sərhəd Qoşunlarına verilmiş gəmilər, döyüş texnikası, vertolyotlar ən yüksək səviyyədə təmir olundu və bu gün Azərbaycanın sərhədlərinin qorunmasında çox önəmli rol oynayır.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi, mən ölkədə ordu quruculuğuna, Sərhəd Qoşunlarının inkişafına daim diqqət göstərirəm. Mənim hərbi hissələrdə çoxsaylı görüşlərim bir də onu göstərir ki, Azərbaycan dövləti bu sahəyə çox böyük diqqət yetirir. Keçən il Xudat sərhəd dəstəsində olarkən, şəxsi heyətlə görüşərkən bir daha əmin oldum ki, bu sahədə görülən işlər çox yüksək səviyyədədir. Azərbaycanın sərhədləri lazımi səviyyədə qorunur və bundan sonra da görüləcək işlər imkan verəcək ki, sərhədlərimiz ən etibarlı şəkildə qorunsun. Bu proses gedir. Bu da təbiidir. Çünki Sovet İttifaqı zamanında Azərbaycanın öz dövlət sərhədləri yox idi. Bu gün Rusiya və Gürcüstanla sərhədlərin uzunluğu təxminən min kilometr təşkil edir. İranla sərhədimiz təxminən 800 kilometr uzunluğundadır. Bilirik ki, o sərhəd də 1990-cı illərin əvvəllərində dağıdılmışdı. Ermənistanla sərhədimiz 1200 kilometrdən çoxdur. Ancaq bilirsiniz ki, o sərhəd pozulub və bir hissəsində bizim ordu hissələrimiz yerləşibdir. Sərhədlərimizin qorunması üçün gələcəkdə hələ çox işlər görülməlidir.

Sərhəd Qoşunlarının maddi-texniki bazasının möhkəmlənməsi prosesi uğurla davam edir və bir daha demək istəyirəm ki, Dövlət Sərhəd Xidməti rəisinin bütün müraciətlərinə, xahişlərinə, maddi-texniki bazanın möhkəmlənməsinə aid olan bütün təkliflərinə operativ qaydada baxılır və onların hamısı təmin olunur. Biz buna gələcəkdə daha böyük həcmdə vəsait ayıracağıq.

Çünki Azərbaycanın iqtisadi potensialı güclənir, bizim maliyyə durumumuz yaxşılaşır, Azərbaycanın büdcəsi ildən-ilə artır. Bu il büdcəmiz ilk dəfə 2 milyard 200 milyon dollar səviyyəsinə çatmışdır. Gələn il büdcəmiz 3 milyard dollardan çox olacaqdır. Şübhəsiz ki, büdcədə ilk növbədə, hərbi məqsədlərə böyük vəsaitlər nəzərdə tutulubdur.

Azərbaycan iqtisadi cəhətdən çox cəlbedici ölkədir. Bizim iqtisadiyyatımız dünyada analoqu olmayan sürətlə inkişaf edir. Ümumi daxili məhsul 2005-ci ilin ilk 6 ayında təxminən 17 faiz artıbdır ki, bu da heç bir ölkədə olmayan göstəricidir. Sənaye is-

tehsalının 20 faiz artması bizim sənaye potensialımızın güclənməsi deməkdir, yeni infrastrukturun yaranması deməkdir.

Azərbaycanda iqtisadi sahədə çox böyük imkanlar yaranır. Şübhəsiz ki, ölkəmiz iqtisadi cəhətdən cəlbedici olduğuna görə, ona olan maraq da artır. Biz dostlarımız üçün qapılarımızı açmışıq, açıq qapı siyasəti aparırıq. Ancaq Azərbaycana bəd niyyətlə gəlmək istəyən dairələr, qüvvələr, ünsürlər bilməlidirlər ki, Azərbaycanın sərhədləri lazımi səviyyədə qorunur.

Sərhəd hər bir dövlət üçün onun müstəqilliyini təcəssüm etdirən çox önəmli əlamətdir. Sərhəd müstəqillik deməkdir. Müstəqillik sərhədsiz mümkün deyildir. Azərbaycan sözün əsl mənasında müstəqil siyasət aparır və bu işdə xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri vardır. Məhz onun uzaqgörənliyi nəticəsində bu gün Azərbaycan həm siyasi müstəvidə, həm beynəlxalq əlaqələrdə, həm də daxildə iqtisadi islahatların davam etdirilməsində öz siyasətini azad şəkildə, öz milli maraqlarına uyğun şəkildə aparır.

Bu gün dünyada yeni təhlükələr meydana çıxıbdır. Beynəlxalq terrorizmlə mübarizə bu gün dünya ölkələrini birləşdirən bir amildir. Azərbaycan öz tərəfindən beynəlxalq terrorizmlə mübarizəyə töhfəsini verir və biz bundan sonra da bu siyasəti aparacağıq. Terroristlər sərhəd tanımırlar. Terrorizm elə bir bəladır ki, onunla mübarizə aparmaq çox çətindir. Sən düşməni görmürsən və düşmən sənə xaincəsinə zərbələr vurur. Ona görə beynəlxalq terrorizmlə uğurla mübarizə aparmaq üçün bütün dünya ölkələri birləşməlidir. Terroristlər arasında ayrı-seçkilik qoyulmamalıdır.

Azərbaycan terrora məruz qalmış bir ölkədir. 1990-cı illərin əvvəllərindən erməni terror təşkilatları tərəfindən Azərbaycanda 30-dan yuxarı terror aktları həyata keçirilmiş və 2 mindən çox günahsız insan həlak olmuşdur. Ancaq o illərdə biz dünyanın bu məsələyə ciddi reaksiyasını görmədik. Azərbaycan öz problemləri, öz çətinlikləri ilə üz-üzə qalmışdı. Bizə nə beynəlxalq birlik tərəfindən, nə də beynəlxalq təşkilatlar tərəfindən heç bir yardım göstərilmədi.

İndi – terrorizm dünya üçün daha da təhlükəli olandan sonra bu məsələyə diqqət artıbdır. Yəni onu demək istəyirəm ki, terroristlər təkcə sənin ölkən üçün təhlükə törətmirlər, təhlükə mənbəyi deyillər. Başqa ölkədə törədilən terror aktları bizim hamımızı düşündürməlidir. Azərbaycan beynəlxalq antiterror koalisiyasında fəal iştirak edir və ona öz töhfəsini verir.

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi bizi çox narahat edir. Bu məsələ artıq Birləşmiş Millətlər Təşkilatının, digər mötəbər beynəlxalq qurumların diqqət mərkəzindədir. Biz öz tərəfimizdən bu məsələyə dair təkliflərimizi vermişik, öz töhfəmizi veririk.

Azərbaycanın ən böyük problemi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və bunun nəticəsində torpaqlarımızın işğal altında qalmasıdır. Biz çalışırıq ki, məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Beynəlxalq təşkilatlar bu məsələyə daha da böyük diqqət göstərirlər. Azərbaycanın haqq səsi eşidilir və beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar ədaləti əks etdirir. Ancaq bütün bunlarla yanaşı, bütün diplomatik, siyasi uğurlarla yanaşı, bu məsələ öz həllini tapmır. Ona görə biz bu vəziyyətlə barışa bilmərik. Biz bundan sonra da çalışacağıq ki, məsələni danışıqlar yolu ilə, siyasi yollarla həll edək, Azərbaycanın işğal olunmuş torpaqları işğalçı qüvvələrdən azad olunsun və bizim qaçqın-köçkün soydaşlarımız öz doğma torpaqlarına qayıtsınlar. Əlimizdən nə gəlirsə, onu edəcəyik.

Ancaq eyni zamanda hamımız bilməliyik ki, əgər düşmən qarşıda böyük gücü görərsə, onda yəqin ki, danışıqlar prosesində daha da açıq olacaq, kompromislərə daha da cəsarətlə gedəcəkdir. Bu məqsədlə Azərbaycanın hərbi potensialının gücləndirilməsi istiqamətində böyük işlər görülür. Bizim hərbi büdcəmiz 76 faiz artıbdır və bu il 300 milyon dollar təşkil edir. Hökumət qarşısında vəzifə qoyulub ki, gələn il hərbi büdcəmiz ən azı bu sürətlə artsın və beləliklə, Azərbaycanın qarşısında duran bütün məsələlər öz həllini tapsın.

Ordumuzun maddi-texniki bazası möhkəmlənməlidir. Yeni texnika, silah alınmalıdır və alınacaqdır. Əminəm ki, siyasi, dip-

lomatik, iqtisadi və hərbi imkanlardan istifadə edərək, biz istədiyimizə nail olacağıq. İstədiyimiz də beynəlxalq hüquq normalarına əsaslanır. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Ancaq öz torpağımızı da heç kimə verən deyilik. Nə qədər ki gec deyil, Ermənistan rəhbərliyi bunu anlamalıdır. Azərbaycanla rəqabət aparmaq artıq onlar üçün mümkün olmayan məsələdir. Həm iqtisadi cəhətdən, həm siyasi cəhətdən, həm Dünya Birliyinə inteqrasiya baxımından, həm də hərbi potensial baxımından bu gün Azərbaycan Ermənistandan qat-qat üstündür. Bir neçə ildən sonra bizim aramızda olan uçurum daha da dərinləşəcəkdir.

Əziz dostlar!

İki gündən sonra biz hamımız «Sərhədçi günü»nü qeyd edəcəyik. Bir daha demək istəyirəm ki, Sərhəd Qoşunlarının uğurları məni çox sevindirir. Bizim Sərhəd Qoşunlarımız maddi-texniki bazası baxımından, hazırlıq baxımından ən yüksək dünya standartlarına cavab verir. Vətənpərvərlik ruhu çox yüksəkdir. Bu da çox önəmlidir. Mən hər dəfə sərhədçilərlə görüşəndə, vəziyyətlə tanış olanda bunları görürəm. Bilin ki, mən bundan sonra da Azərbaycanın Sərhəd Qoşunlarının inkişafına öz töhfəmi verəcəyəm, bu məsələlərə daim böyük diqqətlə, qayğı ilə yanaşacağam. Biz hamımız Azərbaycanda Sərhəd Qoşunlarının daha da inkişafına çalışmalıyıq.

Sizi bu gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə Vətən uğrunda xidmətdə uğurlar arzulayıram. Sağ olun.

# DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN RƏHBƏR HEYƏTİ VƏ HƏRBİ HİSSƏ KOMANDİRLƏRİNİN İŞTİRAKI İLƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ NİTQ

*16 avqust 2005-ci il*

Mən bir daha sizi qarşıdan gələn «Sərhədçi günü» münasibətilə təbrik edirəm.

Mən öz çıxışımda qeyd etdim və bir daha demək istəyirəm ki, bu gün Azərbaycanda Sərhəd Qoşunları çox vacib vəzifələri yerinə yetirir və bunu çox uğurla edirlər. Bizim ümumi siyasətimizə uyğun şəkildə həm maddi-texniki baza möhkəmlənir, quruculuq işləri aparılır, sərhədin qorunmasında mühüm addımlar atılır, eyni zamanda sosial sahəyə diqqət göstərilir – yaşayış evlərinin tikintisi, idman qurğularının yaradılması bu məqsədlərə xidmət edir. Yəni bizim fəaliyyətimiz çoxşaxəlidir. Mən bunu böyük məmnunluq hissi ilə qeyd etməliyəm.

Sərhəd Qoşunlarının formalaşmasında ulu öndər Heydər Əliyevin çox böyük rolu olmuşdur.

Bilirsiniz ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra sərhədlərimiz çox şəffaf idi, ümumiyyətlə, sərhəd yox idi. Ona görə belə çətin şəraitdə qısa müddət ərzində Sərhəd Qoşunlarının formalaşması və sərhədlərimizin möhkəmlənməsi həm çox böyük əhəmiyyət daşıyıb, eyni zamanda çox çətin bir məsələ idi. Bu gün deyə bilmərik ki, bizim sərhədlərimiz tam şəkildə qorunur, yüz faiz qorunur. Belə deyil və bu da təbiidir. Çünki bizim Rusiya ilə sərhəd qurğularımız yox idi. Bu yaranmalıdır, infrastruktur, mühəndis işləri aparılmalıdır. Gürcüstanla da həmçinin. Bu istiqamətdə də böyük işlər görülür və görülməlidir. İranla Sovet İttifaqının sərhədi var idi, amma 1990-cı illərin əvvəllərində o sərhəd dağıdılmışdı. Faktiki olaraq, o yenidən

yaranmalıdır, mühəndis işləri aparılmalıdır. Yəni bu həm böyük vəsait tələb edir, eyni zamanda böyük peşəkarlıq tələb edir. İşə məsuliyyətlə yanaşanda, əlbəttə ki, bu məsələlər öz həllini tapır.

Azərbaycan çox səmərəli və uğurla inkişaf edir. Bizim iqtisadi potensialımız güclənir və yaxın gələcəkdə maliyyə problemlərimiz olmayacaqdır. Həm insanlarımızın həyat səviyyəsinin yaxşılaşması üçün addımlar atılacaq, əmək haqları, pensiyalar, digər sosial müavinətlər artırılır və artırılacaq, həm də yeni infrastrukturun yaranması və ilk növbədə, bizim təhlükəsizliyimizin təmin olunması üçün addımlar atılacaqdır.

Biz çox çətin, o qədər də sabit olmayan bölgədə yaşayırıq. Bu gün burada xəritədə göstərildi ki, Azərbaycandan o qədər də uzaq olmayan yerlərdə çox dəhşətli hadisələr baş verir. Demək olar ki, hər gün terror aktları, digər xoşagəlməz hadisələr, zorakılıq aktları baş verir. Azərbaycan bu bölgədə sabitlik məkanıdır, təhlükəsizlik adasıdır. Biz bunu qorumalıyıq. Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər və edəcək də. Çünki Heydər Əliyevin gördüyü işlər nəticəsində, həyata keçirdiyi tədbirlər nəticəsində o qədər möhkəm zəmin yaranıb ki, indi bu təməl üzərində biz möhkəm iqtisadiyyat qururuq. Ancaq əgər bizim sərhədlərimiz lazımi səviyyədə qorunmasa, əgər Azərbaycanın gələcəyini, müstəqilliyini istəməyən qüvvələrin qarşısında möhkəm sədd qoyulmasa, bizim uğurlarımız şübhə altına düşə bilər. Ona görə ölkədə təhlükəsizliyin təmin olunması, sabitliyin saxlanması, əmin-amanlığın, asayişin davam etdirilməsi bizim inkişafımız üçün başlıca şərtdir. Bu işdə Sərhəd Qoşunlarının üzərinə çox böyük vəzifələr düşür.

Azərbaycan Dünya Birliyinə sürətlə inteqrasiya edən bir ölkədir. Bu bizim siyasətimizdir və Avropa məkanına inteqrasiyamız bizim xarici siyasətimizin vacib istiqamətlərindən biridir. Belə olan halda, əlbəttə, sərhəddə insanların gəliş-gedişinə maneçilik törətmək, əlavə yoxlamalar aparmaq yolverilməzdir. Avropada bu məsələlərə, belə işlərə o qədər də rast gəlinmir. Amma eyni zamanda, biz öz müstəqilliyimizi, təhlükəsizliyimizi qorumalıyıq.

Azərbaycan həm iqtisadi cəhətdən, həm də coğrafi-siyasi cəhətdən çox cəlbedici ölkədir. Təsadüfi deyil ki, bu bölgədə yerləşən ölkələr arasında indi ən böyük maraq Azərbaycana göstərilir. İlk növbədə, bizim coğrafi vəziyyətimiz, çox ardıcıl, müstəqil siyasətimiz, iqtisadi inkişafımız, təbii ehtiyatlarımız, Azərbaycan ərazisindən keçən nəqliyyat və enerji dəhlizləri – bütün bunlar dünya üçün böyük əhəmiyyət kəsb edən məsələlərdir. Azərbaycan antiterror koalisiyasının çox fəal üzvüdür və bizim fəaliyyətimizdən də çox şey asılıdır. Biz dəfələrlə öz hərəkətlərimizlə, görülən tədbirlərlə antiterror koalisiyasının ümumi işinə böyük töhfələr vermişik. Ona görə təbiidir ki, dünyanın aparıcı ölkələri, ümumiyyətlə, Dünya Birliyi tərəfindən Azərbaycana maraq artır. Bunun həm müsbət tərəfləri var, eyni zamanda çətinlik törədən tərəfləri var. Müsbət tərəflər hamıya aydındır. Çətinlik yaradan tərəflər ondadır ki, xoş niyyətlə gələnlərlə yanaşı, Azərbaycana mənfi niyyətlə gələnlər də var və yəqin ki, onların sayı azalmayacaqdır. Çünki ölkəmizin önəmi ildən-ilə artacaqdır.

Bu gün bizim ölkədə dünyanın ən böyük enerji layihəsi – Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri layihəsi həyata keçirilir. Bu kəmər ilk növbədə, bizə lazımdır və Azərbaycanın maraqlarına xidmət edir, insanlarımızın rifah halının yaxşılaşmasına xidmət edəcəkdir. Bu kəmər hələ işə düşməyib, ancaq artıq indi dünya iqtisadiyyatında böyük rol oynayır. Ona görə də bu çox ciddi amildir.

Əlbəttə, Sərhəd Qoşunlarının təkmilləşməsində və gələcəkdə daha yüksək səviyyəyə çatmasında biz hamımız maraqlıyıq. Dövlət başçısı, Ali Baş Komandan kimi, mən bu məsələyə çox böyük diqqət göstərirəm. Mən Elçin Quliyevlə daim təmasdayam, həftədə bir neçə dəfə əlaqə saxlayırıq və bütün məsələlər həll olunur. Mən başqa sahələrə də diqqət göstərirəm. Amma məni sevindirən odur ki, bu sahədə – yeni sərhəd dəstələrinin yaranmasında, zastavaların tikilməsində, infrastrukturun, mühəndis işlərinin, texnikanın təmirində işlər göz qabağındadır.

Mən yaxşı bilirəm ki, bir neçə il bundan əvvəl prezident Heydər Əliyev tərəfindən qəbul edilmiş qərara görə, Sərhəd Qoşunlarına hərbi texnika–gəmilər, vertolyotlar, digər texnika verilmişdir. Bunu hamımız yaxşı bilirik ki, əvvəllər texnika hansı vəziyyətdə idi. Demək olar ki, yararsız, faktiki olaraq, çox pis vəziyyətdə idi və ümumiyyətlə, köhnəlmişdi.

Amma siz qısa müddət ərzində bunu təmir elətdirdiniz və bu gün ən yüksək standartlara cavab verir. Yəni bu onu göstərir ki, burada iş gedir. Siz təşəbbüs göstərirsiniz, məsələ qaldırırsınız. Bir var ki, kimsə hansısa sahəyə cavabdehdir, sadəcə olaraq, oturub göstəriş gözləyir. Yaxud da gözləyir, nə vaxt bundan soruşacaqlar ki, sən nə ilə məşğulsan. Amma bir də var ki, özün təşəbbüs göstərəsən, məsələ qaldırasan. Qaldırılan hər bir məsələyə operativ qaydada baxılır və qərar qəbul olunur. Ona görə sizin fəallığınız, təşəbbüskarlığınız, Dövlət Sərhəd Xidməti rəisinin fəaliyyəti məni çox sevindirir. Mən bunu tərif üçün demirəm, ona görə demirəm ki, bayram ərəfəsindəsiniz. Sadəcə olaraq, bu həqiqətdir və həqiqət də deyilməlidir. Həm mənfi, həm müsbət cəhətlər deyilməlidir. Harada problem varsa, o araşdırılmalı və qərar qəbul olunmalıdır.

Əlbəttə, gələcəkdə daha da böyük işlər görüləcəkdir. Yenə də deyirəm, bizim maliyyə imkanımız artır, gələn ilin büdcəsi təxminən 1 milyard dollar artmalıdır. Bunun əsas mənbəyi Azərbaycanda gedən iqtisadi inkişaf, maliyyə nizam-intizamının möhkəmlənməsi və yeni iş yerlərinin, yeni müəssisələrin işə düşməsidir. Təbii ki, hər bir yeni müəssisə fəaliyyət göstərərək vergilər ödəyir və ümumi büdcəmizə vəsait daxil olur. Nəzərə alsaq ki, gələn ildən başlayaraq Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəcək və bundan da, Azərbaycan xəzinəsinə yüz milyonlarla dollar əlavə vəsait daxil olacaqdır.

Onu demək istəyirəm ki, maliyyə cəhətdən bizim problemimiz olmayacaqdır. Sadəcə olaraq, 2010-cu ilə qədər qəbul edilmiş proqram çərçivəsində nəzərdə tutulan bütün məsələlər öz həllini tapmalıdır. Əgər imkanımız olarsa, bəlkə də proqramı 2010-cu ilə qədər yox, daha da tez icra etdik. Elə etməliyik ki,

bizim sərhədimiz yüz faiz qorunsun, yüz faiz. Əlbəttə, çətinliklər var. Bizim təbiətimiz də elədir ki, sərhədlərin böyük hissəsi hündür dağlardan keçir, meşələrdən keçir və onları mühafizə etmək çox çətindir, çox böyük vəsait tələb edir. Eyni zamanda, gərək texniki imkanlar da olsun. Ancaq siz bilin ki, vəsait baxımından problem olmayacaqdır. Ona görə işlərinizi və gələcək planlarınızı elə qurun ki, qısa müddət ərzində bizim sərhədlərimiz tam şəkildə qorunsun.

Bunu etmək çətindir. Mən bu gün dedim ki, bizim Rusiya və Gürcüstanla bütövlükdə sərhədimizin uzunluğu təxminən 1000 kilometrə qədərdir. Bunun hər bir addımında sərhəd infrastrukturu yaratmaq çətindir. Bu həm zaman, həm də vəsait tələb edir. Amma buna biz çalışmalıyıq.

Sərhədə nəzarət güclənibdir. Mənə Elçin Quliyev məruzə edib ki, yeni sistemlər, yəni kompüter sistemləri tətbiq olunur. Biz bilməliyik və bilirik ki, Azərbaycana kim nə vaxt daxil olur, hansı müddətə daxil olur. Əlbəttə, bu yeni sistem sizə əlavə imkan yaradacaqdır.

Mən görürəm ki, yeni texnologiyaların tətbiq olunmasında siz çox fəalsınız. Bu da məni çox sevindirir. Çünki indi Azərbaycan Dünya Birliyinə inteqrasiya edir. Biz ən yüksək texnologiyaları mənimsəməli və tətbiq etməliyik. Dünyanın, dünya şirkətlərinin elektron texnologiyaları sahəsində böyük uğurları var. Ona görə gərək Azərbaycana ən müasir texnika və avadanlıq gətirilsin.

Yenə də deyirəm, Azərbaycana hər il çoxlu, yüz minlərlə insan, müxtəlif ölkələrin nümayəndələri gəlir. Onların tam əksəriyyəti xoş niyyətlə gəlir. Ya iş görmək, ya bizneslə məşğul olmaq üçün, turist kimi  gəlirlər, xarici şirkətlərin işçiləri gəlir. Burada, Azərbaycanda minlərlə xarici vətəndaş yaşayır.

Bilirsiniz ki, Azərbaycanda hökm sürən ab-hava, dözümlülük, tolerantlıq ölkəmizi xarici vətəndaşların yaşaması üçün çox gözəl bir diyara çeviribdir. Bəziləri, müqavilə ilə gələn xaricilər müqavilə vaxtı bitəndən sonra getmək istəmirlər. Bu çox müsbət haldır. Yəni biz elə ölkə yaratmalıyıq və yaradırıq ki, burada

ilk növbədə, Azərbaycan vətəndaşları rahat yaşasınlar və hər bir qonaq da özünü doğma evindəki kimi hiss etsin. Amma onu da bilirik ki, bəd niyyətlərlə gələnlər də var. Casusluq edənlər, başqa niyyətlə gələnlər var. Azərbaycanı istəməyən, bizim müstəqilliyimizi qəbul etməyən, bizim xoşbəxtliyimizi, ölkəmizin xoşbəxt gələcəyini istəməyən qüvvələr də var. İlk növbədə, bunlar dünyada çox böyük imkanlara malik olan erməni lobbisi, dünya ermənilərididir ki, indi Azərbaycana qarşı yeni metodlardan istifadə etmək istəyirlər.

Baxın, nə qədər çalışdılar ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri baş tutmasın. Nə qədər problem yaratmağa çalışdılar. Beynəlxalq maliyyə qurumlarına, Amerika Konqresinə nə qədər məktublar yazdılar. Amerika Konqresində bəzi ermənipərəst konqresmenlər də Amerika hökumətinə çox çirkin yazılar, məktublar yazdılar ki, bu kəmər çəkilməməlidir. Əgər çəkilsə də, yalnız Ermənistandan keçməlidir. Nə üçün Ermənistandan keçməlidir? Ermənistan bir ölkə kimi nədir ki, o kəmər oradan keçməlidir? Ümumiyyətlə, Ermənistanın sərhədlərini Rusiya sərhədçiləri qoruyur. Hansı müstəqillikdən söhbət gedə bilər? Əgər sənin öz doğma torpağının hüdudlarında başqa ölkənin vətəndaşı, hərbçisi dayanırsa, hansı müstəqillikdən söhbət gedə bilər? Müstəqillik sadəcə olaraq atribut – bayraq, himn, yaxud da başqa şey deyildir. Müstəqillik o deməkdir ki, sən öz xalqının maraqlarına cavab verən müstəqil siyasət aparırsan. Heç kimdən çəkinmədən, heç kimə baxmadan, öz müstəqilliyinin möhkəmlənməsi üçün siyasət aparırsan. Bu, Azərbaycanda var və biz heç kimə imkan verməri k ki, bizim müstəqil siyasətimizə qarışsın. Bizim hüdudlarımız da, torpağımız da Azərbaycan vətəndaşları tərəfindən qorunur və qorunacaqdır.

Biz əməkdaşlığa, dostluğa açığıq. Biz çox mehriban millətik. Ancaq bizim öz siyasətimiz var. Bu, müstəqil siyasətdir və ən başlıcası odur ki, bu siyasət xalqın iradəsinə əsaslanır.

Yenə də bu məsələyə qayıtmaq istəyirəm. Dünyada fəaliyyət göstərən erməni lobbisi indi yeni bir mövzu ortaya atıbdır. Çünki Azərbaycanın siyasi mövqeləri möhkəmlənir, beynəlxalq təş-

kilatların Ermənistan–Azərbaycan münaqişəsinə dair qəbul etdiyi qərarlar ədalətlidir və bizim mövqeyimizi əks etdirir. Avropa Şurasının qətnaməsində göstərilir ki, Ermənistan təcavüzkar dövlətdir. Qətnamədə yazılıb ki, Avropa Şurasının bir ölkəsi Avropa Şurasının digər ölkəsinə qarşı təcavüz edibdir, təcavüzkar siyasət aparıbdır. Etnik təmizləmə siyasəti aparıb və bu siyasət nəticəsində 1 milyondan artıq qaçqın və köçkün yaranıbdır. Bu, Avropa Şurasının qəbul etdiyi qərardır. Başqa qərarlar da var.

İşğal olunmuş torpaqlarda qeyri-qanuni məskunlaşma məsələsi bizim təşəbbüsümüzlə Birləşmiş Millətlər Təşkilatında müzakirə edildi. Baxmayaraq ki, Ermənistan tərəfi çalışırdı bunu pozsun. ATƏT-in faktaraşdırıcı missiyası işğal olunmuş torpaqlara gəlmişdi və orada qeyri-qanuni məskunlaşmanın şahidi olmuşdu və öz məruzəsində bunu əks etdirmişdi. Digər beynəlxalq təşkilatlar bu məsələyə daha da böyük diqqətlə yanaşırlar. Avropa İttifaqı bu məsələyə dair xüsusi elçi təyin edibdir. Təmasda olduğum bütün dövlət başçıları, etdiyim bütün səfərlər çərçivəsində tərəf-müqabillərim Ermənistan–Azərbaycan münaqişəsinə dair öz mövqelərini bildirmişlər. Bu ya şifahi qaydada, yaxud da imzalanmış sənədlərdə öz əksini tapmışdır. Bütün sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsi öz əksini tapır. Bu, məsələnin siyasi tərəfidir.

İqtisadi tərəfə gəldikdə, indi Ermənistan, ümumiyyətlə, bizə rəqib deyildir. Bizim hərbi büdcəmiz 300 milyondur. Mən hökumət qarşısında vəzifə qoymuşam və buna nail olacağıq ki, yaxın zamanlarda bizim hərbi büdcəmiz Ermənistanın ümumi büdcəsinə bərabər olmalıdır və bunu biz edəcəyik. Əgər mən bunu vəzifə kimi qoymuşamsa, buna nail olacağıq. Ermənistan gəlsin, bizimlə rəqabət aparsın.

Hüquqi tərəfə gəldikdə, artıq onu deməyə də ehtiyac yoxdur. Bunu hamı bilir ki, Ermənistan tərəfindən beynəlxalq hüquq normaları pozulubdur. Mən vaxtınızı çox almaq istəmirəm. Onu demək istəyirəm ki, bütün istiqamətlərdə Ermənistan uduzur. Nədir onların yeni hoqqabazlığı? Belə bir rəy yaratmaq istəyir-

lər ki, guya Azərbaycanda demokratiya yoxdur, Azərbaycan demokratik ölkə deyil, Azərbaycanda insan haqları pozulur. Nə bilim, Azərbaycanda avtoritar hakimiyyət mövcuddur və belə olan təqdirdə Dağlıq Qarabağda yaşayan ermənilər – guya orada demokratiya çox inkişaf edibdir – Azərbaycan kimi totalitar ölkədə yaşaya bilməzlər. Yəni bəzi xarici dairələr tərəfindən Azərbaycana qarşı iradlar buna əsaslanır. Təkcə buna deyil, başqa amillər də var. Mən bu barədə artıq dedim – ölkəmizin inkişafı, ölkəmizin gələcəyi və əhəmiyyəti. Ancaq bu amil də çox güclüdür.

Ona görə erməni lobbisi çalışır ki, Azərbaycanı ləkələsin, qeyri-demokratik ölkə kimi təqdim etsin. Biz də buna öz cavabımızı verməliyik. Bizim cavabımız bizim siyasətimizdir. Bizim siyasətimiz xalq tərəfindən bəyənilir, dəstəklənir və mən bu istəyə, dəstəyə əsaslanaraq ölkəni idarə edirəm. Mən bu etimadı doğrultmalıyam. Biz hamımız doğrultmalıyıq. Hamı – hər bir vətəndaş, hər bir vəzifəli şəxs hərə öz yerində öz vəzifə borcunu şərəflə yerinə yetirməlidir.

Azərbaycanı istəməyən qüvvələr var və onların çox böyük maliyyə imkanları, çox böyük əlaqələri var. Mən qeyd etdim ki, bəzi siyasətçilər – əgər onları siyasətçi adlandırmaq mümkündürsə – Bakı–Tbilisi–Ceyhan neft kəmərinin pozulmasına çalışırdılar. Baxın, dünyada nə qədər kəmər tikilir. Qazaxıstandan Rusiyaya kəmər tikildi. Heç kim demədi ki, bu, ekologiyaya mənfi təsir göstərəcəkdir. O kəmər bu kəmərdən nə ilə fərqlənir? Rusiyadan Türkiyəyə Qara dənizin dibi ilə qaz kəməri, «Mavi axın» kəməri tikildi. Heç kim demədi ki, bu, ekologiyaya təsir göstərə bilər. Halbuki, əgər orada, dənizin dibində hansısa partlayış, yaxud da problem yaranarsa, görün, bu nə qədər böyük ekoloji fəlakət olacaqdır. Yaxşı, bizim kəmər nə üçün burada təhlükə yarada bilər?

Mən bu məsələlərlə on il ərzində bilavasitə məşğul olan adam kimi, bütün bunları yaxşı bilirəm. Bilirəm, nə qədər böyük səylər göstərdilər ki, bu baş tutmasın, amma alınmadı. Heydər Əliyevin qətiyyəti, onun cəsarəti, müdrikliyi, onun siyasi təcrübəsi və dünyadakı siyasi əlaqələri imkan vermədi ki, ermə-

nilər öz çirkin arzularına çatsınlar. İndi Bakı–Tbilisi–Ceyhan kəməri artıq reallıqdır. Bunu istəməyən də bilir, buna tərəfdar olan da sevinir.

Qaz kəməri də çəkiləcəkdir. Artıq işlər gedir. Bakı–Ərzurum qaz kəməri də tikilir. İndi biz yeni layihə – Qars–Axalkalaki–Tbilisi–Bakı dəmir yolu layihəsi üzərində işləyirik. Bu da çox önəmlidir. Həm iqtisadi cəhətdən, həm siyasi cəhətdən, həm də Ermənistan–Azərbaycan münaqişəsinin həlli baxımından. Bu dəmir yolu Azərbaycanı Türkiyə ilə birləşdirməlidir. Ondan sonra Türkiyəni Azərbaycan vasitəsilə Orta Asiya dövlətləri ilə birləşdirməlidir. Biz bunun üzərində işləyirik. Mən bu məsələni həm Türkiyə, həm də Gürcüstan rəhbərliyi ilə mütəmadi qaydada müzakirə edirəm. İndi texniki-iqtisadi əsaslandırma hazırlanır. Azərbaycan açıq bəyan edib ki, bu texniki-iqtisadi əsaslandırma hazır olan kimi, biz öz tərəfimizdən bu layihənin gerçəkləşməsində iştirak edəcəyik, maliyyə öhdəliyi də götürməyə hazırıq.

Ancaq görün, nələr baş verir. Yenə ermənipərəst qüvvələr müxtəlif ölkələrdə bəyan edirlər ki, bu dəmir yolu layihəsi həyata keçməməlidir. Nə üçün? Axı bu, regional inkişaf əlamətidir. Regional əməkdaşlıq çərçivəsində həyata keçirilən bir layihədir.

Gürcüstan, Türkiyə, Azərbaycan enerji sektorunda artıq regional əməkdaşlıq edirlər. İndi bu dəhlizə Gürcüstan, Türkiyə, Azərbaycanla yanaşı, Orta Asiya dövlətləri də qoşulacaqdır. Bu kimə bir problem yaradar? Kimə çətinlik yaradar? Əksinə, bütün ölkələr fayda götürəcəkdir. Burada kim fayda götürməyəcək, kim uduzacaq? Ermənistan. Çünki əgər biz buna nail olsaq, ermənilər tamamilə təcrid olunmuş vəziyyətdə qalacaqlar və bu onların gələcəyinə, o qədər də aydın olmayan gələcəyinə əlavə problem yaradacaqdır.

Baxın, bir balaca Ermənistana görə – hansı ki, dünya üçün heç bir əhəmiyyət kəsb etmir, oradan nə nəqliyyat dəhlizi keçir, nə enerji dəhlizi keçir, onun nə təbii ehtiyatları var, nə coğrafi-strateji əhəmiyyəti var – bu böyüklükdə layihəni pozmaq istə-

yirlər. Bu nəyi göstərir? Bir daha göstərir ki, bu, erməni lobbisinin fəaliyyətidir. Yoxsa, Ermənistan nə ölkədir ki, burada o qədər böyük təsirə malik olsun? Bu, lobbi məsələsidir. Bizə qarşı duran budur. Bizimlə müharibə aparan onlardır – həm onların pulları, həm siyasi dayaqları, həm də, necə deyərlər, onların təsiri altında olan bəzi riyakar siyasətçilər.

Biz buna hazır olmalıyıq və hazırıq. Biz öz siyasətimizi inamla aparırıq. Azərbaycanda bütün sahələrdə böyük quruculuq işləri gedir və bundan sonra da gedəcəkdir. Belə olan halda, bizim daxili təhlükəsizliyimiz çox önəmli məsələyə çevrilir. Bu təhlükəsizliyin qorunmasında Sərhəd Qoşunlarının böyük rolu var, məsuliyyəti var.

Bir daha demək istəyirəm ki, mən sizin fəaliyyətinizdən razıyam. İstəyirəm ki, işlər daha da sürətlə getsin və mən öz tərəfimdən bütün lazımi qərarları verəcək, tədbirlər görəcəyəm.

Sizi qarşıdan gələn bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB JAK ŞİRAKA**

Hörmətli cənab Prezident!

Venesuelada baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı həmvətənlərinizin həlak olması xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və bütün Fransa xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 avqust 2005-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ RAYONUNA SƏFƏRİ

*18 avqust 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Qəbələ rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı rayon mərkəzində yol boyu on minlərlə insan böyük hörmət və ehtiramla qarşıladı. Onların əllərində ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin portretləri, ulu öndərin müdrik kəlamları yazılmış transparantlar və ölkəmizin rəhbərini salamlayan şüarlar var idi.*

*Prezident İlham Əliyev əvvəlcə Qəbələnin mərkəzindəki Heydər bağına gəldi. Buraya toplaşmış minlərlə sakin dövlətimizin başçısını və xanımını alqışlarla, gül-çiçəklə qarşıladı.*

*Azərbaycan prezidenti və ailə üzvləri ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoydular. Sonra Heydər bağında Qəbələ rayonunun sakinləri ilə görüş keçirildi.*

## QƏBƏLƏ ŞƏHƏRİNDƏKİ HEYDƏR BAĞINDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*18 avqust 2005-ci il*

Əziz qəbələlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Mən Qəbələdə son dəfə təxminən iki il bundan əvvəl olmuşdum. Prezident seçkiləri ərəfəsində burada müxtəlif görüşlər keçirmişdim. Çox şadam ki, bu gün yenidən sizinlə birlikdəyəm, Qəbələdəyəm. Qəbələni belə inkişaf etmiş, belə abad şəhər kimi görməyimdən çox məmnunam.

Qəbələ Azərbaycanın qədim torpağıdır, tarixi diyardır. Hələ eramızdan əvvəl müxtəlif yazılı mənbələrdə Qəbələnin adı çəkilir. Dünya tarixində Qəbələnin özünəməxsus yeri vardır. Bu bizim böyük sərvətimizdir. Biz öz tarixi irsimizə həmişə böyük hörmətlə və diqqətlə yanaşmalıyıq. Bu baxımdan, Azərbaycanın tarixində, Azərbaycanın keçmişində və bu günündə Qəbələnin rolu çox mühüm və önəmlidir.

Mən çox şadam ki, Azərbaycanın bu dilbər güşəsi Qəbələ çox sürətlə, yüksək templə inkişaf edir. İl yarım bundan əvvəl qəbul etdiyimiz Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı proqramı çərçivəsində burada çox böyük işlər görülmüşdür. Yeni müəssisələr tikilib istismara verilibdir. Şəhər abadlaşır, yeni yollar salınır, müxtəlif infrastruktur layihələri həyata keçirilir. Su təchizatı məsələləri öz həllini tapır. Bir sözlə, həyatımızın hər bir sahəsində Azərbaycanın bütün başqa rayonlarında olduğu kimi, Qəbələdə də inkişaf göz qabağındadır. Bəlkə də daha da geniş vüsət alıb, daha da sürətlə inkişaf edir.

Bütün bunların təməlində Azərbaycan xalqının 1993-cü ildə etdiyi tarixi seçim dayanır. 1993-cü ilə qədər Azərbaycanda gedən proseslər ölkəmizi çox çətin vəziyyətə salmışdı. İqtisadi tənəzzül, ictimai asayişin pozulması, qeyri-sabit vəziyyət Azərbaycanı faktiki olaraq parçalanmaq ərəfəsinə gətirib çıxarmışdı. 1993-cü ildən başlayaraq ümummilli liderimiz Heydər Əliyevin fəaliyyəti nəticəsində, xalqın fəaliyyəti nəticəsində ölkə çox şərəfli yol keçmişdir. Əgər bu gün biz Azərbaycanı keçmiş Sovet İttifaqının başqa müttəfiq respublikaları ilə müqayisə etsək görərik ki, Azərbaycan ən yüksək templə inkişaf edir. Statistikaya baxmaq kifayətdir. 2005-ci ilin ilk 6 ayında Azərbaycan iqtisadiyyatı təxminən 17 faiz artmışdır, sənaye potensialı 20 faiz artmışdır. Bütün bu uğurların, bütün bu nailiyyətlərin – Azərbaycanı çətin vəziyyətdən çıxarmaq, ölkədə sabitlik yaratmaq, ictimai asayişi təmin etmək və iqtisadi inkişafa nail olmaq – təməli məhz o illərdə qoyulmuşdur.

Bu gün ölkəmiz çox sürətlə inkişaf edir. Büdcəmiz ildən-ilə artır, bu ilin büdcəsi 2 milyard 200 milyon dollar təşkil edir. Azərbaycanın büdcəsi ilk dəfə bu səviyyəyə çatıbdır.

Gələn ilin büdcəsinə dair bütün tapşırıqlar mənim tərəfimdən verilibdir və büdcəmiz ən azı 3 milyard 200 milyon dollar təşkil edəcəkdir. Baxın, bir il ərzində Azərbaycanın büdcəsi bir milyard dollar artacaqdır. Bu vəsaitlər haraya xərclənəcəkdir? İlk növbədə, Azərbaycan xalqının maddi vəziyyətinin yaxşılaşmasına. Bu istiqamətdə iş görülür və son il yarım ərzində minimum əməkhaqqı, demək olar ki, 3 dəfə artmışdır. Pensiyalar artmış, digər sosial müavinətlər artmışdır. Düzdür, bunların səviyyəsi bizi qane edə bilməz. Çünki mən istəyirəm ki, Azərbaycanın hər bir vətəndaşı öz ehtiyacını, öz tələbatını ən yüksək səviyyədə ödəyə bilsin. Biz buna nail olacağıq. Amma bu dinamika, bu meyl onu göstərir ki, biz düz yoldayıq. Biz Azərbaycanın inkişafı üçün müxtəlif layihələr həyata keçirmək istəyirik. Azərbaycanda elektrik enerjisi ilə təminatla bağlı mövcud olan problemlər gələn ilin sonuna qədər aradan qaldırılmalıdır. Bu məq-

sədlə Azərbaycanın müxtəlif yerlərində kiçikhəcmli elektrik stansiyaları quraşdırılacaqdır.

Ölkəmizin digər problemləri həll olunmalıdır. Su təchizatı, istilik sisteminin bərpası, yolların salınması, qaz təchizatının yaxşılaşdırılması – bütün bunlar bizim proqramlarımızda vardır. Biz öz fəaliyyətimizi düşünülmüş proqramlar çərçivəsində həyata keçiririk. Bayaq qeyd etdiyim regionların sosial-iqtisadi inkişafı proqramı məhz bu məqsədlə qəbul olunmuşdur. Yəni biz onu, sadəcə olaraq, şüar naminə, yaxud da populist bir sənəd kimi qəbul etməmişik. Proqramda nəzərdə tutulan bütün vəzifələr öz həllini tapır. O cümlədən, beş il ərzində 600 min yeni iş yeri yaradılması da uğurla icra olunur. Təxminən iki il ərzində, ondan da az bir vaxtda Azərbaycanda 260 min yeni iş yeri açılmışdır ki, onların da yarıdan çoxu daimi iş yeridir. Bu proses Qəbələdə də özünü büruzə verir. Qəbələdə yeni iş yerlərinin açılması prosesi sürətlə gedir və siz də bunun canlı şahidisiniz.

Bu gün bu görüşdən sonra yeni tikilən müxtəlif müəssisələrə baş çəkəcək, vəziyyətlə tanış olacağam. Əgər Qəbələdə bu müddət ərzində bu qədər yeni iş yerləri, bu qədər yeni müəssisə yaranırsa, bu o deməkdir ki, gələcək illərdə bu proses daha da sürətlə gedəcəkdir. Çünki biz indi böyük iqtisadi inkişafımızın başlanğıcındayıq. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda həyata keçirilən uğurlu neft strategiyamız gələn ildən etibarən Azərbaycana xüsusilə böyük fayda verməyə başlayacaqdır. Çünki Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri məhz gələn ilin əvvəlindən işə düşəcək və onun fəaliyyəti nəticəsində Azərbaycanın xəzinəsinə milyardlarla dollar vəsait daxil olacaqdır. Bütün bu vəsait Azərbaycanın inkişafına, Azərbaycan xalqının daha da yaxşı yaşamasına şərait yaradacaqdır. Biz qarşımıza məqsəd qoymuşuq ki, Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirək və buna nail olacağıq.

Biz iqtisadi siyasətimizi bazar münasibətləri əsasında həyata keçiririk. Bu da zəmanənin tələbidir. Bazar iqtisadiyyatı prinsipləri Azərbaycanda bütün yerlərdə tətbiq olunur. Özəl sektorun inkişafı iqtisadi artımı təmin edir. Sahibkarlığa yardım məq-

sədi ilə büdcədən maliyyə vəsaiti ayrılır və gələn il sahibkarlara kredit şəklində veriləcək məbləğ 400 milyard manat təşkil edəcəkdir.

Hər bir layihə, hər bir yeni yaradılan müəssisə Azərbaycanın iqtisadiyyatının möhkəmlənməsinə xidmət edir. Bu bölgədə turizmin inkişafı çox böyük perspektivə malikdir. Mən məlumat almışam ki, burada turizm infrastrukturunun yaranması sürətlə gedir və bu proses daha da genişlənməlidir. Bu gözəl, səfalı yerlər, bu gözəl təbiət, əlbəttə, təkcə Azərbaycandan gələn turistlər üçün yox, dünya turistləri üçün də çox cəlbedicidir. Eyni zamanda, nəzərə alsaq ki, Qəbələ çox tarixi bir yerdir, onda burada turizm infrastrukturunun inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir. Bunu etmək üçün, ilk növbədə, yollar çəkilməlidir, elektrik enerjisi, qaz, su təchizatı məsələləri həll olunmalıdır və digər infrastruktur layihələri həyata keçirilməlidir. Əlbəttə ki, sahibkarlar onlara yaradılmış imkanlardan istifadə edib səmərəli işləməlidirlər.

Kənd təsərrüfatının inkişafına böyük diqqət göstəririk. Azərbaycanın sənaye potensialı artır, neft siyasətimiz, strategiyamız uğurla icra edilir. İndi biz diqqəti qeyri-neft sektoruna, ilk növbədə, kənd təsərrüfatının inkişafına yönəltməliyik. Bu məqsədlə yenə də əməli addımlar atılıbdır. «Aqrolizinq» Səhmdar Cəmiyyətinin yaranması imkan verəcək ki, Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olan fermerlərin heç bir problemi olmasın. Yeni texnika alınacaq, kəndlilərə icarəyə veriləcək, gübrələr də alınıb veriləcək və biz kənd təsərrüfatının inkişafına nail olacağıq.

Demək istəyirəm ki, bütün istiqamətlərdə atdığımız addımlar artıq öz bəhrəsini verir. Biz yeni sosial-iqtisadi inkişaf proqramımızı il yarım bundan əvvəl bəyan etmişik. Bu il yarım ərzində uğurlar var. Problemlər də var, biz bunları bilirik və bütün səylərimizi problemlərin həllinə yönəltmişik. İşsizliyin aradan qaldırılması, yoxsulluğun azaldılması və aradan qaldırılması bizim qarşımızda duran ən mühüm problemlərdir. Biz bunların həllinə nail olacağıq. Azərbaycan xalqı bizim siyasətimizi dəs-

təkləyir. Biz bu dəstəyə arxalanaraq siyasi və iqtisadi islahatlarımızı daha da inamla və cəsarətlə aparacağıq.

Azərbaycanın hərtərəfli inkişafı üçün, əlbəttə ki, ölkədə gedən siyasi proseslər də çox böyük əhəmiyyət kəsb edir. Son müddət ərzində Azərbaycanda demokratiyanın inkişafı istiqamətində mühüm addımlar atılmışdır və hüquqi dövlət qurulması prosesi uğurla davam etdirilir.

Şübhəsiz ki, noyabr ayında keçiriləcək parlament seçkilərinin də böyük əhəmiyyəti vardır. Mən şübhə etmirəm ki, 2003-cü ildəki prezident seçkilərində olduğu kimi, bu dəfə də Azərbaycan xalqının iradəsi seçkilərin nəticələrində öz əksini tapacaqdır. Seçkilər ədalətli keçiriləcək, şəffaf keçiriləcək, bütün namizədlərə eyni şərait təmin olunacaq və Azərbaycan xalqı öz iradəsini ortaya qoyacaq, ən layiqli namizədlərə səs verəcəkdir. Bu seçkilərin Azərbaycanın gələcək inkişafında böyük əhəmiyyəti var. Biz bir tərəfdən, güclü iqtisadi baza yaradırıq, digər tərəfdən, Azərbaycan daha müasir ölkəyə çevrilməli, Dünya Birliyinə daha sürətlə inteqrasiya etməlidir. Bunu etmək üçün Azərbaycanda hüquqi dövlət yaranmalıdır. Bu sahədə böyük işlər görülüb və bu, gələcəkdə də bizim siyasətimizdə mühüm yer tutacaqdır.

Azərbaycanda parlament seçkiləri, sözün əsl mənasında, tam şəffaf və ədalətli keçiriləcəkdir.

Əziz dostlar, əziz qəbələlilər!

Mən bir daha demək istəyirəm ki, burada bu inkişafı, abadlıq-quruculuq işlərini görəndə çox sevinirəm. Burada yeni müəssisələr yaradılıb, yollar salınıbdır. Eyni zamanda görürəm ki, şəhər təsərrüfatına böyük diqqətlə yanaşılır, şəhər çox təmizdir, abaddır, binalar rənglənib, parklar salınıb, yol boyunca işıq dirəkləri qoyulubdur.

Bilirsiniz ki, mən Qəbələdə çox olmuşam, keçmişdə də olmuşam və bu fərqi, bəlkə də, sizdən daha aydın görürəm. Siz burada yaşayırsınız, yəqin ki, bu dəyişikliklərə artıq öyrəşmisiniz. Mən isə buraya vaxtaşırı gələn insan kimi, bu dəyişiklikləri çox aydın şəkildə görürəm. Yerli icra orqanlarının fəaliyyətini

müsbət qiymətləndirmək istəyirəm. Eyni zamanda, onu da bilirsiniz ki, sizi Milli Məclisdə təmsil edən deputat da bu işdə çox fəal iştirak edir və öz töhfəsini verir.

Mən istəyirəm ki, Azərbaycanın bütün bölgələrində belə inkişaf, belə quruculuq işləri olsun. Əgər bu varsa, deməli, insanların əhval-ruhiyyəsi də yaxşıdır. Əgər bu varsa, deməli, vəzifəli şəxslərlə xalq arasında inam, qarşılıqlı etimad, qarşılıqlı hörmət daha da güclənir. Çünki biz xalq üçün yaşayırıq və fəaliyyət göstəririk. Prezident kimi, mən öz vəzifəmi bunda görürəm. Xalq tərəfindən 5 il müddətinə seçilmiş vəzifəli şəxs kimi, mən bu müddət ərzində əlimdən gələni etməliyəm ki, xalqa ləyaqətlə xidmət edim, nəticələr olsun. Bu müddət ərzində görülmüş tədbirlər nəticəsində Azərbaycan daha da möhkəmlənsin, daha da inkişaf etsin, daha da güclənsin. Dünyadakı, bölgədəki mövqelərini möhkəmləndirsin və Dünya Birliyində daha da möhkəm yer tutsun. Azərbaycan xalqı buna layiqdir, buna qadirdir və ildən-ilə daha da yaxşı yaşamalıdır.

Mən bütün bölgələri gəzirəm, vəziyyətlə mütəmadi qaydada tanış oluram. Əlbəttə, müxtəlif yerlərin öz xüsusiyyətləri var, hər yerdə inkişaf eyni səviyyədə getmir. Ona görə vəziyyətlə tanış olmaq, yerlərdə məsələlərlə məşğul olmaq çox vacibdir. Ölkədə gedən proseslər, inkişaf barədə mənə çoxlu məlumatlar gəlir. Əlbəttə, arayışlar da verilir, məktublar da verilir, məlumatlar da verilir. Mən bu məlumatları nəzərə alıram, amma öz gözümlə gördüyümə daha çox inanıram. Ona görə bölgələrə gəlirəm və gələcəyəm. Azərbaycanın hər bir yeri mənim üçün doğma Vətəndir, hər bir yeri mənim üçün əzizdir. Çox istəyirəm ki, Azərbaycan daha da sürətlə inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar və biz hamımız birlikdə zəngin, qüdrətli dövlət yaradaq. Bu işdə hamınıza uğurlar diləyir, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

## Rayon mədəniyyət evi və sərgi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Heydər bağında sakinlərlə görüşdən sonra Qəbələ rayon mədəniyyət evinə gəlmişdir. Dövlətimizin başçısı mədəniyyət evinin musiqi ansamblının çıxışını dinlədi, burada təşkil edilmiş sərgi ilə tanış oldu.*

*Rayon mədəniyyət şöbəsinin müdiri Nargilə Qafarova prezident İlham Əliyevə son aylar ərzində görülən işlər və sərgi barədə məlumat verdi. Bildirildi ki, burada texniki yaradıcılıq mərkəzinin əl işləri nümayiş etdirilir. Texniki yaradıcılıq mərkəzində hazırlanmış əl işləri ötən il Bakıda keçirilən müsabiqədə birinci yer tutmuşdur.*

*Azərbaycan prezidenti Uşaq yaradıcılıq mərkəzində məşğul olanların əl işləri, qədim xalq sənəti nümunələri, «Mənsur 555» müəssisəsinin istehsal etdiyi mebellə, qapı və pəncərələrlə tanış oldu. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, bu müəssisə fəaliyyətini genişləndirmiş və əlavə 20 iş yeri açılmışdır.*

*Ağac üzərində oyma sənəti ilə məşğul olan Şahin Rəhimov öz əl işləri barədə dövlətimizin başçısına məlumat verərək dedi ki, bu məhsullar xaricilər tərəfindən də yüksək qiymətləndirilir və münasib qiymətə satılır. Dövlətimizin başçısı İlham Əliyev xalq sənətinin, onun dəyərli nümunələrinin qorunub saxlanmasının vacibliyini bildirdi.*

*Sonra Azərbaycan prezidenti incəsənət məktəbi uşaqlarının əl işlərinə, turizm istirahət mərkəzlərinin fotoşəkillərinə, «Azərxalça»nın yeni yaradılmış və 80 nəfərlik işçisi olan Qəbələ filialında toxunan xalçalara baxdı, makaron məmulatları fabrikinin məhsullarının çeşidləri ilə maraqlandı. Bildirildi ki, bu fabrikdə 20 nəfər işlə təmin olunmuşdur.*

*Dövlətimizin başçısı sərgidə nümayiş etdirilən məhsullara bazarda tələbat olduğunu, qədim xalq sənətinin yaşadılmasının*

*zəruriliyini vurğuladı, sahibkarlara dövlət tərəfindən bundan sonra da qayğı göstəriləcəyini bildirdi.*

*Dövlətimizin başçısına üzərində ümummilli liderimiz Heydər Əliyevin, özünün portretləri və Azərbaycanın bayrağı toxunmuş xalçalar hədiyyə edildi.*

*Azərbaycan prezidenti, həmçinin yeni bərpa olunmuş mədəniyyət evi, onun 300-dən çox tamaşaçı tutan Yaşıl teatrı ilə tanış oldu və burada xatirə şəkli çəkdirdi.*

## Yenidən bərpa edilmiş Cümə məscidi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Qəbələdə yenidən bərpa edilmiş Cümə məscidində olmuşdur.*

*Qəbələdəki bu məscid 1899–1906-cı ildə tikilmiş, 1920-ci ilədək dini ocaq kimi fəaliyyət göstərmişdir. Sonralar binadan savadsızlığın ləğvi klubu, anbar, kinoteatr, mədəniyyət evi, muzeyi kimi istifadə edilmişdir. 2005-ci ildən bərpa edilərək yenidən dindarların ixtiyarına verilmişdir. Burada eyni vaxtda 1000 nəfər namaz qıla bilir.*

*Prezident İlham Əliyevi burada məscidin axundu ehtiramla qarşıladı, Qurani-Kərim hədiyyə etdi, dövlətimizin başçısına Allah-təaladan cansağlığı, uzun ömür arzuladı.*

*Axund məscidi ziyarət etdiyinə görə prezident İlham Əliyevə təşəkkür edərək dedi ki, Azərbaycanın inkişafı yolundakı fəaliyyətinizdə Allah sizə yar olsun. Xalqın ədalətli prezidentisiniz, biz hamımız Sizin uğurlu siyasətinizi dəstəkləyirik və daim Sizə arxa olacağıq.*

*Prezident İlham Əliyev dindarlara uğurlar və xoşbəxtlik arzulayaraq dedi ki, çox şadam, rayonlarda böyük işlər görülür, yerlərdə vəzifəli şəxslər, icra hakimiyyəti başçıları yaxşı işləyirlər. Abadlıq, quruculuq işləri gedir, problemlərin aradan qaldırılması üçün mühüm tədbirlər görülür. Bütün dövrlərdə xalqın həqiqi lideri olan Heydər Əliyevin uzaqgörən siyasəti indi də öz bəhrəsini verir. Eyni zamanda milli-mənəvi,*

*dini dəyərlərimizin qorunmasında da ulu öndərin böyük xidmətləri vardır.*

*Qəbələnin qədim Qafqaz Albaniyasının paytaxtı olduğunu xatırladan prezident İlham Əliyev dedi ki, ulu öndərimiz 1970-ci illərdəki fəaliyyəti zamanı Azərbaycanın bu gününü düşünürdü. Çünki ən böyük sərvət xalqın, dövlətin azadlığı və xoşbəxtliyidir. Dövlətimizin başçısı bildirdi ki, görülən işlər daha da sürətlənəcəkdir. İstəyirik ki, problemlər tez həll olunsun, lakin bunun zamana da ehtiyacı vardır. Ancaq biz siyasi, iqtisadi istiqaməti düz seçmişik. Əsas odur ki, bölgələr inkişaf etdirilir, onların problemləri həll olunur. Bölgələrin paytaxt Bakının səviyyəsinə çatdırılması üçün çox işlər görülməlidir.*

*Dindarlar prezidentə bir daha təşəkkürlərini bildirdilər, ölkəmizdə aparılan quruculuq işlərini yüksək qiymətləndirdilər.*

**Qəbələ şəhərinə çəkilmiş yeni su xəttinin açılışı**

*Azərbaycan prezidenti İlham Əliyev Qəbələ şəhərinə çəkilmiş yeni içməli su xəttinin açılış mərasimində iştirak etmişdir.*

*Buraya toplaşan minlərlə insan dövlətimizin başçısını böyük səmimiyyətlə və gül-çiçəklə qarşıladı.*

*Prezidentə məlumat verildi ki, su xəttinin çəkilməsinə 1 milyard manat vəsait xərclənmişdir. Sutka ərzində şəhərə 3 min kubmetr su veriləcək ki, bu da Qəbələ əhalisinin 60 faizinin su təchizatını yaxşılaşdırmağa imkan yaradacaqdır.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, kranı açdı. Şəffaf bulaq suyunun axması mərasim iştirakçıları tərəfindən böyük sevinclə qarşılandı. Dövlətimizin başçısı İlham Əliyev sərin sudan içdi, qəbələliləri bu əlamətdar hadisə münasibətilə təbrik etdi.*

*Rayon sakinləri onlar üçün yaradılan şəraitə görə minnətdarlıq etdilər və dövlətimizin başçısına uzun ömür, cansağlığı arzuladılar.*

## Konserv zavodu ilə tanışlıq və inzibati binanın təməlinin qoyulması

*Prezident İlham Əliyev Qəbələdə tikilməkdə olan zavod ilə tanış olmuş və müəssisənin inzibati binasının təməlinin qoyulması mərasimində iştirak etmişdir.*

*Böyük səmimiyyətlə qarşılanan prezident İlham Əliyev xüsusi avtobusla müəssisənin ərazisini gəzdi.*

*«Gilan Holdinq» şirkətinin vitse-prezidenti Yunis Arifoğlu məlumat verdi ki, zavodun 13 hektar ərazisi var. Meyvənin qəbulu üçün 8 məntəqə yaradılmışdır və əhali məhsulunu təhvil verdikdən sonra pulu dərhal ödəniləcəkdir. Dəyəri 5 milyon avro olan avadanlıq İtaliya istehsalıdır. Zavod Cənubi Qafqazda bu tipli ən böyük müəssisədir. Hazırda tikinti-quraşdırma işləri davam edir və buna 300 nəfər fəhlə və mütəxəssis cəlb olunmuşdur. Zavod ildə 75 milyon dollarlıq məhsul istehsal edəcək, burada 400 nəfər işləyəcəkdir. Müəssisə buraya öz məhsullarını təhvil verənlərlə birlikdə 20 mindən çox adamı işlə təmin edəcəkdir.*

*Prezident İlham Əliyev dedi ki, Azərbaycanın bütün yerlərində belə, ən müasir səviyyəli müəssisələr tikilməli, iş yerləri açılmalıdır. Dünya bazarında rəqabətədavamlı məhsullar buraxılmalı, ixrac edilməlidir. Bizim kənd təsərrüfatımızın, sənayemizin böyük potensialı var. Belə istehsal müəssisələrinin yaranması ilə idxal azalacıqdır. Nə üçün belə məhsullar Azərbaycana idxal olunmalıdır? Bizim gözəl təbiətimiz, bərəkətli torpağımız, dadlı meyvələrimiz var. Sadəcə olaraq, belə müasir müəssisələr yaranmalıdır və ilk növbədə, daxili bazarımızı doldurmalıyıq, eyni zamanda ixrac etməliyik.*

*Sonra zavodun inzibati binasının təməli qoyuldu.*

*Yunis Arifoğlu mərasim iştirakçılarına müraciətlə dedi:*

*Bu gün «Gilan Holdinq» kollektivinin əlamətdar günlərindən biri və möhtəşəm bayramıdır. Ona görə ki, Azərbaycan Respublikasının prezidenti zati-aliləri İlham Heydər oğlu*

*Əliyev Qafqazın və regionun ən böyük konserv zavodunun idarə binasının bütövrəsini qoyur. Bu, gələcək nəsillər üçün çox tarixi və əlamətdar bir gündür. Çünki bu gün respublikamızın prezidentinin və kollektivimizin iştirakı ilə tikintimizin bütövrəsinə qoyulan gilizdəki yazı bu günü əbədi olaraq tarixə həkk edir. «Gilan Holdinq»in kollektivi adından möhtərəm prezident İlham Heydər oğlu Əliyevə öz minnətdarlığımızı bildiririk. Azərbaycan xalqının ümummilli lideri, ölməz rəhbər Heydər Əliyevin respublikada yaratmış olduğu sərbəst bazar iqtisadiyyatı sayəsində biz burada zavodlar tikir və quruculuq yollarında şərəflə addımlayırıq. Yaşasın müstəqil Azərbaycan Respublikası! Ruhun şad olsun, ümummilli liderimiz Heydər Əliyev!*

*Sonra dövlətimizin başçısı İlham Əliyev içərisində yazı olan gilizi binanın təməlinə atdı və bünövrəyə ilk beton qarışığı tökdü.*

## «Gilan» yeyinti məhsulları istehsalı müəssisəsinin açılışı

*Azərbaycan prezidenti İlham Əliyev Qəbələdə «Gilan» yeyinti məhsulları istehsalı müəssisəsinin açılışında iştirak etmişdir. Bu müəssisə fındıq emalı və çörək zavodlarından ibarətdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən qırmızı lenti kəsdi.*

*Müəssisənin rəhbəri Rauf Hacıyev prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, fındıq emalı zavodunda son tamamlama işləri gedir. Hazırda burada avadanlığın quraşdırılması işlərində 120 nəfər çalışır. Müəssisə avqust ayında işə başlayacaqdır. Burada quraşdırılan avadanlıq yerli istehsaldır və dəyəri 600 min ABŞ dollarıdır. Sutkada 50 ton fındıq emal ediləcəkdir. Zavodun işə düşməsi fındıqçılığın inkişafına təkan verəcək ki, bu da minlərlə ailəyə əlavə qazanc gətirəcəkdir.*

*Prezident İlham Əliyev zavodun işə düşməsini bildirən düyməni basdı.*

*«Gilan» yeyinti məhsulları müəssisəsinə daxil olan çörək zavodu bu ilin aprel ayından işləyir. Burada Türkiyədə istehsal edilən və 90 min ABŞ dolları dəyəri olan avadanlıq quraşdırılmışdır. Sutkada 20 ton çörək və bulka məmulatı bişirilən zavodda bir növbədə 30 nəfər işləyir.*

*Prezident İlham Əliyev müəssisənin istehsal sahələrinin genişləndirilməsinə və yeni iş yerlərinin açılmasına diqqət yetirilməsinin vacibliyini bildirdi.*

*Dövlətimizin başçısı müəssisədə görülən işləri yüksək dəyərləndirdi və burada çalışan fəhlələrə uğurlar arzuladı.*

## «Gilan» tikinti materialları istehsalı müəssisələri kompleksi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev «Gilan» tikinti materialları istehsalı müəssisələri kompleksinə gəlmişdir. Dövlətimizin başçısı burada iki qum-çınqıl zavodu və asfalt zavodu, tikilməkdə olan kərpic zavodu və yeni yaradılmış «Aqrotexservis»lə tanış oldu. Belarusdan alınmış kənd təsərrüfatı texnikasına baxdı.*

*Müəssisənin rəhbəri Tofiq Allahverdiyev bildirdi ki, «Gilan» tikinti materialları istehsalı müəssisəsi 2004-cü ildə yaranıbdır. Kompleksə 4 zavod, 1 aqroservis xidməti daxildir. Qum-çınqıl zavodlarından birinin dəyəri 200 min ABŞ dolları, sutkalıq istehsal gücü 500 kubmetr, ikincisinin dəyəri 60 min ABŞ dolları, sutkalıq istehsal gücü 200 kubmetrdir. Zavodlar iki növbədə işləyir, hər növbədə 50 nəfər çalışır.*

*2005-ci ilin aprel ayında fəaliyyətə başlayan asfalt zavodunun saatda 60 ton məhsul buraxmaq gücü var. Burada iki növbədə 30 nəfər işləyir.*

*Kərpic zavodunda dəyəri 3 milyon ABŞ dolları olan avadanlıq quraşdırılır. Zavodun tikintisində 150 nəfər çalışır və yaxın vaxtlarda müəssisənin işə başlaması nəzərdə tutulur.*

*Zavod ildə 30 milyonadək kərpic buraxacaq və burada bir növbədə 70 nəfər çalışacaqdır.*

*«Aqrotexservis»in 1 milyon ABŞ dolları həcmində avadanlığı və 30 ədəd kənd təsərrüfatı texnikası, habelə texniki yardım və təmir emalatxanası var. Yaxın vaxtlarda texnikanın sayı 60-a çatdırılacaqdır. Fermerlərə və torpaq sahiblərinə texniki xidmət göstərən «Aqrotexservis»də 60 nəfər çalışır. Mütəxəssislər hazırlayan kurslar da açılmışdır.*

*Prezident İlham Əliyev istehsal sahələri ilə tanış oldu, görülən işlərin genişləndirilməsinin vacibliyini bildirdi. Sonra bu müəssisəyə iki ədəd «Belarus» markalı traktor hədiyyə etdi.*

*Dövlətimizin başçısı İlham Əliyev buraya toplaşan rayon sakinləri ilə səmimi görüşüb söhbət etdi, onların problemləri ilə maraqlandı, şikayətlərini dinlədi və məsələlərin həll olunacağını bildirdi. Sakinlər ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini xatırlayaraq, onun yolunu davam etdirdiyinə və rayonlarda, bölgələrdə əhalinin vəziyyətinin yaxşılaşdırılmasına görə prezidentə minnətdarlıq etdilər.*

## Qəbələ tarix-diyarşünaslıq muzeyi və tikilməkdə olan Heydər Əliyev muzeyi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Qəbələdə Qəbələ tarix-diyarşünaslıq muzeyində olmuş və Heydər Əliyev muzeyinin binasının tikintisinə baxmışdır.*

*Dövlətimizin başçısı İlham Əliyevi və Mehriban xanımı burada gül-çiçəklə qarşıladılar. Direktor Xalis Məmmədov məlumat verdi ki, tarix-diyarşünaslıq muzeyi və tikilməkdə olan Heydər Əliyev muzeyi eyni ərazidə yerləşir. Tarix-diyarşünaslıq muzeyi 1980-ci ilin mayından fəaliyyət göstərir. 2004-cü ilin aprelindən yeni binaya köçmüşdür. Fondda 12 mindən çox eksponat vardır. Bunların xeylisi nadir eksponatlardır. Muzey Qəbələnin 2500 illik tarixini əks etdirir. Burada ümummilli li-*

*der Heydər Əliyevin, prezident İlham Əliyevin Qəbələyə səfərlərini əks etdirən fotoşəkillər də toplanmışdır.*

*Prezident İlham Əliyev Qafqaz Albaniyası dövrünə aid eksponatlarla maraqla tanış oldu, bunların böyük əhəmiyyəti olduğunu, Azərbaycanın qədim tarixə malik olmasını sübut etdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Heydər Əliyev muzeyinin binasının tikintisinə də baxdı.*

*Prezident İlham Əliyev tarix-diyarşünaslıq muzeyi ilə tanışlıqdan sonra xatirə kitabına ürək sözlərini yazdı:*

«1980-ci illərin əvvəlində xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Qəbələ diyarşünaslıq muzeyi, şübhəsiz, öz eksponatları ilə diyarın qədim tarixini əks etdirir. Qəbələ Azərbaycanın qədim torpağıdır, eramızdan əvvələ aid yazılı mənbələrdə Qəbələnin adını çəkirlər. Biz öz tarixi və mədəni irsimizə böyük diqqətlə yanaşırıq. Biz öz qədim tariximizi sevməliyik, onu dərindən öyrənməliyik və beynəlxalq ictimaiyyətə təqdim etməliyik. Qəbələ diyarşünaslıq muzeyi bu vəzifələri uğurla yerinə yetirir. Qəbələlilərə öz dərin hörmət və məhəbbətimi bildirirəm.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti»**

## QƏBƏLƏ RAYONU NİC QƏSƏBƏSİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*18 avqust 2005-ci il*

*2300 illik tarixi olan bu qəsəbənin sakinləri dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük səmimiyyət və ehtiramla, gül-çiçəklə qarşıladılar. Prezident İlham Əliyevə məlumat verildi ki, Nicin 6,5 min nəfər əhalisi var, bunun 4 mindən çoxu udilər, qalanı azərbaycanlılar və ləzgilərdir. Qəsəbədəki 5 orta məktəbin 3-də tədris rus dilində, 2-də isə Azərbaycan dilində aparılır. Nicdə qədim alban kilsəsi və digər abidələr vardır. Respublika hökumətinin köməyi ilə burada tarix muzeyi və açıq havada etnoqrafiya qoruğu yaradılacaqdır. Eçmiədzin (erməni) katolikosluğunun təkidi ilə Peterburq Müqəddəs Sinodu 1836-cı ildə alban katolikosluğunu ləğv etdikdən sonra udilərin dini fəaliyyətlə məşğul olmasına qabağan qoyulmuşdu. 2003-cü ildə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi udilərin dini fəaliyyətinin bərpa olunması barədə qərar vermişdir. 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Nic məktəblərinin I–IV siniflərində udi dili də tədris olunur. Udilər bunu ulu öndər Heydər Əliyevin xidməti kimi yüksək qiymətləndirirlər.*

**İlham Əliyev:** Mən sizin hamınızı ürəkdən salamlayıram. Mən bu gün Qəbələdə idim. İndi də Qəbələ rayonundayam. İctimaiyyətlə müxtəlif görüşlər keçirmişəm, müxtəlif yerlərdə olmuşam. Yeni müəssisələrin, obyektlərin təməlinin qoyulması mərasimində iştirak etmişəm.

Qəbələ rayonu çox sürətlə inkişaf edir. Çox böyük abadlıq, quruculuq işləri gedir və günün birinci yarısında bu məsələlərlə

məşğul idim. Günün ikinci yarısında mənim proqramımda Oğuz rayonuna səfər vardı, amma fikirləşdim ki, mütləq gərək gəlim sizin yanınıza. Nicə gəldim ki, sizinlə görüşüm, sizə öz hörmət və məhəbbətimi bildirim.

Nic çox qədim məskəndir. Bura çox zəngin tarixə malik bir yerdir. Çox şadam ki, burada da işlər yaxşı gedir.

Azərbaycanın gərək hər bir yerində, hər bir bölgəsində, hər bir rayonunda, hər bir kəndində quruculuq və abadlıq işləri getsin, insanlar daha da yaxşı yaşasınlar və Azərbaycan dövləti daha da möhkəmlənsin. Buna nail olmaq üçün biz əlimizdən gələni edirik. İqtisadi islahatlar həyata keçirilir, yeni müəssisələr, iş yerləri açılır və beləliklə, Azərbaycanın bütün bölgələri sürətlə inkişaf edir. İl yarım bundan əvvəl regionların sosial-iqtisadi inkişafı proqramı qəbul edilmişdir və bu proqram uğurla icra olunur. Mən istəyirəm ki, müsbət dəyişikliklər hər bir kənddə hiss edilsin, hər bir kəndin həyatında irəliləyiş, tərəqqi olsun, bizi narahat edən əsas problemlər – işsizlik, yoxsulluq azalsın, aradan qaldırılsın. Bu, Azərbaycanın paytaxtında da, ən ucqar rayonunda da, bütün kəndlərində də olmalıdır.

Bir məsələyə də toxunmaq istəyirəm. Azərbaycanın gələcəyi üçün indi ölkədə hökm sürən sabitlik, əmin-amanlıq, asayiş bundan sonra da qorunmalıdır. Ölkəmizdə vətəndaş həmrəyliyi var. Bu çox böyük sərvətdir, çox böyük nemətdir. Azərbaycan çoxmillətli dövlətdir. Azərbaycanda müxtəlif millətlərin nümayəndələri əsrlər boyu yaşamış, yaratmışlar. Biz hamımız bir ailəyik, hamımız qardaşıq və bu qardaşlıq hissləri daha da möhkəmlənir.

Sovet İttifaqı zamanında Azərbaycan müstəqil dövlət deyildi, bir böyük ölkənin bir hissəsi idi. Bu gün isə Azərbaycan müstəqil dövlət kimi, öz siyasətini özü aparır. O cümlədən, milli siyasətə böyük diqqət göstərilir. Azərbaycanda yaşayan bütün xalqlar eyni hüquqa malikdir, eyni səviyyədə yaşayır və bundan sonra belə də olacaqdır. Azərbaycan Respublikasının Prezidenti kimi, mən bundan sonra da əlimdən gələni edəcəyəm ki, Azər-

baycanda yaşayan hər bir xalqın nümayəndəsi özünü rahat hiss etsin, özünü yaxşı hiss etsin.

Azərbaycanın ən böyük nailiyyətlərindən, sərvətlərindən biri də odur ki, bizim ölkəmizdə milli və dini baxımdan həmişə mehribanlıq olubdur. Bu zəmində heç vaxt ayrı-seçkilik, ziddiyyət olmayıbdır. Milli və dini dözümlülük bizim ölkəmizin inkişafına böyük töhfədir. Hamımız bilirik ki, heç də bütün ölkələrdə vəziyyət buna bənzər deyildir. Dünyada elə ölkələr var ki, orada yaşayan müxtəlif xalqlar bir-biri ilə yola getmir, müxtəlif dinlərin nümayəndələri ünsiyyətdə olmurlar. Onlar təcrid olunmuş vəziyyətdə yaşayırlar. Bu həmin ölkələrin bəlası, faciəsidir. Böyük xoşbəxtlikdir ki, Azərbaycanda yaşayan bütün xalqlar ölkəmizin bütün yerlərində özünü doğma evindəki kimi hiss edir. Bu bizim böyük nailiyyətimizdir. Biz bəlkə də buna öyrəşmişik, gündəlik həyatda buna fikir vermirik və düz də edirik ki, fikir vermirik. Çünki bu amil, bu problem Azərbaycanda yoxdur. Çünki Azərbaycanda yaşayan bütün xalqlar mənim qardaşlarımdır və Azərbaycan Respublikasının Prezidenti kimi, mən Azərbaycanda yaşayan bütün xalqların təminatçısı və dövlət başçısıyam.

Mən ilk dəfədir ki, Nicdəyəm. Çox eşitmişəm, bilirəm ki, Nicin çox böyük tarixi var, çox böyük mədəniyyəti var, nailiyyətləri var, tarixi irsi çox zəngindir. Ona görə bu gün çox xoşbəxtəm ki, özüm gəlmişəm sizin yanınıza, sizinlə birlikdəyəm. Görürəm ki, burada əhval-ruhiyyə də yaxşıdır, ab-hava da yaxşıdır. Bütövlükdə rayonda görülən işlər məni çox sevindirir. Rayon rəhbərliyi yaxşı işləyir, çalışır ki, bütün problemləri həll etsin. O cümlədən, sizin də problemlərinizin həllində çox böyük işlər görür. Mən də çalışacağam ki, sizin problemlərinizi bundan sonra daha da sürətlə həll edək. Sizi narahat edən, sizə çətinlik yaradan, maneçilik törədən hansı məsələ varsa, indi mənə deyin ki, Bakıya qayıdanda bunların hamısını həll edim.

Əgər bir sözünüz yoxdursa, onda sizin hamınıza uğurlar, cansağlığı arzulayıram. Arzu edirəm ki, həmişə olduğu kimi xoşbəxt yaşayaq, Azərbaycan inkişaf etsin.

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA QƏBƏLƏ RAYONUNUN DAŞCA KƏNDİNDƏ MƏKTƏB BİNASININ TİKİNTİSİ İLƏ TANIŞ OLMUŞDUR

*18 avqust 2005-ci il*

*Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva dövlətimizin başçısının Qəbələ rayonuna səfəri çərçivəsində rayonun Daşca kəndində məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Burada inşaatçılar və kənd sakinləri Mehriban xanım Əliyevanı səmimiyyətlə qarşıladılar. Bildirildi ki, indiyədək əlverişsiz binada dərs keçən kənd uşaqları Mehriban xanımın birbaşa qayğısı və köməyi sayəsində sentyabrdan təzə, hər cür şəraiti olan məktəbdə oxuyacaqlar. Kənd sakinləri bu diqqət və qayğıya görə Heydər Əliyev Fondunun prezidentinə minnətdarlıq etdilər.*

*Mehriban xanım rəhbərlik etdiyi Fondun vəsaiti hesabına yeni dərs ilinə kimi respublikamızın müxtəlif yerlərində 132 təzə məktəbin tikilib istifadəyə veriləcəyini bildirdi. «Yeniləşən Azərbaycana yeni məktəb» proqramının hazırda uğurla həyata keçirildiyini xatırladan Mehriban xanım Daşca kənd məktəbində tikinti işlərinin gedişi ilə yaxından maraqlandı, öz tövsiyələrini verdi, məktəbin təzə avadanlıqla təchiz olunmasına da yaxından kömək göstəriləcəyini söylədi.*

*Mehriban xanım sonra inşaatçılarla, kənd sakinləri ilə səmimi söhbət etdi, onların qayğı və problemləri ilə maraqlandı.*

*Kənd sakinləri ölkəmizdə təhsilin inkişafına, uşaq evlərinə, internatlara göstərdiyi qayğıya görə ona ürəkdən gələn xoş sözlər dedilər.*

*Heydər Əliyev Fondunun prezidenti yeni tikilən məktəbin qarşısında kənd sakinləri ilə xatirə şəkli çəkdirdi.*

## OĞUZ ŞƏHƏRİNDƏKİ HEYDƏR PARKINDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*18 avqust 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün qonşu Oğuz rayonuna gəldi.*

*Oğuzda böyük səmimiyyətlə, hörmət və ehtiramla qarşılanan dövlətimizin başçısı rayon mərkəzindəki Heydər parkında sakinlərlə keçirilən görüşdə nitq söylədi.*

**İ l h a m Ə l i y e v:** Əziz oğuzlular!

Əziz dostlar, bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və çox şadam ki, bu gün sizinlə birlikdəyəm. Ağsaqqal öz çıxışında qeyd elədi ki, ilk dəfədir Azərbaycanın rəhbəri Oğuza gəlir. Hesab edirəm ki, bu mənim həyatımda da çox əlamətdar bir gündür. Çünki Azərbaycanın hər bir yeri, hər bir rayonu mənim üçün əzizdir, mənim vətənimdir, məqsədim də odur ki, Azərbaycanın hər bir bölgəsi, hər bir rayonu, hər bir kəndi inkişaf etsin. İndi Azərbaycanda gedən quruculuq, abadlıq işləri nəticəsində daha da inkişaf etsin.

Rayonları mən heç vaxt böyük, kiçik rayonlara bölməmişəm. Rayonun əhalisi çox ola bilər, az ola bilər. Amma bunun heç bir mənası yoxdur, heç bir fərqi yoxdur. Mən Azərbaycanın bütün rayonlarına eyni gözlə baxıram. Görəndə ki, bizim bölgələrimizdə inkişaf var, abadlıq, quruculuq işləri gedir, çox sevinirəm.

Bilirsiniz ki, il yarım bundan əvvəl qəbul etdiyimiz regionların sosial-iqtisadi inkişafı proqramı icra olunur. Mən mütəmadi qaydada bütün bölgələrə səfər edərək bu proqramın icrası ilə tanış oluram, özüm şəxsən maraqlanıram ki, bu proqram necə ye-

rinə yetirilir. Çünki Azərbaycan hərtəfərli inkişaf etməlidir. Azərbaycanın bütün bölgələri inkişaf etməlidir və bunu etmək üçün bütün imkanlar var. Bizim iqtisadiyyatımız möhkəmlənir, dünyada, demək olar ki, ən yüksək templə artır. Bu bizə imkan verir ki, əlavə maliyyə resurslarından istifadə edib fəaliyyətimizi daha da genişləndirək və ölkədə gedən quruculuq işlərini daha da sürətləndirək.

İl yarım ərzində çox işlər görülübdür. Bu barədə artıq məlumatlar verilibdir. Əgər ölkənin əhalisinin sayını nəzərə alsaq, 260 min yeni iş yerinin açılması dünyada analoqu olmayan bir göstəricidir. Ancaq bununla yanaşı, problemlər də var və mən öz fəaliyyətimi, ilk növbədə, bu problemlərin həlli istiqamətində qururam. Həm ölkəmizin ümumi problemləri var, həm də hər bir rayonun, kəndin problemləri var. Biz gərək bütün problemlərlə məşğul olaq. Problemlərin aradan qaldırılması ən əsas məsələdir. Yoxsulluq, işsizlik bizi narahat edən problemlərdir. Son illər ərzində görülən işlər nəticəsində bu problemlər də həll olunmaqdadır. Qəbul edilmiş proqramlar, onların uğurlu icrası, görülən işlər deməyə əsas verir ki, qarşımızda duran hər bir vəzifə öz həllini tapacaqdır. Bu günə qədər elə bir vəzifə olmayıbdır ki, biz onun həllində çətinlik çəkək. Qarşıya qoyulmuş bütün məsələlər proqram şəklində, vahid konsepsiya şəklində, məqsədyönlü siyasət şəklində öz həllini tapır. Həm xarici siyasətdə, həm də daxili siyasətdə, iqtisadi inkişaf strategiyamızda, neft strategiyasının həyata keçirilməsində – bütün sahələrdə nəyi vəzifə kimi qarşıya qoymuşuqsa, onu da həll etmişik. Belə olan halda, əlbəttə, insanlarda da inam artır. Xalq da bütün bu müsbət dəyişiklikləri görür və problemlərin həllində fəal iştirak edir. Biz bu problemləri yalnız bu yolla həll edə bilərik. İqtidarla xalqın vəhdəti, birliyi ən başlıca amildir.

Azərbaycanın normal inkişafı, ölkədə sabitliyin, əmin-amanlığın qorunması və möhkəmlənməsi, Azərbaycanın Dünya Birliyinə inteqrasiya siyasəti, iqtisadi inkişaf strategiyamız – bütün bu amillər ancaq birlikdə imkan verə bilər ki, Azərbaycan zəngin, qüdrətli ölkəyə çevrilsin. Buna nail olmaq üçün bütün im-

kanlarımız var. Siyasi iradə var, bizim siyasətimiz xalq tərəfindən dəstəklənir. Azərbaycanın coğrafi vəziyyəti və bölgədəki artan nüfuzu bizə imkan verir ki, öz milli maraqlarımızı daha da inamla müdafiə edək.

Azərbaycanın zəngin neft potensialı və Heydər Əliyevin neft strategiyasının uğurla icra olunması imkan verir ki, biz gələcəkdə maliyyə cəhətdən də çətinlik çəkməyək. Azərbaycanın çox güclü kadr potensialı, insan potensialı, gözəl təbiəti, təbii sərvətləri var. Belə olan halda biz mütləq ölkəmizi ən yüksək zirvələrə qaldırmalıyıq, iqtisadi cəhətdən daha da gücləndirməliyik. Baxın, bizim son müddət ərzindəki iqtisadi artım sürətimiz heç bir başqa ölkədə yoxdur. İqtisadiyyat bu ilin ilk 6 ayında təxminən 17 faiz artmışdır. Keçən ilə nisbətən büdcə 46 faiz artıbdır, gələn il isə yenidən 50 faiz artacaqdır. Gələn il bizim büdcəmiz, yəni ki, ölkə xəzinəsinə daxil olan vəsait 3 milyard 200 milyon dollar təşkil edəcəkdir. Bütün bu vəsait Azərbaycan xalqının rifah halının yaxşılaşmasına xidmət edəcəkdir. Yollar çəkiləcək, elektrik stansiyaları tikiləcək, su təchizatı, qaz təchizatı həll olunacaq, məktəblər, xəstəxanalar tikiləcək, maaşlar yenidən qaldırılacaq, pensiyalar, tələbələrin təqaüdləri artırılacaqdır. Bu ancaq ilkin mərhələdir. Son illər ərzində bizim ən böyük iqtisadi uğurumuz olan, Heydər Əliyevin neft strategiyasının nəticəsi olan Bakı–Tbilisi–Ceyhan neft kəməri hələ gələn ilin əvvəlindən fəaliyyətə başlayacaqdır. Onun fəaliyyətindən ölkəmizə milyardlarla dollar vəsait gələcəkdir.

Yəni bizim gələcəyimiz çox parlaq olacaqdır. Mən gələcəyə çox böyük nikbinliklə baxıram. Çünki bilirəm və görürəm ki, Azərbaycanı nələr gözləyir. Azərbaycan daxildə öz potensialını gücləndirəcəkdir. Bölgədə gücümüz artacaqdır. Əlbəttə ki, təsir gücümüz də artacaqdır. Bu isə imkan verəcək ki, bizim milli maraqlarımız daha da güclü qorunsun. Bütün başqa məsələlər də öz həllini tapacaqdır.

Qarşıdan gələn parlament seçkiləri də bu baxımdan böyük əhəmiyyət kəsb edir. Çünki parlament seçkilərinin şəffaf, ədalətli keçməsi bizim Dünya Birliyinə inteqrasiya siyasətimizə kömək

göstərəcəkdir. Azərbaycan Dünya Birliyində özünə layiq yerini tuta bilmişdir. Biz istəyirik bu yeri daha da möhkəmləndirək ki, bizim milli maraqlarımız daha da möhkəm şəkildə təmin olunsun.

Kənd təsərrüfatında, turizm sahəsində böyük perspektivlər var və gələcəkdə Oğuz rayonunda da bu istiqamətdə işlər görülməlidir. Bu yaxınlarda «Aqrolizinq»in fəaliyyətə başlaması imkan verəcək ki, kəndlilər lazımi səviyyədə texnika və gübrə ilə təmin edilsinlər və kənd təsərrüfatı ilə daha da səmərəli məşğul olsunlar.

Mən çalışıram ki, öz fəaliyyətimdə bütün sahələrə diqqət yetirim, bütün sahələrlə məşğul olum. Ordu quruculuğu, xarici siyasət, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, sosial məsələlərin həlli, qaçqınların və köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması, Qarabağ əlillərinin sosial məsələlərinin həlli, maaşların, pensiyaların qaldırılması, sosial infrastrukturun yaradılması, elektrik stansiyalarının tikintisi, yolların salınması – bütün bunlar artıq proqram şəklində gündəlik həyatda öz əksini tapır. Bir neçə ildən sonra, qəbul edilmiş proqramlar uğurla icra olunandan sonra Azərbaycanda ciddi problem qalmayacaqdır. Mən çox istəyirəm ki, ölkəmiz daha da möhkəmlənsin, zənginləşsin. Hər bir vətəndaş rahat yaşasın, işlə təmin olunsun, yaxşı maaş alsın və gələcək üçün gözəl gənc nəsil yetişdirsin, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etsin. Belə olan halda bizim ölkəmiz qarşıda duran bütün vəzifələri həll edəcəkdir. Bu işdə hamımıza uğurlar arzulayıram.

Əziz oğuzlular, sizə öz dərin hörmət və məhəbbətimi ifadə edirəm. Mən ilk dəfədir ki, Oğuz rayonundayam. Düzdür, əvvəllər buradan, bu yollardan keçmişəm. Amma ilk dəfədir ki, burada, Oğuz rayonunda oğuzlularla birbaşa təmasdayam. Bir daha sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV OĞUZ RAYONUNDA

*18 avqust 2005-ci il*

### Oğuz konserv zavodu ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Oğuz konserv zavodunda olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, müəssisə 1987-ci ildə Nic konserv zavodunun bir sexinin bazasında yaradılmışdı və konservlər, müxtəlif növ şirələr, tomat istehsal edirdi. 1994-cü ildən fəaliyyətini tam dayandırmışdı. 2004-cü ildə zavod tam özəlləşdirildikdən sonra burada istehsalın bərpasına başlanmışdır. Yenidənqurma işləri ilkin mərhələdə zavodda 35–40 daimi iş yeri açmağa imkan vermişdir. Sentyabr ayından əhalidən meyvə-tərəvəz qəbuluna başlanması, Oğuz meşələrində yetişən zoğal, əzgil, yemişan, çaytikanı və digər meyvələrin tədarükünə əhalinin marağının artırılması məşğulluq probleminin həllinə öz töhfəsini verəcəkdir.*

*Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında konservləşdirilmiş meyvə-tərəvəz məhsulları istehsalının dəstəklənməsi zavodun dirçəldilməsinə marağı artırmışdır. Mütəxəssis rəyinə əsasən, müəssisənin köhnə avadanlığının modernləşdirilməsi nəticəsində quraşdırılmış yeni xətt burada hər cür konservlər, geniş çeşiddə mürəbbə və şirələr istehsalına imkan verir.*

*Müəssisədə ekoloji cəhətdən təmiz təbii şirələrin, təbii otların konsentratlarının istehsalı nəzərdə tutulur. Bunun sayəsində zavod istər respublikamızda, istərsə də xaricdə yaxşı imic qazana biləcəkdir.*

*Prezident İlham Əliyev zavodda istehsal prosesi, məhsulların keyfiyyəti və çeşidləri ilə maraqlandı,yerli mütəxəssislər*

*tərəfindən quraşdırılmış avadanlıqla tanış oldu və görülən işləri yüksək qiymətləndirdi.*

## Əlillərə və şəhid ailələrinə yeni mənzillərin orderlərinin təqdim edilməsi mərasimində çıxış

*Əlillər və şəhid ailələrinin üzvləri prezident İlham Əliyevi böyük sevinclə qarşıladılar.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində əsasən büdcə vəsaiti hesabına tikilmiş binada sahəsi 61 kvadratmetr olan altı üçotaqlı və sahəsi 52 kvadratmetr olan altı ikiotaqlı mənzil var. Tikinti işləri «Oğuz tikintimexanizasiya» Açıq Səhmdar Cəmiyyəti tərəfindən görülmüşdür.*

**İlham Əliyev:** Ötən müddət ərzində qəbul edilmiş qərarlar, müharibədə iştirak etmiş insanların sosial məsələlərinin həlli bizim siyasətimizdə çox böyük yer tutur. Bu bizim hamımızın borcudur, Azərbaycan dövlətinin borcudur. Azərbaycan Respublikasının Prezidenti kimi, Ali Baş Komandan kimi, mən bu məsələlərə daim diqqət göstərirəm.

Bu gün ordu quruculuğuna böyük diqqət göstərilir. Bilirsiniz ki, biz hərbi xərclərə böyük diqqətlə yanaşırıq və hərbi büdcəmiz ildən-ilə artır. Hərbi büdcəmiz bu il 76 faiz artıb və 300 milyon dollar təşkil edir. Gələn il də gərək ən azı eyni templə artsın. Çünki biz müharibə şəraitində yaşayırıq, torpaqlarımız işğal altındadır. Çalışırıq ki, münaqişəni danışıqlar yolu ilə həll edək. Amma görürsünüz ki, heç bir nəticə yoxdur. Ona görə biz hər şeyə hazır olmalıyıq. Gərək bizim hərbi potensialımız güclənsin və Ermənistanın hərbi potensialından bir neçə dəfə üstün olsun. Biz buna nail olacağıq.

Eyni zamanda, müharibədə iştirak etmiş, öz sağlamlığını itirmiş insanlara, şəhid olmuş insanların ailələrinə daim diqqət göstərilməlidir. Bizim maddi imkanımız yaxşılaşdıqca, büdcəmiz artdıqca bu məsələlərə daha böyük həcmdə vəsait ayrılacaqdır.

Belə evlər çox tikiləcəkdir. Müharibədə iştirak etmiş hər bir insan böyük diqqət və qayğıya layiqdir. Əlimizdən gələni edirik ki, onların cəmiyyətdə yaşamasına, onların işlə təmin olunmasına kömək göstərək. Ona görə mən çox şadam ki, bu gün evin, mənzillərin orderlərini sizə şəxsən təqdim edirəm. Ümidvaram ki, siz bu mənzillərdə yaxşı yaşayacaqsınız, xoşbəxt yaşayacaqsınız və gələcək nəsillərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında öz rolunuzu oynayacaqsınız.

*Sonra dövlətimizin başçısı yeni mənzillərlə tanış oldu. Mənzil almış hər bir ailəyə prezident İlham Əliyevin adından rəngli televizor hədiyyə edildi.*

*Yeni mənzillərin sakinləri ümummilli lider Heydər Əliyevin xəttinin layiqli davamçısı prezident İlham Əliyevə təşəkkür etdilər, fəaliyyətini hər sahədə dəstəklədiklərini bildirdilər.*

## Oğuz şəhərinin «Gənclik» qəsəbəsində Heydər Əliyev Fondu tərəfindən inşa olunan məktəb binasında tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 18-də Oğuz şəhərinin «Gənclik» qəsəbəsində inşasına bu yaxınlarda başlanan 244 şagird üçün nəzərdə tutulmuş məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondunun vəsaiti hesabına tikilən məktəb yeni dərs ilində şagirdləri qəbul edəcəkdir. Binanı «Dayaq» kiçik müəssisəsi tikir, yerli inşaatçılara kömək üçün Bakıdan da mütəxəssislər gəlmişdir.*

*Prezident İlham Əliyev məktəbin layihəsi ilə tanış oldu, tikinti işləri ilə yaxından maraqlandı, sinif otaqlarının genişləndirilməsi, işlərin keyfiyyətlə görülməsi barədə müvafiq tapşırıqlar verdi.*

*Sonra dövlətimizin başçısı məktəbin yaxınlığında qəsəbə sakinləri ilə görüşüb söhbət etdi.*

**İ l h a m Ə l i y e v:** Gözəl rayondur, gözəl təbiəti var.

**S a k i n l ə r:** Cənab Prezident, Sizin sayənizdə bundan sonra daha da gözəl olacaqdır.

**İ l h a m Ə l i y e v:** Beş-altı məktəb tikilir. Bunun hamısı inkişafdır. Demək, ölkə irəliyə gedir, imkanlar artır. Belə olan halda, ilk növbədə, insanların daha da yaxşı yaşamasını təmin etməliyik, uşaqlar yaxşı oxumalı, yaxşı savad almalıdırlar. Bütün məktəblərə kompüter qoyulmalıdır. Üç il ərzində Azərbaycanın bütün məktəblərində kompüter olacaqdır. Müasir dünyada gərək uşaqlar kompüteri öyrənsinlər. Biz məktəbdə oxuyanda heç kompüter yox idi. Amma görün uşaqlar indi necə bilirlər, öyrənirlər.

**S a k i n l ə r:** Bu il birinci mərhələdə 110 nəfər ali məktəblərə daxil oldu. Sənəd verənlər isə 434 nəfər idi.

**İ l h a m Ə l i y e v:** Demək, burada uşaqlar yaxşı oxuyurlar.

**S a k i n l ə r:** Bəli, cənab Prezident, uşaqlarımızın çoxu savadlıdır. Müəllimlərimiz də savadlıdırlar. Cənab Prezident, icra hakimiyyətinin başçısı rayona da yaxşı rəhbərlik edir. Qaçqınlara kömək edir, ondan çox razıyıq.

**İ l h a m Ə l i y e v:** Mən onu üç ay bundan əvvəl təyin etdim. Hiss edirəm ki, yaxşı işləyir. İlk növbədə gərək insanlara diqqət olsun. Birinci növbədə sosial məsələlər həll edilməli, maaş olmalıdır, müəssisələr yaranmalı, iş yerləri açılmalıdır, çatışmazlıqlar aradan qaldırılmalıdır. Bunların hamısı olacaqdır.

**S a k i n l ə r:** Cənab Prezident, rayonumuza tez-tez gəlin.

**İ l h a m Ə l i y e v:** Gələcəyəm. Bu gün parkda keçirdiyim görüşdə ağsaqqal dedi ki, Azərbaycanın rəhbəri ilk dəfə Oğuza gəlir.

**S a k i n l ə r:** Cənab Prezident, biz çoxdan arzulayırdıq ki, Siz gələsiniz.

**İ l h a m Ə l i y e v:** Mən də çoxdan arzulayırdım, yaxşı ki, bu arzumu həyata keçirdim. Burada tikilən məktəb böyük, müasir standartlara cavab verən məktəb olacaqdır. Uşaqlar gərək

yaxşı şəraitdə oxusunlar. Bakıda məktəblər necə tikilirsə, burada da elə olacaqdır.

**S a k i n l ə r:** Cənab Prezident, Allah Sizin canınızı sağ eləsin. Sizə uzun ömür, cansağlığı arzu edirik. Ulu öndərimiz Heydər Əliyevə Allahdan rəhmət diləyirik. Ruhu şad olsun, gözəl rəhbər və gözəl insan idi.

**İ l h a m Ə l i y e v:** İndi onun siyasəti Azərbaycanda davam etməlidir. Başqa yol yoxdur. Bu yol inkişaf yoludur, tərəqqi yoludur.

**S a k i n l ə r:** Cənab Prezident, biz Axıska türkləriyik. 90 nəfərik burada.

**İ l h a m Ə l i y e v:** Çoxdan yaşayırsınız burada?

**S a k i n l ə r:** Cənab Prezident, 1989-cü ildə Özbəkistandan gəlmişik. İndi biz bilmirik qaçqınıq, ya yerliyik.

**İ l h a m Ə l i y e v:** Siz qaçqın deyilsiniz, bizim yerlimizsiniz. Axıska türkləri bizim qardaşlarımızdır.

**S a k i n l ə r:** Cənab Prezident, Axıska türkləri burada az olsa da, bilin ki, biz hamımız Sizi çox istəyirik. Və çox arzu edirdik ki, Siz bizim rayonumuza gələsiniz.

**İ l h a m Ə l i y e v:** Mən də sizi çox istəyirəm. Azərbaycan bizim hamımızın vətənidir. Özbəkistanda o hadisələr baş verdi, siz buraya gəldiniz. Siz hiss edirdiniz ki, bura vətəndir.

**S a k i n l ə r:** Cənab Prezident, burada Ermənistan qaçqınları da var. Təxminən 2500 nəfərik. Bizim iş problemimiz var, işləmək istəyirik.

**İ l h a m Ə l i y e v:** Bilirəm, çalışıram bu problemi həll edim. İlk növbədə emal müəssisələri tikilməlidir, kənd təsərrüfatı texnikası çatmır. Çünki kənd təsərrüfatı ilə məşğul olmaq üçün texnika olmalıdır. Bu məqsədlə «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaratdıq və bütün bölgələrdə texnika icarəyə veriləcəkdir. Xüsusilə kənd yerlərində iş yerlərinin açılması əsas vəzifəmizdir.

**S a k i n l ə r:** Mehriban xanım da çox sağ olsun, Allah ondan da, Sizdən də razı olsun.

**İ l h a m Ə l i y e v:** Mehriban da Xalxal kəndinə gedibdir. Orada da məktəb tikilir.

**S a k i n:** Cənab Prezident, mənim kredit məsələsində problemim var.

**İ l h a m Ə l i y e v:** Kredit üçün müraciət eləmisən?

**S a k i n:** Cənab Prezident, deyirlər, gərək girov qoyasan. Girov qoymağa da heç nəyim yoxdur. Bəs mən nə edim, krediti necə götürüm?

**İ l h a m Ə l i y e v:** Əvvəllər, ümumiyyətlə, heç bir kredit verilmirdi. Kreditlərin verilməsinə son üç ildə başlanıbdır. Birinci il 40 milyard manat, ondan sonrakı il 100 milyard manat verilmişdi. Bu il 200 milyard manat, gələn il 400 milyard manat olacaqdır. Amma hələlik hamıya kredit çatmır. Siz gərək Sahibkarlığa Kömək Milli Fonduna müraciət edəsiniz.

* * *

*Dövlətimizin başçısı sakinlərin problemlərinin müsbət həll olunması üçün lazımi kömək göstəriləcəyini bildirdi.*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA OĞUZ RAYONUNUN XALXAL KƏNDİNDƏ MƏKTƏB BİNASININ TİKİNTİSİ İLƏ TANIŞ OLMUŞDUR

*19 avqust 2005-ci il*

*Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva dövlətimizin başçısının Oğuz rayonuna səfəri çərçivəsində rayonun Xalxal kəndində məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olmaq üçün buraya gəlmişdir.*

*Yaşıl dağlar qoynunda yerləşən kəndin sakinləri, inşaatçılar Mehriban xanımı böyük səmimiyyətlə qarşıladılar. Bildirildi ki, 1937-ci ildən fəaliyyət göstərən kənd məktəbi indiyədək düz 115 il əvvəl tikilmiş binada yerləşmişdir. Bu isə tədris prosesinə mənfi təsir göstərirdi. Kənd sakinləri, müəllimlər, məktəblilər Mehriban xanımın birbaşa qayğısı və köməyi sayəsində sentyabrdan təzə, hər cür şəraiti olan məktəb binasının istifadəyə veriləcəyindən böyük razılıq hissi keçirdiklərini söylədilər, Heydər Əliyev Fondunun prezidentinə minnətdarlıqlarını, ən xoş arzularını yetirdilər.*

*Mehriban xanım rəhbərlik etdiyi Fondun vəsaiti hesabına yeni dərs ilinə kimi respublikamızın müxtəlif yerlərində çoxlu məktəbin tikilib istifadəyə veriləcəyini bildirdi. «Yeniləşən Azərbaycana yeni məktəb» proqramının hazırda uğurla həyata keçirildiyini xatırladan Fondun prezidenti Xalxal kənd məktəbində tikinti işlərinin gedişi ilə yaxından maraqlandı, öz tövsiyələrini verdi, məktəbin təzə avadanlıqla təchiz olunmasına da yaxından kömək göstəriləcəyini söylədi.*

*Mehriban xanım sonra inşaatçılarla, kənd sakinləri ilə səmimi söhbət etdi, onların qayğı və problemləri ilə maraqlandı.*

*Kənd sakinləri ölkəmizdə təhsilin inkişafına, uşaq evlərinə, internatlara göstərdiyi qayğıya görə Mehriban xanıma ürəkdən gələn xoş sözlər dedilər.*

*Mehriban Əliyeva yeni tikilən məktəbin qarşısında kənd sakinləri ilə xatirə şəkli çəkdirdi.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İSMAYILLI RAYONUNDA

*19 avqust 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 19-da İsmayıllı rayonuna gəldi.*

*Heydər Əliyev adına Mədəniyyət Evinin qarşısına toplaşan on minlərlə insan dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladı. Onların əllərində ümummilli lider Heydər Əliyevin, dövlətimizin başçısının portretləri, prezidenti salamlayan şüarlar var idi. Respublikamızın rəhbərinə və onun xanımına gül dəstələri təqdim olundu.*

*Dövlətimizin başçısı ümummilli liderimiz Heydər Əliyevin mədəniyyət evinin qarşısında ucaldılmış heykəlinin önünə gül dəstəsi qoydu.*

*Sonra burada rayon sakinləri ilə keçirilən görüşdə nitq söylədi.*

**İlham Əliyev:** Əziz bacılar və qardaşlar!

Əziz ismayıllılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz dərin hörmət və məhəbbətimi bildirirəm.

Burada qeyd olundu ki, xalqımızın ulu öndəri Heydər Əliyev 1970-ci illərdə İsmayıllıya dəfələrlə səfər etmişdir. Burada vəziyyətlə tanış olur, öz məsləhətlərini verirdi və Azərbaycanın ümumi inkişafında onun rolu əvəzolunmazdır. Bütün bölgələrə səfərlər edərək, yerlərdə vəziyyətlə tanış olaraq öz göstərişlərini verirdi. O illərdə Azərbaycanın bölgələri, rayonları inkişaf dövrünü yaşayırdı. Bütün bölgələrdə quruculuq, abadlıq işləri getdi. Kənddə yaşayan insanların rifah halı yaxşılaşdı. Azərbaycan o illərdə, Sovet İttifaqı tərkibində yaşadığı bir dövrdə başqa müt-

təfiq respublikalara nisbətən daha yüksək sürətlə inkişaf edirdi və lider bir respublika idi.

Azərbaycanın müstəqilliyi dövründə də, 1993-cü ildən Heydər Əliyevin fəaliyyəti və siyasəti ölkəmizin xoşbəxt gələcəyinin təmin olunmasında müstəsna rol oynadı. Biz hamımız o dövrü xatırlayırıq. 1990-cı illərin əvvəli ölkəmiz üçün çox ağır keçdi. Azərbaycan çox böyük bəlalarla üzləşmişdi. İqtisadi sahədə gedən proseslər ölkənin inkişafına çox mənfi təsir göstərirdi. Siyasi cəhətdən Azərbaycan faktiki olaraq dünyadan təcrid edilmiş vəziyyətdə qalmışdı. Belə çətin illərdə məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində, xalqın ona olan inamı nəticəsində və onun müdrik siyasəti nəticəsində bu çətinliklər aradan qaldırıldı. İndi Azərbaycan bölgədə, dünyada ən yüksək, ən sürətlə inkişaf edən ölkədir. Biz həm iqtisadi inkişafda, həm də xarici siyasətimizdə öz milli maraqlarımızı ləyaqətlə qoruyuruq.

Son illər isə Azərbaycanın bölgələrinin inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir. Mənim fəaliyyətimdə regional inkişaf məsələləri ən vacib yer tutur. Təsadüfi deyil ki, mütəmadi qaydada bütün bölgələrə səfər edir, vəziyyətlə özüm şəxsən tanış oluram. Bizim qəbul etdiyimiz regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının məqsədi məhz budur ki, Azərbaycanın hər bir rayonu, hər bir bölgəsi, hər bir kəndi inkişaf etsin, abadlıq işləri aparılsın və insanlar daha da yaxşı yaşasınlar.

Sizə deyə bilərəm ki, son il yarım ərzində problemlərlə yanaşı, uğurlar da az deyildir. Bu illər ərzində Azərbaycanda – xüsusilə rayonlarda – 260 min yeni iş yeri açılmışdır. Bir tərəfdən, insanlar işlə təmin olunur, əməkhaqqı alırlar, öz rifah halını yaxşılaşdırırlar. Digər tərəfdən, yeni yaranmış müəssisələr istehsala başlayır və bu istehsal xaricdən gətirilən, idxal olunan malları əvəzləyir. Bir sözlə, Azərbaycanda güclü sənaye potensialı yaranır. Təsadüfi deyil ki, 2005-ci ilin ilk altı ayında Azərbaycanın sənaye potensialının artımı 20 faiz təşkil etmişdir. Müqayisə üçün deyə bilərəm ki, inkişaf etmiş ölkələrdə sənaye potensialı və ümumi daxili məhsul, adətən, 2–3 faiz səviyyəsində artır. Amma Azərbaycanda bu, 20 faiz təşkil edir. İlk dəfə olaraq, Azərbay-

canda müstəqillik əldə olunandan sonra sənaye potensialı bütün illər ərzində maksimum 6–7 faiz artmışdı. Bu ilin altı ayında isə artım 20 faizdir. Bu onu göstərir ki, Azərbaycanda bütün sahələrdə inkişaf var.

Xalqımızın ulu öndəri Heydər Əliyev tərəfindən başlanmış və uğurla davam etdirilən neft strategiyamız ölkəmizə böyük xeyir gətirir, vəsait gətirir, Azərbaycanda infrastruktur layihələri həyata keçirilir. Ən önəmlisi odur ki, şəhərlərlə kəndlər arasında fərq azalmalıdır və azalır. Əgər biz buna nail olsaq, Azərbaycanın bölgələri daha sürətlə inkişaf edər, burada canlanma prosesləri daha sürətlə gedər və nəticə etibarilə Azərbaycan xalqı hər yerdə, bütün bölgələrdə daha yaxşı yaşayar. Mənim məqsədim budur. Bundan ötrü də məqsədyönlü proqramlar – həm regional inkişaf proqramı, həm də Azərbaycanda iqtisadi inkişafın sürətləndirilməsini təmin edən digər proqramlar həyata keçirilir.

Kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilir. Bizdə əhalinin 50 faizdən çoxu kəndlərdə yaşayır. Ona görə kənd təsərrüfatının inkişafı ölkəmiz üçün çox vacibdir. Bilirsiniz ki, bu yaxınlarda kənd təsərrüfatının inkişafı üçün «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaradılıbdır. «Aqrolizinq» vasitəsilə yeni texnika, avadanlıq gətiriləcək və kəndlilərə icarə yolu ilə paylanacaqdır. Biz iki-üç il ərzində texnika qıtlığını aradan qaldıracaq və imkan yaradacağıq ki, kəndlilər səmərəli işləsinlər.

Sosial məsələlərə də diqqət göstərilir. Son il yarım ərzində Azərbaycanda minimum əməkhaqqı təxminən 3 faiz artıbdır. Əlbəttə, bu bizi tam qane etmir. Çünki bizdə hələ ki, maaşlar, pensiyalar aşağıdır. Amma dinamika var, artım var. Özü də bu artım 10 faiz, 20 faiz deyil, 100 faiz, 200 faiz, 300 faizdir. Bizim iqtisadi potensialımız gücləndikcə, sosial məsələlərin həllinə daha böyük diqqət göstəriləcəkdir. Mən şübhə etmirəm ki, Azərbaycan ildən-ilə daha yaxşı yaşayacaqdır.

Baxın, 2004-cü ilin büdcəsi təxminən 1 milyard 500 milyon dollar idi. 2005-ci ilin büdcəsi 2 milyard 200 milyon dollar təşkil edir. 2006-cı ilin büdcəsi isə minimum 3 milyard 200 milyon dollar olacaqdır. Gələn il Azərbaycana bir mil-

yard dollar əlavə vəsait daxil olacaqdır. Hara xərclənəcək? İlk növbədə, insanların sosial vəziyyətinin yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına, sosial infrastrukturun yaranmasına. Məktəblər, xəstəxanalar, elektrik stansiyaları tikiləcək, yollar salınacaq, su kəmərləri çəkiləcək, qaz təchizatı yaxşılaşacaq, Azərbaycanın müdafiə potensialı möhkəmlənəcəkdir. Bir sözlə, hər bir inkişafın təməlində maddi durum dayanır. Biz isə öz iqtisadi siyasətimizlə bu maddi vəziyyəti yaxşılaşdırmalıyıq. Ona görə bu proqramlar həyata keçirilir, regionların inkişafı böyük əhəmiyyət kəsb edir.

Mən tam əminəm ki, gələcək illərdə bu artım dinamikası daha da sürətlə gedəcəkdir. Çünki Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri gələn ildən işə düşəcək və Azərbaycan xəzinəsinə milyardlarla dollar vəsait gətirəcəkdir. Ona görə mən hökumətə tapşırıq vermişəm və yerlərdə icra hakimiyyətlərinin başçılarına göstəriş vermişəm ki, regional inkişaf proqramı ilə yanaşı, hər bir rayonun öz inkişaf proqramı olmalıdır. Siz bunu məndən, yaxud da Bakıda oturanlardan daha da yaxşı bilirsiniz ki, hansı sahə daha çox inkişaf etməlidir, hansı sahəyə daha çox vəsait qoyulmalıdır. O proqramlar təqdim olunacaq, onlara əsasən vəsait ayrılacaqdır.

Sizin səmərəli işinizdən də çox şey asılıdır. Hökumət öz proqramlarını təqdim edir və bu proqramlar təkcə şüar deyil, əsaslı, düşünülmüş sənəddir və onun arxasında maddi resurslar dayanır. Amma yerlərdə də bu resurslardan maksimum dərəcədə səmərəli istifadə olunmalıdır ki, ayrılan vəsait məqsədyönlü şəkildə xərclənsin. Əlbəttə ki, ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün fərdi problemlərlə də məşğul olmaq lazımdır. Azərbaycanın qarşısında duran qlobal problemlər var, regional problemlər var və hər bir insanın, hər bir fərdin problemləri var. Biz bu problemlərlə hamımız məşğul olmalıyıq.

Mən dünən Qəbələ və Oğuz rayonlarında olarkən, görüşlər keçirərkən çoxlu məktublar, ərizələr almışam. Mənə, yaxud da mənim nümayəndələrimə təqdim olunan bütün məktublara diqqətlə baxılır və onlar təhlil olunur. Təhlil onu göstərir ki, bu

məktublarda daha çox şəxsi məsələlər öz əksini tapır. Yəni hansısa xahişlərdir, hansısa ailədə bir xəstə var, onun müalicəsinə ehtiyac var. Yaxud ailədə tələbə var və pullu sektorda oxuyur, ancaq imkan yoxdur ki, o pulu ödəsinlər. Yəni bu məktubların, ərizələrin təhlili onu göstərir ki, Azərbaycanda artıq ciddi məsələ yoxdur. Çox böyük şikayətlər də yoxdur. Sadəcə olaraq, məktubların tam əksəriyyətinin məzmunu xahişlərdən ibarətdir. Bu xahişlər də yerinə yetirilməlidir. Çünki biz çalışmalıyıq ki, Azərbaycanda insanlar daha yaxşı yaşasınlar. Gərək hər bir müraciətə, hər bir məktuba diqqətlə yanaşılsın. Mən bunu edirəm və yerlərdə mənim nümayəndələrim də etməlidirlər. Yerli icra orqanlarının nümayəndələri insanlara böyük qayğı ilə, böyük diqqətlə yanaşmalıdırlar. Bu gün də burada mənim nümayəndələrim var. Mən onları buraya gəlməzdən əvvəl göndərdim ki, ərizələr, şikayətlər yığılsın, sonra mənə təqdim olunsun. Əmin ola bilərsiniz ki, hər bir məktuba diqqətlə baxılır və tədbirlər görülür.

Əziz dostlar, mən bir daha demək istəyirəm ki, İsmayıllıda olmağımdan çox məmnunam. Mən İsmayıllı rayonunda keçmişdə çox olmuşam. Buranın çox gözəl təbiəti, çox gözəl iqlimi var və ən əsası odur ki, burada çox gözəl insanlar, zəhmətkeş, vətənpərvər insanlar yaşayır. Bu bölgənin inkişafı üçün kənd təsərrüfatı ilə yanaşı, turizmin inkişafı da böyük əhəmiyyət kəsb edir. Bu gün burada yeni yaradılmış turizm obyektinə də baş çəkəcəyəm, maraqlanacağam. Bu bölgənin hərtərəfli inkişafı üçün biz hamımız – Azərbaycanın rəhbərləri, hökuməti və siz, əziz bacılar və qardaşlar, birgə çalışmalıyıq.

Sizin hamınızı bir daha ürəkdən salamlayıram, sizə cansağlığı, işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra dövlətimizin başçısı İlham Əliyev sakinlərə yaxınlaşaraq onlarla səmimi görüşdü, problemləri və qayğıları ilə maraqlandı.*

*Sakinlər prezidentə dərin təşəkkürlərini bildirdilər, rayonda onu görməklərindən məmnunluqlarını ifadə etdilər və bu görü-*

*şün onların xatirəsində əbədi qalacağını vurğuladılar. Onlar ümummilli lider Heydər Əliyevin də tarixi xidmətlərini, İsmayıllıya göstərdiyi diqqət və qayğını unutmayaraq bildirdilər ki, biz onunla fəxr etmişik və bu gün də Sizinlə fəxr edirik ki, dahi öndərin daxili və xarici siyasətini həyata keçirirsiniz. Əminik ki, ölkəmizin, regionların daha sürətlə inkişafına nail olacaq və əhalimizi xoşbəxt gələcəyə çıxaracaqsınız.*

*Azərbaycan prezidenti İlham Əliyev sonra İsmayıllı rayonunun iqtisadi inkişafını əks etdirən sərgi ilə tanış oldu. Prezident rayonun xalça fabrikinin, «Gülüstan» MMC-nin xalçalarına, Lahıc misgərlərinin əl işlərinə, «Sandal» ayaqqabı fabrikinin, «Şərab-1» ASC-nin, İsmayıllı Ət-Süd emalı SC-nin məhsullarına, «Şəfa» MMC-nin dərman bitkilərinə, Basqal kəlağayılarına, «Xoşbəxt X» kiçik müəssisəsinin məhsullarına baxdı.*

*Prezidentə məlumat verildi ki, «Sandal» ayaqqabı fabriki 1995-ci ildən fəaliyyət göstərir, müəssisəyə 250 milyon manat investisiya qoyulmuşdur. 25 nəfərin çalışdığı fabrikdə il ərzində 20 çeşiddə 150 milyon manatlıq məhsul istehsal olunur.*

*Əsasən böyrək, qaraciyər, ürək, öd xəstəliklərinin müalicəsi üçün dərman bitkiləri toplayıb qablaşdıran «Şəfa» MMC 2005-ci ildən fəaliyyət göstərir. İsveçrədən alınmış qrant hesabına 75 min dollar sərmayə qoyulan və 50 nəfər çalışan bu müəssisədə 26 adda məhsul hazırlanır.*

*2005-ci ildən fəaliyyət göstərən «Şərab-1» Səhmdar Cəmiyyətinə 300 milyon manat sərmayə qoyulmuşdur. İstehsal gücü 600 min dekalitr olan müəssisədə 7 adda konyak, 3 adda şərab məhsulları buraxılır. Burada 30 nəfər işlə təmin edilmişdir.*

*Dövlətimizin başçısı İsmayıllı Quşçuluq ASC-nin məhsullarına da baxdı. Məlumat verildi ki, 700 milyon manat sərmayə qoyulmuş müəssisədə 50 nəfər çalışır, illik istehsal gücü 600 tondur.*

*Prezident İlham Əliyev sahibkarların inkişafına dövlət qayğısının daha da artırılacağını, rayonların inkişafına göstəriləcək köməyin davam etdiriləcəyini vurğuladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSMAYILLI RAYONUNDA

*19 avqust 2005-ci il*

### Ümummilli lider Heydər Əliyevin adını daşıyacaq parkla tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev İsmayıllı rayonunun mərkəzində salınan və ümummilli lider Heydər Əliyevin adını daşıyacaq parkda görülən işlərlə də tanış olmuşdur. Parkın qarşısına toplaşanlar dövlətimizin başçısını və onun xanımını böyük sevinclə qarşıladılar.*

*Prezidentə məlumat verildi ki, parkda iri və xırda attraksionlar quraşdırılacaq, idman meydançaları, ana və uşaq kafesi, karusellər, üzgüçülük hovuzu, futbol meydançası, fəvvarələr kompleksi, su kanalları, digər istirahət meydançaları, kinoteatr tikilir. Parkın 4 min kvadratmetr gəzinti yerləri və bir o qədər asfalt örtüklü yolları, 7 hektara yaxın yaşıllıq və güllük sahəsi olacaqdır.*

*Parkın nəzdində Uşaq-Gənclər Yaradıcılıq-Sağlamlıq Mərkəzi də fəaliyyət göstərəcəkdir. Əhalinin, əmək kollektivlərinin çoxsaylı müraciətlərini nəzərə alaraq parka ümummilli liderimiz Heydər Əliyevin adı verilmişdir. Birinci mərhələdə 700 milyon manatlıq iş görüləcəkdir. İnşaat işlərinin birinci mərhələsi bu ilin sentyabr ayında başa çatacaq, ikinci mərhələsi isə 2008-ci ilin sentyabrında tamamlanacaqdır.*

*Prezident İlham Əliyev parkın layihəsi ilə tanış oldu, burada görülən işləri yüksək qiymətləndirdi, müasir standartlara uyğun istirahət guşəsinin gözəl bir məkana çevriləcəyini və sakinlərə xidmət göstərəcəyini vurğuladı.*

### «Green House» İstirahət-Turizm Mərkəzinin açılışı

*Azərbaycan prezidenti İlham Əliyev İsmayıllının Sumağallı kəndi yaxınlığında yerləşən «Green House» İstirahət-Turizm Mərkəzinin açılışı mərasimində iştirak etmək üçün buraya gəldi. Sonra müasir standartlara cavab verən bu turizm obyektinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Gənclər, İdman və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına məlumat verdi ki, 2 hektar ərazisi olan bu istirahət güşəsində eyni vaxtda 110 nəfərin dincəlməsi üçün 3 ədəd üçmərtəbəli kottec tipli ev, 6 ədəd birmərtəbəli taxta kottec, 180 yerlik restoran, konfrans salonu, açıq hovuz (30 m x14 m), 10 ədəd istirahət köşkü, futbol meydançası, camaşırxana, uşaq əyləncə mərkəzi, konsert səhnəsi tikilmişdir. İstirahət mərkəzinə 5 kilometr asfalt yol çəkilmişdir. Burada 65 nəfər xidmət heyəti çalışır. Gələcəkdə dördmərtəbəli 102 otaqlı mehmanxana, xarici və yerli idmançıların istirahəti və təlim-məşq toplanışı üçün idman kompleksi, yeni tennis kortu, voleybol və basketbol meydançaları tikiləcəkdir. Yaxın iki il ərzində burada 250 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Xidmət heyəti Türkiyədə xüsusi kurslar keçmişdir.*

*Prezident İlham Əliyev İstirahət-Turizm Mərkəzi ilə ətraflı tanış oldu, bu obyektin dilbər bir guşədə, Avropa standartlarına uyğun inşa edildiyini xüsusi vurğuladı və ölkəmizdə turizm sektorunun bundan sonra daha da inkişaf etdirilməsinin əhəmiyyətini xatırlatdı.*

# İSMAYILLI RAYONU İVANOVKA KƏNDİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*19 avqust 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev İsmayıllı rayonunun İvanovka kəndində olmuşdur.*

*Kəndin mərkəzi meydanına toplaşmış minlərlə sakin dövlətimizin başçısını və xanımını böyük səmimiyyətlə və alqışlarla qarşıladı.*

*İvanovka sakinlərinin əcdadları Azərbaycanın bu mənzərəli və bərəkətli guşəsinə bir neçə əsr əvvəl Rusiyadan köçürülmüşlər. Onların nəsilləri burada əmin-amanlıq şəraitində yaşamış, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak etmişlər.*

*Kənd mədəniyyət evinin qarşısında prezident İlham Əliyevin ivanovkalılarla görüşü oldu. Görüşü Nikitin adına kolxozun sədri Aleksey Kozlovtsev açdı.*

**İlham Əliyev:** Əziz dostlar!

Əziz ivanovkalılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz hörmət və məhəbbətimi bildirirəm. Mən sizin rəhbərinizlə, Azərbaycanın rus icmasının ölkəmizin müxtəlif bölgələrində yaşayan nümayəndələri ilə lap bu yaxınlarda görüşmüşəm. Bizim çox ətraflı, çox açıq söhbətimiz oldu. Müxtəlif nöqteyi-nəzərləri bilmək, Azərbaycanın bütün bölgələrində əmin-amanlıq olduğunu bir daha eşitmək mənə çox xoş idi. Ölkəmizdə yaşayan bütün xalqlar arasında sülh olması bu gün müstəqil Azərbaycanda ən böyük nailiyyətlərdən biridir.

Biz tarixi çox yaxşı bilirik, müxtəlif ölkələrdə baş verən hadisələri izləyir və görürük ki, heç də hər yerdə belə deyildir.

Elə ölkələr var ki, orada müxtəlif millətlərin nümayəndələri müxtəlif həyat sürür, müxtəlif maraqlarla yaşayırlar, qarşıdurmalar, problemlər mövcuddur. Bizim ölkəmizdə belə şeylər yoxdur. Bu, Azərbaycanın bütün vətəndaşlarının çox böyük xidmətidir. Bu, 1970-ci illərdə də, 1990-cı illərdə də milli həmrəyliyə, milli sülhə yönəldilən siyasət aparmış ümummilli liderimiz Heydər Əliyevin çox böyük xidmətidir. Azərbaycanın hər bir vətəndaşının eyni hüquqları və vəzifələri vardır. İnsanlar arasında milli və ya dini baxımdan heç vaxt, keçmişdə də heç bir fərq qoyulmayıb və bundan sonra da qoyulmayacaqdır. Heydər Əliyev sizin kəndə, ivanovkalılara həmişə xüsusi diqqətlə yanaşmışdır, burada dəfələrlə olmuşdur. Onun səmimi xatirələrini mən də eşitmişəm. Sonralar sizin rəhbərinizlə görüşümüzdə o günləri bir də xatırladıq. Bu hisslər səmimi idi, qəlbin dərinliklərindən gələn hisslər idi və mən bu hissləri indi də keçirirəm. Bu gün, sizin qonağınız olduğum vaxtda çox dərin məmnunluq hissləri keçirirəm.

Sizin burada firavan yaşamağınızdan, təsərrüfatla məşğul olmağınızdan, bütün məsələlərinizi özünüzün həll etməyinizdən dərin məmnunluq duyuram. Bilirsiniz ki, Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra islahatlar – o cümlədən kənd təsərrüfatında – başlayanda, belə bir arzu ifadə edildi ki, sizin kolxoz olduğu kimi qalsın. Ona görə də bütün qaydalardan bir istisna kimi, kolxozun saxlanılması qərara alındı.

Məktəb tikintisi barədə müraciət də olmuşdur. Bildiyiniz kimi, indi bir çox rayonlarda məktəblər tikilir. Biz bu müraciət barədə danışdıqdan dərhal sonra hökumətə göstəriş verdim ki, burada ən müasir məktəb tikilməsi üçün layihə hazırlansın, yer ayrılsın. Hörmətli Mariya xalanın dediklərini də tam dəstəkləyirəm ki, ivanovkalılar – yaşlı nəsil də, gənc nəsil də İvanovkada yaşamalıdır, heç kim köçüb getməməlidir. Bunun üçün nə lazımdırsa, hamısını edəcəyik. İrəli sürdüyünüz bütün məsələləri – iş yerləri yaradılması barədə də, maliyyələşdirmə barədə də, əgər lazımdırsa, kredit verilməsi barədə də, kənd

təsərrüfatı texnikası barədə də məsələləri həll edəcəyik. Bütün mövcud məsələlər həll olunacaqdır.

Bu gün Azərbaycanda işlər yaxşı gedir, iqtisadiyyat inkişaf edir, regionlar inkişaf edir. Mən Azərbaycanın bütün rayonlarına gedirəm, vəziyyətlə tanış oluram. Dünyada ən yüksək iqtisadi artım bizdədir, büdcəmiz artır. Gələn il büdcəmiz azı 3 milyard 200 milyon dollara çatdırılacaq, bu il 2 milyard 200 milyon dollar, ötən il 1 milyard 500 milyon dollar olmuşdur. Yəni iki ildə büdcə iki dəfədən çox artacaqdır. Dünyanın heç bir ölkəsində belə artım yoxdur. Ona görə də maliyyə imkanlarımız artdıqca, təbii ki, regionların inkişafına, ilk növbədə, kənd təsərrüfatının inkişafına daha çox vəsait ayrılacaqdır. Azərbaycanda güclü sənaye potensialı var və indi neft potensialı da möhkəmlənir. Lakin əhalinin yarısından çoxu kənd yerlərində yaşayır, kənd təsərrüfatı ilə məşğuldur. Ona görə də kənd təsərrüfatının inkişafına kömək üçün müxtəlif tədbirlər görülür, əhalini texnika ilə təmin edəcək «Aqrolizinq» səhmdar cəmiyyəti yaradılmışdır. Əlbəttə ki, sahibkarlara kreditlər veriləcəkdir. Ona görə də bu istiqamətdə məsələlər həll olunacaqdır.

Mən çoxmillətli ölkəmizdə milli həmrəyliyin və sülhün olmasını müstəqil Azərbaycanın ən başlıca nailiyyətlərindən biri hesab edirəm. Çoxmillətli ölkədə yaşamaq böyük xoşbəxtlikdir. Yalnız bir millətin nümayəndələrinin yaşadıqları ölkələrdə insanlar özlərini çox şeydən məhrum edir, mədəniyyətlərin qarşılıqlı təsirindən, bir-birini zənginləşdirməsindən zövq ala bilmir, xalqlar arasında dostluğun nə demək olduğunu başa düşə bilmirlər. Azərbaycanda isə əksinədir və bu bizim dövlətimizin siyasətidir, bu, ölkənin hər bir vətəndaşının qəlbində, canında yaşayır.

İnsanların hissləri ilə dövlət siyasətinin uyğun gəlməsi çox vacibdir. Başlıcası odur ki, bu belə də davam etsin, saxlanılsın və ölkəmiz, onun hər bir vətəndaşı gündən-günə daha yaxşı yaşasın, həyat, iş, təhsil üçün yaxşı şərait, yaxşı tibbi xidmət olsun. Bunların hamısı gündəlikdədir və maliyyə imkanları

artdıqca bütün sosial məsələlərə – əməkhaqqına, pensiyalara və digər sosial ödənişlərə daha çox diqqət yetiriləcəkdir.

Mən sizi bir daha ürəkdən salamlamaq istəyirəm. Bu gün mənim üçün çox fərəhli gündür. Çoxdan sizin kəndinizə gəlmək istəyirdim. Əlbəttə, bunu öz proqramımda planlaşdırmışdım. Biz bu yaxınlarda Bakıda görüşərkən demişdim ki, İsmayıllı rayonunda olacağam və hökmən kəndinizə gələcəyəm. Budur, artıq gəlmişəm. Sizə öz hörmətimi bildirirəm. Xoşbəxt yaşayın. Mən isə sizə kömək üçün öz tərəfimdən hər şeyi edəcəyəm. Sizə xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

* * *

*Görüşdə Azərbaycan prezidentinə və xanımına xatirə hədiyyələri təqdim edildi.*

*Dövlətimizin başçısı kolxozun fəaliyyəti ilə tanış oldu, istehsal binalarına baxdı. Mədəniyyət sarayında ivanovkalıların istehsal etdikləri kənd təsərrüfatı məhsullarından ibarət sərgi ilə tanış oldu. Aleksey Kozlovtsev prezident İlham Əliyevə məlumat verdi ki, kolxoz 1936-cı ildə yaradılıb, hazırda kəndin əhalisi 3 min nəfərdən çoxdur, onların 2250 nəfəri ruslar, 455-i ləzgilər, 324-ü azərbaycanlılardır. Kolxozun ərazisi 8497 hektardır, onun 67 hektarı dövlət mülkiyyəti, 2907 hektarı bələdiyyə mülkiyyəti, 198 hektarı həyətyanı sahə, 4715 hektarı isə özəlləşdirilmiş əkin sahəsidir. Hazırda kolxozda 2617 baş qaramal, 6233 baş davar, 1014 donuz, 2233 ev quşu var. Kolxozda bitki yağı, pendir və kərə yağı, kərpic istehsal edən sexlər, çörək-bulka sexi, iki dəyirman, asfalt zavodu fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev Mədəniyyət sarayının qonaq salonuna, habelə kənd klubuna da baxdı, mədəniyyət sahəsində ənənələrin qorunub saxlanmasından məmnunluq duyduğunu söylədi.*

*Sonra Azərbaycan prezidenti kolxozun və İvanovka bələdiyyəsinin inzibati binaları, habelə kəndin Qonaq evi ilə tanış oldu. Məlumat verildi ki, ümummilli lider Heydər Əliyev 1981-ci ilin iyulunda İvanovkada olarkən bu evdə qalmışdır. Dövlət*

*başçısı həmin vaxt çəkilmiş və görkəmli siyasi xadimin qaldığı otaqda nümayiş etdirilən fotoşəkillərə baxdı.*

*Prezident İlham Əliyev fəxri qonaqlar kitabina ürək sözlərini yazdı:*

«Olduqca şadam ki, İvanovka kəndində Heydər Əlirza oğlu, Zərifə Əziz qızı haqqında çox xatirələr var. İvanovkalıların mənim valideynlərimin xatirəsinə belə ehtiramla və səmimi münasibət bəsləməsini yüksək qiymətləndirirəm. Atamın işini davam etdirmək üçün öz tərəfimdən var qüvvə ilə səy göstərəcəyəm. İvanovkalılara və kəndin problemlərinə münasibətim Heydər Əliyevin siyasətinin davam etdirilməsidir. Mənə, ailəmə göstərilən səmimi və mehriban münasibətə görə bütün kənd camaatına təşəkkür edirəm. Bütün ivanovkalılara əmin-amanlıq və firavanlıq arzulayıram.

**Azərbaycan Respublikasının**
**Prezidenti İlham Əliyev**

**19 avqust 2005-ci il».**

# İSMAYILLI RAYONUNDAKI «GREEN HOUSE» İSTİRAHƏT-TURİZM MƏRKƏZİNDƏ BÖLGƏYƏ SƏFƏRDƏ ONU MÜŞAYİƏT EDƏN JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*19 avqust 2005-ci il*

**– Cənab Prezident, Siz dəfələrlə bəyan etmisiniz ki, Dağlıq Qarabağ probleminin həlli istiqamətində aparılan danışıqlarda bir nəticə yoxdur. Belə olan halda, Kazan danışıqlarından nə isə yeni bir şey gözləmək olarmı?**

– Nəticə yoxdur, bunu biz hamımız görürük. Amma eyni zamanda, hələ ki, ümidlər var. Nə qədər ki, bu ümidlər var, biz danışıqları davam etdirməliyik. Hesab edirəm ki, son müddət ərzində görülən işlər nəticəsində beynəlxalq birlik bu məsələyə daha da birmənalı şəkildə yanaşmağa başladı və beynəlxalq təşkilatlarda bu məsələnin müzakirəsi onu göstərir ki, diqqət azalmır. Bundan əlavə, deyə bilərəm ki, qəbul olunmuş qərarlar da reallığı əks etdirir.

**– Cənab Prezident, Siz Azərbaycanın Borjomi bəyannaməsinə qoşulması perspektivini necə qiymətləndirirsiniz?**

– Biz belə bir məsələni nəzərdən keçirməmişik.

**– Perspektivi də?**

– Əvvəlcə öyrənmək lazımdır ki, bu nə bəyannamədir. Mən onunla tanış deyiləm.

**– Cənab Prezident, «qara piar»ın dayandırılması ilə bağlı həm mətbuatdan, həm də ziyalılardan Sizə müraciətlər olubdur. Siz bu müraciətlərə necə münasibət bəsləyirsiniz, müdaxilə edirsinizmi?**

– Mən necə müdaxilə edə bilərəm. Bizdə mətbuat azadlığı var, söz azadlığı var, qəzetlər istədiyini yazırlar və bilirsiniz ki, biz heç bir mətbu orqana heç bir təzyiq göstərmək fikrində deyilik. Heç bir təsir də göstərmək fikrində deyilik. Ona görə yaxşı olardı bu müraciətlər o mətbu orqanlara ünvanlansın ki, onların fəaliyyətində hansısa narahatçılıq var. Sadəcə olaraq, prezident kimi, mən azad mətbuatın tərəfdarıyam. Eyni zamanda, hesab edirəm ki, ölkəmizin normal, demokratik inkişafı üçün bütün siyasi mübarizələr etika çərçivəsində aparılmalı, heç bir təhqirə yol verilməməlidir. Ancaq məsələ belədir ki, hər iki tərəf, ya üç tərəf, ya beş tərəf gərək buna riayət etsin. Əgər hansısa mətbu orqan kiməsə qarşı böhtan kampaniyası aparırsa, fikirləşməlidir ki, bu kampaniya nə vaxtsa ona qarşı da başlanacaqdır. Ona görə mənə bu müraciəti ünvanlamaqla, hesab edirəm ki, düzgün ünvan seçilməyibdir. Bu, gərək mediaya ünvanlansın və media özü qərarını versin.

**– Cənab Prezident, dialoq məsələsinə toxunmaq istəyirəm. Bir çox hallarda dialoq baş verdi, ancaq müxalifət tərəfdən müəyyən formalarda bunun qarşısı alındı, etiraz edildi, çox zaman onlar gəlmədilər. Bəs bu gün vəziyyət necədir, dialoq Sizi qane edirmi?**

– Hər halda, müsbət hal odur ki, uzun fasilədən sonra bu dialoq başlandı və biz gərək buna realist baxımdan yanaşaq. Demək olar ki, Azərbaycan müstəqilliyini bəpra etdikdən sonra iqtidar – müxalifət dialoqu aparılmamışdır. Bizdə belə siyasi təcrübə olmamışdır və bu bizim böyük qüsurumuzdur. İndi bu proses başlandı. Əlbəttə ki, mən istərdim bu proses daha sürətlə və səmərəli getsin, amma bu da təkcə bir tərəfdən asılı deyildir. Elə məsələ var ki, bunu hökumət və ya hakim partiya, yaxud da ki, iqtidar həll etməlidir və həll edir. Elə məsələ də var ki, təkcə bir tərəfdən asılı deyildir. Dialoqda iki tərəfin iştirakı vacibdir. Hər halda, gələcək göstərər.

**– Cənab Prezident, müxalifət dialoqun davam etdirilməsi üçün Sizinlə, yaxud da Ramiz Mehdiyevlə bir masa arxasında oturmğı təklif edirdi. Buna münasibətiniz necədir?**

– Dialoq partiyalar arasında aparılır. Ümumiyyətlə, bizdə bütövlükdə cəmiyyətdə dialoqun aparılmasına ehtiyac yoxdur. Çünki cəmiyyət birmənalı şəkildə öz seçimini edibdir və bizim apardığımız siyasəti dəstəkləyir. Əlbəttə ki, partiyalar arasında dialoqun aparılması zəruridir. Çünki əsas ixtilaflar partiyalar arasındadır. Bu baxımdan hesab edirəm ki, mövcud format məqsədəuyğundur və Yeni Azərbaycan Partiyasının rəhbər işçiləri, partiya sədrinin müavini birbaşa dialoqda iştirak edirlər. Hesab edirəm ki, bu səviyyə indiki məqam üçün uyğundur.

**– Cənab Prezident, Amerika hərbi bazalarının Azərbaycanda yerləşdirilməsi məsələsi müzakirə mövzusudurmu? Son zamanlar belə məsələlər məbuatın diqqətindədir.**

– Xeyr, müzakirə mövzusu deyildir. Mətbuatda bu məsələlərə böyük diqqət göstərilir. Daha doğrusu, deyə bilərəm ki, yerli mətbuatda. Mən xarici mətbuatı da izləyirəm, orada belə ciddi müzakirə aparılmır. Bilmirəm, nədənsə yerli mətbuatda bu məsələyə daha çox yer ayrılır. Amma hesab edirəm ki, həm mənim bəyanatlarım, həm də Amerika rəsmilərinin çıxışları bu məsələyə aydınlıq gətirir. Bu məsələ müzakirə olunmur.

**– Cənab Prezident, YAP-ın namizədlər siyahısı təqdim olundu. Partiyanın sədri kimi, Siz siyahının hansı prinsiplər əsasında tutulması barədə nə deyə bilərsiniz?**

– Bu məsələ Yeni Azərbaycan Partiyasının İdarə Heyətində müzakirə olundu və siyahı təsdiq edildi. Əlbəttə ki, partiyanın rəhbəri kimi, mən bu tərkibin formalaşmasında çox ciddi rol oynamışam və mənim fikirlərim o tərkibdə öz əksini tapmışdır. Mən hesab edirəm ki, partiyanın qarşısında böyük xidmətlər göstərmiş insanlar, cəmiyyətdə nüfuz sahibi olan insanlar mütləq siyahıda olmalıdırlar. Eyni zamanda, cəmiyyətdə olduğu kimi, yeniləşmə prosesi də getməlidir.

Bizim partiyamızda bu yeniləşmə prosesi gedir və siyahıda yeni adların görünməsi məhz bunun təzahürüdür. Deyə bilmərəm ki, bütün siyasi partiyalarda yeniləşmə prosesi gedir. Ona görə bəzi siyasi partiyalarda uzun illərdir ki, durğunluq müşahidə olunur və bildiyiniz kimi, durğunluq da heç vaxt

müsbət nəticəyə gətirib çıxarmır. Deyə bilərəm ki, bu siyahı seçicilər tərəfindən də müsbət qarşılanmalıdır. Biz elə namizədlər irəli sürməliyik ki, seçicilər onların fəaliyyətini bəyənsinlər və onlara səs versinlər. Mən şübhə etmirəm ki, Yeni Azərbaycan Partiyasının nümayəndələri seçkilərdə qələbə qazanacaqlar.

**– Cənab Prezident, biz burada bölgənin sahibkarları ilə söhbət etdik. Onlar dedilər ki, sahibkarlığın inkişafına kifayət qədər yardım göstərilir. Amma Sahibkarlığa Kömək Milli Fondundan verilən kreditlərlə bağlı müəyyən problemlər var. Birincisi odur ki, girov məsələsinə görə onlar yüksək məbləğdə kredit ala bilmirlər. İkincisi isə, müvəkkil banklar ayrı-seçkiliyə yol verirlər.**

**Keçən il bu qaydalara dəyişiklik olmuşdur. Bu il necə, bu sahədə hansısa işlər görüləcəkmi?**

–Bu sahədə işlər görüləcək və görülür. Müqayisə üçün deyə bilərəm ki, keçən il bu məqsədlərə 100 milyard manat, ondan əvvəlki il 60 milyard manat, bu il 200 milyard manat ayrılmışdır. Gələn il ən azı 400 milyard manat ayrılacaqdır. Yəni hökumət öz tərəfindən bu məsələnin inkişafını dəstəkləyir. Hansı yolla biz bunu edə bilərik? Yalnız büdcədə nəzərdə tutulmuş kreditlərin həcminin artırılması ilə. Ancaq, əlbəttə ki, bütün bu məsələlər mövcud olan qanunvericiliyə uyğun şəkildə həll edilməlidir. Əlbəttə, burada müvəkkil bankların da müəyyən riskləri var. Çünki müvəkkil banklar bu məbləği nəticə etibarilə dövlətə qaytarmalıdır. Ona görə, ilk mərhələdə kredit girov qoyulmaqla verilir. Ancaq mən də bilirəm ki, bəzi yerlərdə sahibkarlıqla məşğul olmaq istəyənlərin, sadəcə, əmlakı yoxdur ki, onu girov qoysun. Bu məsələyə də biz baxacağıq. Yəni, bu bizim üçün, belə demək mümkündürsə, yeni bir istiqamətdir. Böyük həcmdə kreditlər ayrılmasının davam etdirilməsi çox vacibdir və biz gərək bu sahədə sahibkarların işini maksimum yüngülləşdirək. Çünki Azərbaycanın inkişafı özəl sektorun hesabına olacaqdır. Sahibkarlığın inkişafı, özəl sektorun formalaşması ölkəmizin iqtisadi inkişafı üçün çox vacib bir amildir.

**– İlham müəllim, hazırda Azərbaycanın ədalət mühakiməsindən xaricdə gizlənən bir sıra siyasətçilər parlament seçkilərində iştirak etmək istədiklərini bildirirlər. Onların bu səylərini necə qiymətləndirirsiniz? Onlar hesab edirlər ki, siyasi hüquqları bu yolla təmin olunur.**

– Mən hər bir insanın hüququnu və vəzifələrini qanun və Konstitusiya çərçivəsində qiymətləndirirəm. Azərbaycanda biz öz fəaliyyətimizdə qanunun və Konstitusiyanın tələblərinə ciddi əməl etməyə çalışırıq. Seçki hüququ mövcuddur, hər kəsin ondan istifadə etmək haqqı var. Kiminsə namizədliyinin qeydiyyata alınması üçün heç bir məhdudiyyət yoxdur. Kimlərinsə qanunla bağlı problemləri varsa, cinayət törətmişlərsə və buna görə cavab verməlidirlərsə, bu başqa məsələdir. Onlar deputatlığa namizəd olub-olmadıqlarından asılı olmayaraq, buna görə cavab verməlidirlər. Bunların biri digəri ilə heç cür bağlı deyildir.

**– Cənab Prezident, mən yenə Dağlıq Qarabağ münaqişəsinə toxunmaq istərdim. Müşahidəçilər belə fikir söyləyirlər ki, tərəflər heç vaxt sülh danışıqlarına indiki kimi yaxın olmayıblar. Sizin bu fikrə münasibətiniz necədir və razılaşdırılmış prinsipial məqamlar varmı? Bəzi mətbuat orqanları da yazırlar, Dağlıq Qarabağda referendum keçirilməsi məsələsi müzakirə mövzusu ola bilərmi?**

– Mən hesab edirəm ki, son müddət ərzində əldə edilmiş irəliləyiş, əlbəttə, mühüm əhəmiyyət kəsb edir, amma sülhün bağlanmasına təminat vermir. Çünki tərəflərin mövqelərində hələ də ciddi fikir ayrılığı var.

Ermənistanın mövqeyindən fərqli olaraq, bizim mövqeyimiz dəyişməz qalır. Uzun illər ərzində, xüsusən də mən prezident vəzifəsinə seçildiyim gündən bizim mövqeyimiz bəyan edilib, ictimaiyyətə təqdim olunmuşdur. 2003-cü ilin sonunda Ermənistan prezidenti ilə görüşümüzdə Ermənistan tərəfinə də bəyan edildi və o vaxtdan bu günə qədər bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bunu beynəlxalq ictimaiyyət də bilir, Azərbaycan xalqı da bilir. İşğal olunmuş torpaqlar azad

olunmalıdır və qaçqınlar, köçkünlər doğma torpaqlarına qayıtmalıdırlar. Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə təminat olmalıdır və onlara ən yüksək muxtariyyət statusu verilə bilər. Praqa prosesi adlandırdığımız çərçivə artıq mərhələli həllin təzahürüdür. Mərhələli həll də ondan ibarətdir ki, ilk növbədə torpaqlar boşaldılır, ondan sonra isə hər iki tərəf status haqqında mümkün ola bilən razılığa gələ bilər. O hansı razılıq ola bilər – bunu tərəflər müzakirə etməlidirlər. Bu müzakirə bir ay da gedə bilər, 1 il də gedə bilər. Hər halda, buna heç bir vaxt məhdudiyyəti qoyulmamalıdır.

Onu da deməliyəm ki, Azərbaycanın, Azərbaycan xalqının iradəsindən kənar heç bir qərar qəbul edilməyəcəkdir. Biz başa düşürük ki, Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi təmin olunmalıdır. Bu təbiidir və biz buna normal yanaşmalıyıq. Ancaq eyni zamanda, Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaqdır. Bir daha demək istəyirəm ki, bütün amillər Azərbaycanın xeyrinə işləyir. Hüquqi müstəvidə bu, ümumiyyətlə, müzakirə mövzusu deyil, hamı bilir ki, biz haqlıyıq. Siyasi cəhətdən beynəlxalq təşkilatların qərarları və addımları ədaləti əks etdirir. İqtisadi cəhətdən Ermənistan Azərbaycanla, ümumiyyətlə, rəqabət apara bilmir və bilməyəcəkdir. Müdafiə potensialının gücləndirilməsi bizim üçün prioritet məsələdir və biz bunu çox güclü şəkildə artıracağıq. Ona görə də Ermənistan tərəfinin, sadəcə, xeyrinə olardı ki, bütün bu reallıqları dərk eləsin və müasir şəraitə uyğun şəkildə addımlar atsın. Qloballaşan dünyada, Avropa sərhədlərini genişləndirdiyi bir vaxtda separatizmə yol yoxdur. Heç bir xalq, heç bir qurum, hətta tanınmamış qeyri-qanuni qurum təcrid olunmuş vəziyyətdə uzun müddət yaşaya bilməz. Bu reallıqdır. Çox mühümdür ki, Azərbaycanın mövqeyi dünyada gedən proseslərə uyğundur. Ermənistanın mövqeyi isə, sadəcə olaraq, keçmişin təzahürüdür, keçmişin əlamətidir və gələcəkdə bu köhnə baqajla beynəlxalq aləmdə yaşamaq onlar üçün çətin olacaqdır.

**– Cənab Prezident, üç rayonda oldunuz, ümumiyyətlə, regionların inkişafı və buradakı vəziyyət Sizi qane edirmi?**

**Eyni zamanda, regionların iqtisadi inkişafı proqramına özünüz nəzarət edirsiniz, perspektivdə hansı planlar vardır?**

– Yaxşıdır, təəssürat yaxşıdır. Qəbələ rayonunda gedən abadlıq-quruculuq işləri məni daha çox sevindirdi. Orada şəhər daha da abadlaşıbdır, eyni zamanda çoxlu yeni müəssisələr yaradılır. Bildiyiniz kimi, bir müddət bundan əvvəl hər üç rayonda mənim tərəfimdən icra hakimiyyəti başçıları dəyişildi. Qəbələdə 2004-ü ildə, İsmayıllıda və Oğuzda bu ilin may ayında. İnsanlarla ünsiyyətdə olduğum vaxtda hiss etdim ki, bu dəyişikliklər də müsbət qarşılanır. Vaxt lazımdır, mən çox sevinirəm ki, yeni təyin olunmuş rəhbərlər, icra hakimiyyəti başçıları böyük həvəslə, maraqla işləyirlər. Onların qarşısında qoyulmuş vəzifə məhz bundan ibarət olmuşdur ki, gəlsinlər, işləsinlər, yaratsınlar. Bu, yeni yanaşmadır, yeni təfəkkürdür. Hər bir rəhbərin qarşısında bu vəzifə dayanmalıdır və onun fəaliyyəti haqqında mənim çıxaracağım qərar həm onun işindən, həm də xalqın onlara olan münasibətindən asılı olacaqdır.

Ona görə mən maraqlanıram, soruşuram ki, fikriniz necədir? Oğuzda və İsmayıllıda da inkişaf üçün böyük potensial var. İlk növbədə turizmin, digər tərəfdən, kənd təsərrüfatının inkişafı üçün. Hər iki istiqamətdə uğurlara nail olmaq üçün hökumət tərəfindən addımlar atılacaqdır. Zona müşavirəsi keçiriləcək və məsələlərə daha konkret şəkildə baxılacaqdır.

Regionların inkişafı Dövlət Proqramında bütün məsələlər öz həllini tapıbdır. Amma elə məsələlər vardır ki, orada öz əksini tapa bilməyib. Ona görə zona müşavirələrinin keçirilməsi də çox vacibdir. Yəni konkret məsələlərlə məşğul oluruq. Bu zonanın böyük potensialı var. Ümumiyyətlə, Azərbaycanın hər bir yerində, əlbəttə ki, müxtəlif səviyyədə inkişaf var və yerli kadrlar bütövlükdə yaxşı işləyirlər və öz fəaliyyətlərində müsbətə doğru irəliləyiş görünməkdədir.

**– Cənab Prezident, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına qəbulu ilə bağlı işçi qrupu bir müddət əvvəl Cenevrədə üçüncü görüşdə iştirak etmişdir. Orada belə fikir səslənmişdir ki, Rusiyanın bu təşkilata Azərbaycandan**

**qabaq qəbul edilməsi ölkəmiz üçün problemlər yaradacaqdır. Ümumiyyətlə, Siz bu istiqamətdə görülən işləri necə qiymətləndirirsiniz?**

– Bu bizim strategiyamızın ümumi hissəsidir. Beynəlxalq təşkilatlarla çox səmərəli əməkdaşlıq edirik və Ümumdünya Ticarət Təşkilatı da çox mötəbər təşkilatdır. Azərbaycanın o təşkilatda üzvlük məsələsi də çox vacibdir. Bunun vaxtı var, əlbəttə ki, şərtləri var. Biz bilirik ki, bəzi ölkələr o təşkilata daxil olarkən tələskənliyə yol verdilər və ondan sonra çox çətin vəziyyətə düşdülər. Yəni yerli istehsal iflic vəziyyətinə düşdü, yerli istehsalçılar çətinliklərlə üzləşdilər və ölkələrin ixrac potensialı aşağı düşdü. Azərbaycan indi inkişafdadır. Azərbaycanda həm iqtisadiyyat artır, sənaye potensialı artır, həm də bizim ixrac potensialımız artır. Ona görə də bütün bu amillər nəzərə alınmalıdır. Biz hansısa təşkilata, sadəcə, kortəbii şəkildə üzv olmaq üçün tələsmirik. Bu bizim siyasətimizdir, biz məsələni öyrənirik, danışıqlar gedir. Prinsip etibarilə Ümumdünya Ticarət Təşkilatında bizim iştirakımız zəruridir. Ancaq onun şərtləri var və bu şərtlərə gərək çox dəqiqliklə baxılsın. Sağ olun.

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA İSMAYILLI RAYONUNDAKI BİZLAN KƏNDİNDƏ MƏKTƏB BİNASININ TİKİNTİSİ İLƏ TANIŞ OLMUŞDUR

*19 avqust 2005-ci il*

*Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva dövlətimizin başçısının İsmayıllı rayonuna səfəri çərçivəsində Bizlan kəndində tikilməkdə olan 220 yerlik məktəb binasında inşaat işlərinin gedişi ilə tanış olmaq üçün buraya gəlmişdir.*

*Kəndin sakinləri, müəllimlər, şagirdlər Mehriban xanımı böyük səmimiyyətlə qaşıladılar. Bildirildi ki, kənddəki köhnə məktəb binası tədrisin keyfiyyətinə mənfi təsir edirdi. Onlar bu kənddə yeni məktəb binasının tikintisi ilə bağlı göstərdiyi qayğıya görə YUNESKO-nun Xoşməramlı səfirinə dərin minnətdarlıqlarını bildirdilər, Heydər Əliyev Fonduna xüsusi hədiyyə təqdim etdilər.*

*Fondun prezidenti Mehriban Əliyeva məktəbin tikintisi ilə yaxından maraqlandı, sinif otaqlarına baxdı, inşaat işlərinin yeni dərs ilinədək başa çatması üçün konkret tövsiyələri verdi. O, qış aylarında sinif otaqlarının qızdırılması məsələsi ilə də maraqlandı.*

*Heydər Əliyev Fondunun prezidenti kənd sakinləri, müəllimlər və məktəblilərlə xatirə şəkli çəkdirdi, bura toplaşan insanların qayğıları, problemləri ilə maraqlandı.*

## OĞUZ, QƏBƏLƏ, İSMAYILLI VƏ ŞAMAXI RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFINA VƏ PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ ZONA MÜŞAVİRƏSİNDƏ NİTQ

*Qəbələ*

*19 avqust 2005-ci il*

Mən dünən və bu gün bölgədə səfərdəyəm. Dünən Qəbələ, Oğuz, bu gün isə İsmayıllı rayonunda işlərin gedişi ilə tanış oldum. Bildiyiniz kimi, il yarım bundan əvvəl regionların sosial-iqtisadi inkişafı proqramı qəbul olunub və uğurla icra edilir. Əlbəttə ki, bu proqramda əsas məsələlər öz əksini tapıbdır. Bizim əsas istiqamətlərimiz göstərilib və rayonlar üzrə də vəzifələr bölünübdür. Ancaq eyni zamanda, həyat yerində durmur, yeni məsələlər meydana çıxır ki, bunlar da operativ qaydada öz həllini tapmalıdır. Ona görə bu zona müşavirəsində biz bu məsələləri müzakirə etməliyik.

Mən bir müddət əvvəl Şamaxı rayonunda da səfərdə idim, orada vəziyyətlə tanış olmuşam. Bu dörd rayonun dördündə də son il yarım ərzində rəhbər işçilər dəyişildi və icra hakimiyyətinin yeni başçıları təyin edildi. Mənim yerlərdəki bütün nümayəndələrimdən tələbim odur ki, səmərəli işləsinlər, qarşıda duran vəzifələri icra etsinlər, rayonların inkişafında fəal iştirak etsinlər və insanların problemlərinin həllində fəal olsunlar.

Tanış olduğum bölgələrdə inkişaf görünür. Mən bunu xüsusən Qəbələ rayonu haqqında demək istəyirəm. Burada abadlıq-quruculuq işləri geniş vüsət alıbdır. Çünki mən bundan əvvəlki illərdə də Qəbələdə olmuşam və bu fərqi görürəm. Eyni

zamanda, Qəbələdə tikilən emal müəssisələri, zavodlar, fabriklər regionun, rayonun inkişafında və Azərbaycanın iqtisadi potensialının inkişafında mühüm rol oynayacaqdır.

Şamaxıda da işlər yaxşı gedir, yeni müəssisələr işə salınır. Xatırlayıram, televizor istehsalı zavodunun açılışında iştirak etdim. İndi çox böyük qürur hissi ilə deyə bilərik ki, Şamaxıda istehsal olunan televizorlar dünyanın müxtəlif ölkələrinə ixrac edilir.

Oğuz və İsmayıllı rayonlarında inkişafın ilk əlamətləri görünməkdədir. Bu rayonlarda icra hakimiyyətlərinin başçıları may ayında təyin olunublar və cəmi üç aydır işləyirlər. Əlbəttə, üç ayda çox iş görmək olmaz. Amma artıq planlar nəzərdə tutulub və insanlarla ünsiyyətdə olarkən görürəm ki, müsbət dəyişiklikləri onlar da hiss edirlər. Bu çox vacibdir. Yeni rəhbərlər yeni yanaşmalarla yaşamalı və işləməlidirlər. Belə olan halda, Azərbaycanın bütün regionları sürətlə inkişaf edəcəkdir. Çünki inkişaf üçün çox gözəl şərait var. Azərbaycanda gedən proseslər müsbət istiqamətdə inkişaf edir. İqtisadi inkişaf baxımından biz bu gün dünyada lider ölkəyik. Bu, təkcə makroiqtisadi göstəricilərdə deyil, insanların gündəlik həyatında da öz əksini tapır. Büdcəmiz artır, maliyyə vəziyyətimiz yaxşılaşır. Bu il və gələcək illərdə regionların inkişafına daha da çox vəsaitlər nəzərdə tutulacaqdır.

Ona görə mən istəyirdim ki, bu bölgəyə səfərimə yekun vuraraq burada işgüzar şəraitdə fikir mübadiləsi aparaq. İcra hakimiyyətlərinin başçıları çıxış etsinlər, qarşıda duran problemlər haqqında məruzə etsinlər. Eyni zamanda, bu müşavirədə Kənd Təsərrüfatı, Gənclər, İdman və Turizm nazirləri də iştirak edirlər. Bu bölgə üçün hər iki istiqamət çox vacibdir. Turizmin, kənd təsərrüfatının inkişafı bölgəyə yeni imkanlar gətirəcəkdir. İndi kənd təsərrüfatının inkişafına çox böyük diqqət göstəririk, lazımi texnika, avadanlıq alınır. Eyni zamanda, turizm obyektləri də yaranır və bu iş gələcəkdə daha sürətlə getməlidir.

İndi isə sözü Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimova verirəm.

**T o f i q İ b r a h i m o v** (*Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident, ölkəmizin qədim və gözəl güşəsi olan Qəbələyə gəlişinizdən rayon sakinlərinin böyük şərəf duyduqlarını bildirərək, bunu qəbələlilərə olan məhəbbətinizin və qayğınızın nümunəsi kimi qiymətləndirirəm. Bütün Azərbaycanda olduğu kimi, Qəbələ rayonunda da əsl tərəqqi və inkişaf ulu öndərimiz, həmişə qəlbimizdə yaşayacaq ümummilli liderimiz Hedər Əliyevin adı ilə bağlıdır. Əldə edilən bütün nailiyyətlər dahi şəxsiyyətin vaxtilə Azərbaycana, o cümlədən Qəbələyə göstərdiyi diqqətin və qayğının nəticəsində mümkün olmuşdur.

Heydər Əliyev Azərbaycanın bu günlərini hələ o zaman görürdü və Azərbaycanı bu günlər üçün qururdu. 1969–1982-ci illərdə, tarix baxımından qısa bir vaxt ərzində bütövlükdə respublikada, o cümlədən Qəbələdə bir sıra obyektlər, zavodlar, fabriklər yaradıldı. Həmin illərdə Qəbələ qabaqcıl kənd təsərrüfatı rayonuna çevrildi. Rayonda taxıl, tütün, meyvəçilik, heyvandarlıq məhsulları istehsalı 4-5 dəfə artdı.

Həmin dövrdə Qəbələ rayonunda iki konserv zavodu, istehsal gücü 10 min ton olan tütün fermentləmə zavodu, üzümün ilkin emalı zavodu, broyler fabriki, 3 min başlıq düyəyetişdirmə birliyi, 800 başlıq südçülük kompleksi, 3 min başlıq kökəltmə birliyi, 11 mexanikləşdirilmiş ferma, məktəblər, uşaq bağçaları, yaşayış evləri, 108 yerlik mehmanxana, inzibati binalar, 450 yerlik turizm kompleksi, istirahət zonası, 500 yerlik mədəniyyət evi, stadion, ticarət və məişət obyektləri, radio-elektron zavodu və s. obyektlər tikilib istifadəyə verilmiş, 5 min hektar üzüm plantasiyası salınmışdı.

Bütün bunlarla yanaşı, ümummilli liderimizin Qəbələnin tarix və mədəniyyət abidələrinin qorunub saxlanılmasında da böyük xidmətləri olmuşdur. 1977-ci ildə SSRİ Silahlı Qüvvələri rayonda baza tikərkən qədim Qəbələ şəhərinin qalıqlarını dağıtmağa başladılar. Ümummilli liderimiz bu hadisənin qarşısını aldı. 1978-ci il yanvarın 17-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin bürosunda Qəbələ rayonunda

tarix və mədəniyyət abidələrinə səhlənkar münasibət haqqında məsələ müzakirə edildi. Qədim Qəbələ şəhərinin qalıqlarını dağıtmaq istəyənlər cəzalandırıldı. Məhz Heydər Əliyevin göstərişi ilə 1978-ci il martın 17-də Azərbaycan SSR Nazirlər Soveti «Qəbələ Tarix və Mədəniyyət Qoruğunun yaradılması haqqında» qərar qəbul etdi. Bu qərar Qəbələnin tarixi abidələrinin qorunmasında çox böyük əhəmiyyəti olan tarixi sənəddir. Hazırda istifadə etdiyimiz Bakı–İsmayıllı–Qəbələ avtomobil yolu da məhz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında çəkilmişdir.

Cənab Prezident, çox şükürlər olsun ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan bu siyasi və iqtisadi xətti Siz layiqincə və uğurla davam etdirirsiniz. Siz ulu öndər Heydər Əliyevin başladığı və xeyli hissəsini həyata keçirdiyi dövlət quruculuğu məsələlərini bu gün ardıcıllıqla reallığa çevirirsiniz.

Cənab prezidentin 2004-cü il fevralın 11-də təsdiq etdiyi «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın bütün bölgələrin sürətli inkişafına səbəb olduğunu, ulu öndər Heydər Əliyevin başladığı və hazırda müvəffəqiyyətlə davam etdirilən quruculuq siyasətinin Qəbələdə də uğurla həyata keçirildiyini, sosial-iqtisadi inkişaf proqramının qəbul edilməsindən ötən müddətdə Qəbələdə xeyli tikinti-abadlıq işləri görüldüyünü bildirmək istəyirəm..

2004–2008-ci illərdə görüləcək tədbirlər çərçivəsində Qəbələdə 7 min yeni iş yerinin açılması nəzərdə tutulur. İndiyədək görülmüş işlər nəticəsində 2074 yeni iş yeri açılmış, 3335 nəfər isə mövsümi işlə təmin olunmuşdur. Keçən müddət ərzində rayonda makaron fabriki, 3 qum-çınqıl zavodu, fındıq emalı, asfalt, beton, çörək zavodları tikilmiş, şəhərə içməli su kərəmi çəkilmiş, hər birinin uzunluğu 12–13 kilometr olan 2 suvarma kanalı çəkilmiş, quşçuluq fabriki, ferma kompleksi inşa olunmuş, körpülər salınmış, «Aqrotexservis» yaradılmış, 100-dən artıq artezian quyusu qazılmış, kəndlərimizə yeni qaz xətləri çəkilmişdir. Xalça sexi yaradılmış, kəndlərdə yeni ATS

və poçt binaları tikilmiş, Tarix-diyarşünaslıq muzeyi təmir edilmiş yeni binaya köçürülmüşdür. Tarixi Cümə məscidi bərpa olunmuş, səhiyyə, təhsil obyektləri təmir edilmiş, yeni avadanlıq və inventarla təmin olunmuşdur. Ulu öndər Heydər Əliyevin abidəsi qoyulmuş, Böyük Vətən müharibəsində həlak olmuş həmyerlilərimizin şərəfinə ucaldılmış abidə, İsmayıl bəy Qutqaşınlının abidəsi bərpa edilmiş, Heydər Əliyev adına park salınmış, yollar asfaltlanmış, və işıqlandırılmış, ticarət-ictimai iaşə obyektləri, inzibati binalar tikilmişdir. Kənd təsərrüfatının bütün sahələrində artım müşahidə olunur. Hazırda konserv zavodunun, spirtsiz içkilər zavodunun, körpülərin, sel sularından qorunmaq üçün sahilbərkitmə bəndlərinin, 480 yerlik Nohurqışlaq məktəbinin, Heydər Əliyev muzeyinin, Heydər Əliyev Fondu tərəfindən 2 məktəbin, kərpic zavodunun tikintisi davam edir, yeni istirahət parkı salınır, kəndlərimizə qaz kəmərləri çəkilir.

Cənab Prezident!

Məlumat üçün deyim ki, vaxtilə Heydər Əliyevin təşəbbüs qaldırdığı Oğuz–Qəbələ–Bakı su kəmərinin çəkilişi işinə də başlanması üçün kəşfiyyat işləri aparılır. Yaxın vaxtlarda Qəmərvan istisu sanatoriyasının, Nohurgöl turizm kompleksinin, ət-süd emalı müəssisəsinin, mebel fabrikinin, əlil və şəhid ailələri üçün evlərin, Heydər Əliyev Fondu tərəfindən 2 məktəbin və.s. obyektlərin tikintisinə başlanılacaqdır.

Görülən bütün işlər ancaq ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu möhkəm dövlətçilik siyasəti və möhtərəm cənab Prezidentimiz, bu siyasətin Sizin tərəfinizdən uğurla davam etdirilməsi nəticəsində mümkün olmuşdur.

Qəbələ haqqında dediyiniz xoş sözlərə görə bütün qəbələlilər adından bir daha təşəkkür etdir, ümummilli ilderimiz Heydər Əliyevin siyasi xəttinin qətiyyətli davamçısı olan prezidentimizin ətrafında daha sıx birləşəcəyimizi və onun qarşıya qoyduğu tarixi vəzifələrin həyata keçirilməsində səylərimi əsirgəməyəcəyimizi bildirirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən dünən burada, Qəbələdə müəssisələrlə tanış olurdum. Gördüm ki, aqroservis yaradılıb və bu, özəl bir qurumdur. İndi bu məsələ çox vacibdir. Biz «Aqrolizinq»in xətti ilə də texnikanın alınmasını təmin edirik, amma eyni zamanda, özəl qurumlar da aqroservis yaradırlarsa, deməli, buna tələbat böyükdür. Siz bu bölgədə «Aqrolizinq»in bazasının yaradılması üçün nə kimi işlər görürsünüz?

**İ s m ə t A b a s o v**(*Kənd Təsərrüfatı naziri*)**:** Cənab Prezident, regionların sosial-iqtisadi inkişafı proqramında bütün bölgələrdə özəl aqrotexservislərin yaradılması nəzərdə tutulmuşdur. O cümlədən də bu günlər səfərdə olduğunuz rayonlarda. Bu region üçün isə «Aqrolizinq» Səhmdar Cəmiyyətinin Şəki rayonunda mərkəzi bazasının təşkili nəzərdə tutulubdur. Ancaq ətraf rayonlar üçün Şəkidən başqa, Şamaxı rayonunda da mütləq «Aqrolizinq»in bazası olmalıdır.

**İ l h a m Ə l i y e v:** Bu təxminən nə vaxt yaradılacaqdır?

**İ s m ə t A b a s o v:** Cənab Prezident, müsabiqədə qalib gələn şirkətlər tərəfindən vəsaitlər artıq ödənilmişdir. Yaxın bir-iki ay müddətində texnika gətiriləcəkdir. Bir-iki ay ona görə deyirəm ki, texnikanın gətiriləcəyi əsas ölkə Çin Xalq Respublikasıdır. Mənə belə bir məlumat verdilər ki, Belarus–Azərbaycan birgə müəssisəsi guya Kənd Təsərrüfatı Nazirliyinin, o cümlədən «Aqrolizinq»in keçirdiyi müsabiqədə iştirak edibdir. Guya onların təklif etdiyi qiymət aşağı olubdur. Ancaq həqiqətən də belə olmamışdır. Əgər icazə versəniz, necə olduğunu deyərdim.

**İ l h a m Ə l i y e v:** Deyin.

**İ s m ə t A b a s o v:** Belarus–Azərbaycan birgə müəssisəsi müsabiqədə 3 lot üzrə iştirak edirdi. «Aqrolizinq» Səhmdar Cəmiyyəti 4 lot üzrə müsabiqə keçirmişdir. Birinci lot kombaynların, ikinci lot traktorların, üçüncü lot kənd təsərrüfatı texnikasının, dördüncü lot mini texnikanın alınması barədə idi. Bu «Aqrotexservis» üç lotda, yəni ikinci, üçüncü, dördüncü lotlarda iştirak etmişdir. Müsabiqədə qalib gəlmiş şirkətin təklif etdiyi qiymət «Aqrotexservis»lə müqayisədə 860 min ABŞ

dolları aşağı olmuşdur və bunun hesabına qalib gəlmişdir. Yəni «Aqrotexservis»in, Belarus–Azərbaycan birgə müəssisəsinin gətirdiyi texnikanın, traktorların qiyməti qalib gələn şirkətin təklif etdiyindən təxminən 8,6 faiz bahadır.

**İ l h a m Ə l i y e v:** Yaxşı, əyləşin.

Bu işlər gərək tezliklə öz həllini tapsın. Çünki kənd təsərrüfatı ilə məşğul olanların ən böyük problemi texnikanın olmaması, yaxud nasaz vəziyyətdə olması, bir də gübrənin olmamasıdır. Biz bu məsələlərlə məşğuluq. Mən göstərişlər verdim ki, gübrənin alınmasına da vəsait ayrılsın.

Mən qeyd etdim ki, indi Qəbələ rayonunda inkişaf gedir, müəssisələr yaranır və yeni iş yerləri açılır.

Rayonda vəziyyət necədir? Narahatlıq doğuran məsələlər varmı?

**T o f i q İ b r a h i m o v:** Məlumat verim ki, gübrələr çatışmır, toxumçuluq təsərrüfatları azdır. Qəmərvan və Dizarxlı kəndləri camaatının torpaq problemləri var.

**İ l h a m Ə l i y e v:** Bu məsələlərə tezliklə baxılacaqdır.

**R ö v ş ə n S a d ı x o v** (*İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı*): Qədim İsmayıllı diyarı məhz Heydər Əliyevin buraya səfərlərindən sonra yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ümummilli liderimizin vaxtilə dediyi «İsmayıllı respublikamızın ərazisində təbiətinə, iqliminə, torpağına görə gözəl guşələrdən biridir və böyük tarixə, böyük ənənələrə malik bir rayondur. İsmayıllı sakinləri həmişə zəhmətsevər olub» sözlərini xatırlatmaq istəyirəm. Bu gün İsmayıllıda gördüyümüz binaların, yolların, körpülərin böyük əksəriyyəti Heydər Əliyevin yadigarıdır, onların bəzilərinin açılışında isə şəxsən özü iştirak etmişdir. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, özünəməxsusluğunu min illər boyu qoruyub saxlamış gözəl Lahıca məhz onun göstərişi ilə çətin şəraitdə cəmi bir il ərzində yol çəkilmişdir. İndi Lahıc dünyanın hər yerindən gələn qonaqları valeh edir.

Möhtərəm Prezident!

Respublikamızın hər bir bölgəsi kimi, İsmayıllı rayonu da Sizin fərmanınızla qəbul olunmuş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə qoşulmuşdur. Bu il rayonda 71,5 min ton taxıl istehsal edilmişdir. Bu da daxili tələbatın tam ödənilməsi deməkdir. Müqayisə üçün bildirim ki, 1995-ci ildə rayonda cəmi 30,5 min ton taxıl yığılmışdı.

Heyvandarlıqda da artım özünü göstərir. Hazırda rayonda 51627 baş qaramal, 176893 baş davar var. Son on ildə qaramalın sayı 10862 baş, davarın sayı 54557 baş artmışdır. Cari ilin 7 ayında keçən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 5 ton, süd istehsalı 80 ton, yun istehsalı 3 ton, yumurta istehsalı 107 min ədəd çoxalmışdır. Yeddi ayda ötən ilin müvafiq dövrünə nisbətən 103 ton çox kartof, 423 ton tərəvəz istehsal olunmuşdur. Hazırda həmin məhsulların yığımı davam edir.

Torpaqların istifadəsinin səmərəliliyini artırmaq məqsədi ilə üzümçülüyün inkişafına da diqqət yetiririk. Son vaxtlar 290 hektarda yeni üzüm bağları salınmışdır. Daha 141 hektarda hazırlıq işləri gedir. Məqsədimiz İsmayıllı üçün ənənəvi olan üzümçülüyün geniş inkişafına nail olmaqdır.

Fəaliyyəti dayanmış müəssisələrin bərpasına başlanmışdır. İsmayıllı quşçuluq fabriki, 1 nömrəli şərab müəssisəsi, qədim sənətkarlıq növlərinin bərpasına yönəldilmiş İsmayıllı və Qalaçıq xalça sexləri fəaliyyətdədir. Qısa müddətdə kərpic və asfalt zavodlarının, ət-süd səhmdar cəmiyyətinin fəaliyyəti bərpa olunmuşdur.

Dövlət Proqramına uyğun olaraq, turizm sahəsində də müəyyən işlər görülmüş, gələcəkdə bu sahəyə diqqət daha da artırılacaqdır. Respublikamızda olduğu kimi, İsmayıllıda da Milli Olimpiya Komitəsinin qayğısı nəticəsində əldə olunmuş uğurlardan həvəslənərək gənclərin idmana meyli güclənmişdir.

Dövlət Proqramına uyğun olaraq, son zamanlar İsmayıllı rayonunda 5 yeni məktəb tikilmişdir. Hazırda Heydər Əliyev Fondu tərəfindən Tircan, Bizlan və Əhən kəndlərində məktəb binaları inşa olunur.

Rayonun elektrik enerjisi və qazla təchizatında əsaslı irəliləyiş var. Ciddi problemlərdən olan su təminatını həll etmək üçün layihə hazırlanır və bu məsələ dövlət tərəfindən gələn ilin proqramına salınmışdır.

Cənab Prezident, bütün bu göstərilən diqqət və qayğıya, respublikanın hər bir bölgəsində gedən abadlıq işlərinə, minlərlə açılan yeni iş yerinə, gündən-günə artan rifaha, respublikamızda hökm sürən sabitlik və əmin-amanlığa, xalqa olan dərin məhəbbətinizə görə İsmayıllı əhalisi Sizə dərin minnətdarlığını bildirir.

**İ l h a m Ə l i y e v:** Mən bu gün gördüm, yeni küçələr, parklar salınır, parkın maketi də mənə göstərildi. Əgər orada göstərilən bütün tikililər öz həllini taparsa, doğrudan da bu bizim ölkəmizdə ən gözəl parklardan biri olacaqdır. Əlbəttə, turizm infrastrukturundan gərək səmərəli istifadə edəsiniz. Bu gün tanış olduğum turizm obyekti də çox müasir infrastruktur-dur və bu gözəl təbiətin imkanlarından gərək daha da səmərəli istifadə olunsun. Ümumiyyətlə, keçmişdə bu sahə Azərbaycanda o qədər də inkişaf etməmişdir. Baxmayaraq ki, bizim çox gözəl, səfalı yerlərimiz var, hətta Sovet İttifaqı zamanında da Azərbaycana o qədər də çox turist gəlmirdi. Sovet İttifaqı dağılandan sonra isə Azərbaycanın üzləşdiyi problemlər imkan vermirdi ki, bu məsələyə ciddi diqqət göstərilsin. O cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təsiri də oldu. Çünki bir ölkədə ki, müharibə gedir, əlbəttə, orada böyük turist axını gözləmək çətindir. Amma indi Azərbaycanda sabitlik, əmin-amanlıq hökm sürür, ictimai asayiş qorunub saxlanılır, iqtisadi inkişaf var. Yeni infrastruktur yaradılır, yollar çəkilir, elektrik stansiyaları tikilir, qaz təchizatı, su təchizatı qaydaya salınır və belə olan halda, əlbəttə, turizmin inkişafı daha da sürətlə gedə bilər. Çünki turizmi, sadəcə olaraq, turizm obyektləri yaratmaqla inkişaf etdirmək düzgün deyildir. Əgər yol yoxdursa, elektrik enerjisi yoxdursa, su yoxdursa, başqa lazım

olan infrastruktur yoxdursa, lap hər bir rayonda beşulduzlu hotel tik, onun səmərəsi olmayacaqdır. Amma bir halda ki, bütün bu ilkin hazırlıq işləri görülübdür, indi turizmin inkişafına böyük təkan verilməlidir. Həm bizim ölkəmizi daha da çox tanıyacaqlar, həm də yeni infrastruktur layihələri həyata keçiriləcək, insanlar xidmət sektorunda işləyəcək, yaxşı maaş alacaqlar və hər bir bölgənin inkişafına bunun gözəl təsiri olacaqdır. Mən bilirəm, sizin bu istiqamətdə planlarınız var. bu bölgə, ümumiyyətlə, turizm üçün çox əlverişlidir və bu, gərək planlı şəkildə inkişaf etsin.

**K a m i l   R ə h i m o v** (*Oğuz Rayon İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident, dünən Oğuz rayonunun tarixində böyük əlamətdar hadisə baş vermişdir. İlk dəfə olaraq respublikanın rəhbəri rayonumuza gəlmiş, oğuzlularla görüşmüş, həyata keçirilən tədbirlərlə, görülən işlərlə tanış olmuş, rayonun gələcək inkişafı üçün tövsiyələrini vermişdir. Bu səfər rayon əhalisində böyük sevinc, bayram əhval-ruhiyyəsi yaratmışdır.

Zəngin, bənzərsiz təbiəti, əməksevər insanları ilə bu qədim diyara qədəm qoyan hər bir qonağın diqqətini cəlb edən Oğuz rayonu Böyük Qafqazın cənub yamacında yerləşir. 1930-cu ildə yaradılmış Oğuz rayonunun ərazisi 121613 hektardır.

Müxtəlif millətlərin yaşadığı rayonun əhalisi 39096 nəfərdir. Bunların 31786 nəfərini azərbaycanlılar, 5587 nəfərini ləzgilər, 1072 nəfərini türklər, 179 nəfərini yəhudilər, 120 nəfərini udilər və başqa millətlərin nümayəndələri təşkil edir. Doğma torpaqlardan zorla qovulmuş 2771 məcburi köçkün Oğuzda məskunlaşmışdır.

Rayonda aparılan aqrar islahat nəticəsində torpaqların 20779 hektarı xüsusi mülkiyyətə, 19756 hektarı bələdiyyə mülkiyyətinə verilmişdir. 9435 ailə torpaq payı almışdır.

Oğuz rayonunda 1 şəhər, 14 kənd icra nümayəndəliyi, 31 bələdiyyə fəaliyyət göstərir. 33 ümumtəhsil məktəbində 1093 müəllim 9130 şagirdin təlim-tərbiyəsi ilə məşğul olur. Rayonda

4 mədəniyyət evi, 25 klub, 31 kitabxana, 6 xəstəxana, poliklinika və başqa xidmət təşkilatları var.

Rayon iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, meyvəçilik və başqa sahələr təşkil edir. Taxıl biçini müvəffəqiyyətlə başa çatmışdır. Bu mövsümdə 15035 hektar payızlıq taxıl sahəsində biçin aparılmış, 29379 ton məhsul əldə edilmişdir. Kartof, tərəvəz, meyvə istehsalı, mal-qaranın sayı xeyli artmışdır. Rayonda yüzlərlə iş yeri açılmış, Oğuz şəhərinin 4 küçəsi abadlaşdırılmış, kredit yarmarkası keçirilərək sahibkarlara güzəştli kreditlər verilmiş, yeni emal müəssisələrinin yaradılması üçün tədbirlər görülmüşdür. 2003-cü ildə Heydər Əliyev adına park istifadəyə verilmişdir. Park 3500 kvadratmetr sahəni əhatə edir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının oğuzlular tərəfindən də böyük rəğbətlə qarşılanmışdır. Ötən il Bakı fındıq emalı müəssisəsi tərəfindən rayonda illik istehsal gücü 2 min ton olan fındıq zavodunun tikilib istifadəyə verilmiş, burada 50 nəfər işlə təmin olunmuşdur. Əvvəllər şirə zavodu kimi fəaliyyət göstərmiş müəssisə bu ilin yanvar ayında özəlləşdirilmiş, 20 nəfər işlə təmin olunmuşdur, gələcəkdə burada daha 30 iş yeri açılacaqdır. Zavod bu il 80–100 min şərti banka zoğal, göyəm, nar, alma, çaytikanı şirəsi istehsal edəcəkdir.

Rayonda 2005-ci il iyun ayında Heydər Əliyev Fondunun vəsaiti hesabına 4 məktəb binasının tikintisinə başlanmışdır. Məktəblərin tikintisində 100 nəfərə yaxın adam işləyir. Malıx yaşayış məntəqəsində 60 şagirdlik məktəb tikilib istifadəyə verilmişdir. Yaqublu kənd orta məktəbinin yeni binasının tikintisində işlər davam etdirilir.

Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş 12 mənzilli yaşayış binası istifadəyə verilmiş, sakinlərə möhtərəm prezidentimizin iştirakı ilə təntənəli şəkildə mənzillərin orderləri təqdim edilmişdir. Bu, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün unudulmaz bir gün idi.

Asfalt zavodu təmir edilərək yenidən işə salınmışdır. Rayonun Xaçmaz kəndinə su kəməri çəkilişində son tamamlama işləri aparılır. Padar, Bucaq və Bayan kəndlərinə qaz xətti çəkilişi ilə əlaqədar ilkin sənədləşdirmə işləri başa çatdırılmışdır. Rayonun qaz təminatının yaxşılaşdırılması üçün profilaktik işlər görülmüş, daxili imkanlar hesabına 500 metr yeni xətt çəkilmişdir.

Dövlət Proqramından irəli gələn vəzifələrin icrası ilə əlaqədar tədbirlər planı hazırlanmış və onun həyata keçirilməsinə başlanmışdır. 2004–2008-ci illərdə rayonda 2400 yeni iş yerinin açılması nəzərdə tutulmuşdur. İndiyədək 1374 yeni iş yeri açılmışdır. Bütün bu görülən işlərin əsasını ulu öndərimiz Heydər Əliyevin həmişəyaşar ideyaları təşkil edir.

Rayon üçün böyük əhəmiyyəti olan bir sıra məsələlərin həllində respublika təşkilatlarının köməyinə ehtiyacımız var. Yevlax–Oğuz avtomobil yolunun 12 kilometrinin investisiya hesabına müasir tələblər səviyyəsində təmir edilməsinin rayon iqtisadiyyatının, eyni zamanda turizmin inkişafına böyük köməyi olardı.

Rayonumuzun gənclərinin idmana böyük həvəsi, marağı var. «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda nəzərdə tutulmuş idman kompleksinin tikintisinin 2006-cı ilin dövlət büdcəsinə daxil edilməsi gənclərimizin böyük arzusudur.

800 nəfər əhalisi olan Filfili kəndinin körpüsü 1998-ci ildə təbii fəlakət nəticəsində dağılmışdır. Nəticədə kəndin digər yaşayış məntəqələri ilə əlaqəsində ciddi problemlər yaranmışdır. Bu məsələlərin həllinə kömək göstərməyinizi Sizdən xahiş edirik.

Cənab Prezident, bütün oğuzlular inanır ki, Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirməyiniz ölkəmizin möhkəmlənməsinə və iqtisadi qüdrətinin artmasına, xalqımızın rifah halının daha da yaxşılaşmasına, gənc nəslin dövlətimizə, xalqımıza məhəbbət ruhunda tərbiyə olunmasına xidmət edəcəkdir. Bütün bu işlərdə oğuzlular Sizi daim dəstəkləyəcəklər.

**İ l h a m  Ə l i y e v:** Oğuzda həm kənd təsərrüfatının, həm də turizmin inkişafı üçün də gözəl şərait var. Əlbəttə, mövcud olan problemlər də öz həllini tapmalıdır. Mən bayaq qeyd etdim ki, bizim maddi imkanlarımız artır. Gələn ilin büdcəsi həm sosialyönümlü olacaq, eyni zamanda investisiyayönümlü büdcə olacaqdır. Demək olar ki, tariximizdə ilk dəfə böyük həcmdə daxili investisiya qoyuluşu nəzərdə tutulur. İlk növbədə, infrastruktur layihələrinə, yolların salınmasına və Azərbaycanın əsas ehtiyaclarının ödənilməsinə vəsait ayrılacaqdır. Ona görə indi mən hökumət qarşısında vəzifə qoymuşam ki, büdcənin ilkin parametrləri təqdim olunsun. Siz də öz təkliflərinizi Nazirlər Kabinetinə verin. İmkan daxilində bu məsələlər büdcəyə salınmalıdır.

Azərbaycanda uzun illərdir ki, yol təsərrüfatına investisiya qoyulmurdu. Səbəb də o idi ki, imkan yox idi. Bizim büdcəmiz buna imkan vermirdi. Büdcənin əsas hissəsi, demək olar ki, 80–90 faizi ancaq sosial məsələlərə – maaşlara, pensiyalara, digər sosial ödəmələrə yönəlmişdi. İnvestisiya qoyuluşu isə çox az idi. Biz bu il bunu artırdıq. Amma gələn il daha da böyük həcmdə artıracağıq. Çünki gələn ilin büdcəsi bu ilin büdcəsindən ən azı 1 milyard dollar çox olacaqdır. Bu çox böyük göstəricidir, çox böyük nailiyyətdir, çox böyük artımdır və Azərbaycanda son illər ərzində aparılmış iqtisadi islahatların nəticəsidir. Bu islahatlar 1990-cı illərin ortalarından həyata keçirilməyə başladı və biz onların nəticəsini bu gün görürük.

Əlbəttə, hər bir rayonun, kəndin problemi də öz həllini tapmalıdır. Ona görə siz bu məsələlərlə bağlı təklifləri Nazirlər Kabinetinə təqdim edin və büdcə formalaşanda biz çalışarıq ki, bunları nəzərə alaq.

**N a t i q  M ə m m ə d o v** (*Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı*): Hörmətli cənab Prezident, Sizin rəhbərliyiniz altında respublikamızın müxtəlif bölgələrində keçirilən müşavirələrin regionların sosial-iqtisadi inkişafına, xüsusilə mövcud problemlərin uğurlu həllinə hərtərəfli yol açdığına, indiki tədbirin də bölgənin inkişafına bir daha əsaslı təsir göstə-

rəcəyinə tamamilə əminəm. Yeni inkişaf mərhələsinə qədəm qoyan Şamaxı rayonunun tərəqqisi həmişə xalqımızın böyük oğlu Heydər Əliyevin adı ilə bağlı olmuşdur.

Ümummilli liderimizin layiqli davamçısı cənab prezidentin böyük diqqət və qayğısı sayəsində artıq Şamaxı rayonu dinamik inkişaf yoluna çıxmışdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında Şamaxı rayonu üzrə nəzərdə tutulmuş bütün tədbirlərin uğurla həyata keçirilməsi əsasən təmin edilmişdir. Belə ki, 2004-cü ilin yekunlarına görə, rayon üzrə kənd təsərrüfatı məhsulları istehsalının həcmi 5 faiz artmışdır. Son vaxtlar heyvandarlıq və taxılçılıqla yanaşı, Şamaxı üçün ənənəvi və gəlirli sahə hesab olunan üzümçülüyə və şərabçılığa münasibətin də dəyişməsi açıq-aydın hiss edilir. Yeni üzümlüklər salınır, təzə mini şərab zavodları quraşdırılır. Rayonun iqtisadiyyatında sənayenin xüsusi çəkisinin artması, müasir müəssisələrin yaradılması regionlara göstərilən qayğının bəhrəsi kimi qiymətləndirilməlidir. 2004-cü ildə rayon üzrə sənaye məhsulu istehsalı 16,6 faiz, ümumi məhsul buraxılışı 31 faiz artmışdır. Daha sevindirici fakt isə budur ki, 2004-cü ildə rayonda investisiya qoyuluşu 52, 5 milyard manat təşkil etmişdir ki, bu da əvvəlki ildən 11 dəfə çoxdur. Bu artım tempi cari ilin ötən ayları ərzində də saxlanılmışdır. Ümumiyyətlə, son dövrlərdə Şamaxı rayonunda 33 min 465 iş yeri açılmışdır ki, bunun da yarıdan çoxu daimi iş yerləridir. 2005-ci ilin birinci yarısında 1952 yeni iş yeri yaradılmışdır. Dövlət Proqramının icrasına başlanandan sonra fiziki və hüquqi şəxs qismində aqrar sahədə 819, sənaye sahəsində 29, xidmət sahəsində 615 özəl qurum yaradılmışdır. Cari ilin ötən ayları ərzində rayon mərkəzində «Azəriqazbank»ın və «Rabitəbank»ın filialları, habelə Şamaxı İnformasiya-Turizm Mərkəzi üçün ayrılmış binalar əsaslı təmir edilmişdir.

Rayonda sahibkarların daha səmərəli fəaliyyət göstərmələri üçün də hər cür şərait yaradılmışdır. Sahibkarlığın inkişafına kömək məqsədi ilə keçən il 548 milyon manatlıq kredit verilmiş, bu ilin aprelində Şamaxıda keçirilən kredit

yarmarkasında bir nəfər sahibkara 480 milyon manat kredit ayrılmışdır.

Hörmətli cənab Prezident, Şamaxı şəhərinin abadlaşdırılması, təhsil, səhiyyə və mədəniyyət sahələrinin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi istiqamətində də xeyli işlər görülmüşdür və bu, rayon sakinləri tərəfindən razılıq hissi ilə qarşılanmışdır. Ötən il yarım ərzində Şamaxıda xalqımızın ümummilli ilderi Heydər Əliyevin əzəmətli abidəsi ucaldılmış, ulu öndərimizin, dahi Azərbaycan şairləri İmadəddin Nəsiminin, Seyid Əzim Şirvaninin adlarını daşıyan müasir parklar salınmışdır. Şəhərin yuxarı hissəsində Xaqaninin heykəli ucaldılacaqdır. Cari ilin birinci yarısında bir çox küçələrə asfalt döşənmişdir. Şəhriyar qəsəbəsinə gedən yol və qəsəbənin mərkəzi küçəsi də asfaltlanmışdır.

Prezidentin tapşırığına əsasən, kənddaxili yollarda da təmir işləri aparılmış, ötən il Şamaxı rayonunun Həmyəli kənd məktəbi üçün yeni bina inşa edilmiş, Şəhriyar qəsəbə və Nüydü kənd məktəblərinin binaları əsaslı təmir olunmuşdur. Yeni dərs ilinə hazırlıqla əlaqədar rayonda Heydər Əliyev Fondu tərəfindən 4 yeni məktəb binası tikilir. Fondun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın köməyi ilə Şamaxı şəhərindəki internat məktəbinin binası əsaslı təmir edilmiş, sinif otaqları lazımi avadanlıqla təmir olunmuşdur. Məktəbin hazırda məcburi köçkünlərin məskunlaşdığı yataqxanası da əsaslı təmir edilmiş və gənc məcburi köçkün ailələri üçün nəzərdə tutulmuş 16 mənzilli binanın tikintisinə başlanmışdır və yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

Cənab Prezident, fürsətdən istifadə edərək bu qayğıya görə Sizə və Heydər Əliyev Fondunun rəhbərliyinə Şamaxı rayonunun sakinləri adından öz minnətdarlığımı bildirirəm.

Hörmətli Prezident, Sizin Şamaxı rayonuna tarixi səfərinizdən təxminən 4 ay ötür. Ancaq biz hələ də Sizinlə keçirdiyimiz səmimi və səmərəli görüşlərin təsiri altında yaşayır və işləyirik. Səfər zamanı verdiyiniz tapşırıq və tövsiyələrin

layiqincə yerinə yetirilməsi üçün əlimizdən gələni edir, bütün imkanlardan maksimum bəhrələnirik. Məlumat üçün bildirim ki, Sizin göstərişinizə əsasən, tikintisinə başlanan Pirsaat körpüsünün inşası başa çatmaqdadır. Bununla da həmin körpüdən istifadə edəcək kəndlərin 3500 nəfərdən çox əhalisinin arzusu reallığa çevriləcəkdir. Biz eyni zamanda Sizin xeyir-duanızla, Şamaxıda televizor istehsalı zavodundan sonra maşınqayırma və məişət texnikası zavodlarının da təməlini qoymuşuq və hazırda tikinti gedir. Şamaxıda yeni xalça-trikotaj fabriki tikilib və bu yaxınlarda istifadəyə veriləcəkdir. Müəssisə yüz nəfəri işlə təmin edəcəkdir. Həmin müəssisələrin açılış mərasimində bir daha Sizinlə görüşmək şərəfini yaşamaq istərdik.

Dövlət Proqramının qəbulundan sonra respublikamızın hər yerində olduğu kimi, Şamaxıda da xeyli nəzərəçarpacaq işlərin görülməsi prezidentin regionlara göstərdiyi gündəlik qayğının və diqqətin nəticəsində mümkün olmuşdur. Lakin bəzi problemlər də mövcuddur. Şamaxı–Pirqulu yolunun əsaslı təmirinə ehtiyac vardır. Təxminən 25–30 il bundan əvvəl çəkilmiş bu yol tamamilə dağılmaqdadır. Hazırda Pirqulu zonası Azərbaycanın turizm-istirahət mərkəzinə çevrilməkdədir. Milli Elmlər Akademiyasının buradakı Şamaxı Astrofizika Rəsəd-xanası da nadir elm mərkəzi hesab olunur. Ona görə Şamaxı–Pirqulu yolunun əsaslı təmirinin sürətləndirilməsi məqsədəuyğun olardı.

Şamaxının qazlaşdırılmasıdan 30–35 il vaxt keçir. Bu müddət ərzində yeraltı qaz xətləri korroziyaya uğramış və yararsız vəziyyətə düşmüşdür. Neçə illərdir ki, Şamaxı şəhər sakin-lərinin təbii qazla təmin olunması probleme çevrilmişdir. Ona görə də istifadəyə yararsız olan 34 kilometrlik qaz xəttinin yenidən çəkilməsinə ciddi ehtiyac vardır. Qarşıdan qış gəldiyi üçün bu işə tezliklə başlanmalıdır. Müvafiq layihə-smeta sə-nədləri də hazırlanmışdır.

Digər problem Şamaxı rayonunu respublikanın aran hissəsi ilə birləşdirən Şamaxı–Padarçöl yolunun əsaslı təmir olun-

masıdır. Bu yol və Şamaxıya dəmir yolu xalqımızın ümummilli lideri Heydər Əliyevin göstərişi ilə keçən əsrin 70–80-ci illərində çəkilmişdir. Həmin yol çox istismar olunduğundan sıradan çıxmaq üzrədir. Sizdən xahiş edirik ki, həmin yolun da əsaslı təmir olunmasına göstəriş verəsiniz.

Hörmətli cənab Prezident!

Bütün Azərbaycan xalqı kimi, biz şamaxılılar da Sizi ürəkdən sevir və Sizinlə fəxr edirik. Azərbaycanın dünəni ulu öndərimiz Heydər Əliyevin adı ilə, bu günü və gələcəyi isə Sizin adınızla bağlıdır. Rayonumuzun bütün əhalisi adından Sizi əmin edirəm ki, bütün şamaxılılar ölkəmizin tərəqqisi və inkişafı naminə Sizin qarşıya qoyduğunuz vəzifələrin həyata keçirilməsi üçün bütün qüvvə və imkanlarını əsirgəməyəcəklər.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, bu yolun təmiri çox vacibdir. Bir də demək istəyirəm ki, bu sahəyə lazımi səviyyədə vəsaitin ayrılmaması yolların sıradan çıxmasına səbəb olmuşdur. Bu iş, əlbəttə, çoxlu vəsait tələb edir və həmin vəsait dərhal qayıtmır. Yəni uzunmüddətli bir layihədir. Ancaq hamımız yaxşı bilirik ki, əgər yol olmasa, inkişaf da olmayacaqdır. Ona görə də yolların salınmasına böyük diqqət göstərilir. Siz bu təklifləri Nazirlər Kabinetinə göndərin, yenə də büdcə formalaşanda buna baxarıq.

İndi şəhərlərarası yollar salınır. Bir müddət bundan əvvəl mənə müraciət olunmuşdur ki, Lənkəran–Lerik yolu çox bərbad vəziyyətdədir və dərhal göstəriş verildi. İndi çox yüksək səviyyədə yol salınır. Ondan sonra öyrəndik ki, Yardımlı rayonuna gedən yol da yararsız vəziyyətdədir. Dərhal göstəriş verildi, ilkin işlər aparılır. Getdiyim bütün bölgələrdə yolların olmaması, yaxud da yararsız vəziyyətdə olması ən vacib problemdir. Bu məsələyə – həm şəhərlərarası yollar, həm də rayonlararası yollara 2006-cı ilin büdcəsində çox böyük diqqət göstəriləcəkdir. Rayonlararası yollar rayonların balansındadır və sadəcə olaraq, bu məqsədlərə vəsait ayrılmalıdır ki, siz bu yolları özünüz təmir etdirəsiniz.

Mən Bakıya qayıdandan sonra göstəriş verəyəcəyəm ki, Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarına əlavə vəsait ayrılsın və onu həm rayon mərkəzlərinin abadlaşmasına, həm də kənd yollarının salınmasına sərf edəsiniz. Qusarda keçirilmiş müşavirədən sonra buna bənzər göstəriş verilibdir, 5 rayona vəsaitin ayrılması nəzərdə tutulur. Bu bölgə üçün də bu vəsaiti ayıracağıq. Ümumiyyətlə, Azərbaycanın bütün rayonlarında bu problem var. Uzun illər, onilliklər ərzində yol təsərrüfatına vəsait qoyulmurdu. Çünki vəsait yox idi, vəsait olsaydı, əlbəttə ki, qoyulardı. Azərbaycanın çox böyük problemləri, böyük ehtiyacları vardı. Ən böyük problem məcburi köçkünlərin və qaçqınların sosial vəziyyətini yaxşılaşdırmaq idi. Büdcəmiz imkan vermirdi ki, hər bir sahəyə lazımi diqqət yetirilsin. İndi büdcəmiz artır, gələn il daha da artacaqdır. 2007–2008-ci illərdə, ümumiyyətlə, Azərbaycanın qarşısında maliyyə problemi olmayacaqdır. Ona görə keçən il regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilib və onun icrasına başlanıb, indi davam etdirilir və növbəti illərdə də davam etdiriləcəkdir.

Siz də rayonların problemlərini dərindən bilən insanlar kimi, öz proqramlarınızı tutun. Ümumi proqramda hər bir rayon üçün məqsədlər nəzərdə tutulubdur. Elə məsələlər var ki, proqrama düşməyib, amma həll olunmalıdır. Ona görə də 2006-cı ilin büdcəsində, 2007-ci ilin büdcəsində bütün bu məsələlər öz həllini tapmalıdır. İnsanları narahat edən əsas məsələlər su təchizatı, yolların, qaz, elektrik xətlərinin çəkilməsi, körpülər salınması və başqa infrastruktur layihələridir.

**İsmət Abasov** (*Kənd Təsərrüfatı naziri*): Əsasını ümummilli liderimiz Heydər Əliyevin qoyduğu aqrar islahatlar artıq öz nəticəsini verir, ulu öndərin layiqli davamçısı olan prezident İlham Əliyev tərəfindən bu sahəyə diqqət və qayğı günbəgün hiss edilir.

2004-cü ilin sonunda kənd təsərrüfatı məhsullarının istehsal həcmində artım 4,8 faiz idisə, bu il avqustun 1-nə artım 7,4 faiz olmuşdur. Hesab edirəm, bu, son hədd deyildir. Çünki cənab Prezident, Siz qeyd etdiyiniz kimi, texnika və gübrələr alındıqdan sonra kənd təsərrüfatı məhsullarının istehsalı, emal

sahəsi də inkişaf etdiriləcəkdir. Regionlarda keçirdiyiniz və artıq ənənə halını almış görüşlər, təməlqoyma mərasimləri, o cümlədən emal müəssisələrinin açılışları, aqrar sahənin inkişafına dair imzaladığımız sərəncamlar bütün Azərbaycan xalqı kimi, sadə iş adamları, fermerlər, sahibkarlar və aqrar sahə işçiləri tərəfindən də çox yüksək qiymətləndirilir. Göstərilən bu qayğıya və köməyə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

İndi isə ölkəmizdə, o cümlədən Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz rayonlarında kənd təsərrüfatı məhsullarının istehsalı barəsində qısa məlumat vermək istərdim. Avqustun 1-nə ölkədə payızlıq və yazlıq, dənli və dənli-paxlalı bitkilər əkinlərinin 97,1 faizi, yaxud da 747,8 min hektarı biçilib və 1 milyon 912,8 min ton məhsul götürülmüşdür. Orta hesabla hər hektardan 25,6 sentner məhsul yığılmışdır. Məhsulu toplanmış 671 hektar qarğıdalı sahəsindən 2,3 min ton məhsul götürülmüşdür. Yığım başlanandan tarlalardan 624,4 min ton və ya keçən ilin müvafiq dövründəkindən 170,4 min ton çox kartof, 604,9 min ton (77,2 min ton çox) tərəvəz, 139,9 min ton (51,8 min ton çox) meyvə və giləmeyvə, 232,5 min ton (63,7 min ton çox) bostan məhsulları, 1567,7 ton (572,2 ton çox) tütün toplanmışdır.

Bu dövrdə 149,1 min ton, yaxud 2004-cü ilin yanvar–iyul aylarına nisbətən 3,5 faiz çox diri çəkidə ət, 749,3 min ton (2,7 faiz çox) süd, 541,2 milyon ədəd (3,2 faiz çox) yumurta, 11,7 ton (4,8 faiz çox) yun istehsal olunmuşdur.

Beləliklə, keçən illə müqayisədə ümumilikdə bitkiçilik məhsulları istehsalı 10,5 faiz, heyvandarlıq məhsulları isə 3,1 faiz, kənd təsərrüfatının ümumi məhsulu isə 7,4 faiz artmışdır.

Son altı ayda Şamaxı, Oğuz, Qəbələ və İsmayıllıda kartof, tərəvəz, meyvə və tütün istehsalı artmış, yeni meyvə və üzüm bağları salınmış, mal-qaranın sayı xeyli çoxalmışdır. Bu rayonlarda qaramalın sayı 1,8–2 faiz, davarın sayı 2–2,5 faiz artmışdır. Altı ayda süni yolla mayalanmış heyvanların sayı İsmayıllıda 900 başdan, Qəbələdə isə 200 başdan çox olmuşdur. Regionların sosial-iqtisadi inkişafı proqramına uyğun olaraq, bu rayonlarda

özəl toxumçuluq və damazlıq təsərrüfatları yaradılır, torpaqdan və suvarma suyundan istifadə və meliorativ vəziyyət qənaətbəxşdir.

Şamaxı rayonunda Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunun Təcrübə stansiyası, Qəbələdə Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutunun dayaq məntəqəsi yerləşir. Burada meyvə və üzüm sortlarının yetişdirilməsi üçün elmi təcrübələr aparılır, fermerlərə əməli kömək göstərilir, epizootiya əleyhinə baytarlıq profilaktika tədbirləri görülür. Əkin sahələrində ziyanvericilərlə bağlı müşahidələr aparılmış, xəstəlik baş vermiş sahələrdə kimyəvi mübarizə tədbirləri həyata keçirilmiş, rayonlara müvafiq preparatlar verilmişdir.

Dünya Bankının kənd təsərrüfatının inkişafı və kreditləşməsi layihəsi çərçivəsində Şəki regional mərkəzinin Oğuzda iki məsləhət mərkəzi yaradılmış, fermerlərə məsləhətlər verilmişdir. Elmin yenilikləri və qabaqcıl təcrübə barədə rayonun 19 min mülkiyyətçisinə informasiyalar çatdırılmışdır.

Dünya Bankının həmin layihəsi çərçivəsində Oğuz rayonunda 27 birgə borcalanlar qrupu yaradılmış, onun 457 üzvünə 847 milyon manat, bir kredit ittifaqının 118 üzvünə 622,8 milyon manat kredit verilmişdir. Kənd Təsərrüfatının İnkişafı Fondu (İFAD) tərəfindən «Dağ və yüksək dağlıq ərazilərin inkişafı» layihəsi çərçivəsində Qəbələ rayonunda 5 kənd orta məktəbi, 3 kənd uşaq bağçası, 2 həkim laboratoriyası, 1 klub əsaslı təmir edilmiş, bir kənddə içməli su problemi həll olunmuş, iki heyvandarlığa xidmət məntəqəsi tikilmişdir. Bu işlərə 133 min ABŞ dolları xərclənmişdir. Rayonda layihə çərçivəsində yemçiliyin, süni mayalanmanın, taxılçılıq və meyvəçiliyin inkişafına 131 min ABŞ dolları xərclənmişdir.

Məlumat üçün bildirim ki, respublikamızın texnikaya olan tələbatını ödəmək üçün «Aqrolizinq» tərəfindən müqavilə imzalanmış, şirkətlərə vəsait köçürülmüşdür. Yaxın bir-iki ay ərzində texnika ölkəmizə gətiriləcəkdir.

Möhtərəm cənab Prezident, Siz qeyd etdiniz ki, gələn ilin büdcəsi sosial yönümlü büdcə olacaqdır.

**İ l h a m  Ə l i y e v:** Sosial yönümlü və investisiya yönümlü .

**İ s m ə t  A b a s o v:** Bəli, sosial yönümlü və investisiya yönümlü. Ona görə də fürsətdən istifadə edərək bir neçə problemi diqqətinizə çatdırmaq istəyirəm. Gənc kadrların hazırlanmasına böyük ehtiyacımız vardır. Bizim nazirlik sisteminə aid olan 16 elmi-tədqiqat institutu var, onların maddi-texniki bazası, demək olar ki, aşağı səviyyədədir. Hesab edirəm ki, növbəti il üçün büdcədən müəyyən qədər vəsaitin ayrılmasına ehtiyac duyulur ki, bu institutların maddi-texniki bazasını yüksəldə bilək.

**İ l h a m  Ə l i y e v:** Biz bunu edə bilərik. Amma bu 16 institutun məhsulu nədir, yəni onlar hansı işləri görürlər?

**İ s m ə t  A b a s o v:** Cənab Prezident, bu institutlar fəaliyyət göstərirlər, ancaq həqiqətən də islahatlara ehtiyac vardır. Dünya Bankı da bizim bu fikirlərimizi dəstəkləmişdir ki, bu institutların bəziləri birləşməlidir. O cümlədən Üzümçülük-Şərabçılıq, Tərəvəzçilik və Bağçılıq institutları birləşməlidir. Heyvandarlıq İnstitutu ilə Yemçilik və Çəmənçilik İnstitutu birləşməlidir. Bu birləşmələri etdikdən sonra institutların maddi-texniki bazasını mütləq möhkəmləndirməliyik. Çünki dünyanın inkişaf etmiş ölkələrində kənd təsərrüfatı məhsullarının istehsalı elmə sıx bağlı olur və onların artırılması mütləq elmi surətdə həyata keçirilir.

**İ l h a m  Ə l i y e v:** Bu düzdür. Amma eyni zamanda, inkişaf etmiş ölkələrdə bütün bu elmi-tədqiqat institutları konkret sifarişçilərə işləyir və bazar iqtisadiyyatı prinsipləri əsasında işləyirlər. İndi mən demək istəmirəm ki, bizdə də belə olmalıdır. Mən Azərbaycan elminə həmişə böyük diqqətlə yanaşıram və hesab edirəm ki, ölkəmizin inkişafında Azərbaycan elminin çox böyük əhəmiyyəti var. Gələcəkdə bu məsələlərə diqqət göstərilməlidir. Müxtəlif vaxtlarda təkliflər olubdur ki, o institut bağlansın, bu institut bağlansın, yaxud Elmlər Akademiyasında struktur islahatı aparılsın. Mən buna imkan vermirəm. Çünki hesab edirəm ki, gərək bizim elmi potensialımız yüksəlsin. Hətta bəzi

institutlar indiki zəmanədə o qədər də səmərə ilə işləmir, amma gələcəkdə işləyəcəkdir. Çünki gərək inkişaf olsun, maddi vəziyyət yaxşılaşsın ki, sifarişlər də artsın. Ona görə siz bu məsələyə əməli nöqteyi-nəzərdən yanaşın və harada lazımdırsa, struktur dəyişiklikləri edin. Amma elə edin ki, elmi işçilər, bizim tanınmış ziyalılar əziyyət çəkməsinlər. Yəni heç bir ixtisara yol vermək lazım deyil, sadəcə olaraq, işi daha da təkmilləşdirmək və müasir tələblərə uyğun şəkildə formalaşdırmaq lazımdır.

**İ s m ə t  A b a s o v:** Cənab Prezident, kadr məsələsi ilə əlaqədar deyim. Gəncədə Kənd Təsərrüfatı Akademiyası adlanan yeganə ali məktəb fəaliyyət göstərir ki, orada da tələbələrin sayı çox azdır.

**İ l h a m  Ə l i y e v:** Azdır?! Nə təklif edirsiniz?

**İ s m ə t  A b a s o v:** Cənab Prezident, mən bir dəfə də təklif etmişdim ki, oraya güzəştli qəbul olmalıdır. Ancaq bu, təhsil qanununa zidd olduğuna görə problem var.

**İ l h a m  Ə l i y e v:** Mənim yadımdadır, Nazirlər Kabinetinin toplantısında məsələ qaldırmışdınız, mən də Təhsil nazirinə tapşırıq verdim. Siz onlarla birlikdə işləyin, təklif verin ki, qanunauyğun olsun, bizim qanunvericiliyi pozmasın və məqsədəuyğun olsun.

İndi «Aqrolizinq» Səhmdar Cəmiyyətinin formalaşması prosesi gedir. Texnika alınır və paylanacaqdır. Bazalar da yaranmalıdır. Keçən dəfə Qusarda müşavirədən sonra Nazirlər Kabinetinə, digər müvafiq qurumlara bütün göstərişlər verildi və mənim mövqeyim bir daha bildirildi ki, bu məsələlərlə Kənd Təsərrüfatı Nazirliyi məşğul olmalıdır. Yeni texnikanın alınması gələn ilin büdcəsində nəzərdə tutulubdur. Eyni zamanda, siz təklif vermişdiniz ki, bu il gübrənin alınmasına da vəsait ayrılsın. Mən bu barədə də göstəriş verdim. Ona görə siz işləyin və gübrənin alınıb gətirilməsini təmin edin.

**Ə b ü l f ə s  Q a r a y e v** *(Gənclər, İdman və Turizm naziri)***:** Cənab Prezident, turizm sahəsinə göstərdiyiniz yüksək diqqətə görə Sizə təşəkkürümü bildirirəm. Vaxtilə Sovet İttifaqı dövründə ümummilli liderimiz tərəfindən irəli sürülmüş

«Azərbaycanın böyük turizm zonasına çevrilməsi» ideyası artıq gerçəkləşməyə başlanmışdır. Sizin son bir ayda bir neçə dəfə bilavasitə turizmlə bağlı tədbirlərdə şəxsən iştirakınız onun bariz nümunəsidir. Xaçmaz rayonunda turizm-informasiya mərkəzinin, Bakı şəhərində «Excelsior» hotelinin, bu gün isə İsmayıllıda «Green House» İstirahət–Turizm Mərkəzinin açılışında iştirakınız, sözsüz ki, Azərbaycan turizm sənayesinə böyük bir təkandır.

Cənab Prezident, Sizin dediyiniz kimi, turizm bu gün təkcə hotelin tikintisindən ibarət deyil, bu, böyük bir sənayedir. Dünya statistikasına görə, hər bir turistə xidmət göstərilməsində 9 nəfər iştirak etməlidir. Yəni bir turistə xidmət göstərilməsi üçün doqquz yeni iş yeri açılmalıdır. Bu gün «Green House»un açılışında Sizə məlumat verildi ki, onun nəzdində xüsusi təsərrüfat yaradılıb və bütün qida məhsulları oradan alınacaqdır. Bu həm də kənd təsərrüfatı sahəsində müəyyən iş yerlərinin açılmasına təkan verir.

Bu zonanın turizm inkişafı əhəmiyyətli bir proqram çərçivəsində həll olunur və Azərbaycanda ən əsas 7 turizm zonasının inkişafına dair layihələrimiz hazırlanır. Bu dörd rayonu əhatə edən zona, eləcə də Balakən, Qax və Şəki rayonları dünyada tanınmış və bu gün Ümumdünya Turizm Təşkilatı tərəfindən həyata keçirilən «İpək Yolu» proqramına daxildir.

Sizə məlumat vermək istəyirəm ki, dörd rayonda bu gün cəmi 24 müəssisə fəaliyyət göstərir.

**İlham Əliyev:** Bu çox azdır.

**Əbülfəs Qarayev:** Son üç ildə 8 müəssisə istifadəyə verilmişdir. Dörd rayonda 1090 turist yerləşə bilər. Amma keyfiyyət haqqında danışmaq bu gün çətindir. Çünki bütün dörd rayonda yalnız Qəbələdə bir müəssisə 3+ ulduzlu sertifikatı alıb, qalanlarının heç birinin sertifikatı yoxdur.

**İlham Əliyev:** Səviyyə aşağıdır.

**Əbülfəs Qarayev:** Bəli. Son iki il müddətində tikilən hoteldə və yaxın günlərdə istifadəyə veriləcək hoteldə

keyfiyyət rayon rəhbərliyi ilə birlikdə ciddi nəzarətimiz altındadır. Səhv etmirəmsə, artıq 9 müəssisə tikilməkdədir. İcra hakimiyyətlərinin rəhbərlərindən xahiş edirəm ki, o obyektlərin bütün qanuni sənədlərinin tərtib olunmasına və hotellərin yəni keyfiyyət nəzarətinə daxil olmasında bizə kömək etsinlər.

Cənab Prezident, İsmayıllı rayonunda turizmin inkişafına çox böyük maraq var. Hətta Dünya Bankı tərəfindən Lahıc qəsəbəsində turizm-informasiya mərkəzinin yaradılmasına dair təklif, razılıq var, vəsait də ayrılır. Bu işə başlanılıb və həmin mərkəzi ilin axırınadək təhvil verəcəyik.

**İlham Əliyev:** Lahıc qəsəbəsində yaradılacaq?

**Əbülfəs Qarayev:** Bəli, üç otaqdan ibarət olacaq və ancaq Lahıca həsr ediləcəkdir.

**İlham Əliyev:** Lahıcda yerləşməlidir?

**Əbülfəs Qarayev:** Bəli.

**İlham Əliyev:** Lahıca əgər kimsə gəlirsə, deməli, artıq əvvəlcədən tanış olur.

**Əbülfəs Qarayev:** Belə bir fikir var ki, yerli adamlar da bu işə cəlb edilsinlər.

**İlham Əliyev:** Daha yaxşı olardı ki, o başqa yerdə yaradılsın, potensial turistlər gəlib orada Lahıcın tarixi ilə, imkanları ilə tanış olsunlar. Yoxsa, əgər turist çətin yolları keçib Lahıca gəlibsə, gedib turizm mərkəzində nə edəcəkdir?!

**Əbülfəs Qarayev:** Cənab Prezident, tamamilə haqlısınız. Ona görə, biz bu gün müzakirə etdik. 1980-ci illərdə İsmayıllıda tikilən Ziyalılar evi yarımçıq qalmışdır. Nazirlər Kabinetinin qərarı ilə bizim nazirliyin balansına verilsin ki, orada Gənclər Mərkəzinə, asudə vaxtın təşkilinə və hətta həmin binada turizm-informasiya mərkəzinin yaradılmasına imkan olsun.

**İlham Əliyev:** Bəli, orada da kompüter vasitəsilə təkcə İsmayıllı rayonunun yox, bütün bölgənin turizm yerləri haqqında – onların yolları, yəni neçə kilometrdir, hansı imkanlar var – məlumat toplansın. Biz turistləri bu cür cəlb edə bilərik.

**Ə b ü l f ə s  Q a r a y e v:** Xahişimiz ondan ibarətdir ki, biz müraciət etmişik, həmin binanın bərpasına gələn il başlanılsın. Bu, çoxtərəfli bir mərkəz olacaqdır. Həm turizm, həm də asudə vaxtın təşkili ilə bağlı digər sahələri əhatə edəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Büdcədə nəzərdə tutarsınız.

**Ə b ü l f ə s  Q a r a y e v:** Qəbələ rayonunda son vaxtlar özəl turizm obyektlərinə olduqca böyük maraq göstərilir. Hətta Sahibkarlığa Kömək Milli Fondu tərəfindən iki müəssisə maliyyələşdirilmişdir. Bu iş davam etdirilir. Üç əlavə müəssisə tikilməkdədir. İnanırıq ki, Qəbələ və İsmayıllının turizm potensialı daha da genişlənəcəkdir.

Sözsüz ki, Oğuz rayonunun da turizm potensialı böyükdür. Lakin orada müəssisələr çox azdır. Cəmi bir mehmanxana var. O da köhnədir, sovet dövründən qalıb, adı mehmanxanadır.

**İ l h a m  Ə l i y e v:** Qeydiyyatda var, amma əslində yoxdur?

**K a m i l  R ə h i m o v:** Cənab Prezident, o mehmanxana 1955-ci ildə tikilibdir. Onun sökülməsinə 100 milyon manat pul lazımdır, çox bərbad haldadır.

**Ə b ü l f ə s  Q a r a y e v:** «Rövşən Oğuz» şirkəti tərəfindən Oğuzda yeni mehmanxana tikintisi ilə əlaqədar layihə hazırlanmışdır. Amma biz hesab edirik ki, sahibkarların Oğuzda bu cür yerlər salması üçün onlara kredit və ya yardım formasında kömək yaxşı olardı.

Burada iki məsələyə toxunuldu. Həqiqətən, Dövlət Proqramı ilə əlaqədar həm İsmayıllıda, həm də Oğuzda idman komplekslərinin tikintisi nəzərdə tutulmuşdur. İndi bu iş o qədər geniş vüsət alıb ki, hər il 4-5 rayonda böyük maliyyə tələb edən idman kompleksinin tikintisinə başlanılır. Biz inanırıq ki, gələn il heç olmasa başlanğıc mərhələ kimi, bu rayonlarda da olimpiya komplekslərinin tikilməsi nəzərdə tutulsun.

**İ l h a m  Ə l i y e v:** Gərək nəzərdə tutaq. Amma başlansın və qısa müddət ərzində, bir ildən sonra da tikintisi bitsin.

**Ə b ü l f ə s  Q a r a y e v:** Çalışacağıq.

Dünən Sizin tapşırığınıza əsasən Şamaxı turizm-informasiya mərkəzinin vəziyyəti ilə tanış olduq. Açılışı bu ayın axırına nəzərdə tutulur. Amma Sizə deməliyəm ki, Bakıdan Şamaxıya maşınla bir saat on dəqiqəyə çatdıq. Şamaxıdan Pirquluya isə 45 dəqiqəyə getmişik.

**İ l h a m Ə l i y e v:** Yəni yol belə bərbaddır?

**Ə b ü l f ə s Q a r a y e v:** Bəli. Şamaxıda bütün turizm mərkəzləri məhz Pirqulu zonasında yerləşir. Yolun bu vəziyyəti turistlərin haqlı narazılığına səbəb olur, onlar əziyyət çəkirlər. Yol bərpa olunsa, demək olar ki, böyük turizm zonası yeni bir həyat alacaqdır.

Nəhayət, Sizin tapşırığınıza əsasən Şamaxıda yeni bir lift sistemi alınacaqdır.

**İ l h a m Ə l i y e v:** Dağ xizəkçiliyi üçün?

**Ə b ü l f ə s Q a r a y e v:** Bəli. Sizin tərəfinizdən bunun alınmasına tapşırıq verilib, vəsait müəyyənləşib, danışıqlar gedir. Biz çalışacağıq ki, bu qışda Şamaxıda qarlı günlərdə ilk dəfə olaraq xizəksürmə idman növünü tətbiq edək.

Söz veririk ki, Sizin diqqətiniz nəticəsində Azərbaycana gələn turistlərin sayının ildən-ilə artması üçün var qüvvəmizlə çalışacağıq. Sizin diqqətinizi bir problemə cəlb etmək istəyirəm. «Green House»un idarə olunmasına Türkiyədən mütəxəssislər dəvət etmək istəyirlər. Mən hesab edirəm ki, Azərbaycan gənclərinin, mütəxəssislərinin potensialı heç də onlardan aşağı deyil. Azərbaycanda mövcud İdman və Turizm Kollecinin əsasında Turizm İnstitutunun yaradılması yaxşı olardı və biz orada yerli sahibkarlar üçün lazımi kadrlar hazırlayardıq.

**İ l h a m Ə l i y e v:** Bu çox vacib məsələdir. Çünki bu günlərdə mən «Excelsior» hotelinin açılışında da maraqlandım. Mənə dedilər ki, oradakı işçilərin hamısı təcrübə toplamaq üçün Türkiyəyə, başqa ölkələrə göndərilmişdir. Ona görə, nəzərə alsaq ki, turizmin böyük inkişafı olacaq, əlbəttə, gərək Azərbaycanda kadrların hazırlanması təşkil edilsin. Siz təklif verin, baxarıq.

Bir də tikilən turizm obyektlərinin o qədər də yüksək səviyyədə olmaması məsələsinə toxundunuz. Gərək siz – həm

yerli icra orqanları, həm də Gənclər, İdman və Turizm Nazirliyi obyektlər tikilən zaman bu məsələyə diqqət yetirəsiniz ki, onlar bəsit şəkildə tikilməsin. Bir çox hallarda onlar çox yararsız, bəsit, eybəcər görkəmdə tikilir və əlbəttə, ümumi mənzərəni də pozur. Bu, imkan vermir ki, insanlar gəlib orada rahat dincələ bilsinlər.

İndi tələbat çoxdur. Xüsusilə Bakının bu isti günlərində insanlar çalışırlar ki, daha sərin yerlərə getsinlər. Ancaq şərait o qədər də ürəkaçan deyildir. Onsuz da gəlirlər, amma gələndə heç olmasa, gərək onlar normal yaşasınlar. Yeni obyektlər tikiləndə mütləq fikir verin ki, sonra bu problem yaranmasın.

Turizm infrastrukturu obyektləri də gərək qanuna müvafiq yollarla tikilsin. Mən bilirəm ki, indi bəzi problemlər var. Vaxtilə tikilmiş bəzi obyektlərin heç sənədi də yoxdur. Hansı yolla tikilibdir, Allah bilir. Ona görə, indi obyektlərin hamısı gərək qanuna müvafiq, bütün sənədləri olmaqla tikilsin. Buna həm yerli orqanlar nəzarət etməlidir, həm də nazirlik.

**T o f i q  İ b r a h i m o v:** Turizm obyektlərinin əksəriyyəti mənzərəli və gözəl yerlərdə tikildiyindən, vətəndaşların həmin əraziləri icarəyə götürərək qanunsuz, pərakəndə, zövqsüz inşaat işləri aparmasına yol verməK olmaz. Bunun qarşısının alınması vacibdir, bu sahə üzrə layihələrin Gənclər, İdman və Turizm Nazirliyində qeydiyyatdan keçməsi yaxşı olardı.

**İ l h a m  Ə l i y e v:** Bəli, buna ciddi fikir verin və əlbəttə ki, icazəsiz tikililərə yol vermək olmaz. Çünki birincisi, bəsit şəkildə tikilən obyektlər bizim indiki inkişafımıza uyğun deyildir. Ölkə inkişaf edir və hər şey dünya standartlarına uyğun şəkildə olmalıdır. Digər tərəfdən, o bəsit obyektləri o qədər də məqbul olmayan yerdə tikmirlər, ən yaxşı yeri seçirlər. Beləliklə, imkan vermirlər ki, orada daha müasir obyekt tikilsin. Əlbəttə, nazirlik gərək ciddi nəzarət etsin. Tikiləcək bütün turizm infrastrukturunun sənədləşdirilməsi gərək qanunauyğun şəkildə olsun. Layihəsi, xarici görünüşü, tikintidə istifadə ediləcək materiallar da orada göstərilməlidir. Smeta dəyəri, tikilmə müddəti göstərilməlidir və onu tikən şirkət öz üzərinə öhdəlik götürməlidir. Belə çıxmasın ki, yeri götürdü, sonra deyir

hərdənbir çadır qururam, özüm gəlib dincəlirəm, heç kimi də qoymuram. Götürülən öhdəlik də yerinə yetirilməlidir və gərək hər il – deyə bilmərəm, indi sizdə necədir, neçə ildən birdir – təftiş edəsiniz, baxasınız. Lisenziyanı ya uzadarsınız, yaxud da əgər o normalara riayət etmirsə, ləğv edərsiniz.

**Ə b ü l f ə s  Q a r a y e v:** Biz lisenziyanı beşillik veririk, ancaq hər il yoxlamağa səlahiyyətimiz var.

**İ l h a m  Ə l i y e v:** Bəli, yoxlayın. Yaxşı, işimizi yekunlaşdıraq.

## YEKUN NİTQİ

Mən hesab edirəm ki, çox səmərəli müzakirə aparıldı və qarşıda duran məsələlər bir daha nəzərdən keçirildi. Azərbaycanda yeni iş yerlərinin açılması prosesi o qədər sürətlə gedir ki, iqtisadiyyatımızın bütün sahələrinə öz təsirini göstərir. Kənd təsərrüfatının inkişafı, turizmin inkişafı, xüsusilə rayonlarda bu iki istiqamətdə aparılan işlər çox sürətlə getməlidir. Bunu təmin etmək üçün, bayaq dediyim kimi, bütün infrastruktur məsələlər öz həllini tapmalıdır.

Bu ilin və gələn ilin sonuna qədər Azərbaycanın müxtəlif yerlərində tikiləcək kiçikhəcmli elektrik stansiyaları bölgələrdə enerji qıtlığını tamamilə aradan qaldırmalıdır. Mənə verilən məlumata görə, şimal bölgəsində olduğu kimi, burada da elektrik enerjisi problemi yoxdur. Amma əsas odur ki, qışda problem olmasın. Bizim əsas problemimiz qışdadır və bunu aradan qaldırmaq üçün, dediyim kimi, 2006-cı ilin sonuna qədər kiçik elektrik stansiyaları tikiləcəkdir. Eyni zamanda, Bakının istilik sistemi tamamilə yenidən qurulacaqdır. Biz buna nail olsaq, həm əhalini istiliklə təmin etmiş oluruq, həm də təbii ki, elektrik enerjisinə tələbat azalacaqdır.

Dediyim kimi, gələn il büdcəmiz həm də investisiyayönümlü olacaqdır. Büdcədə infrastuktur layihələrin həyata keçirilməsi üçün və sosial obyektlərin – məktəblərin, xəstəxanaların tikintisi, yolların salınması və başqa infrastruktur obyektlərin tikintisi üçün böyük həcmdə vəsait nəzərdə tutulacaqdır.

Azərbaycanda idman komplekslərinin tikintisi də geniş vüsət alıbdır. Milli Olimpiya Komitəsi 2000-ci ildə bu təşəbbüslə çıxış edib və ötən müddət ərzində, artıq sayını da itirdik, səhv etmirəmsə, 12 idman kompleksi yüksək səviyyədə tikilibdir. Sonuncu dəfə Şamaxıda açılışda iştirak etdik. Buraya gələrkən yoldan gördüm ki, bəli, yaxşı fəaliyyət göstərir. Qusarda da təməlqoyma mərasimi keçirdik. Ona görə bu işlər gələn il də nəzərə alınmalıdır. Mən bilirəm, hər bir rayonun əhalisi istəyir ki, o rayonda tikilsin və biz də bunu təmin etməliyik, çalışırıq. Sizin də təklifləriniz nəzərə alınacaq, nazirlik və Milli Olimpiya Komitəsi birgə baxacaqlar, ardıcıllığı da təmin edəcəklər ki, harada, nə vaxt tikilsin. Hər halda, ildə bir neçə idman kompleksi tikiləcəkdir. Biz bu məsələyə böyük diqqət göstəririk.

Vaxtilə, 1970-ci illərdə belə bir layihə var idi – Oğuz, Qəbələ zonasından Bakıya yeni su kəmərinin çəkilməsini təmin etmək. O vaxt alimlər, mütəxəssislər bu layihə üzərində çox işlədilər və faktiki olaraq, layihə icraya hazır idi. Amma Azərbaycanda 1980-ci illərin ortalarından gedən proseslər və ondan sonrakı dövrdəki xoşagəlməz proseslər, əlbəttə, imkan vermədi ki, layihə gerçəkləşsin. Ondan sonrakı illərdə də bu məsələ vaxtaşırı qaldırılırdı, amma bunu həyata keçirməyə imkanımız yox idi. Xarici maliyyə qurumlarının kreditlərinə ümid bəsləyirdik. Onlar da o qədər də böyük meyl göstərmirdilər.

İndiki şəraitdə artıq bizim xarici kreditlərə çox ehtiyacımız yoxdur. Çünki bizim pulumuz var. Neft fondunda da pul var. Valyuta ehtiyatımız da var və büdcəmiz də ildən-ilə artır. Ona görə hələ bir il bundan əvvəl hökumətin qarşısında vəzifə qoyuldu ki, bu məsələ yenidən öyrənilsin, araşdırılsın və təkliflər verilsin. Artıq 2005-ci ilin büdcəsində müəyyən işlər görülməsi nəzərdə tutulmuşdur. Müəyyən yerlərdə quyular qazılmalıdır ki, suyun həcmi daha dəqiq bilinsin. Bu yaxınlarda «Azərsu» Səhmdar Cəmiyyəti qarşısında vəzifə qoyulub ki, tezliklə təkliflərini versin. Əgər biz bu su kəmərini tiksək,

demək olar ki, Bakının su problemi tamamilə aradan qaldırıla bilər.

Bu, böyük layihədir. Tikiləcək kəmərin məsafəsi təxminən 300 kilometrdən çoxdur. Əlbəttə, böyük vəsait tələb edir, amma biz bunu etməliyik. Biz insanları narahat edən bütün məsələləri həll etməliyik, böyük diqqətlə yanaşmalıyıq. Mən fikirləşirəm ki, planlaşdırım, bəlkə bu ilin sonunda artıq əməli işlərə başlaya bilərik. 2006–2007-ci illərdə bunu başa çatdıraq. Əminəm ki, tikinti başlayacaqdır.

Əlbəttə, bu həm də bölgədə yeni iş yerlərinin açılmasına gətirib çıxaracaq, kəmərin tikintisi ilə məşğul olan çoxsaylı insanlar işlə təmin olunacaqdır.

Bütövlükdə, bu rayonlarda gedən quruculuq-abadlıq işləri məni qane edir. Mən çox məmnunam, amma istəyirəm ki, işlər daha da sürətlə getsin. Həm inkişaf, həm də insanlara qayğı daha da artsın. Bu günlərdə təmasda olduğum insanlar çox xoş sözlərlə mənə təşəkkür edirlər ki, rayonlarda rəhbərliyin dəyişməsi nəticəsində işlər çox sürətlə getməyə başladı. Bu çox sevindirici haldır. Çünki yerli icra hakimiyyətlərinin başçıları mənim yerlərdəki nümayəndələrimdir. Siz mənim siyasətimi burada həyata keçirirsiniz və sizin fəaliyyətinizdən çox şey asılıdır. Mən də sizə kömək edəcəyəm, sizi dəstəkləyirəm. Bu çox vacibdir, həm də mənəvi dəstəkdir. Eyni zamanda, maliyyə dəstəyi də göstərəcəyəm və elə edəcəyəm ki, sizin işləriniz daha da sürətlə getsin.

Qarşıdan parlament seçkiləri gəlir və icra hakimiyyətlərinin başçılarından tələbim odur ki, siz bu məsələlərə müdaxilə etməyin. Seçkilər tam şəffaf, ədalətli keçməlidir. Bütün namizədlərə eyni şərait yaradılmalıdır. Seçki kampaniyası artıq başlanıbdır. İndi namizədlər öz seçiciləri ilə görüşə gələcəklər. Min nəfərdən çox namizəd qeydiyyata düşmək istəyir. Bu da özlüyündə çox böyük göstəricidir. Deməli, insanlarda inam var ki, seçkilər ədalətli keçəcəkdir. Əgər inam yox idisə, heç kim özünə bu əziyyəti verməzdi.

Sizdən tələbim budur ki, bu proseslərə müdaxilə etməyin və yerlərdə olan nümayəndələrə də deyin. Bəzi hallarda yaxşılıq etmək üçün, yaxud hansısa xidmət göstərmək üçün müdaxilələr olur, amma bunlar bizə lazım deyildir. Bu «ayı xidməti» bizə lazım deyildir. Seçkilər tam ədalətli, şəffaf keçiriləcəkdir. Mən şübhə etmirəm ki, bizim gördüyümüz işlər nəticəsində, Azərbaycanda gedən quruculuq-abadlıq işləri nəticəsində, görünən tərəqqi nəticəsində Azərbaycan seçiciləri bizim namizədlərə öz səsini verəcəkdir. Yeni Azərbaycan Partiyasının nümayəndələrinə, müstəqil nümayəndələrə, o insanlara ki, onlar öz əməli işləri ilə artıq nüfuz qazanıblar, həm də o insanlara ki, onların nəsə edəcəklərinə ümid vardır.

Bilirsiniz, boşboğazlıq dövrü Azərbaycanda artıq çoxdan keçmişdir. Sadəcə olaraq, bəzi üzdəniraq siyasətçilər bunun fərqində deyillər. Bəziləri hələ 1980-ci illərin sonlarında, 1990-cı illərin əvvəllərində baş vermiş hadisələrlə, ab-hava ilə yaşayırlar. Artıq bu tarixdir. Özü də o qədər də xoşagəlməyən tarixdir. Bu gün Azərbaycanın qarşısında tam başqa məsələlər, məqsədlər durur. İnkişaf, Dünya Birliyinə inteqrasiya məsələləri, regionların inkişafı, Azərbaycanda iqtisadi potensialın güclənməsi, ordu potensialının güclənməsi, milli həmrəylik məsələləri – bizim bugünkü Azərbaycanın həyatını səciyyələndirən amillər budur. Ona görə, naftalin qoxusu gələn siyasətçilərə heç kim səs verməyəcəkdir. Mən bunu da nəzərə alıb sizdən tələb edirəm ki, heç bir namizədə heç bir çətinlik, heç bir maneçilik törədilməsin. Müxalifətdə olan adamlar nə qədər çox danışsalar, özlərini o qədər çox biabır edəcəklər. Ona görə heç bir müdaxilə olmamalıdır, seçkilər şəffaf keçirilməlidir və Azərbaycan xalqının iradəsi öz əksini tapmalıdır.

Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Mən bir daha demək istəyirəm ki, bu dörd rayonda icra hakimiyyətlərinin başçıları, demək olar, yeni təyin ediliblər. Yaxşı başlamısınız, mən razıyam. Əgər belə, mənim tələblərimə uyğun şəkildə davam etsəniz, sizi həmişə dəstəkləyəcəyəm və sizə kömək edəcəyəm. Sağ olun.

## «ROSSİYA» TELEKANALININ «VESTİ–NEDELYA» PROQRAMINA MÜSAHİBƏ

*Prezident sarayı*

*22 avqust 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev «Rossiya» telekanalının «Vesti–nedelya» proqramının aparıcısı Sergey Brilyova müsahibə vermişdir.*

*Dövlətimizin başçısı MDB-nin fəaliyyəti, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri, regional və beynəlxalq məsələlər barədə suallara ətraflı cavab vermişdir.*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 avqust 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Varşavada AŞPA-nın sədri ilə keçirdiyi görüşü məmnunluqla xatırlayaraq görüşün qarşılıqlı maraq doğuran bir sıra məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını qeyd etmişdir. Ölkəmizdə cəmiyyətin daha da demokratikləşməsi istiqamətində böyük işlərin həyata keçirildiyini vurğulayan prezident İlham Əliyev AŞPA sədrinin səfərinin Azərbaycanda gedən inkişaf prosesləri ilə yaxından tanış olması işinə xidmət edəcəyinə əminliyini ifadə etmişdir.*

*Rene van der Linden Avropa Şurasının ölkəmizdə həyata keçirilən islahatlar prosesini dəstəklədiyini vurğulamışdır. O, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin Azərbaycan üçün ən mühüm məsələ olduğunu qeyd edərək münaqişənin dinc yolla nizamlanması istiqamətində addımların atılmasından məmnunluğunu bildirmişdir. Ermənistana səfəri zamanı Ermənistan tərəfi ilə bu məsələni müzakirə etdiyini bildirən AŞPA-nın sədri münaqişənin tezliklə öz həllini tapacağına ümidvar olduğunu ifadə etmişdir.*

*Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunmuşdur.*

## LİVİYA İNQİLABININ RƏHBƏRİ, LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ

Hörmətli cənab Başçı!

Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin milli bayramı – Böyük İnqilab günü münasibətilə Sizi salamlayır, Sizin simanızda bütün xalqınıza təbriklərimizi yetirirəm.

Ümidvar olduğumu bildirirəm ki, Azərbaycan–Liviya münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Liviya xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 avqust 2005-ci il*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İVAN QAŞPAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Slovakiyanın milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Slovakiya arasında gündən-günə genişlənən əlaqələr dostluğumuzun daha da möhkəmlənməsinə, qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafına xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Slovakiya xalqına sülh və xoşbəxtlik diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 avqust 2005-ci il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Əbdüqəniyeviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və dost Özbəkistan xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanla Özbəkistan arasında dərin tarixi kökləri olan dostluq və əməkdaşlıq bu gün dövlətlərarası münasibətlərimizin möhkəm əsasını təşkil edir. Əminəm ki, ikitərəfli əlaqələrimizin daha da inkişaf etməsi və möhkəmlənməsi, regional və beynəlxalq qurumlarda qarşılıqlı dəstək xalqlarımızın mənafelərinə, regionda sülh, təhlükəsizlik və sabitlik işinə bundan sonra da xidmət edəcəkdir.

Möhtərəm İslam Əbdüqəniyeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Özbəkistan xalqına əmin-amanlıq, həmrəylik və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 avqust 2005-ci il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DİK LİONQA**

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı mövcud dostluq münasibətləri əməkdaşlığımızın hərtərəfli inkişafına daim müsbət təsir göstərəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 avqust 2005-ci il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İMAMƏLİ RƏHMONOVA**

Hörmətli İmaməli Şaripoviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Tacikistan xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, dostluq, əməkdaşlıq və qarşılıqlı dəstək prinsiplərinə əsaslanan dövlətlərarası münasibətlərimiz xalqlarımızın və ölkələrimizin mənafeləri naminə, regionda sülh, sabitlik və təhlükəsizlik naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli İmaməli Şaripoviç, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Tacikistan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 22 avqust 2005-ci il*

## KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ

Hörmətli cənab Sədr!

Koreya Xalq Demokratik Respublikasının yaranması günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Ümidvaram ki, ölkələrimiz arasında təşəkkül tapmış münasibətlər daim dostluq zəminində inkişaf edərək, yeni əməkdaşlıq imkanlarını üzə çıxaracaqdır.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, ölkənizə sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 22 avqust 2005-ci il*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA**

Hörmətli cənab Prezident!

Braziliya Federativ Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı salamlayır, ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 avqust 2005-ci il*

# ƏLİL OLMUŞ ŞƏXSLƏRİN VƏ ŞƏHİD AİLƏLƏRİ ÜZVLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 avqust 2005-ci il*

**İ l h a m Ə l i y e v:** Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Mən çoxdan arzulayırdım ki, biz burada, Prezidentin İcra Aparatında görüşək, məsələləri müzakirə edək, sizi narahat edən problemləri həll edək. Mən müxtəlif tədbirlərdə, görüşlərdə, bölgələrə etdiyim səfərlər çərçivəsində, Bakıda keçirdiyim tədbirlərdə Vətən uğrunda vuruşmuş, əlil olmuş insanlarla görüşürəm. Şəhid olmuş qəhrəmanlarımızın ailə üzvləri ilə görüşürəm. Mənə çoxlu müraciətlər olub, çalışıram ki, bütün müraciətlərə müsbət reaksiya verilsin. Sizi narahat edən problemlər aradan qaldırılsın. Bu bizim hamımızın borcudur. Biz hamımız çalışmalıyıq, hər bir vəzifəli şəxs çalışmalıdır ki, Vətən uğrunda öz sağlamlığını itirmiş insanlar daim böyük diqqətlə əhatə olunsunlar, şəhidlərimizin ailə üzvləri öz məişət problemlərini həll edə bilsinlər. Bu məsələləri həll etmək üçün müvafiq qərarlar qəbul olunmuş, sərəncamlar imzalanmışdır. Şübhəsiz ki, gələcəkdə də biz bu məsələlərə daim böyük diqqətlə yanaşacağıq.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəticələri hələ də aradan qaldırılmayıbdır. 1990-cı ilin əvvəllərində o vaxtkı rəhbərliyin xəyanətkar və yarıtmaz fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşdü, minlərlə Azərbaycan vətəndaşı şəhid oldu, əlil oldu. Biz çalışırıq ki, bu münaqişəni danışıqlar yolu ilə, sülh yolu ilə həll edək. Amma gördüyünüz kimi, hələlik heç bir nəticə yoxdur. Düzdür, son illər ərzində atılmış si-

yasi addımlar məsələnin ədalətli həllində rol oynaya bilər. Ancaq nəticə etibarilə hələlik biz istədiyimizə nail ola bilməmişik. Ona görə bütün diplomatik və siyasi səylərlə yanaşı, ordu potensialının gücləndirilməsi məsələlərinə böyük diqqət göstərilir və əməli addımlar atılır.

Ordumuzun potensialı ildən-ilə gücləndirilir və bu gün bizim ordumuz qarşıda duran vəzifələri həll edə bilər. Sadəcə olaraq, biz sülh prosesinin imkanlarından tam istifadə etmək niyyətindəyik. Ümid edirəm ki, məsələ sülh yolu ilə həll oluna bilər. Ancaq biz daim hazır olmalıyıq ki, istənilən yolla, hərbi yolla öz doğma torpaqlarımızı azad edək.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanda əlil olmuş insanlara, Qarabağ müharibəsində öz sağlamlığını itirmiş insanlara daim böyük diqqət və qayğı göstərirdi. O diqqət və qayğını siz də hiss edirdiniz, cəmiyyət də bunu bilirdi. Bu siyasət bu gün davam etdirilir. Hələ 1990-cı illərdə Milli Məclisə Qaradağ rayonundan deputat seçiləndən sonra mənim təşəbbüsümlə bu rayonda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün 50 mənzilli iki ev inşa edilmiş və istifadəyə verilmişdi.

Bu gün ölkənin prezidenti kimi də bu məsələlərə daim böyük diqqətlə yanaşıram. Ümumiyyətlə, Azərbaycanda çətin vəziyyətdə yaşayan insanların həyat şəraitinin yaxşılaşması mənim üçün prioritet məsələdir.

Azərbaycanda aparılmış iqtisadi islahatlar nəticəsində indi bizim maliyyə imkanlarımız da artır, büdcəmiz də ildən-ilə artır. Bu ilin büdcəsi keçən ilin büdcəsinə nisbətən təxminən 46 faiz artmışdır. Gələn ilin büdcəsi isə daha da yüksək sürətlə artacaq, minimum 3 milyard 200 milyon dollar təşkil edəcəkdir. Yəni, onu demək istəyirəm ki, artıq bizim insanları narahat edən sosial problemlərin həlli üçün maliyyə imkanlarımız da var və bu imkanlar getdikcə artacaqdır. Belə olan halda çətin vəziyyətdə yaşayan insanların həyat səviyyəsinin yaxşılaşması prosesi daha da sürətlə gedəcəkdir.

Bizim büdcəmiz sosialyönümlü büdcədir. Sosial məsələlərin həllinə böyük vəsait nəzərdə tutulub və bu, ildən-ilə artırılacaq. Azərbaycan vətəndaşları ilbəil daha da yaxşı yaşamalıdırlar və yaşayacaqlar. İlk növbədə, Vətən uğrunda şəhid olmuş insanların ailələrinə, öz sağlamlığını itirmiş insanlara daim böyük diqqət göstəriləcəkdir. Siz buna əmin ola bilərsiniz. Ümid edirəm ki, görüləcək tədbirlər nəticəsində sizin yaşayış səviyyəniz yaxşılaşacaqdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi öz tərəfindən bu məsələlərin həlli üçün çox böyük işlər görür, mühüm addımlar atılır. Mən bölgələrdə olarkən yeni inşa edilmiş evlərlə də tanış oluram və orderləri təqdim edirəm.

Eyni zamanda, digər sosial məsələlər öz həllini tapır. Müxtəlif bölgələrdə əlillərin bərpa mərkəzləri açılır. Minik avtomaşınlarının verilməsi artıq ənənəyə çevrilibdir. Bildiyimə görə, bu, nadir bir təcrübədir, başqa ölkələrdə belə bir təcrübə yoxdur. Yəni, bütün bunlar onu göstərir ki, dövlət bu məsələlərə daim böyük diqqətlə yanaşır. Yenə də demək istəyirəm ki, bizim maddi imkanımız artdıqca, bu məsələlərə daha böyük diqqətlə yanaşacağıq.

Hər şey iqtisadiyyat üzərində qurulur. Ona görə iqtisadi inkişaf, bölgələrin inkişafı, regional inkişaf proqramlarının həyata keçirilməsi bizim üçün çox önəmli məsələlərdir. Əgər bizim iqtisadi bazamız zəif olsa, vəsaitimiz olmasa, əlbəttə, sosial problemlərin həlli üçün o qədər də böyük imkan olmayacaqdır.

Amma Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf edən ölkədir. Dünyada, demək olar ki, ən yüksək sürətlə inkişaf edən ölkədir və bizim iqtisadi gücümüz ildən-ilə artacaqdır. Bu işdə də xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Əgər 1990-cı illərin o çətin məqamlarında onun cəsarətli siyasəti uğurla nəticələnməsəydi, bugünkü nailiyyətlərdən söhbət gedə bilməzdi. Məhz o illərdə bugünkü inkişafın təməli qoyulmuşdur. O cümlədən neft strategiyasının həyata keçirilməsi və digər iqtisadi islahatlar.

Bir daha demək istəyirəm ki, bu görüş mənim üçün çox dəyərlidir, çox vacibdir. Əmin olun ki, həmişə mənim dəstəyimə ümid edə bilərsiniz. İstənilən məsələnin, qlobal xarakter daşıyan məsələnin, yaxud da fərdi məsələnin, mənim üçün bunun heç bir fərqi yoxdur. Çünki hər bir insanın problemi, xüsusilə bu kateqoriyadan olan insanların problemi bizim hamımızın problemidir və biz hamımız çalışmalıyıq ki, bunları həll edək.

**Ə l i N a ğ ı y e v** (*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri*): Cənab Prezident, vaxt ayırıb onlarla görüşdüyünüzə görə Sizə 380 min əlil insanların adından dərin minnətdarlığımı bildirirəm. Bu insanların dövlətimizin başçısının həyata keçirdiyi sosial siyasətin uğurlarını yüksək qiymətləndirdiklərini vurğulayaraq demək istəyirəm ki, bu yolu böyük öndərimiz Heydər Əliyev qoymuşdur. Bugünkü müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Bu gün Azərbaycanda Heydər Əliyev siyasətini, yolunu İlham Əliyev kimi uğurla davam etdirə biləcək ikinci bir şəxs yoxdur və ola da bilməz.

Cənab Prezident, Sizin bölgələrə səfərlərinizi, keçirdiyiniz görüşləri yüksək qiymətləndiririk, Siz daxil olan ərizə və şikayətlərə diqqətlə yanaşırsınız. Son iki ildə əldə olunmuş nailiyyətlər, əhalinin, o cümlədən əlillərin, pensiyaçıların yaşayış səviyyəsi yüksəlmişdir. Bu heç də bütün ölkələrdə belə deyildir. Azərbaycan prezidenti əlillərin sosial müavinətlərinin artırılması, müalicə imkanlarının yaxşılaşdırılması, dərmanla təchizatı, mənzil-məişət problemlərinə, kommunal xərclərin kompensasiyalarla əvəz olunması məsələlərinə daim diqqət göstərir. Bu istiqamətdə onlarca fərman və sərəncam imzalanmışdır.

İlham Əliyevin prezident seçkiləri ərəfəsində verdiyi vədlərin hamısının yerinə yetirildiyini, o cümlədən Azərbaycanın ərazi bütövlüyü uğrunda fiziki sağlamlığını itirənlərə və şəhid ailələrinə mənzillərin tikilib verildiyini, ilk dəfə 1997-ci ildə ümummilli liderimiz Heydər Əliyevin iştirakı ilə istifadəyə verilən 81 mənzilli binanın açılışında iştirakını xatırlatmaq istəyirəm. Cənab Prezident, Siz İsmayıllıda olarkən bildirdiniz ki, Heydər Əliyevin siyasəti bu istiqamətdə də davam edəcək,

dövlətin iqtisadi imkanları artdıqca, daha da genişlənəcəkdir. 1997-ci ildən indiyədək 914 nəfər, o cümlədən 336 nəfəri Sizin bəyanatınızdan sonra mənzillə təmin olunmuşdur. İlin sonunadək daha 120 nəfərə mənzillər veriləcəkdir. Bu ancaq bizim nazirlik tərəfindən tikilən evlərdir. Sizin tapşırığınızla yerli icra hakimiyyətlərinin büdcəsinə bu məsələlərin həlli ilə əlaqədar vəsait daxil edilmişdir. Gələcək illərdə də nazirlik və yerli icra hakimiyyəti orqanları tərəfindən mənzillər tikiləcəyini bildirirəm.

Azərbaycanda reabilitasiya sistemi yenidən qurulmuş, müasir səviyyədə fəaliyyət göstərir. Bunların nəticəsində əlillərin müalicəsi üçün əlverişli şərait yaranmışdır. 2004-cü ildə 2003-cü illə müqayisədə ilkin əlillik 10 min nəfər, 2005-ci ilin birinci yarısında 2004-cü ilin eyni dövrü ilə müqayisədə 4500 nəfər azalmışdır. MDB məkanında təkcə Rusiyada və Azərbaycanda əlillərə pulsuz avtomobil verilir. 1996–1997-ci illərin büdcələri müzakirə olunanda ulu öndərimiz xüsusi tapşırmışdı ki, bu qəbildən olan insanları maşınlarla təchiz etmək lazımdır. Bu onların həm reabilitasiyasına, həm də maddi vəziyyətinə kömək edəcəkdir. İndiyədək 1500-ə qədər avtomobil verilmişdir. Əvvəllər ildə 120 avtomobil verilirdisə, indi bu rəqəm 160-a çatdırılmışdır.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, məşğulluğun təmin olunması istiqamətində mühüm dəyişikliklər baş verir, il - yarımda 260 min iş yerinin yaradılmasını hərə bir cür danışa bilər. Təbii ki, sağlam adam sağlam düşüncə ilə, xəstə adam isə xəstə təxəyyüllə danışacaqdır. Radikal müxalifət özünün xəstə təxəyyülü ilə buna ayrı cür don geyindirmək istəyir. Amma bu, əbəs cəhddir. Azərbaycanda müntəzəm əmək yarmarkaları keçirilir. Keçənilki əmək yarmarkalarına orta aylıq əməkhaqqı 440 min manat olmaqla, 19 min iş yeri çıxarılmışdı. Bundan təxminən 6800-ü tutuldu. Deməli, insanlar daha yüksək əməkhaqqı olan iş yerlərinə üz tutur, 440 min manat əməkhaqqı olan yerlərə getmək istəmirlər. Bax, göstərici budur.

Bu il Cenevrədə keçirilən konfransda gənclərin məşğulluğu ilə əlaqədar prezident İlham Əliyev Azərbaycanda gördüyü işləri yüksək qiymətləndirdi. Ölkəmizdə həyata keçirilən islahatlar davam edir, ünvanlı sosial yardım sisteminin tətbiqi ilə bağlı işlər görülür. Bu qəbildən olan insanların sosial müavinətlərinin artırılması ilə bağlı prezidentə göndərdiyim təklifi bir daha xatırlatmaq istəyirəm.

**İlham Əliyev:** Mən xatırlayıram, təklif verilmişdi və artıq göstəriş də verilibdir ki, bu məsələ öz ədalətli həllini tapsın. Mən göstəriş verdim, bu gün fərman hazırlanacaq və imzalayacağam. Beləliklə, bu müvəqqəti ədalətsizlik aradan qaldırılacaqdır.

Yenə də demək istəyirəm ki, Əli müəllim konkret faktlarla bu məsələyə aydınlıq gətirdi. Görülən işlər, əlbəttə, çox təqdirəlayiqdir. Bu özünü həm statistikada göstərir, həm də gündəlik həyatda öz əksini tapır. Yəni, müsbət dinamikanı görməmək mümkün deyildir. Ancaq o da həqiqətdir ki, indiki səviyyə bizi qane edə bilməz.

Bütövlükdə, Azərbaycanda çətin vəziyyətdə yaşayanların sayının çox olması bizim hamımızı çox narahat edir. Əlbəttə, bu kateqoriyadan olan insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması çox böyük və həllini tələb edən problemdir. Amma dinamika var, müsbət meyllər var. Əgər biz minimum əməkhaqqını götürsək, görərik ki, son iki il ərzində təxminən 3 dəfə artıbdır. Orta əməkhaqqı kəskin şəkildə artıbdır, pensiyalar, digər sosial müavinətlər artıbdır.

Bir sözlə, dinamika var və əlbəttə, biz hamımız istəyirik ki, bu daha da sürətlə getsin. Azərbaycanda yoxsulluq şəraitində yaşayan adam, ümumiyyətlə, olmasın. Yoxsulluq şəraitində yaşayanlar 50 faiz idi. İl yarım ərzində biz bunu 40 faizə endirdik. Amma 40 faiz də çoxdur. Azərbaycan vətəndaşlarının 40 faizi nə üçün yoxsulluq şəraitində yaşamalıdır? Biz bununla barışa bilmərik. Ciddi məsələlər qoyulubdur, konkret proqramlar qoyulubdur ki, yoxsulluq şəraitində yaşayanların sayı qısa müddət ərzində azalsın və tamamilə aradan qaldırılsın.

Eyni zamanda, bizi çox narahat edən işsizlik problemidir. Regionların inkişafı ilə bağlı mənim qəbul etdiyim qərarlar uğurla icra olunur. Bölgələrdə olarkən vəziyyətlə şəxsən tanış oluram. Əlbəttə, deyə bilmərəm ki, hər bir rayonda, hər bir yerdə işlər eyni sürətlə gedir. Ancaq gedir. Əli müəllim qeyd etdi, artıq 400 min manat maaşı olan işə adam tapmaq çətindir. Mən şübhə etmirəm ki, bir neçə ildən sonra Azərbaycanda işsizlik tamamilə aradan qaldırılacaq və bəlkə də, bəzi inkişaf etmiş ölkələrdə olduğu kimi, bizə də işçi qüvvəsi lazım olacaqdır. Biz bunu da görəcəyik. Mən buna şübhə etmirəm. Çünki bizim bütün atdığımız addımlar məqsədyönlü siyasət çərçivəsində atılır, konsepsiya çərçivəsində atılır. Heç vaxt, heç bir halda populist vədlər verməmişik. Heç vaxt real olmayan sözləri danışmamışıq. Hətta prezident seçkiləri ərəfəsində – adətən, bəzi qüvvələr belə seçkiləri reallığı o qədər də əks etdirməyən vədlər verilməsi üçün çox məqbul bir vaxt hesab edirlər – boş vədlər verməmişik. Yadımdadır ki, mənə rəqib olmaq istəyən insanlar çox qeyri-real vədlər vermişdilər. Əlbəttə, heç kim buna inanmırdı. Mənim isə verdiyim vədlər hamısı reallığı əks etdirir. Mən demişəm ki, 5 il ərzində 600 min yeni iş yeri açılacaq və açılacaqdır. Demişəm ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaq və qalmayacaqdır. Onlar artıq ləğv olunur, əvəzində müasir binalar, gözəl evlər tikilir və qaçqın, köçkün qardaşlarımıza bəxş edilir.

Demişəm ki, yoxsulluğun səviyyəsi aşağı düşəcəkdir, düşür. Bütün başqa sahələrdə də belədir. Ona görə, sözlə əməl arasında həmişə vəhdət olmalıdır, birlik olmalıdır və mən öz fəaliyyətimdə çalışıram ki, buna həmişə əməl edim. Məni ən çox narahat edən məsələlər məhz bu qəbildən olan məsələlərdir.

Bizim ümumi inkişafımız sürətlə gedir, iqtisadiyyat inkişaf edir, bölgədəki mövqelərimiz möhkəmlənir, dünyadakı yerimiz, mövqeyimiz güclənir. Azərbaycanda həyata keçirilən nəhəng transmilli layihələr uğurla icra edilir.

Bəzilərinin gözü götürmədiyi layihələr, o cümlədən Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri. İndi

əsas diqqət infrastruktur layihələrin həyata keçirilməsinə – işıq, qaz, su, istilik təchizatı və s. sosial problemlərin həllinə yönəldilibdir. Maaşlar artmalıdır, pensiyalar artmalıdır, sosial ödənişlər artmalıdır və artırılacaqdır.

Biz mövcud olan problemləri də bilirik. Mən istəmirəm belə bir təsəvvür yaransın ki, bu sahədə bizdə hər şey yaxşıdır. Bunun obyektiv səbəbləri var. Amma gərək biz hər şeyi müqayisədə ölçək-biçək və dinamikanı görək. Görək 5 il bundan əvvəl, 10 il bundan əvvəl vəziyyət necə idi, bu gün vəziyyət necədir. Sosial müdafiə sahəsində çox müsbət dəyişikliklər baş verir, çox yaxşı təşəbbüslər irəli sürülür. Yenə də demək istəyirəm ki, bizim maddi imkanlarımız artdıqca, bu məsələlərə daha da böyük diqqət göstəriləcəkdir.

**Mehdi Mehdiyev** (*Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri*): Bu görüşə görə, cənab Prezident, Sizə təşəkkür edirəm. Öz tərcümeyi-halımdan qısaca danışmaq istəyirəm. Mən ümummilli liderimiz Heydər Əliyev tərəfindən «Azərbaycan Bayrağı» ordeni ilə təltif olunmuşam. Sonra rəhbərlik etdiyim qurum barədə məlumat verərək deyim ki, qısa müddətdə 83 şəhər və rayon şöbəsi yaradılmış təşkilat 57 mindən artıq şəhid ailəsini, müharibə əlili və veteranını öz sıralarında birləşdirmişdir. Təşkilat bu insanların hüquqlarını müdafiə edir, problemlərini öyrənir, müvafiq dövlət strukturlarına çatdırır, öz imkanları daxilində maddi və mənəvi kömək göstərir.

Təməli 1997-ci ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan mənzil və avtomobil təminatı bu gün döyüşçülərin və xalqın sevimlisi olan prezident İlham Əliyev tərəfindən daha da geniş şəkildə davam etdirilir. İndiyədək təkcə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bizə 914 mənzil və 1115 fərdi minik avtomobili verilmişdir. Pulsuz avtomobil almaq hüququ olan Qarabağ müharibəsi əlillərinin 60 faizi maşınla təmin edilmişdir.

Prezidentin 2003-cü ildə İsmayıllı rayonunda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün inşa edilmiş binanın sa-

kinlərinə orderlər verdiyini də xatırlatmaq istəyirəm. Sizin müharibə veteranlarına müavinət, Milli Qəhrəmanlarımıza Prezident təqaüdü təyin etməyiniz hamının sevincinə səbəb olmuşdur. Əksər rayonların rəhbərləri, xüsusən də yeni təyin etdiyiniz icra hakimiyyəti başçıları döyüşçülərin və şəhid ailələrinin vəziyyəti ilə maraqlanır, onların problemlərini həll etməyə çalışırlar. Bunun özü də Sizin bizə olan diqqət və qayğınızın nümunəsidir.

Cənab Prezident, əmin ola bilərsiniz ki, bizim sıralarımızda Ruslan Başirli kimilərinə yer yoxdur. O öz hərəkətləri ilə təkcə özünü yox, radikal müxalifətin xəyanətkarlığını və əsl simasını ifşa etdi. Bu gün özünü müxalifət liderləri adlandıraraq hakimiyyət iddiasında olanların nəyə qadir olduqlarını biz onların keçmiş hakimiyyəti dövründə görmüşük. O dövrdə olan hərc-mərclik, hakimiyyət uğrunda mübarizə, dərəbəylik, silahlı qruplaşmalar, Vətənə və xalqa xəyanət bir milyondan artıq soydaşımızın dədə-baba yurdlarından didərgin düşməsinə və torpaqlarımızın 20 faizinin düşmən tərəfindən işğal edilməsinə səbəb oldu. Bu gün də arsızcasına Rəhim Qazıyevi «siyası məhbus» kimi qələmə verməyə çalışırlar.

1993-cü ildə dahi öndərimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı nəticəsində ölkəmiz səriştəsiz və hakimiyyət xəstəliyinə tutulmuş «rəhbərlərdən» xilas oldu. Respublikada sabitlik, orduda vahid komandanlıq yaradıldı. Gənc müstəqil dövlətimiz sabit inkişaf yoluna qədəm qoydu. Bunu bütün xalqımız görür, dərk edir və yüksək qiymətləndirir.

Cənab Ali Baş Komandan, biz – keçmiş döyüşçülər Sizin daxili və xarici siyasətinizi tam dəstəkləyirik. Düşmən tapdağı altında qalmış Qarabağımızın və digər rayonlarımızın işğaldan azad olunması üçün aparılan danışıqları diqqətlə izləyirik. Əgər danışıqlar real nəticə verməzsə, biz – keçmiş döyüşçülər ümummilli liderimizin dövründə olduğu kimi, indi Sizin əsgəriniz olaraq «İrəli!» əmrinizi gözləyəcəyik. Hamımız bir nəfər kimi, son qarış torpağımızı düşməndən azad etmək üçün canımızdan belə keçməyə hazırıq. Təki Vətən azad olsun!

Cənab Prezident, bizə göstərdiyiniz diqqət və qayğıya, torpaqlarımızın işğaldan azad olunması istiqamətində apardığınız məqsədyönlü siyasətinizə görə təşkilatımız Sizi Respublika Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinə Fəxri üzv seçmişdir. Sizin tapşırığınızla Sumqayıtda, Xaçmazda və digər rayonlarda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yeni binalar inşa olunmaqdadır. Onların istifadəyə verilməsində Sizin iştirakınızdan məmnun olar və həmin mərasimlərdən birində, daha geniş auditoriya qarşısında Fəxri üzv vəsiqəsini Sizə təqdim etməyi özümüzə şərəf hesab edərdik.

**Tamara Kovalyova** (*şəhid – Milli Qəhrəman Yuri Kovalyovun həyat yoldaşı*): Cənab Prezident, mən görüşə görə, Sizə təşəkkür edirəm! Yuranın xidmətləri ümummilli lider Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir. Həyat yoldaşım Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmancasına həlak olduqdan sonra ailəmiz Heydər Əliyevin diqqət və qayğısını daim hiss etmişdir. 2000-ci ildə bizə mənzil verildi. Çoxmillətli ölkəmizdə Heydər Əliyevin sayəsində heç vaxt təqiblərə məruz qalmamışıq və qalmırıq. Əminik ki, Sizin bütün prezidentliyiniz dövründə ailəmiz diqqət və qayğı ilə əhatə olunacaqdır. Sizə və ailənizə cansağlığı, dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**İlham Məmmədov** (*ikinci qrup Qarabağ müharibəsi əlili*): Mən 1991-ci ildə Qarabağ müharibəsinə qoşulmuş və döyüşlərdə iştirak etmişəm. 2001-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən Mehdiabad qəsəbəsində mənzillə təmin olunduğumu bildirərək demək istəyirəm ki, onun qayğısını biz indi ümummilli liderimizin siyasətinin davamçısı İlham Əliyevin simasında yenə hiss edirik. Nəinki Bakıda, Sumqayıtda, Azərbaycanın bütün rayonlarında, kəndlərində fərdi mənzillərin tikilib əlillərə verilməsi adi bir hala çevrilibdir. Güman edirəm, mənzilə ehtiyacı olan əlillərin, şəhid ailələrinin hamısı 1–2 ilə təmin olunacaqdır. Biz Sizin atdığınız hər bir addımı dəstəkləyirik, işlərinizdə uğurlar, cansağlığı arzu edirik. Fərdi evlər üçün torpaq sahələrinin verilməsi daha məqsədəuyğundur. Çünki həm məşğu-

liyyətimiz, həm də evimiz olur. Fəxr edirəm ki, mənim Azərbaycanımın Sizin kimi qeyrətli, siyasəti ilə dünya səhnəsində tanınmış prezidenti var.

**S a l e h  Ş ı x ə l i y e v** (*ikinci qrup Qarabağ müharibəsi əlili*): Biz əlillər və şəhid ailələri özümüzü həmişə və hər zaman dövlətin diqqəti və qayğısı altında hiss edirik. Cənab Prezident, bu yaxınlarda bizi medalla təltif etmisiniz. Heç nəyə ehtiyacım yoxdur. Azərbaycan inkişaf edir, biz onun gələcəyiyik. Ruslan Bəşirli kimilərə aramızda yer yoxdur. Gəncliyi korlamaq olmaz. Gəncliyin bir yolu, bir başçısı var – İlham Əliyev, biz onun davamçısıyıq. Ümummilli liderimiz Heydər Əliyev bu yolun təməlini qoymuşdur. Heç bir müxalifət, heç bir qüvvə bizi sarsıda, bu yoldan döndərə bilməz. Bunu deməyə ehtiyac da yoxdur. Müstəqil Azərbaycanın təməli poladdan tökülübdür. Azərbaycan yaşayacaq, gələcəyi var. Sizə minnətdarıq. Biz qurban demişik, Allah qoysa, Siz Beyləqan rayonuna gələndə kəsəcəyik. Bütün beyləqanlıların Sizə salamı var.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Mən mütləq gələcəyəm. Bütün beyləqanlılara məndən salam söyləyin.

Əziz dostlar, bu doğrudan da çox gözəl, səmimi görüşdür. Mən çox şadam ki, biz öz fikirlərimizi belə açıq, səmimi şəkildə ifadə edirik. Bizi birləşdirən Azərbaycanın müstəqilliyidir, Azərbaycanın xoşbəxt gələcəyi naminə görülmüş işlərdir. Siz bu işləri görmüsünüz. Siz Vətən uğrunda əlil olmusunuz, böyük çətinliklər çəkmisiniz. Azərbaycanın müstəqil ölkə kimi yaşamasına böyük töhfə vermisiniz. İndi isə Azərbaycan cəmiyyətinin, Azərbaycan dövlətinin, Azərbaycanda çalışan bütün vəzifəli şəxslərin vəzifəsi və borcudur ki, sizin həyat səviyyənizin yaxşılaşması üçün əllərindən gələni etsinlər. Bu bizim dövlətimizin mövqeyidir. Bu mövqe ulu öndər Heydər Əliyevin mövqeyidir, onun qoyduğu yoldur.

Bu gün Azərbaycan dövlətinin rəhbəri kimi, mən həmin yolu davam etdirirəm. Əmin ola bilərsiniz ki, gələcəkdə də sizin problemlərinizə ən böyük diqqət yetiriləcək və sizin vəziyyətiniz ildən-ilə yaxşılaşacaqdır.

Mən istəyirəm diqqətinizi bir məsələyə də cəlb edim. Artıq 2006-cı ilin büdcəsi formalaşır. Bu yaxınlarda büdcənin ilkin konturları haqqında mənə məlumat verildi. Bayaq dediyim kimi, çox kəskin artım nəzərdə tutulur, o cümlədən sosial məsələlərin həlli üçün əlavə vəsaitin yaranması da mümkün olacaqdır. Ona görə, mən hesab edirəm ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi öz tərəfindən hökumətə təkliflərini versin. Bilmirəm, əgər bunu etmisinizsə, çox yaxşı, əgər etməmisinizsə, baxın. Bizim maddi imkanımız daha da böyük olacaqdır. O cümlədən mənzillərin tikintisi, maşınların alınması üçün. İndi məsələ qoyuldu ki, fərdi evlərin tikintisi üçün torpaq ayrılsın. Biz bunların hamısını nəzərdə tutmalıyıq. Mən də hesab edirəm ki, yaxın zamanda, ümumiyyətlə, Qarabağ müharibəsi əlillərinin mənzil, məişət problemi olmayacaqdır. Buna bizim imkanımız çatır, bizim iradəmiz var və həmişə olduğu kimi, öz sözümüzə sadiq qalaraq, bunların hamısını həll edəcəyik.

İndi mən istəyirəm maşınların açarlarını sizə təqdim edim. Mən bilirəm ki, bunların böyük hissəsi təqdim olunubdur. Mən 5 maşının açarlarını məmnuniyyətlə sizə təqdim etmək istəyirəm.

## QAZAXISTANIN «XƏBƏR» AGENTLİYİNƏ MÜSAHİBƏ

*Prezident sarayı*

*23 avqust 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Qazaxıstanın «Xəbər» agentliyinin müxbirinə müsahibə vermişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Qazaxıstan münasibətlərinin inkişafı, əməkdaşlığın perspektivləri, müxtəlif sahələrdə, o cümlədən siyasi və iqtisadi əlaqələrin inkişafı, yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyəti barədə və bir sıra başqa suallara ətraflı cavab vermişdir.*

## BAKIDA «BANK STANDARD»IN* BAŞ OFİSİ BİNASININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*23 avqust 2005-ci il*

*Mərasimdə iştirak edən Azərbaycan Respublikasının prezidenti İlham Əliyev binanın qarşısında səmimiyyətlə qarşılandı, ona gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev bankın baş ofisi binasının rəmzi açılışını bildirən qırmızı lenti kəsdi. Dövlətimizin başçısı əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin vaxtilə «MostBank – Azərbaycan»ın açılışında iştirakını əks etdirən fotoşəkillərə baxdı, «EBİ Standard» şirkətlər qrupunun prezidenti Oruc Heydərov respublikamızın rəhbərinə məlumat verdi ki, on il əvvəl, 1995-ci ildə həmin bu ünvanda bankın ilk ofisi açılmışdı. O günü unudulmaz tarixi hadisəyə çevirən isə açılış mərasiminin ümummilli liderimiz, ulu öndər Heydər Əliyev tərəfindən şəxsən həyata keçirilməsi oldu. Ulu öndərimiz o zaman yeni bankın Azərbaycanın maliyyə imkanlarının və iqtisadi əlaqələrinin genişləndirilməsinə öz önəmli töhfəsini verəcəyinə ümidvar olduğunu söyləmişdi. Prezident İlham Əliyev binanın daxili quruluşu, əməliyyat salonları, müştərilərə xidmət otaqları ilə yaxından tanış oldu.*

---

* «Банк Стандард» 1995-ъи илдя Русийанын «Мост Банк» Коммерсийа Банкынын тюрямя банкы кими тясис едилмиш вя йахын кечмишядяк «Мост Банк – Азярбайъан» ады иля фяалиййят эюстярмишдир. 2004-ъц илин йанварындан «Банк Стандард» ады иля фяалиййят эюстярир вя щазырда тамамиля милли капитал ясасында гурулмуш банкдыр. 1996-ъы илин апрелиндян Азярбайъан Банклар Ассосиасийасынын, 1997-ъи илин нойабрындан Бакы Банклараарасы Валйута Биржасынын цзвцдцр. Банкын низамнамя капиталы 50 милйард манат тяшкил едир.

*Ötən illər ərzində sürətlə inkişaf edən «Bank Standard» indi Azərbaycanın ən böyük özəl kommersiya bankıdır. Hazırda tamamilə «Bank Standard»a məxsus olan keçmiş Mətbuat Sarayı binasının ilkin görünüşünün qorunub saxlanması əsas məsələlərdən biri idi. Binada əsaslı təmir işlərini Türkiyənin «Alfa İnşaat» şirkəti həyata keçirmişdir. Bu işdə tikinti materialları ilə yanaşı, ABŞ, Yaponiya, Hollandiya, İtaliya, Türkiyə və digər ölkələrdən gətirilmiş avadanlıq və materiallardan istifadə olunmuşdur. Yenidənqurma sayəsində binada müştərilərə sürətli və keyfiyyətli xidmət göstərmək üçün hər şərait yaradılmışdır. Əməliyyat salonunda eyni vaxtda 20 müştəriyə xidmət göstərilə bilər. Bankda 30-a yaxın yeni iş yeri açılmışdır və hazırda köməkçi heyətdən savayı, 120 nəfər işləyir. Baş ofisdə plastik kartların buraxılışı üçün embosser cihazı, yüksək mühafizə qabiliyyətinə malik informatik şəbəkə xətti quraşdırılmışdır.*

**İlham Əliyev:** «Bank Standard» Azərbaycanda uzun illərdir fəaliyyət göstərir. Təxminən 10 il ərzində bank Azərbaycanda işləyir və bu gün onun inzibati binasının açılışını qeyd etdik. Bina çox gözəldir, tarixi binadır, çox gözəl təmir olunub və burada iş üçün çox gözəl şərait var. Mən arzu edirəm ki, Azərbaycanda fəaliyyət göstərən bütün banklar buna oxşar binalara sahib olsunlar, iş şəraitini yaxşılaşdırsınlar və eyni zamanda, ölkəmizdə bank sisteminin inkişafında fəal rol oynasınlar.

Bank sisteminin hər bir ölkənin inkişafı üçün çox böyük əhəmiyyəti vardır. Xüsusilə keçid dövrünü yaşayan ölkələr üçün. Hesab edirəm ki, Azərbaycandakı banklar öz gələcək fəaliyyətlərini gücləndirməlidirlər. Bank sektoru daha da güclənməlidir və ölkəmizin iqtisadi inkişafında daha da fəal rol oynamalıdır.

Son illər ərzində bank sektorunun güclənməsi həm ümumi iqtisadi inkişafın nəticəsidir, eyni zamanda, bank sektorunda gedən islahatlar, qəbul edilmiş yeni qanunlar buna imkan yaradır.

Azərbaycan çox sürətlə inkişaf edən ölkədir və şübhəsiz ki, ümumi iqtisadi inkişafımız bank sektorunun inkişafına da təkan verəcəkdir. Son illər ərzində bizim maliyyə resurslarımız artdıq-

ca, büdcəmiz artdıqca müvəkkil banklar vasitəsilə sahibkarlığın inkişafına kreditlər ayrılır. Bu kreditlərin məbləği ildən-ilə artır, gələn il ayrılacaq kreditlərin məbləği ən azı iki dəfə çox olacaqdır. Bu işdə bank sisteminin rolu çox önəmlidir. Mən ümid edirəm ki, gələcəkdə müvəkkil banklar, bütövlükdə Azərbaycanda fəaliyyət göstərən banklar iqtisadiyyatın inkişafında daha da fəal iştirak edəcəkdir.

Regionlara gedərkən bir problemlə də tanış oluram. O da ondan ibarətdir ki, bəzi sahibkarların girov qoymaq imkanı yoxdur. Əlbəttə, biz bu güzəştli kreditlərin verilməsini son illər ərzində daha da sürətləndirmişik və şübhəsiz ki, banklar bu kreditləri verəndə girov götürməlidir. Bu təbiidir və bunu sahibkarlar bilməlidir. Amma eyni zamanda, fikirləşmək olar, hansı mexanizm tapmaq olar ki, girov qoymaq imkanı olmayan sahibkarların da problemlərini həll edə bilək.

Azərbaycanda ümumi iqtisadi inkişaf çox yüksək sürətlə gedir. Bizim büdcəmiz ildən-ilə artır. Keçən ilin büdcəsi 1 milyard 500 milyon dollar idi. Bu ilin büdcəsi isə 2 milyard 200 milyon dollardır. Gələn ilin büdcəsi isə ən azı 3 milyard 200 milyon dollar təşkil etməlidir. Maaşlar, pensiyalar artırılır və belə olan halda, əlbəttə, makroiqtisadi sabitliyin qorunması məsələsi ön plana keçir.

Nəzərə alsaq ki, gələn ildən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi ilə əlaqədar Azərbaycana yüz milyonlarla dollar pul gələcək, əlbəttə, bu böyük vəsaitin qısa müddət ərzində ölkəmizə daxil olması makroiqtisadi sabitliyin pozulmasına gətirib çıxara bilər. Bu il üzləşdiyimiz yüksək inflyasiya həm də bu amilin təzahürüdür. Belə olan halda, bütövlükdə ölkəmizin iqtisadi inkişafında Milli Bankın rolu artır. Milli Bankın siyasəti bütün bu illər ərzində Azərbaycanda makroiqtisadi vəziyyətin sabit qalmasına imkan yaradıbdır. Növbəti illərdə maliyyə imkanlarımızın artımını nəzərə alaraq, əlbəttə, Milli Bankın siyasəti daha da dəqiq olmalıdır, həssas olmalıdır. Çünki hər bir atılan səhv addım bizim makroiqtisadi vəziyyətimizə təsir göstərə bilər.

Mən bilirəm ki, Milli Bank bu məsələ ilə çox ciddi məşğuldur və bir müddət bundan əvvəl inflyasiyanın azalmasına dair keçirdiyimiz müşavirədən sonra ciddi addımlar atılmışdır. O cümlədən Milli Bank tərəfindən. Bu addımların nəticəsi olaraq inflyasiya dayandı və aşağı düşməyə başladı.

Bütövlükdə, Azərbaycanda bank sektorunun inkişafı üçün gözəl şərait var. Ölkəmizin gələcəyini təmin edən proseslər çox sürətlə gedir. Bizim maliyyə imkanlarımız artır. Neft Fondunda toplanmış vəsait 1 milyard dolları keçibdir. Eyni zamanda, valyuta ehtiyatlarımız da təxminən bu səviyyədədir. Gələcək illərdə bu daha da geniş vüsət alacaqdır. Gərək bu gözəl imkanlardan səmərəli istifadə edək. Eyni zamanda ölkəmizi narahat edən sosial problemlərin aradan qaldırılmasına da diqqət göstərilməlidir. Bu yaxınlarda İpoteka haqqında qəbul edilmiş qanun bu məqsədi daşıyır. İpoteka haqqında xüsusi Dövlət Proqramı hazırlanır. Artıq bu il bu məqsədlərə 30 milyard manat vəsait ayrılması nəzərdə tutulubdur. Əlbəttə, gələn il bu məbləğ artacaq və aztəminatlı ailələr, xüsusilə gənclər bu imkanlardan səmərəli istifadə edəcəklər.

Azərbaycanda bank sektorunun inkişafı məni çox sevindirir. Azərbaycanda artıq onlarca bank fəaliyyət göstərir. Bizim müstəqilliyimizin ilk illərində bəlkə daha da çox bank var idi. Amma sonra birləşmələr baş verdi, bu da təbiidir. İndi bank sektorunun inkişafı üçün çox gözəl şərait var. Mənə verilmiş məlumata görə, bank sektorunda minlərlə insan işləyir, yüksək maaş alır, yüksək təcrübəyə yiyələnir. Gələcəkdə ölkəmizin inkişafı üçün bank sektorunun daha da güclənməsi zəruridir.

Əlbəttə, biz «Bank Standard»ın fəaliyyətini qeyd etmişik, bu gün isə binanın açılışı ilə əlaqədar toplaşmışıq. Amma eyni zamanda, bu fürsətdən istifadə edərək, mövcud olan məsələlərə də öz münasibətimizi bildirək, nailiyyətlər, problemlər haqqında, əlavə hansı addımların atılması barədə də söhbət aparaq.

İndi isə sözü Milli Bankın İdarə Heyətinin sədri Elman Rüstəmova verirəm.

**E l m a n  R ü s t ə m o v** (*Milli Bankın İdarə Heyətinin sədri*): Cənab Prezident! Gərgin iş rejiminizə baxmayaraq, «Bank Standard»ın Baş ofisi binasının açılış mərasimində iştirak etdiyinizə, bank ictimaiyyəti ilə görüşdüyünüzə görə, Sizə dərin minnətdarlığımı bildirirəm. 10–12 il bundan öncə Azərbaycanda 230–240-a yaxın bank fəaliyyət göstərirdi və onların hamısı yarızirzəmilərdə, yaxud digər münasib olmayan yerlərdə işə başlamışdı. Onların ilkin nizamnamə kapitalı o vaxtkı dövr üçün 10 min ABŞ dolları ekvivalentində idi. Ümummilli liderimiz, unudulmaz prezidentimiz Heydər Əliyevin bilavasitə rəhbərliyi və qayğısı altında ölkədə gedən iqtisadi quruculuq, o cümlədən maliyyə-bank bölməsində gedən proseslər, islahatlar nəticəsində Azərbaycanın bugünkü bank sistemi formalaşmışdır və inkişaf edir. Son on il ərzində Azərbaycanın bank sektorunda dərin kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdir. Hazırda bankların sayının təxminən 5 dəfədən çox azalmasına baxmayaraq, onların kapitalı 36 dəfədən çox artmışdır. İndi bir banka düşən kapital 5 milyon ABŞ dollarından, yəni, 25 milyard manatdan çoxdur. Bu, olduqca yüksək dinamikadır. Bankların kreditlərinin həcmi 5 dəfə, əmanətlərin məbləği isə təxminən 26 dəfə artmışdır. Bank sistemi hətta ümumi iqtisadi tərəqqini qabaqlayan bir dinamika ilə inkişaf etmişdir.

Cənab Prezident, xüsusilə son iki ildə Sizin rəhbərliyinizlə həyata keçirilən tədbirlər nəticəsində iqtisadiyyatın bütün sahələri kimi, bank bölməsi də yeni bir nəfəs, yeni bir dinamika almışdır. Keçən il kreditlər və əmanətlər 60 faizə yaxın artmışdır və həmin dinamika davam edir. Kreditlərin 99 faizdən çoxu qeyri-neft bölməsinin inkişafına yönəlmişdir. Əhaliyə istehlak kreditlərinin verilməsində də bankların mühüm rolu var. Bank sistemi bu gün regionlara doğru gedir. Hazırda bankların 360-dək filialı fəaliyyət göstərir, onların 150-dən çoxu regionlardadır. Onlar, sözün yaxşı mənasında, rəqabət aparır, əhaliyə ən yaxşı, ən ucuz xidmət göstərirlər.

Cənab Prezident, iki il öncə Sizin razılığınızla biz beynəlxalq təşkilatlara – Dünya Bankına, Beynəlxalq Valyuta Fondu-

na müraciət edərək, Azərbaycanda maliyyə və bank sektorunun qiymətləndirilməsini xahiş etdik. Dünyanın bank mütəxəssisləri Azərbaycana gəldilər və bütövlükdə bank sektorunda qiymətləndirmə apardılar. Belə bir nəticəyə gəlindi ki, bütövlükdə bank sektoru bazar iqtisadiyyatının tələblərinə uyğun təşkil edilmişdir və o həm daxili, həm də xarici iqtisadi şoklara davam gətirmək qabiliyyətindədir. Xatırladım ki, 1998-ci ildə Rusiyada, Şərqi Asiyada baş verən çox dərin böhran Azərbaycanın makroiqtisadi sabitliyini və bank sektorunu sarsıda bilmədi. Neftin qiyməti 6–7 dollar aşağı düşəndə də bizim nə makroiqtisadi sabitliyimiz, nə də bank sistemimiz pozulmadı. Yaradılmış iqtisadi potensial, habelə iqtisadi islahatların dərinliyi imkan verdi ki, Azərbaycan həmin xarici böhran amillərinə davam gətirsin və öz iqtisadi inkişafını davam etdirsin.

Cənab Prezident, Siz vurğuladığınız kimi, indi bank sisteminin qarşısında duran ən başlıca vəzifə uğurlu neft strategiyasının həyata keçirilməsindən daxil olacaq 100 milyonlarla dollar vəsaiti ümumi iqtisadi inkişafa, xüsusilə də qeyri-neft bölməsinin inkişafına transformasiya etməkdir. Bu vəzifənin yerinə yetirilməsi bizə imkan verəcəkdir ki, biz gələcək iqtisadiyyatımızın əsaslarını yaradaq və ölkənin neftdən asılılığını aradan qaldıraq. Hesab edirəm ki, bugünkü 5 milyon dollar həcmində olan nizamnamə kapitalı yüksək olsa da, qarşıda duran strateji vəzifələri həll etmək üçün yetərli deyildir. Bu yaxınlarda Milli Bank bankların nizamnamə kapitalının 2006–2007-ci illərdə mərhələlərlə 10 milyon ABŞ dollarına çatdırılması haqqında qərar qəbul etmişdir.

Digər tərəfdən, banklar qabaqcıl texnologiyalara çox diqqət yetirməlidirlər. Müasir dünyada banklar kapital rəqabətindən daha çox informasiya texnologiyalarının tətbiqi, müasir bank məhsullarının bazara çıxması dərəcəsi sahəsində rəqabət aparırlar. Bizim aparıcı banklarımız bir növ maliyyə supermarketinə çevrilməli, əhaliyə istənilən çeşiddə, istənilən xarici maliyyə bazarlarında rast gəlinən bank xidmətini təmin etməlidir.

Kadr məsələsindən danışaraq demək istəyirəm ki, bu bizim nisbətən zəif yerimizdir. Avropa İttifaqının TASİS proqramı çərçivəsində bank tədris mərkəzi yaratmışıq və bir neçə ildir çox səmərəli fəaliyyət göstərir. Lakin hesab edirəm ki, Banklar Assosiasiyası ilə birlikdə və Sizin yardımınıza arxalanaraq, ölkədə bank sisteminin ixtisaslı kadrlarla təmin olunması istiqamətində biz təkliflərlə çıxış etməliyik ki, bu problemi həll edə bilək.

Banklar, xüsusilə də özəl banklar mənfəət, kommersiya prinsipi ilə işləyir, özlərinin biznes strategiyasına arxalanırlar. Lakin dövlətin yeritdiyi ardıcıl siyasət, bank sisteminin dəstəklənməsi onu göstərir ki, indi Azərbaycanda bank biznesi, bank ictimaiyyəti ilə dövlət arasında olduqca sıx mənafe birliyi var. Cənab Prezident, əmin edirəm ki, həm Milli Bank, həm də bütövlükdə bank ictimaiyyəti Sizin bank sistemi qarşısında qoyduğunuz vəzifələri dərindən dərk edərək çalışacaqdır ki, iqtisadiyyatımızın inkişafı, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində bütün tədbirləriniz dəstəklənsin və ölkənin yeni iqtisadi inkişaf strategiyasının reallaşmasına əzmlə kömək etsin.

**İlham Əliyev:** Özəl banklar özlərini necə hiss edir?

**Elman Rüstəmov:** Cənab Prezident, mən çıxışımda buna toxunmaq istəyirdim. İcazənizlə, mən istərdim özəl bankların təmsilçiləri danışsınlar. Bu gün çox nadir bir imkandır.

**İlham Əliyev:** Mən elə ona görə də istəyirəm ki, soruşum, görüm problemlər varmı?

**Elman Rüstəmov:** Çox ciddi tərəfdaşlıq münasibətimiz var. Biz bu bankları hər bir məsələdə, xüsusilə də strateji məsələlərdə eşidirik. Qanun qəbul ediləndə bank ictimaiyyəti ilə çox ciddi müzakirə olundu. Biz bank sistemi ilə əlaqədar yeni bir beynəlxalq konfransa hazırlaşırıq.

Cənab Prezident, mən Sizə müraciət etmişəm, sentyabrın sonunda bizim səfirliyin və «Siti Bank»ın təşəbbüsü ilə Azərbaycan bank sisteminin Londonda təqdimatı keçiriləcəkdir. Bank sistemi ilə birlikdə ona hazırlaşırıq. Bildiyiniz kimi, iki il öncə, seçki ərəfəsində böyük beynəlxalq konfrans oldu. Biz indi də

seçki ərəfəsində iki il ərzində görülən işlərin yekunları istiqamətində konfransın təşkilini və bank sisteminin yenidən dünya ictimaiyyətinə təqdimatını keçirmək istəyirik.

*«Ata Bank»ın Müşahidə Şurasının sədri Əhməd Erentok və «UNİ Bank»ın Müşahidə Şurasının sədri Eldar Qəribov bu ilin oktyabrında Türkiyə Banklar Birliyinin və Milli Bankın iştirakı ilə Bakıda birgə konfrans keçiriləcəyini və bu tədbirə ciddi hazırlıq getdiyini, prezident İlham Əliyevin həmin konfransda iştirakını arzu etdiklərini bildirdilər. Natiqlər özəl bankların problemlərindən də söhbət açdılar və vurğuladılar ki, əsas çətinlik məhkəmə prosesləri ilə əlaqədardır. Ümidvarıq ki, Sizin köməyiniz sayəsində bu məsələ öz həllini tapacaqdır.*

**İ l h a m Ə l i y e v:** Ümumiyyətlə, bu, böyük problemdir və bilirsiniz ki, bir müddət bundan əvvəl məhkəmə sistemində islahatların aparılması haqqında tədbirlər görüldü və məhkəmələrin rəhbərləri dəyişildi. Yeni insanlar rəhbərliyə gəldi və vəzifə qoyuldu ki, məhkəmə sisteminin sağlamlaşdırılması məsələsinə çox böyük diqqət verilsin. Bu bizim ümumi problemimizdir. Bundan təkcə banklar əziyyət çəkmir. Azərbaycanda qanunun aliliyi bərqərar olunmalıdır. Qanundan heç nə və heç kim üstün ola bilməz və məhkəmə sisteminin sağlamlaşdırılması, ümumiyyətlə, ölkənin normal inkişafına xidmət edəcəkdir.

Əgər qanunun aliliyi bərqərar olunmayıbsa, məhkəmələrdə ədalətsiz qərarlar çıxarılırsa, heç bir normal inkişafdan söhbət gedə bilməz. Ona görə biz bu məsələyə ciddi diqqət yetiririk və ümid edirəm ki, görülən tədbirlər nəticəsində məhkəmə sistemində ciddi dəyişiklik baş verəcəkdir. Hər halda, artıq kadr dəyişikliyi başlandı və yəqin ki, davam etdiriləcəkdir.

Bütövlükdə, mən çox şadam ki, bank sistemində artıq ciddi problemlər yoxdur. Eyni zamanda, çox sevindirici haldır ki, əgər belə demək mümkündürsə, bank ictimaiyyəti Azərbaycanda çox mütəşəkkil formada fəaliyyət göstərir. Özəl banklarla dövlət bankları arasında, yaxud da Milli Bank arasında heç bir ziddiyyət yoxdur. Bu da çox müsbət haldır. Biz yaxşı bilirik ki,

bəzi ölkələrdə bu ziddiyyətlər çox kəskin formada mövcuddur və ümumi inkişafa mənfi təsir göstərir.

O da çox sevindirici haldır ki, artıq qeyd etdiyimiz kimi, bankların nizamnamə kapitalı artır. Elman Rüstəmov dedi, ilk illərdə 10 min dollarla bank yaradılırdı və yüzlərlə bank var idi. Sadəcə olaraq, adı var idi və müəyyən maxinasiyaların aparılmasına bir vasitə idi. Əminəm ki, gələcəkdə bankların möhkəmlənməsi prosesi daha da sürətlə gedəcək və dövlət, hökumət tərəfindən bütün lazımi qərarlar veriləcəkdir.

Heç kim üçün sirr deyil ki, möhkəm bank sistemi yaradılmasa, ölkədə real inkişaf çox ləng gedəcəkdir. Siz dediniz, mən də qeyd etmək istəyirəm ki, misal üçün, regionlarda yeni bank binalarının yaranması da çox müsbət haldır və həqiqətən, onlar çox gözəl dizaynla, zövqlə tikilib və şəhərlərə, rayonlara həm yaraşıq verir, eyni zamanda çox müasir xidmət göstərir. Bir neçə il bundan əvvəl Azərbaycanda plastik kartlardan, ümumiyyətlə, heç kim istifadə etmirdi. Bu gün artıq Bakıda və Sumqayıtda, sonra başqa şəhərlərdə pensiyalar bu kart vasitəsilə veriləcəkdir. Yəni, Azərbaycan dünyada gedən proseslərə yaxınlaşır və burada yaranan müasir infrastruktur ölkəmizin ümumi inkişafına xidmət göstərəcəkdir.

Gələcək illərdə maliyyə resursları daha da çox olacaqdır. Bunu hamımız bilirik və onlar çox səmərəli istifadə olunmalıdır. İqtisadiyyatımızın real sektorunun inkişafına xidmət göstərməlidir. Xüsusilə bölgələrdə. Bizim regional inkişaf proqramımızın əsas mahiyyəti bundadır.

Bank sektorunun bu işdə fəaliyyəti və töhfəsi çox önəmlidir. Mən rayonlarda keçirilən kredit yarmarkalarında oluram və orada məhz banklar vasitəsilə bu kreditlər verilir. Bəzi hallarda nağd pulla verilir. İki il, üç il bundan əvvəl verilmiş kreditlərin nəticələrini artıq bu il görürük. Bu il verilən kreditlərin nəticəsini yəqin ki, 2–3 ildən sonra görəcəyik və bu ənənə, bu meyl daha da sürətlə gedəcəkdir.

Ona görə bank sistemindəki müsbət dəyişikliklər, uğurlar məni sevindirir. Ümid edirəm ki, gələcəkdə Milli Bankın rəh-

bərliyi ilə bizim banklar ölkəmizin hərtərəfli inkişafına daha böyük töhfələr verəcəkdir. Beləliklə, ölkəmiz maliyyə baxımından daha da sürətlə inkişaf edəcəkdir.

Sizə fəaliyyətinizdə uğurlar arzulayıram, «Bank Standard»ı da bu gözəl binanın açılışı münasibətilə bir daha təbrik edirəm. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev binanın qarşısında paytaxtın daha da müasirləşməsi və abadlaşması ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinin başçısına göstəriş və tapşırıqlarını verdi, bankın binasının tarixi ilə maraqlandı. Məlumat verildi ki, bu bina 1931-ci ildə məşhur memar Stanislav Penin Ümumittifaq müsabiqəsində qalib gələn layihəsi əsasında inşa edilmişdir. Müasir karkas tikililərdə hazırda geniş istifadə olunan memarlıq üslubları hələ 1928-ci ildə konstruktivizm tərzində yaradılmış bu layihədə öz əksini tapmış və tətbiq olunmuşdur. Bina Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin reyestrində yerli əhəmiyyətli memarlıq abidəsi statusu ilə qeydiyyata alınmışdır.*

## BÖYÜK BRİTANİYANIN «SKAY NYUS» TELEVİZİYASI MOSKVA BÜROSUNUN MÜXBİRİ LİI LOURENSƏ VERDİYİ MÜSAHİBƏ

**– Cənab Prezident, ilk növbədə, bu yaxınlarda istismara verilmiş boru kəməri haqqında Sizə sual vermək istərdim. Təbii ki, bu, böyük nailiyyətdir və ölkənizin gələcəyinə təsir edəcək mühüm bir amildir. Belədirmi?**

– Bəli, doğrudur. Bu, Azərbaycanın, onun tərəfdaşlarının, boru kəmərinin tikintisi ilə məşğul olan Bakı–Tbilisi–Ceyhan şirkətinin, Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının işlənilməsi üçün 1994-cü ildə bizimlə birgə işə başlayan şirkətlərdən ibarət konsorsiumun ən böyük nailiyyətidir. Əlbəttə ki, boru kəməri artıq vəziyyəti dəyişdiribdir. O bizə çoxmilyardlıq sərmayələr cəlb etməyə imkan yaradır və bu, təkcə neft və qaz sektoruna aid deyildir. Sərmayələr infrastruktur, xidmət, inşaat sahələrinə də yatırılır. Azərbaycanda inkişaf geniş vüsət almışdır. Bu ilin altı ayı ərzində ÜDM-in artımı təqribən 17 faiz təşkil etmişdir. Bu rəqəm uğurun göstəricisidir.

**– Sizin fikrinizcə, bu dəyişikliklər Azərbaycanın beynəlxalq imicinə də təsir göstərirmi?**

– Bəli, bu həmçinin vacib elementdir, çünki biz artıq etibarlı tərəfdaş ölkə imicini qazanmışıq. Azərbaycanda xarici sərmayələr qanunvericilik və praktik addımlar əsasında lazımi qaydada qorunur. Təbii ki, bu, ölkənin qeyri-neft sektoru üçün sərmayələrin cəlb olunmasına və kreditlərin ayrılmasına yeni imkanlar açır. Beləliklə, xarici şirkətlərlə qeyri-neft sektorunda əməkdaşlığın genişləndirilməsi mümkün olur. Şübhəsiz ki, bu amillər xarici şirkətlər tərəfindən ölkəmizə rahat şəkildə sərmayələr qoyulması baxımından Azərbaycanın imicinə müsbət təsir göstərir.

**– Mən bildiyimə görə, hazırda dünya bazarında neftin bir barelinin qiyməti 50 dollardan artıqdır. Məlumdur ki, qarşıdakı iyirmi il ərzində ölkəniz boru kəmərinin işləməsindən yüz milyonlarla dollar gəlir əldə edəcəkdir. Siz bu vəsaitləri hansı məqsədlərə sərf etmək fikrindəsiniz?**

– Biz boru kəmərinin tikintisini planlaşdıranda neftin qiyməti ilə bağlı müxtəlif hesablamalar aparmışdıq. Bizim nikbin ssenarimiz var idi. Həmin vaxt neftin bir barelinin qiyməti 24 dollar səviyyəsində götürülmüşdü. Pessimist ssenarimizə görə isə, 12 dollar səviyyəsində nəzərdə tutulurdu.

**– Belə olsaydı, yəqin ki, layihədən imtina edərdiniz.**

– Heç kəs bilmirdi ki, növbəti ildə neftin qiyməti necə olacaqdır. O vaxt bir barelin qiyməti hətta 8 dollar nəzərdə tutulurdu. Hazırda xərclər və sərmayələr proqramı bizim üçün prioritet əhəmiyyət daşıyır. Buna nail olmaq üçün biz ilk növbədə, vəsaitlərin qeyri-düzgün idarə edilməsinə yol verməməliyik. Bir neçə il bundan əvvəl yaradılmış Neft Fondu bu məqsədə xidmət edir. Bizim Dövlət Neft Fondu tamamilə şəffaf strukturdur. O, beynəlxalq auditdən keçir və Azərbaycanın hər bir vətəndaşı həmin fonda daxil olan vəsaitlərin həcmi haqqında məlumat alır. Bu, işimizin birinci hissəsidir.

İkinci hissəsi isə, bu vəsaitlərdən düzgün istifadə edilməsidir, çünki onların sərf olunmasına meyllilik çox yüksəkdir. İnsanların ümidləri də çox yüksəkdir. Onlar həmin insanlardır ki, bu boru kəmərinin istismara verilməsini, neftdən əldə olunacaq yeni gəlirlərin həyat tərzinin yaxşılaşdırılmasına yönəldiləcəyi haqqında düşünürlər. Ona görə də biz tarazlığı, makroiqtisadi sabitliyi qoruyub saxlamalıyıq, çünki biz pulun hamısını dövriyyəyə buraxa bilmərik.

Əgər belə olsa, inflyasiya artar. Eyni zamanda, biz insanların sosial tələbatlarına qayğı ilə yanaşmalıyıq. Biz beynəlxalq maliyyə qurumları ilə çox sıx işləyirik. Bunlar əsasən, Beynəlxalq Valyuta Fondu və Dünya Bankıdır. Vəsaitlərdən düzgün istifadə olunması məqsədi ilə ekspertlərlə iş aparırıq. Çünki əvvəllər bi-

zim belə təcrübəmiz yox idi və ölkənin bu qədər vəsaiti də olmayıbdır.

**– Çox güman ki, Siz bu vəsaitləri insanların həyatının yaxşılaşdırılması üçün məhz sosial layihələrə sərf etməyi planlaşdırırsınız?**

– Tamamilə doğrudur. Sosial layihələrdən söhbət gedirsə, ilk növbədə xəstəxanalar, məktəblər və ictimai sektor, eləcə də infrastruktur nəzərdə tutulur. Yolların çəkilməsi, elektrik stansiyalarının tikilməsi, su təchizatı, kommunikasiyalar, qaz təchizatı nəzərdə tutulur. Əgər biz çoxşaxəli iqtisadiyyat yaratmaq istəyiriksə, yaxşı infrastrukturumuz olmalıdır. Hazırda biz yolların çəkilməsi ilə fəal məşğul oluruq və görürük ki, yol çəkilib qurtarandan dərhal sonra orada biznes fəaliyyətə başlayır. İnsanlar işləməyə başlayır və beləliklə, inkişaf sürətlənir. Ona görə də bütün işlər tarazlı şəkildə aparılacaqdır. Ancaq biz ilk növbədə Neft Fondunun vəsaitinin böyük bir hissəsini gələcək nəsillər üçün saxlamalıyıq. Beləliklə, gələcək nəsillər hər hansı bir çətinlikdən qoruna biləcəkdir. İkinci yerdə isə sosial inkişaf və infrastrukturla bağlı layihələrin həyata keçirilməsi durur.

**– Bu gün səhər *bp*-nin ölkənizdə apardığı müşahidələrlə tanış olmaq imkanı qazandım. Belə bir fikir irəli sürülür ki, ölkənin iqtisadiyyatına gələcək sərmayələrin yatırılması sabitlikdən və cəmiyyətdəki sakitlikdən asılı olacaqdır. Bu fikir, istər-istəməz, Azərbaycanda son aylar ərzində gedən siyasi proseslərə diqqəti çəkir. Müxalifət küçə nümayişləri keçirməyə cəhd edir. Azərbaycanda sabitliyin pozulması ehtimalı ilə bağlı Qərb aləmindəki fikrə necə yanaşırsınız?**

– Müəyyən ölkələrin Azərbaycana aid fikirləri və ya düşüncələri ilə bağlı fikir söyləmək mənim üçün çətindir. Bir sıra hallarda belə fikirlər reallığı tam əks etdirmir. Mən şahidiyəm ki, ölkəmizə səfər edən xarici nümayəndə heyətləri, digər ölkələrin rəsmiləri bir fikirlə gəlir, lakin reallığı gördükdən sonra fikirlərini dəyişirlər. Biz gələcəkdə Azərbaycanda sabitliyin qorunması baxımından hansısa çətinliyin olacağını proqnozlaşdırmırıq.

**– Siz gələcəkdə belə bir meyl görmürsünüz?**

– Xeyr, əsla yox. Ən əvvəl ona görə ki, bizim cəmiyyətdə sakit durum mövcuddur. İqtisadi göstəricilər çox yaxşıdır. Son il yarım ərzində mənim prezidentliyim dövründə 260 min iş yeri yaradılmışdır. Onlardan 140 mini daimi iş yeridir və müxtəlif rayonlarda açılmışdır. Minimum əməkhaqqı üç dəfə artmışdır. Büdcəmiz 50 faiz artmışdır və mən hökumətin qarşısında gələn il üçün büdcə xərclərini ən azı 50 faiz artırmaq vəzifəsini qoymuşam. Biz sosial problemlərlə məşğul oluruq. İqtisadi inkişafa diqqət yetiririk. Silahlı qüvvələrimizin inkişafına çox böyük önəm veririk, çünki hələ müharibə şəraitindəyik. Xarici siyasətimizdə də uğurlar müşahidə olunur. Biz qonşularımız və tərəfdaşlarımızla, o cümlədən Avropa İttifaqı ilə çox yaxşı münasibətlər qurmuşuq. Ona görə də hökumətin gördüyü işlərin müxalifət tərəfindən tənqid edilməsi və bu tənqidin xalq tərəfindən dəstəklənməsinə yönəlmiş cəhdlər əbəsdir. Bizim tərəfdaşlarımızın sayı çoxdur. Bu yaxınlarda aparılmış ictimai rəy sorğusu mənə və hökumətimizə etimadın çox böyük olduğunu nümayiş etdirdi. Belə hesab edilə bilər ki, yerli səviyyədə, xarici müşahidəçilərin iştirakı olmadan aparılan sorğulara o qədər də etimad göstərilmir. Lakin bir neçə ay bundan əvvəl Gellup İnternational təşkilatının apardığı sorğu onu göstərdi ki, prezidenti dəstəkləyənlərin sayı 77 faiz təşkil edir. Belə bir şəraitdə, mən hesab etmirəm ki, sabitlik pozulsun. Bəlkə də buna cəhdlər ola bilər, çünki keçmişdə ölkəmizdə belə proseslər müşahidə olunmuşdur. Lakin bu cəhdlərə heç bir dəstək verilməyəcəkdir.

**– Bu ilin əvvəlindən etibarən polis müxalifət tərəfindən hər hansı kütləvi aksiyaların keçirilməsinə imkan verməmişdir. Nə səbəbə görə buna imkan verilmirdi?**

– Keçmişdə bizim toplaşmaq azadlığı ilə bağlı heç vaxt problemimiz olmayıbdır. Bu dövr müstəqilliyin qazanılmasından son prezident seçkilərinə qədər olan müddəti əhatə edir. Prezident seçkilərindən sonra baş vermiş hadisələr bütün cəmiyyəti sarsıtdı. Zorakılıq, vəhşi hərəkətlər, müxalifət tərəfindən polisə və vətəndaşlara qarşı kəskin hücumlar kimi hadisələri Azərbaycan müstəqilliyin yalnız ilk illərində, yəni 1990-cı illə-

rin əvvəllərində yaşamışdır. İndi artıq insanlar normal, sakit həyata öyrəşmişlər. Lakin belə zorakılıq hallarının baş tutması əhalini şok vəziyyətinə saldı. Ona görə də insanları bu cür zorakılıqdan qorumaq üçün biz ciddi tədbirlər görmək məcburiyyəti qarşısında qaldıq. Yeri gəlmişkən, onu da deyim ki, müxalifət hətta o vaxt da kütləvi aksiya keçirmək iqtidarında ola bilmədi. Lakin biz boru kəmərinin istismara verilməsi mərasimi keçirəcəyimiz vaxtdan bir neçə gün əvvəl onlar mitinqi təşkil etmək qərarına gəldilər. Həmin mitinqin sakit və ya zorakı olacağını da biz bilmirdik. Biz may ayında Bakı–Tbilisi–Ceyhan boru kəmərinin Azərbaycan hissəsinin istismara verilməsi ərəfəsində Bakıda bu cür mitinqin keçirilməsinə və zorakılığa əl atılmasına imkan verə bilməzdik. Bu səbəbdən ona icazə verilmədi. Amma onlar çalışdılar ki, bu mitinqi keçirsinlər. Biz buna yol vermədik. Lakin mərasim keçiriləndən dərhal sonra toplaşmaq azadlığı yenidən bərpa olundu və hazırda müxalifətin bu cür mitinqlər keçirməsinə heç bir maneə yoxdur.

**– Beləliklə, demək olarmı ki, ölkənin iqtisadiyyatına yatırılan sərmayələr müxalifətin keçirdiyi mitinqlərdən daha vacibdir?**

– Müxalifətin keçirdiyi mitinqlər, nümayişlər ölkənin imicinə böyük xələl gətirmir. Bu, sadəcə, sərmayələrlə bağlı deyil, çünki Bakı–Tbilisi–Ceyhanın maliyyə məsələsi artıq öz həllini tapıbdır. Yəni, bu məqsədlə biz əlavə sərmayə axtarmırıq. Bunun səbəbi ondan ibarətdir ki, Bakı–Tbilisi–Ceyhan kəmərinin işə düşməsi bütün Azərbaycan üçün və ölkəsini sevən hər bir azərbaycanlı üçün olduqca mühüm hadisədir və biz belə bir hadisə ərəfəsində hər hansı problemin yaranmasına imkan verə bilməzdik.

Bir sıra ölkələrdə Bakı–Tbilisi–Ceyhan layihəsinə qarşı çıxan müəyyən qüvvələr var idi və onlar hətta indi də fəaliyyət göstərirlər. Buna görə də həmin layihə bizim üçün adi bir məsələ, adi bir boru kəməri deyildir. Bu, Azərbaycanın gələcəyidir. Boru kəməri bizim iqtisadi müstəqilliyimiz və bunun nəticəsində bizim siyasi müstəqilliyimizdir. Bunu hamı anlayır. Bakı–

Tbilisi–Ceyhan boru kəmərinin istismara verilməsi ərəfəsində müxalifətin bu cür tədbir keçirmək cəhdi müstəqilliyimizin möhkəmləndirilməsinə xidmət etməyən və Azərbaycan xalqı tərəfindən dəstəklənməyən fakt idi. Ona görə də şəhərin icra hakimiyyəti onlardan xahiş etdi ki, mitinqi mərasimdən sonraya təxirə salsınlar. Çünki həmin açılış mərasiminə bir neçə prezident, mötəbər rəsmi şəxslər və digər qonaqlar gəlmişdilər. Bütün dünya ictimaiyyətinin diqqəti ölkəmizə yönəlmişdi. Lakin onlar bizim xahişimizə qulaq asmadılar. Onlar həmin gündə dünya mətbuatında Azərbaycanı boru kəmərini istismara verən ölkə kimi yox, polis və müxalifət arasında qarşıdurma olan ölkə kimi tanıtmaq istəyirdilər. Əgər onlar bu addımı atsaydılar, biz buna qarşı çıxar və gücümüzü nümayiş etdirərdik. Beləliklə, onlara göstərdik ki, bizimlə ultimatumla danışmasınlar.

**– Qarşıdan gələn parlament seçkilərinin müasir Azərbaycanın tarixində həlledici bir məqam olması barədə fikrə necə yanaşırsınız?**

– Mən hesab edirəm ki, hər bir seçki vacibdir və noyabr ayındakı parlament seçkiləri Azərbaycan müstəqilliyini qazandıqdan sonra keçiriləcək növbəti seçkilərdir. Azərbaycan prezident idarəçiliyini nəzərdə tutan ölkədir. Ona görə də parlamentin fəaliyyəti qanunvericiliklə məhdudlaşır. Bəzi hallarda müxalifət bəyan edir ki, onlar bu seçkilər vasitəsilə hakimiyyətə gələcəklər. Bu, müəmmalı fikirdir.

**– Bəlkə onlar bunu Gürcüstan, Ukrayna və Qırğızıstandakı hadisələri gördükdən sonra deyirlər, hesab edirlər ki, bu cür fürsətdən istifadə edərək xalqın dəstəyini qazanıb hakimiyyətə gələ bilərlər?**

– Bu, müxalifətin səhvlərindən biridir. Belə düşünməyə onları vadar edən istədiklərini reallıqda görməmələridir. Çünki buradakı vəziyyət Gürcüstan, Ukrayna və Qırğızıstandakı vəziyyətdən fərqlənir. Həmin ölkələrdə dövlət başçıları on illər ərzində hakimiyyətdə olmuşlar. Nəsillərin dəyişilməsi orada qaçılmaz hal idi. İqtidara yeni insanlar gəldi və bu da təbiidir.

**– Lakin Sizin atanız da uzun müddət ərzində ölkəyə rəhbərlik etmişdir.**

– Bəli, atam rəhbərlik etmişdir. Lakin mən yox. Bizim strateji xəttimiz dəyişməyibdir. Ancaq mən yeni prezidentəm və hakimiyyətə yeni ideyalarla, yeni yanaşma ilə, yeni heyətlə gəlmişəm. Bunları nəzərə alaraq Azərbaycanda dəyişikliklər artıq baş veribdir. Bundan əlavə, Azərbaycanda keçmiş hökumətin siyasəti də dəstəklənmişdir. Ona görə də biz Gürcüstandakı parlament seçkiləri və ya Ukraynadakı prezident seçkiləri kimi hadisələr ərəfəsində deyilik. Burada fərqlər var. Müxalifət isə əks imic yaratmağa çalışır. Onların hamısı Ukrayna və ya Gürcüstandakı müxalifət liderlərinə bənzəmək arzusuna düşübdür. Lakin bunlar fərqli insanlardır. Müxalifət bizimlə mübarizə etməyə çalışır. 1992-ci ildə onlar bir dəfə hakimiyyətə gəlmişdilər. Həmin hakimiyyət yalnız bir il çəkdi. Nə səbəbə görə? Ona görə ki, xalq onları dəstəkləmirdi, onların rəhbərliyi altında yaşamaq istəmirdi. Mən hesab edirəm ki, bugünkü müxalifətin ən böyük problemlərindən biri də odur ki, onlar artıq uzun illərdir, yəni, on beş ildir özlərini lider adlandırmağa çalışıblar. Yenə də eyni sözlərlə, eyni fikirlərlə və eyni şüarlarla çıxış edirlər. Zənnimcə, həmin insanlar geri çəkilməlidirlər və saf, əlləri vətəndaş müharibəsinin qanlı hadisələrinə batmamış, sosial gərginlikdə günahı olmayan gənc müxalifətçi nəsillərə imkan verməlidirlər. Ona görə də qonşu ölkələr ilə müqayisədə bizdə vəziyyət fərqlidir.

**– İndi isə ölkənizin xarici əlaqələrinə keçək. Siz hesab edirsinizmi ki, Amerika ilə münasibətləriniz Rusiya ilə münasibətlərə nisbətən daha güclüdür?**

– Bilirsiniz, biz müxtəlif ölkələrin və ya qüvvələrin qarşıdurmasında iştirak etməkdən hər zaman çəkinmişik və indi də bu addımları uğurla atırıq. Bura qarşıdurma yeri deyildir.

**– Razılaşın ki, onlar mübarizəyə cəhd edirlər.**

– Bəli, bir çox ölkələr və qüvvələr cəhd göstərirlər. Bizim vəzifəmiz isə bu cür qarşıdurmaya yol verməməkdir. Onlar dünyanın digər yerlərində, böyük ölkələrin maraqları olan bölgələr-

də mübahisə edə, mübarizə apara bilərlər. Lakin Azərbaycan bu cür mübahisələrin yeri deyildir. Bizim siyasətimiz çox aydındır.

Birləşmiş Ştatlarla çox yaxşı əlaqələrimiz var. Biz ilk vaxtlardan etibarən antiterror koalisiyasının üzvüyük. Bizim Kosovoda və Əfqanıstanda hərbçilərimiz var. İraqda əməliyyat başlandıqdan dərhal sonra biz öz əsgərlərimizi həmin ölkəyə göndərdik. Biz NATO-ya inteqrasiya yolunda Birləşmiş Ştatlarla və öz tərəfdaşlarımızla işləyirik, çox fəal çalışırıq. Biz artıq «Fərdi tərəfdaşlığın fəaliyyət planı» prosesindəyik. Avropa İttifaqı ilə də sıx işləyirik və Avratlantika məkanına inteqrasiya bizim strateji seçimimizdir.

Lakin eyni zamanda, bizim Rusiya ilə çox yaxşı münasibətlərimiz var. İranla əla münasibətlərimiz mövcuddur. Biz bu münasibətləri yüksək dəyərləndiririk, çünki onlar bizim qonşularımızdır. Biz onlarla bir-birinin daxili işlərinə qarışmamaq və qarşılıqlı hörmət əsasında konstruktiv münasibətlər qurmaq arzusundayıq. Bu cür siyasətimiz xalq tərəfindən dəstəklənir. Əgər siz burada küçələrə çıxıb ictimai sorğu keçirsəniz və üstünlük verilən istiqamətlər barədə sual versəniz, görəcəksiniz ki, ifadə olunan rəylər müxtəlifdir. Ona görə də, prezident kimi, mənim başlıca məqsədim Azərbaycanın milli maraqlarının, o cümlədən sabitliyin, təhlükəsizliyin və əmin-amanlığın maksimum dərəcədə qorunmasıdır, Azərbaycanı özünə dost hesab edən bütün ölkələrlə yaxşı, konstruktiv münasibətlərin qurulmasıdır. Gələcəkdə biz məhz belə münasibətlərin qurulmasının tərəfdarıyıq, çünki bu, Azərbaycanın yeganə uğurlu yoludur.

**– Siz bildirdiniz ki, Amerikanın başçılıq etdiyi əməliyyatlarda ölkəniz də iştirak edir. Bəs İranla bağlı bir qərar qəbul edilsə, Siz hansı addımları atacaqsınız?**

– Biz əvvəlcədən nəyin baş verəcəyini proqnozlaşdıra bilmərik. Hər şey baş verə bilər. Bunlar mənim sifarişimlə baş verə bilməz. Lakin mən hesab edirəm ki, ciddi münaqişələr dinc yolla öz həllini tapmalıdır. Biz Ermənistanla uzun illərdir ki, müharibə şəraitindəyik. Bütün beynəlxalq ictimaiyyət bizi bu münaqişəni sülh yolu həll etməyə çağırır. Baxın, on ildən çoxdur ki,

Ermənistan bizim torpaqlarımızın 20 faizini işğal altında saxlayır və bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Lakin bütün beynəlxalq təşkilatlar Azərbaycanı hər hansı hərbi addımdan çəkinməyə çağırır. Nəyə görə? Çünki heç kim Avropaya yaxın bu bölgədə münaqişə olmasını istəmir. Avropaya belə bir münaqişə lazım deyildir. Onda nə səbəbə görə biz sərhədlərimizin yanında yeni münaqişənin yaranmasına qərəzsiz baxmalıyıq? Bu, Azərbaycanın təhlükəsizliyinə xidmət edəcəkmi? Xeyr. Mən hesab edirəm ki, beynəlxalq münasibətlərdə ümumi yanaşma tətbiq olunmalıdır. Əgər Azərbaycan bu gün öz torpaqlarının işğal altında olmasına baxmayaraq, məsələni dinc yolla həll etməyə çalışırsa, biz digər ölkələrdən də xahiş edərdik ki, hər hansı zorakılıqdan çəkinsinlər. Biz müharibə, qan tökülməsini istəmirik. Fikrimcə, ən münasib yol danışıqlar yoludur. Rəqibi yola gətirmək və ümumi yanaşmadan istifadə ən yaxşı üsullardır.

**– Amerikanın Sizin ərazinizdə hərbi hava bazası yerləşdirməsi planına necə yanaşırsınız? Bu addım Sizin ölkə üçün əhəmiyyət daşıyırmı?**

– Əvvəlcə onu deməliyəm ki, Azərbaycanda xarici hərbi bazaların yerləşdirilməsi haqqında məlumat düzgün deyildir. Bunlar şayiədir. Bəzi hallarda bunu bilərəkdən yayırlar, digər hallarda isə, insanlar sadəcə bu haqda düşünürlər. Bu barədə biz Birləşmiş Ştatlarla heç bir danışıq aparmırıq.

**– Beynəlxalq aləmdə bildirilir ki, Amerika buna nail olmaq istəyir.**

– Mən belə hesab etmirəm. Onların rəsmiləri bir neçə dəfə rəsmi şəkildə bəyan ediblər ki, bu cür bazaları yerləşdirməyi planlaşdırmırlar. Biz bununla bağlı heç bir danışıqlar aparmırıq və mən hesab etmirəm ki, ölkədə hər hansı xarici hərbi bazanın yerləşdirilməsi bizim təhlükəsizliyimizə töhfə verəcəkdir. Bizim bir nömrəli problemimiz var – işğal olunmuş torpaqlarımızın azad edilməsi. Biz əməkdaşlığımızın bütün aspektlərini bu baxımdan müəyyən edirik. Bu, verdiyiniz sualın birinci hissəsi barədə.

O ki qaldı sualınızın ikinci hissəsinə, onu deyə bilərəm ki, biz Ermənistanla Azərbaycan arasındakı münaqişəni heç vaxt xristian və müsəlmanlar arasındakı müharibə kimi qəbul etməmişik. Azərbaycanda bir çox millətlərin və dinlərin nümayəndələri yaşayır və mən deyərdim ki, burada olan dözümlülüyün səviyyəsi regionun digər ölkələri üçün nümunə ola bilər. Eyni zamanda, biz bilirik ki, Ermənistan Rusiya ilə birgə kollektiv təhlükəsizlik müqaviləsinin üzvüdür və Rusiyanın çox yaxın hərbi müttəfiqidir. Buna görə də Ermənistanla Amerika arasında hərbi əməkdaşlıq o qədər də fəal deyildir. Bunu hətta İraqla bağlı məsələyə də şamil etmək olar. Ermənistan öz kontingentini müharibə başladıqdan bir il və ya il yarım sonra İraqa göndərdi. Həmin kontingent də əsgərlərdən yox, sürücülərdən ibarətdir. Onlar bunu yalnız Azərbaycana görə etdilər, çünki ölkəmizdən geridə qalmaq istəmədilər.

Bunları nəzərə alsaq, regiondakı geosiyasi vəziyyət tamamilə aydındır. Bizim möqeyimiz hər zaman açıq və səmimi olubdur. Biz razılaşanda müsbət cavab veririk, razı olmayanda yox deyirik. Biz bir əldə iki qarpız tutmaq fikrində deyilik. Bu, mümkün deyildir.

**– Sonuncu sualımdır. Bu yaxınlarda «Human Rights Watchdog» təşkilatı öz hesabatında Azərbaycanı polis dövləti kimi təsvir edibdir. Bu haqda nə deyə bilərsiniz?**

– Onu deyə bilərəm ki, mən bu cür qiymətlə razılaşmıram. Qətiyyən razılaşmıram, çünki belə yanaşma reallığı əks etdirmir. Mən prezident seçildikdən sonra bir neçə əfv fərmanı imzalamışam və bir sıra qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlar tərəfindən «siyasi məhbus» hesab edilən şəxslərin hamısı azadlığa buraxılmışdır. Ölkəmizdə söz və fikir azadlığı, müxalif partiyalar və qəzetlər var. Bir sözlə, bu cür fikirlər tamamilə yanlışdır. Biz anlayırıq ki, Azərbaycan get-gedə mühüm ölkəyə çevrilir. Bu ölkənin çox böyük potensialı var. Onun geosiyasi mövqeyi çox mühümdür. Ölkəmizin mühüm nəqliyyat yolları, dəhlizi və enerji resursları var və gələcəkdə çox güclü maliyyə potensialı olacaqdır. Buna görə də bizim siyasətimizə təsir

göstərmək cəhdləri davam edəcəkdir. Bunun bir çox alətləri var. Onların arasında Human Rights Watchdog təşkilatı və digərləri mövcuddur. Onlar hər zaman çalışırlar ki, ölkəmizi tamamilə fərqli formada təsvir etsinlər. Bəzən bu bizi qəzəbləndirir, lakin artıq buna öyrəşmişik və çox fikir vermirik. Bir prezident kimi, mənim üçün «Human Rights Watchdog» təşkilatının verdiyi qiymət yox, Azərbaycan xalqının siyasətimizlə bağlı ifadə etdiyi rəy vacibdir. Xalqın dəstəyi bizim üçün vacibdir və «Gellup» İnternationalın hesablamalarına görə, məni dəstəkləyənlərin sayının 77 faiz səviyyəsində olduğunu görəndə, əmin oluram ki, yürütdüyüm siyasət düzdür və mən haqlıyam. «Human Rights Watchdog» təşkilatı səhvə yol verir.

## YUNESKO-nun BAŞ DİREKTORU KOİŞİRO MATSUURA VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 avqust 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın geniş tərkibdə görüşü olmuşdur.*

*Prezident İlham Əliyev YUNESKO-nun Baş direktorunu və onun başçılıq etdiyi nümayəndə heyətini səmimiyyətlə salamlayaraq, onların ölkəmizə səfərinin əhəmiyyətini vurğuladı və bu səfərin uğurla keçəcəyinə əmin olduğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, uzun müddətdir biz müxtəlif layihələr üzərində birgə işləyirik və çox yaxşı nəticələr əldə etmişik. Ümidvaram ki, sizin Azərbaycana səfəriniz münasibətlərimizə yeni təkan verəcəkdir. Biz elmin inkişafı, mədəni irsin qorunması sahəsində də əməkdaşlıq edirik və əminəm ki, əlaqələrimiz bütün sahələrdə genişlənəcəkdir.*

*Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan sürətlə inkişaf edən ölkədir, iqtisadiyyatımız getdikcə güclənir. Bu isə bizə sosial sahəyə, mədəniyyət və təhsil sahələrinə daha çox vəsait ayırmağa imkan verir. Dövlətimizin başçısı YUNESKO-nun belə mötəbər nümayəndə heyətinin Azərbaycana səfərinin ölkəmiz üçün əhəmiyyətini bir daha qeyd edərək dedi ki, ümidvaram, bu səfərdən çox məmnun qalacaqsınız. Azərbaycan çox qonaqpərvər diyardır və burada hamı ölkəmizi sizə ən yüksək səviyyədə təqdim etmək üçün əlindən gələni edəcəkdir. Ölkəmizə gəldiyinizə görə sizə bir daha təşəkkürümü bildirir, səfərinizin səmərəli və yaddaqalan olmasını arzulayıram.*

*Səmimi görüşə və yüksək qonaqpərvərliyə görə prezident İlham Əliyevə dərin minnətdarlığını bildirən YUNESKO-nun Baş direktoru Koişiro Matsuura dedi ki, bizi Azərbaycana səfərə dəvət etdiyiniz üçün Sizə və Mehriban xanım Əliyevaya təşəkkür edirəm. Buraya gəldiyimiz andan Azərbaycan xalqının qonaqpərvərliyini hiss edirik. Ötən səfərimdən bəri Azərbaycanda böyük dəyişikliklərin baş verdiyinin şahidi oldum. Ölkəniz böyük sürətlə inkişaf edir. Çox məmnunuq ki, sosial sahəyə və təhsilə daha çox diqqət yetirilir.*

*Azərbaycanda təhsil sahəsinə böyük əhəmiyyət verildiyini təkrar vurğulayan YUNESKO-nun Baş direktoru dedi ki, bu istiqamətdə sizinlə əməkdaşlıq etməkdən çox məmnunuq. Azərbaycanda təhsilə dair konfrans keçirilir və bu tədbirdə biz də iştirak edirik. Bu gün bu sahədə əməkdaşlığa dair Memorandum da imzalanacaqdır. Çox şadam ki, Siz ölkənizin mədəni irsini qoruyursunuz. Elə ölkələr var ki, mədəni irsin qorunmasını unudur, bunu ümumi iqtisadi inkişafa qurban verir. Lakin Azərbaycan mədəni irsin qorunmasına xüsusi fikir verir. Mehriban xanım Əliyevanın bu sahədə göstərdiyi səyləri yüksək qiymətləndirir və onu təbrik edirəm.*

*Görüşdə qarşılıqlı əməkdaşlıqla bağlı bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## YUNESKO-nun BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*24 avqust 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin YUNESKO-nun Baş direktoru Koişiro Matsuura ilə təkbətək görüşü olmuşdur.*

*Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq təşkilatlara inteqrasiyası sahəsində görülən işlər barədə qonağa məlumat verdi. Dövlətimizin başçısı BMT və onun ixtisaslaşdırılmış qurumları ilə Azərbaycan arasında yaranmış xoşməramlı əlaqələrdən danışdı, Birləşmiş Millətlər Təşkilatının təhsil, elm və mədəniyyət məsələləri üzrə təşkilatı ilə əməkdaşlığın genişlənməsindən və həmin qurumun ölkəmizdə həyata keçirdiyi proqramlardan razılığını bildirdi.*

*Azərbaycanın sürətli iqtisadi inkişafından xəbərdar olduğunu söyləyən YUNESKO-nun Baş direktoru Koişiro Matsuura ölkəmizdə elmin, təhsilin, mədəniyyətin tərəqqisi, tarixin sınaqlarından keçmiş maddi-mənəvi sərvətlərin qorunması istiqamətində həyata keçirilən tədbirləri bəyəndiyini yurğuladı. Cənab Matsuura Azərbaycanın YUNESKO-da uğurla təmsil olunmasında Xoşməramlı səfir Mehriban xanım Əliyevanın səmərəli işini xüsusi qeyd etdi.*

*Söhbət zamanı ölkəmizlə YUNESKO arasında əməkdaşlığı daha da genişləndirməyin mümkün variantları müzakirə olundu.*

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ YUNESKO ARASINDA BİRGƏ RƏSMİ MƏLUMATIN İMZALANMASI VƏ YUNESKO-nun BAŞ DİREKTORUNA «ŞÖHRƏT» ORDENİNİN TƏQDİM OLUNMASI MƏRASİMİ

*Prezident sarayı*

*24 avqust 2005-ci il*

*Azərbaycan Respublikası ilə YUNESKO arasında Birgə rəsmi məlumatın imzalanması və YUNESKO-nun Baş direktoru Koişiro Matsuuraya Azərbaycanın yüksək dövlət mükafatı olan «Şöhrət» ordeninin təqdim edilməsi mərasimi olmuşdur.*

*Salona toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, YUNESKO-nun Baş direktoru Koişiro Matsuura və xanımını hərarətlə qarşıladılar.*

*Sənədi Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və YUNESKO-nun Baş direktoru Koişiro Matsuura imzaladılar.*

**İlham Əliyev**: Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün çox əlamətdar bir gündür. YUNESKO ilə Azərbaycan arasında təhsil sahəsində çox vacib sənəd imzalanmışdır. YUNESKO ilə Azərbaycan arasında əlaqələr çox yüksək səviyyədədir və bu əlaqələrin inkişafında hörmətli cənab Matsuuranın müstəsna xidmətləri vardır. Cənab Matsuuranın fəaliyyətini yüksək qiymətləndirərək, Azərbaycan prezidenti onu ölkəmizin yüksək mükafatı – «Şöhrət» ordeni ilə təltif edibdir və bu gün mən bu ordeni təqdim etmək istəyirəm.

Cənab Matsuura YUNESKO-nun Baş direktoru vəzifəsinə seçildikdən sonra dünya mədəniyyətlərinin yaxınlaşmasına çox böyük töhfə vermişdir. Azərbaycanla YUNESKO arasında olan

əlaqələrin yüksək səviyyəyə çatmasında da cənab Matsuuranın fəaliyyəti çox böyük əhəmiyyət kəsb edir.

«Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin təntənəli qeyd olunmasında da cənab Matsuuranın çox önəmli rolu olmuşdur. İçərişəhərin və Qız qalasının dünya mədəni irsi siyahısına daxil edilməsi də məhz cənab Matsuuranın bilavasitə iştirakı ilə baş vermişdir.

Hörmətli cənab Baş direktor, Azərbaycan dövləti və Azərbaycan xalqı sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir və bu mükafat da onun təzahürüdür. İndi isə icazə verin, bu mükafatı sizə təqdim edim.

*Prezident İlham Əliyev «Şöhrət» ordenini YUNESKO-nun Baş direktoru Koişiro Matsuuraya təqdim etdi.*

**Koişiro Matsuura:** Cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Bu gün Azərbaycan Respublikasının yüksək ordenini almaq mənim üçün ən böyük şərəfdir. Hətta hesab edirdim ki, mən bunu qazanmamışam. Ancaq Siz bu gün məni yüksək ordenlə təltif edirsiniz. Bu ordeni verməklə, məni gələcək işlərimdə Azərbaycan və YUNESKO arasında əməkdaşlığın genişləndirilməsinə, nəinki mədəniyyət sahəsində, eyni zamanda təhsil sahəsində də əlaqələrin, əməkdaşlığın daha da inkişaf etdirilməsinə həvəsləndirirsiniz. Sizə, Azərbaycan xalqına dərin təşəkkürümü bildirirəm. Çox sağ olun.

## BAKIDA BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNİN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİNDƏ NİTQ

*24 avqust 2005-ci il*

*Bakıda, Dənizkənarı Milli Parkda YUNESKO-nun dəstəyi ilə yaradılan Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim keçirilmişdir.*

*Mərasimə toplaşanlar Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranı və xanımı Takaka Matsuuranı, bu beynəlxalq qurumun nümayəndə heyətinin üzvlərini hərarətli alqışlarla qarşıladılar.*

**İlham Əliyev:** YUNESKO-nun hörmətli Baş direktoru cənab Matsuura!

Hörmətli xanım Matsuura!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizi bir daha salamlayıram və bu gün Beynəlxalq Muğam Mərkəzinin təməl daşının qoyulması münasibətilə hamınızı ürəkdən təbrik edirəm. Bu gün böyük bayramdır. Muğam Azərbaycan mədəniyyətinin ən gözəl incisidir.

Azərbaycan musiqisi muğam üzərində qurulmuşdur. Biz öz mədəni irsimizə çox böyük diqqətlə və qayğı ilə yanaşırıq. Azərbaycanın çox zəngin mədəniyyəti var və biz çalışırıq ki, öz mədəniyyətimizi inkişaf etdirək və dünya ictimaiyyətinə daha da yaxşı tanıdaq.

Muğam hər bir azərbaycanlı üçün çox əzizdir, doğmadır. Ancaq bu günə qədər Azərbaycanda muğam evi, muğam mərkəzi yox idi. Mən çox şadam ki, bu gün təməlini qoyduğumuz

bina bir müddətdən sonra öz qapılarını açacaq və Azərbaycanda çox gözəl muğam mərkəzi yaradılacaqdır.

Şübhə etmirəm ki, bu mərkəz qısa müddət ərzində tikilib başa çatdırılacaq, dünyanın ən yüksək standartlarına cavab verəcəkdir. Ümid edirəm ki, YUNESKO-nun Baş direktoru cənab Matsuura və dəyərli qonaqlarımız muğam mərkəzinin açılış mərasimində də bizimlə bərabər olacaqlar. Bu gün, həqiqətən, çox böyük bayramdır. Azərbaycan musiqisevərlərinin bayramıdır, muğam ustalarının bayramıdır və bütün Azərbaycan xalqının bayramıdır. Çünki nə qədər ki, muğam var, Azərbaycan xalqı da var.

Bu fürsətdən istifadə edərək, cənab Matsuuraya dərin minnətdarlığımı bildirirəm ki, onun şəxsi təşəbbüsü ilə Azərbaycanın milli irsinin, mədəni irsinin qorunması işində böyük işlər görülübdür. YUNESKO-nun vasitəsilə Azərbaycan öz mədəniyyətini dünya ictimaiyyətinə daha geniş şəkildə təqdim edə bilibdir. Ümid edirəm ki, gələcəkdə YUNESKO ilə Azərbaycan arasında gözəl əməkdaşlıq ənənələri yaşayacaqdır və möhkəmlənəcəkdir.

Cənab Matsuuranın Azərbaycanın mədəni irsinin təbliğ olunmasında və YUNESKO tərəfindən qorunmasında müstəsna xidmətləri vardır və bu, Azərbaycanda yüksək qiymətləndirilir. Bu məqsədlə bu gün mənim sərəncamımla cənab Matsuura Azərbaycanın yüksək mükafatı – «Şöhrət» ordeni ilə təltif olunubdur. Bu münasibətlə sizi bir daha ürəkdən təbrik edirəm.

Əziz dostlar, Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulması münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və YUNESKO-nun Baş direktoru Koişiro Matsuura gilizi binanın təməlinə qoydular və ilk beton qarışığı tökdülər. Gilizin içərisindəki kağızda Azərbaycan və ingilis dillərində bu sözlər yazılmışdı:*

«YUNESKO-nun dəstəyi ilə yaradılan Beynəlxalq Muğam Mərkəzinin təməl daşı Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev və YUNESKO-nun Baş direktoru Koişiro Matsuura tərəfindən 2005-ci il avqustun 24-də qoyulmuşdur».

*Mərasimdə iştirak edən muğam ustaları, mədəniyyət və incəsənət xadimləri prezident İlham Əliyevlə səmimi görüşdülər, dövlətimizin başçısına və Mehriban xanım Əliyevaya bu tarixi hadisəyə, muğam sənətinə verdikləri yüksək qiymətə görə dərin təşəkkürlərini bildirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN YUNESKO-nun BAŞ DİREKTORU KOİŞİRO MATSUURANIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*24 avqust 2005-ci il*

YUNESKO-nun hörmətli cənab Baş direktoru və xanımı!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. YUNESKO-nun Baş direktorunun Azərbaycana səfəri böyük əhəmiyyət kəsb edir. Mən çox şadam ki, bu səfər çox uğurlu keçir. Bu gün çox vacib sənədlər imzalandı. Eyni zamanda, çox səmimi, işgüzar şəraitdə YUNESKO ilə Azərbaycan arasında olan münasibətləri müzakirə etdik və gələcək perspektivlər haqqında fikir mübadiləsi apardıq, birlikdə Muğam Mərkəzinin təməl daşını qoyduq.

Azərbaycanın mədəni irsinin qorunub saxlanılması və təbliğində YUNESKO-nun və şəxsən cənab Matsuuranın böyük əməyi vardır. Bu əmək Azərbaycan xalqı və dövləti tərəfindən qiymətləndirilir və təsadüfi deyil ki, bu gün cənab Matsuura Azərbaycanın yüksək mükafatı – «Şöhrət» ordeni ilə təltif olundu.

Bir il bundan əvvəl Parisdə YUNESKO-nun Baş qərargahında biz cənab Matsuura ilə görüşmüşdük. Bizim aramızda olan əməkdaşlığın prioritetləri müzakirə olunmuşdu. Ötən müddət ərzində bizim aramızda əlaqələr daha da möhkəmləndi. Mən şübhə etmirəm ki, bu səfərdən sonra YUNESKO ilə Azərbaycan arasında olan əlaqələr daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Cənab Matsuuranın və onu müşayiət edən qonaqların səfər proqramı çox gərgindir, çoxlu görüşlər, tədbirlər keçirilibdir. Ona görə mən sizin vaxtınızı çox almaq istəmirəm. Xahiş edi-

rəm ki, bu badələri YUNESKO ilə Azərbaycan arasında olan əlaqələrin şərəfinə, cənab Matsuuranın, xanım Matsuuranın, bu gün bizimlə birlikdə olan YUNESKO-nun Xoşməramlı səfirlərinin şərəfinə, bütün qonaqların şərəfinə qaldıraq.

Sağ olun.

* * *

*Avqustun 24-də «Gülüstan» sarayında «YUNESKO – Azərbaycan: gələcəyə körpü» mövzusunda konfrans keçirilmişdir.*

*Konfransı Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyeva açmışdır.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KAZAN ŞƏHƏRİNƏ SƏFƏRİ

*26 avqust 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Kazan şəhərinin 1000 illiyi ilə əlaqədar yubiley tədbirlərində və MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Tatarıstan paytaxtına yola düşmüşdür.*

## Kazan hava limanında qarşılanma

*Avqustun 26-da Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə gəlmişdir.*

*İlham Əliyevi Kazan hava limanında Tatarıstan Respublikası Dövlət Şurasının sədri Fərid Muxametşin, MDB-nin icraçı katibi Vladimir Ruşaylo, Rusiya Xarici İşlər nazirinin müavini Boris Karasin, Azərbaycanın Rusiyadakı səfiri Ramiz Rizayev və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.*

*Milli geyimli qızlar Azərbaycan prezidentinə duz-çörək təqdim etdilər. Dövlətimizin başçısı hava limanından «Kazan–1000» şəhərciyində onun üçün ayrılmış iqamətgaha gəldi.*

**Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Robert Köçəryanın görüşü**

*Avqustun 27-də Tatarıstan Respublikasının paytaxtı Kazanda Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Robert Köçəryanın görüşü keçirilmişdir.*

*ATƏT-in Minsk qrupu həmsədrlərinin də iştirak etdikləri görüşdə dövlət başçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələlərini geniş müzakirə etmişlər. Sonra görüş təkbətək davam etdirilmişdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KAZAN ŞƏHƏRİNƏ SƏFƏRİ

*Avqustun 26-da Kazan bələdiyyəsinin binasında (ratuşa) MDB-nin üzvü olan ölkələrin başçılarının növbəti zirvə görüşü keçirilmişdir. Xatırladaq ki, Sankt-Peterburq və Kazan ustaları 1853-cü ildə tikilmış bu binada 10 il ərzində apardıqları bərpa işlərini Tatarıstan paytaxtının 1000 illik yubileyi ərəfəsində başa çatdırmışlar.*

*Əvvəlcə qapalı keçən iclasda Azərbaycan prezidenti İlham Əliyev, Belarus prezidenti Aleksandr Lukaşenko, Ermənistan prezidenti Robert Köçəryan, Gürcüstan prezidenti Mixeil Saakaşvili, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Qırgızıstan prezidenti Kurmanbek Bakiyev, Moldova prezidenti Vladimir Voronin, Özbəkistan prezidenti İslam Kərimov, Rusiya prezidenti Vladimir Putin, Tacikistan prezidenti İmaməli Rəhmon, Ukrayna prezidenti Viktor Yuşşenko, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Edyaz Akiyev iştirak edirdilər. Gündəliyə «MDB-nin üzvü olan ölkələrin humanitar əməkdaşlığı haqqında saziş», «Çernobıl AES-də qəzanın 20-ci ildönümü ilə əlaqədar MDB ölkələri və dünya ictimaiyyətinə müraciət», eləcə də terrorizm və qeyri-leqal miqrasiya ilə bağlı mübarizəyə dair sənədlər, 2006-cı ilin yubiley ili elan olunması və digər məsələlər daxil idi.*

*MDB Dövlət Başçıları Şurasının sədri, Rusiya Federasiyasının prezidenti Vladimir Putin iclası açaraq demişdir ki, ötən sammitdən keçən müddət ərzində Müstəqil Dövlətlər Birliyi çərçivəsində müxtəlif formatlarda keçirilən görüşlərin hamısı ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə, əməkdaşlığın gücləndirilməsinə xidmət etmişdir.*

*Təxminən iki saat yarım çəkən islasdan sonra zirvə görüşü geniş tərkibdə davam etdirilmişdir. Dövlət Başçıları Şurasının*

*sədri, Rusiya prezidenti Vladimir Putin islası açaraq zirvə görüşünün Kazanın 1000 illik yubileyi şənlikləri günlərində keçirilməsini əlamətdar, mühüm tarixi hadisə adlandırmış, görüşün yüksək səviyyədə təşkilinə görə Tatarıstan Respublikasının rəhbərliyinə dövlət başçıları adından dərin təşəkkürünü bildirmişdir.*

*Müstəqil Dövlətlər Birliyi orqanlarının təkmilləşdirilməsi və islahatı, humanitar sahədə əməkdaşlıq məsələləri müzakirələrin əsas mövzusu olmuşdur.*

*Zirvə görüşünün nəticəsi olaraq bir sıra sənədlər imzalanmışdır. Dövlət başçıları ötən müddətdə şuraya rəhbərlik etmiş Rusiya Federasiyasının prezidenti Vladimir Putinin fəaliyyətini yüksək qiymətləndirərək ona təşəkkürlərini bildirmişlər.*

*MDB dövlət başçılarının növbəti zirvə görüşünün 2006-cı ildə Belarusun paytaxtı Minsk şəhərində keçirilməsi qərara alınmışdır.*

*Zirvə görüşündə iştirak edən ölkələrin prezidentləri və onları müşayiət edən şəxslər iclasdan sonra Kazan Kremlində «Qul Şərif» məscidi və Blaqoveşşeniye kilsəsi ilə tanış olmuşlar.*

*Sonra prezidentlər MDB-nin üzvü olan ölkələrin dövlət bayraqları önündə xatirə şəkli çəkdirmişlər.*

*Zirvə görüşü başa çatdıqdan sonra yekun mətbuat konfransı keçirilmişdir. Həmkarları adından jurnalistlər qarşısında çıxış edən Rusiya prezidenti Vladimir Putin çoxmillətli Kazan şəhərində onlara göstərilən yüksək qonaqpərvərliyə görə Kazan sakinlərinə minnətdarlığını bildirmişdir. O demişdir ki, MDB-də islahatlar aparmağın vaxtı çoxdan çatmışdır, lakin belə mürəkkəb məsələdə tələsmək olmaz. Ən başlıcası odur ki, prezidentlərin hamısı iqtisadi və humanitar sahələrdə inteqrasiyada maraqlı olduqlarını söylədilər. MDB-nin islahatlarına dair müxtəlif fikirlər var, lakin ümumi qərar hökmən tapılacaqdır.*

*İmzalanmış sənədlər sübut edir ki, MDB ölkələri inteqrasiyanın güclənməsini istəyir.*

*V.Putin bildirmişdir ki, görüşdə Qazaxıstan prezidenti Nursultan Nazarbayevin 2009-cu ildə ATƏT-in sədri vəzifəsinə*

*namizədliyinin dəstəklənməsi barədə yekdilliklə qərar qəbul edilmişdir.*

*Sonra MDB üzvü olan ölkələrin dövlət başçıları, o cümlədən Azərbaycan prezidenti İlham Əliyev Musa Cəlil adına Tatarıstan Dövlət Akademik Opera və Balet Teatrına gəlmişlər. Burada prezidentlərin şərəfinə və Kazan şəhərinin 1000 illik yubileyinə həsr olunmuş təntənəli konsert olmuşdur. Konsertdən əvvəl Rusiya Federasiyasının prezidenti Vladimir Putin, Tatarıstan Respublikasının prezidenti Mintimer Şaymiyev, Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev çıxış etmişlər.*

* * *

*Avqustun 26-da Kazandakı «Piramida» əyləncə kompleksində Tatarıstan paytaxtının 1000 illiyi ilə əlaqədar Rusiya Federasiyasının prezidenti Vladimir Putinin adından Birlik ölkələri dövlət başçılarının şərəfinə ziyafət verilmişdir. Azərbaycan prezidenti İlham Əliyev ziyafətdə iştirak etmişdir.*

*Ziyafətdən sonra prezidentlər Kazanın Yarmarka meydanında atəşfəşanlığa baxmışlar.*

## Səfər başa çatdı

*Kazan şəhərinin 1000 illiyi ilə əlaqədar yubiley tədbirlərində və MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak edən Azərbaycan prezidenti İlham Əliyev avqustun 27-də Tatarıstan paytaxtına səfərini başa çatdırmışdır.*

*Prezident İlham Əliyevi Kazan hava limanında Tatarıstan Respublikası Dövlət Şurasının sədri Fərid Muxametşin, MDB-nin icraçı katibi Vladimir Ruşaylo, Rusiya Xarici İşlər nazirinin müavini Boris Karasin, Azərbaycanın Rusiyadakı səfiri Ramiz Rizayev və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla yola saldılar.*

*Dövlətimizin başçısı İlham Əliyev həmin gün Bakıya qayıtdı.*

## AZƏRBAYCANDA İCTİMAİ TELEVİZİYA VƏ RADİO YAYIMLARI ŞİRKƏTİNİN FƏALİYYƏTƏ BAŞLAMASINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

*29 avqust 2005-ci il*

*Prezident İlham Əliyev Azərbaycanda İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV) fəaliyyətə başlamasına həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.*

*Paytaxtın Abbas Mirzə Şərifzadə küçəsində yerləşən şirkətin binası önünə toplaşan mərasim iştirakçıları prezident İlham Əliyevi hərarətli alqışlarla qarşıladılar. Dövlətimizin başçısına gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev yeni televiziyanın yaradıcı kollektivi ilə səmimiyyətlə görüşdü, onlara fəaliyyətlərində uğurlar arzuladı və İTV-nin texniki avadanlığı, işçilər üçün yaradılan müasir şəraitlə tanış oldu, studiyalara, montaj otaqlarına baxdı.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. Azərbaycanda ictimai televiziya yaranır və bu gün fəaliyyətə başlayacaqdır. Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. Əminəm ki, ictimai televiziya Azərbaycanın televiziya məkanında özünəməxsus yerini tutacaq və qısa müddət ərzində tamaşaçıların rəğbətini qazanacaqdır.

Mən bu gün televiziyadakı avadanlıqla, yaradıcı kollektivlə tanış oldum. Deyə bilərəm ki, burada quraşdırılan avadanlıq ən yüksək standartlara cavab verir. Artıq demək olar ki, televiziya fəaliyyətə hazırdır.

İctimai televiziyanın yaranma tarixi bizim hamımıza bəllidir. Bu barədə çox danışmaq istəməzdim. Hesab edirəm ki, televiziyanın bu il yaranması xüsusi əhəmiyyət daşıyır. Heç kəs üçün sirr deyil ki, ictimai televiziyanın yaranması Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərdən biri idi. Biz bunu etməliydik. Ancaq eyni zamanda, televiziyanın yaranması bir zərurət idi. Azərbaycanda fəaliyyət göstərən müxtəlif kütləvi informasiya orqanları, o cümlədən televiziya kanalları əhaliyə kifayət qədər dolğun məlumat çatdırırlar. Ancaq tam şəkildə müstəqil ictimai televiziyaya da böyük ehtiyac var idi.

Mən bu barədə öz fikirlərimi dəfələrlə bildirmişəm və bir daha demək istəyirəm ki, Azərbaycanda, sözün əsl mənasında, müstəqil mətbuata, KİV-lərə böyük ehtiyac vardır. İctimai televiziyanın yaranması bu istiqamətdə atılan çox böyük və önəmli bir addımdır. Mən ümid edirəm ki, bir müddətdən sonra Azərbaycanda, sözün əsl mənasında, müstəqil KİV-lər yaranacaqdır.

Azərbaycan keçid dövrünü yaşayır. Ölkəmiz bir ictimai quruluşdan digər ictimai quruluşa addımlayır. Belə olan halda, təbii ki, ilk mərhələdə mətbuat orqanlarına siyasi təzyiqlər daha çox olur. Mətbuatın böyük əksəriyyəti siyasi dairələrin təsiri altındadır. Yenə də demək istəyirəm ki, bəlkə də bu, təbii prosesdir. Ancaq hər bir mərhələnin sonu var, son həddi var. Ümid edirəm ki, Azərbaycanın hərtərəfli inkişafı, Azərbaycanda gedən siyasi proseslər, demokratikləşmə prosesləri ölkəmizə yeni ab-hava gətirəcəkdir.

Azərbaycanın ictimai həyatı kifayət qədər zəngindir. Azərbaycanda baş verən hadisələr, o hadisələrin təhlili, regionda gedən proseslər və Azərbaycanın bu proseslərdə rolu və əhəmiyyəti, əlbəttə, böyük maraq doğurur. Şübhəsiz ki, ictimai televiziyanın fəaliyyəti bu istiqamətdə çox maraqlı olacaqdır. Eyni zamanda, ümid edirəm ki, ölkəmizi ən çox narahat edən problemlər də televiziyanın fəaliyyətində böyük yer tutacaqdır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkəmizin üzləşdiyi problemlər, işsizlik, yoxsulluq, korrupsiya ilə mübarizə,

demokratik və hüquqi dövlətin qurulması prosesi və s. cəmiyyətimizin əsas hissəsini narahat edən məsələlərdir.

Ölkəmizin milli maraqlarının qorunması işində mətbuatın böyük rolu vardır. Biz dəfələrlə şahidi olmuşuq ki, bəzi hallarda Azərbaycan mətbuatında müəyyən informasiyanın çıxması bölgədə əks-səda doğurur. Biz bu məsələdə də çox həssas olmalıyıq. Bilməliyik ki, Azərbaycan müharibə şəraitində yaşayır. Ölkəmizdə gedən həm mənfi, həm də müsbət proseslər, şübhəsiz ki, düşmən tərəfindən izlənilir və buna ciddi reaksiya verilir.

Mən öz işimdə mətbuata həmişə dəstək verməyə çalışmışam. Bu gün də bu siyasəti aparıram. Hesab edirəm ki, qəbul edilmiş qərarlar bunun əyani sübutudur. Gələcək fəaliyyətimdə də çalışacağam ki, Azərbaycanda fəaliyyət göstərən mətbuat orqanlarına öz köməyimi, dəstəyimi verim. Mən əminəm ki, normal, hüquqi, demokratik dövlətin qurulması işində KİV-lərin çox böyük əhəmiyyəti var və bu əhəmiyyət getdikcə artır.

Azərbaycan parlament seçkiləri ərəfəsindədir və bəzi hallarda ictimai televiziyanın məhz bu ərəfədə yaranması da parlament seçkiləri ilə əlaqələndirilirdi. Şübhəsiz ki, bu amil də var. Lakin parlament seçkiləri noyabrın 6-da olacaq, ancaq ictimai televiziyanın qarşısında böyük vəzifələr durur və onun qarşısında böyük yol var. Əlbəttə, seçkilərlə bağlı televiziyanın fəaliyyəti çox böyük önəm daşıyır. Mən əminəm ki, deputatlığa bütün namizədlər ictimai televiziya vasitəsilə öz seçicilərinə birbaşa müraciət edəcəklər və onların hamısına eyni şərait yaradılacaqdır.

Mən ümid edirəm ki, ictimai televiziya Azərbaycanda özünəməxsus və çox önəmli yerini tutacaqdır. Yenə də demək istəyirəm, ümidvaram ki, tamaşaçıların rəğbətini qazanacaq və gələcəkdə ölkəmizin hərtərəfli inkişafı üçün öz mühüm rolunu oynayacaqdır.

Mənə verilən məlumata görə, televiziyada işləyən mütəxəssislərin hazırlıq səviyyəsi, peşəkarlıq səviyyəsi də çox yüksəkdir. Ümid edirəm, bütün bu amillər imkan verəcək ki, ictimai te-

leviziya Azərbaycanın teleməkanında çox önəmli rol oynayacaqdır.

Mən ictimai televiziyanın fəaliyyətinə uğurlar arzulayıram.

Televiziyada çalışanlara cansağlığı, xoşbəxtlik arzulayıram. Arzu edirəm ki, Azərbaycan mətbuatı, televiziyası inkişaf etsin və xalqımıza ləyaqətlə xidmət etsin.

Bayramınız bir daha mübarək olsun. Sağ olun.

# TÜRKİYƏNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 avqust 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin müavini Şaban Dişlini, partiya sədrinin müavini, Türkiyə Böyük Millət Məclisinin (TBMM) Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı Murad Mercanı və TBMM-in AŞPA-dakı nümayəndə heyətinin üzvü, millət vəkili İnci Dərvişi qəbul etmişdir.*

*Prezident İlham Əliyev qonaqlara müraciətlə dedi ki, sizin nümayəndə heyətinin bu səfəri çox önəmlidir, Azərbaycanın və Türkiyənin iqtidar partiyaları arasında əlaqələrin daha da inkişafına xidmət edəcəkdir. Dövlətimizin başçısı Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bu yaxınlarda Azərbaycana səfərini məmnunluqla xatırlatdı və səfərin gedişində keçirilmiş görüşləri, aparılmış danışıqları yüksək qiymətləndirdi, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin sürətlə inkişaf etdiyini vurğuladı. Eyni zamanda, müxtəlif səviyyələrdə əlaqələrin, o cümlədən parlamentlərarası əlaqələrin, partiyalararası əməkdaşlığın genişlənməsinin vacibliyini bildirdi.*

*Prezident İlham Əliyev dedi ki, Yeni Azərbaycan Partiyası, Ədalət və İnkişaf Partiyası hazırda iqtidarda olan partiyalardır, ölkələrimizin xalqlarının dəstəyinə arxalanırlar. Bizim partiyaları birləşdirən cəhətlərdən biri də odur ki, onların hər ikisi vaxtilə müxalifətdə olmuşdur. Müxalifətdə olan dövrdə də*

*siyasətlərini milli maraqlar üzərində qurmuşlar. Ona görə də xalq bizi müxalifətdən iqtidara gətirdi. Ölkələrimizdə gedən siyasi və iqtisadi islahatlar onu göstərir ki, biz düzgün yoldayıq. Azərbaycan prezidenti vurğuladı ki, biz istərdik YAP və ƏİP arasında təcrübə mübadiləsi olsun, bu, YAP-ın dünya partiyaları birliyinə daha sıx inteqrasiyasına xidmət edəcəkdir.*

*Dövlətimizin başçısı daha sonra dedi ki, Türkiyənin və Azərbaycanın bölgədəki rolu getdikcə güclənir. Bütün məsələlərdə, o cümlədən beynəlxalq və regional məsələlərə münasibətdə ölkələrimiz arasında birliyin olması Türkiyə və Azərbaycanın bölgədəki rolunun daha da güclənməsinə kömək edir. Azərbaycan və Türkiyənin müttəfiqliyi xalqlarımızın gələcəyinin təminatıdır. Prezident İlham Əliyev Ədalət və İnkişaf Partiyasına gələcək fəaliyyətində uğurlar arzuladı.*

*Nümayəndə heyətinin adından çıxış edən Şaban Dişli prezident İlham Əliyevə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını çatdırdı.*

*O dedi ki, Bakıya Yeni Azərbaycan Partiyasının dəvəti ilə gəlmişik. Sizin də bildirdiyiniz kimi, iqtidar partiyaları arasındakı əlaqələrin ölkələrimizin münasibətlərinin səviyyəsinə uyğun olması, bir sıra məsələlərdə fikir mübadiləsi və məsləhətləşmələr aparılması çox vacibdir. ƏİP-in Avropanın aparıcı ölkələrinin partiyaları ilə geniş əlaqələri var və bu sahədə təcrübəmizi Yeni Azərbaycan Partiyası ilə bölüşməyə hazırıq.*

*Prezident İlham Əliyev cənab Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını Türkiyənin Baş nazirinə çatdırmağı xahiş etdi.*

## GÜRCÜSTANIN KƏŞFİYYAT DEPARTAMENTİNİN SƏDRİ BATU KUTELİYA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 avqust 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən iqtisadi, siyasi və digər SAhələrdə əlaqələrin sürətlə inkişaf etməsini məmnunluqla vurğuladı, bu günlərdə Kazanda Gürcüstan prezidenti Mixeil Saakaşvili ilə görüşünü xatırladı. Azərbaycan prezidenti ölkələrimizin xüsusi xidmət orqanları arasında əlaqələrin genişlənməsinin regionda təhlükəsizliyin təmin edilməsi baxımından da əhəmiyyətli olduğunu bildirdi.*

*Azərbaycana səfər etməsinin və prezident İlham Əliyev ilə görüşməsinin özü üçün böyük şərəf olduğunu vurğulayan Batu Kuteliya səfərin başlanğıcından ona göstərilən səmimi qonaqpərvərliyə görə minnətdarlıq etdi. Beynəlxalq terrorizmə qarşı mübarizə və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apardığını söyləyən Batu Kuteliya azərbaycanlı həmkarlarının bu sahədə böyük səriştəsi olduğunu bildirdi və onlarla təcrübə mübadiləsi aparmasının əhəmiyyətini vurğuladı.*

## TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPU STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VƏQFİNİN SƏDRİ AKKAN SUVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 avqust 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dedi ki,* Azərbaycana çox böyük heyətlə gəlmisiniz, yenidən sizi görməyimə çox şadam. Mən elə bu gün keçmiş görüşlərimizi xatırladım. Sizin qrupun fəaliyyətinin ölkələrimiz arasındakı əlaqələrin inkişafında böyük əhəmiyyəti vardır.

Mərmərə Qrupu Azərbaycanda və Türkiyədə xalqlarımız, ölkələrimiz üçün mühüm işlər görür.

*Mərmərə Qrupu Vəqfinin fəxri sədri seçilməsindən böyük məmnunluq duyduğunu bildirən prezident İlham Əliyev dedi ki,* xahiş edirəm, bu qərarı qəbul etmiş bütün şəxslərə mənim minnətdarlığımı çatdırasınız. Mərmərə Qrupu Vəqfi kimi böyük bir təşkilatın fəxri sədri olmaq və bu vəzifəni mərhum Heydər Əliyevdən sonra üzərimə götürmək mənim üçün xüsusi əhəmiyyət kəsb edir. Neçə illərdir ki, bizim aramızda çox səmimi, çox gözəl münasibətlər mövcuddur. Şəxsən sizin və qrupunuzun üzvlərinin fəaliyyəti nəticəsində münasibətlərimiz daha da möhkəmlənir, daha da inkişaf edir. Bu bizim milli maraqlarımıza xidmət edir. Ulu öndərimiz Heydər Əliyevin «bir millət, iki dövlət» kəlamı bizim üçün bir həyat tərzidir, bir prinsipdir və gündəlik həyatda bunu tətbiq edirik. Çünki bunun tarixi kökləri, möhkəm dayaqları, ölkələrimizin və xalqlarımızın gələcəyi üçün böyük önəmi vardır.

*Cənab Akkan Suver dövlətimizin başçısına müraciətlə dedi ki,* hörmətli Prezidentimiz, Sizinlə görüşməkdən böyük fəxr duyur və Sizə türk xalqının salamlarını çatdırırıq. Mərmərə

*Qrupu Vəqfi Azərbaycan –Türkiyə münasibətlərinə beynəlxalq əlaqələr kimi deyil, iki qardaşın yaxın ailə münasibətləri kimi baxır. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bəyan etdiyi «bir millət, iki dövlət» prinsipinə həmişə sadiqik. Bildiyiniz kimi, Heydər Əliyev vəqfimizin fəxri sədri idi. Prezident olmaqdan öncə, Siz də vəqfimizin fəxri üzvü seçilmişdiniz. Bu gün böyük qürur hissi ilə vəqfimiz tərəfindən 2005-ci il aprelin 14-də yekdilliklə qəbul edilmiş qərarı Sizin diqqətinizə çatdırmaq istərdik. Vəqfin həmin tarixdə İstanbulda toplanmış İcraiyyə Şurası Sizin fəxri sədr seçilməyiniz barədə qərar qəbul etmişdir. Bununla bağlı Sizi təbrik edir və qərarımızı məmnuniyyət hissi ilə Sizə təqdim etmək istəyirəm.*

*Akkan Suver prezident İlham Əliyevə vəqfin fəxri sədri seçilməsi barədə qərarı təqdim etdi.*

# TÜRKİYƏNİN SKAY TV TELEKANALININ «STRATEJİ RAPOR» PROQRAMININ APARICISI GÜLAY DƏYƏRLİYƏ VERDİYİ MÜSAHİBƏ

*30 avqust 2005-ci il*

**G ü l a y  D ə y ə r l i:** SKAY TV bu gün «Strateji rapor» proqramı ilə çox özəl bir yayım həyata keçirir. Bu gün Azərbaycandan, paytaxt Bakıdan «Strateji rapor»un özəl bir yayımında qonağımız hörmətli cümhur başqanı İlham Əliyevdir. Onlar bizi burada qəbul etdilər, əslində, biz onların qonağı olduq. Amma indi O bizim qonağımızdır.

Hörmətli Cümhur başqanı, bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirik.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

**– Biz çox tarixi bir dövr yaşayırıq. Burada olarkən tarixin bəlkə də önəmli bir hadisəsinin şahidi olduq. Sizin gərgin səylərinizlə Şimali Kipr Türk Cümhuriyyətindən gələn iş adamları və məmurları burada qəbul edildilər. Türkiyədən parlament nümayəndə heyəti gəldi. Siz bunları necə qiymətləndirirsiniz və səylərinizi bizə anlada bilərsinizmi?**

– Mən çox şadam ki, bu günlərdə Türkiyənin və Şimali Kipr Türk Cümhuriyyətinin nümayəndələri Azərbaycandadırlar. Çoxlu görüşlər keçirmişik, çox gözəl söhbətlər etmişik. Həqiqətən, bu, böyük bir nailiyyətdir. Bizim aramızda olan əlaqələr getdikcə inkişaf edir. Biz bir millət, iki dövlətik. Çalışırıq ki, öz fəaliyyətimizlə, görülən tədbirlərlə xalqlarımızı, ölkələrimizi bir-birinə daha da yaxınlaşdıraq.

Şimali Kipr Türk Cümhuriyyətinin nümayəndələri isə ilk dəfə Bakıdadırlar. Mən dünən keçmiş cümhur başqanı Rauf Denktaşla görüşdüm, bir neçə saat bərabər oldum və onun ailəsi

ilə birlikdə çox səmimi söhbət etdik. Bu belə də olmalıdır. Biz qardaşıq, istəyirik ki, bizi narahat edən bütün məsələlər çözülsün. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Sadəcə olaraq, biz gərək öz istədiyimizə nail olaq və ədaləti bərpa edək.

**– Hörmətli Cümhur başqanı, biz, Türkiyənin qəzetçiləri Azərbaycanı müstəqillik mücadiləsindən bu yana çox yaxından izləyirik. Ancaq son dövrdə Azərbaycanda insanların rifahı, sosial-iqtisadi həyatı yaxşılaşmaqdadır. Biz bu inkişafla tanış oluruq. Bu inkişafa necə nail oldunuz? Bu, doğrudan da söhbət mövzusudur.**

– Bilirsiniz, bu, möhkəm təməl üzərində qurulubdur. Azərbaycanda iqtisadi islahatlar 1990-cı illərin ortalarında bizim xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlayıbdır. Ardıcıl, məqsədyönlü islahatların aparılması indi Azərbaycanı iqtisadi cəhətdən çox inkişaf etdirir. Bu gün isə yeni mərhələyə qədəm qoymuşuq. Mən sizə deyə bilərəm ki, son il yarım ərzində Azərbaycanda 300 min yeni iş yeri açılıbdır. Yoxsulluğun səviyyəsi on faiz aşağı düşübdür və minimum əməkhaqqı 3 dəfə qalxıbdır. Eyni zamanda, 2005-ci ildə büdcə xərcləri təxminən 50 faiz artıbdır. 2006-cı ildə isə minimum 50 faiz artacaqdır.

Azərbaycanın bölgələrində gedən inkişaf da göz qabağındadır. Bütün bunlar, əlbəttə, ölkəmizi iqtisadi cəhətdən gücləndirir və insanlarımızın rifah halını yaxşılaşdırır. Biz öz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipi üzərində qururuq. Ancaq eyni zamanda, sosial məsələlərə də çox böyük önəm veririk. Maaşların, təqaüdlərin qaldırılması da ardıcıl şəkildə həyata keçirilir. Gələcək illərdə isə bu inkişaf daha da sürətlə gedəcəkdir. Çünki Azərbaycana gələn vəsait – həm xarici sərmayə, həm də büdcə gəlirləri kəskin şəkildə artacaqdır. Mən Azərbaycanın gələcəyini çox parlaq görürəm.

**– Hörmətli Cümhur başqanı, inşallah, bizim də təmənnamız budur və bunlar artıq görünür. Azərbaycan təbii ehtiyatlar – neft və təbii qaz baxımından son dərəcə zəngindir. Bakı–Tbilisi–Ceyhan neft kəmərindən oktyabrın sonunda**

**Ceyhana neftin gəlməsini görəcəyik. Siz də bu tədbirə qatılacaqsınız. Bunun regional əhəmiyyətini, dəyərini və bölgəyə təsirini necə qiymətləndirirsiniz?**

– Əlbəttə, ilk növbədə, bu bizim ölkələrimizin xeyrinə olan layihədir. Həm Türkiyə, həm Azərbaycan, həm də Gürcüstan bundan iqtisadi mənfəət götürəcəkdir. Amma eyni zamanda, şübhə yoxdur ki, bu bizim müstəqilliyimizi daha da möhkəmləndirəcəkdir. Azərbaycan onsuz da öz müstəqil siyasətini ardıcıl şəkildə aparır. Bakı–Tbilisi–Ceyhan boru xəttinin işə düşməsi bölgədə vəziyyəti tam dəyişdirəcəkdir. Burada regionun işbirliyi daha da sürətlə gedəcək, yeni layihələrin həyata keçirilməsinə, yeni sərmayələrin gətirilməsinə imkan yaranacaqdır. Çünki artıq sübut etdik ki, biz etibarlı tərəfdaşıq və Azərbaycana milyardlarla dollar xarici sərmayə qoyulubdur. Layihə həm iqtisadi, həm də siyasi baxımdan, eyni zamanda, bölgədə təhlükəsizliyin təmin olunması üçün çox önəmlidir. Ümid edirəm ki, sülhün, əmin-amanlığın bərqərar olması bu layihənin həyata keçməsi ilə daha da möhkəmlənəcəkdir. Yəni mən hesab edirəm ki, Bakı–Tbilisi–Ceyhan boru xəttinin bölgədə olan proseslərə çox güclü təsiri olacaq və Türkiyənin, Azərbaycanın rolu, önəmi artacaqdır. Çünki artıq biz bölgənin inkişafında mühüm yer tutan, rol oynayan ölkələr olacağıq. Dünya miqyasında da bizim imicimiz artacaqdır.

**– Hörmətli Cümhur başqanı, təbii ki, Türkiyə ilə Azərbaycanın ortaq məsələsi olan və zənnimcə, beynəlxalq sahədə də açıqca ifadə edilməli olan bir məsələ – haqsızlıqlarla üzləşdiyimiz erməni məsələsi var. Bu gün erməni məsələsi Türkiyənin tarixi ilə bağlı bir boyut kimi görünür. Azərbaycanın işğal edilmiş torpaqları, Dağlıq Qarabağ problemi, qaçqınlar və digər məsələlər bizim iki dövlətimizin böyük problemi olaraq qalır. Azərbaycan, Türkiyə və türk dünyası bu məsələ ilə bağlı nə işlər görməlidir, hansı mücadiləni aparmalıdır?**

– Bizim ikitərəfli əlaqələrimizdə, Türkiyə ilə Azərbaycan arasında olan münasibətlərdə, əlbəttə, erməni məsələsi müzakirə

olunur və biz bu məsələdə əlaqələndirilmiş siyasət aparırıq. Bu məsələ böyük ədalətsizlik, böyük haqsızlıqdır. Ermənistanın Türkiyəyə və Azərbaycana qarşı hücumları onu göstərir ki, bu dövlət çox təcavüzkar siyasət aparır. Türkiyəyə qarşı uydurma «soyqırım» məsələsinin qabardılması və dünya ictimaiyyətinə tamamilə əsassız təqdim edilməsi də bizi çox üzür. Biz bilirik ki, həqiqət tam başqa yerdədir. Bilirik ki, bu uydurma «soyqırım»ın əsasında heç nə yoxdur. Bu, sadəcə olaraq, xəstə bir təxəyyülün nəticəsidir. Ancaq buna baxmayaraq, erməni təbliğatı və dünyada mövcud olan erməni lobbisinin fəaliyyəti nəticəsində müəyyən ölkələrin rəhbərləri bu təbliğatın təsiri altına düşürlər.

Uzun illərdir ki, Ermənistanın Azərbaycana etdiyi təcavüzün nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır və ərazi bütövlüyümüz pozulubdur. Etnik təmizləmə siyasəti aparılıb və bu siyasətin nəticəsində bir milyon azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşübdür. Amma buna baxmayaraq, beynəlxalq ictimaiyyət bu məsələyə münasibətdə hələlik öz kəskin mövqeyini bildirməyibdir. Biz, yəni həm Türkiyə, həm də Azərbaycan məsələdə zərərçəkmiş tərəflərik. Əlbəttə, biz səylərimizi birləşdirməliyik ki, haqq-ədalət bərpa olunsun, Azərbaycanın zəbt olunmuş torpaqları erməni işğalçılarından təmizlənsin. Türkiyəyə qarşı edilən ədalətsiz hərəkətlərə son qoyulsun. Türkiyə və Azərbaycan bu işdə bir-birinə həmişə dəstək olub, bir-birinin yanında olubdur. Biz müstəqilliyimizi əldə etdikdən sonra Türkiyənin dəstəyini daim hiss etmişik və bu gün də hiss edirik. Biz bu məsələləri yalnız birlikdə çözə bilərik.

**– Hörmətli Cümhur başqanı, Kazandan yenicə qayıtmısınız. Orada Ermənistan prezidenti Robert Köçəryanla görüşdünüz. Rusiya prezidenti Putinlə də görüşünüz olmuşdur. Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı vəziyyət necədir?**

– Təəssüf ki, bütün səylərə baxmayaraq, biz hələ ki, bir nəticəyə gəlməmişik. Doğrudur, son illər ərzində apardığımız danışıqlar müsbət hal kimi qiymətləndirilir. Hər halda, dialoqun

aparılması müsbət haldır və ümidlər var ki, biz bunu sülh yolu ilə çözə bilək. Ona görə mən danışıqların aparılmasına müsbət hal kimi baxıram. Çünki danışıqların alternativi yoxdur. Əgər danışıqlar dayanarsa, bu zaman yeni vəziyyət yaranacaq və Azərbaycan gərək öz qərarını versin. Ancaq nəticə də yoxdur. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Çünki Ermənistan bütün beynəlxalq hüquq normalarını kobudcasına pozur. Məsələnin siyasi tərəfi də artıq Azərbaycanın xeyrinədir. Çünki Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının, digər təşkilatların qərarları reallığı əks etdirir və Azərbaycanın haqlı olduğunu ifadə edir. İqtisadi cəhətdən, təbii ki, Ermənistan bizimlə rəqabət apara bilməz. Çünki bu gün Azərbaycan iqtisadi cəhətdən Ermənistandan çox güclüdür və gələcəkdə daha da güclü olacaqdır.

Əgər başqa tərəflərdən yardım olmasa, Ermənistan hərbi cəhətdən də Azərbaycanla rəqabət apara bilməz. Biz bu il öz hərbi xərclərimizi yetmiş altı faiz artırdıq. Gələn il isə yenə də artıracağıq. Yəni bütün bu amillər bizim xeyrimizədir. Ancaq nəticə yoxdur. Ona görə ki, beynəlxalq ictimaiyyət işğalçıya demir ki, torpaqlardan geri çəkil. Tənqid etmirlər, onu məcbur etmirlər, cəzalandırmırlar. Belə olan halda Ermənistanın mövqeyində dəyişiklik gözləmək çətindir.

**– Məsələnin bir tərəfini də beynəlxalq əlaqələr təşkil edir. Xüsusilə Azərbaycanın regional durumu, Azərbaycanın enerji və ticarət sahəsindəki strateji önəmi, coğrafi-siyasi vəziyyəti, qonşuları ilə əlaqələri. Qonşularla – Rusiya və İranla münasibətlərinizi necə dəyərləndirirsiniz?**

– Bu əlaqələr bizi qane edir. Bizim əlaqələrimiz qarşılıqlı hörmət və maraqlar əsasında qurulubdur. Bir-birimizin işinə qarışmırıq və qarşılıqlı hörmət əsasında bu əlaqələri qururuq. Xüsusilə iqtisadi sahədə son illər ərzində ciddi irəliləyiş var. Həm İranla, həm də Rusiya ilə iqtisadi əlaqələrimiz çox sürətlə inkişaf edir. Siyasi müstəvidə də əlaqələr bizi qane edir. Mən həm Rusiyada, həm də İranda rəsmi səfərdə oldum. İran prezidenti Azərbaycanda səfərdə olubdur. Mənim səfərim çərçivəsində

İranda, Təbrizdə Azərbaycanın konsulluğu açıldı. Bu, əlbəttə, bizi çox sevindirir.

Biz bütün ölkələrlə, xüsusilə qonşu dövlətlərlə səmərəli, işgüzar dostluq əsasında qurulmuş əlaqələrin yaranmasına çalışırıq. Bu bizim maraqlarımıza xidmət edir. Yəni nə qədər çox əlaqə olarsa, o qədər də Azərbaycanın maraqları müdafiə ediləcəkdir.

**– Azərbaycan xüsusilə regional təhlükəsizlik baxımından Amerika Birləşmiş Ştatları ilə əlaqələri çox önəmli qurur. Siz Azərbaycan və Amerika Birləşmiş Ştatları arasındakı əlaqələri necə dəyərləndirirsiniz?**

– Bu əlaqələr də strateji xarakter daşıyır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra seçimini etmişdir. Xüsusilə 1993-cü ildən sonra, Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan öz strateji seçimini etmişdir. Avropa və Avratlantika məkanına inteqrasiya siyasəti, Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaşlıq əsasında qurulmuş əlaqələr bizim üçün çox önəmlidir və xarici siyasətimizin istiqamətlərindən biridir. Biz enerji sektorunda çox səmərəli işləyirik və Amerika hökumətinin dəstəyi olmasaydı, Bakı–Tbilisi–Ceyhan layihəsini gerçəkləşdirə bilməzdik. Bu layihənin üzərində 9 il çalışan bir insan kimi, mən bunu tam məsuliyyətlə deyirəm.

Eyni zamanda, bölgədə gedən regional əməkdaşlıq məsələlərində də Amerika bizə çox böyük dəstək verir. Dünyada antiterror əməliyyatları ilə bağlı Azərbaycan Amerika ilə əməkdaşlıq edir. Təhlükəsizlik sisteminin möhkəmlənməsi işində də biz öz töhfəmizi veririk. Ölkədə gedən siyasi islahatlar da Amerika tərəfindən izlənilir və dəstəklənir. Yəni bütün istiqamətlərdə əlaqələrimiz bizim üçün çox səmərəlidir, çox önəmlidir. Bölgədə sülhün yaranmasına xidmət edir.

**– Hörmətli Cümhur başqanı, noyabrın 6-sı Azərbaycanın Milli Məclisinə seçkilər günüdür. Milli Məclisdəki tablo, görəsən necə dəyişəcək? Dəyişəcək, yoxsa dəyişməyəcək, müxalifətin vəziyyəti necədir, ümumiyyətlə, Azərbaycan bu seçkiyə necə hazırlaşır?**

– Biz ciddi hazırlaşırıq. Əminəm ki, seçkilər çox ədalətli və şəffaf keçəcəkdir. Seçkilərin nəticələrində Azərbaycan xalqının iradəsi ifadə olunacaq, öz əksini tapacaqdır. Seçkilərlə bağlı artıq bütün işlər görülüb, seçki kampaniyası başlanır və hələlik heç bir problem yoxdur.

Mən bir neçə ay bundan əvvəl seçki praktikasının təkmilləşdirilməsi ilə əlaqədar çox önəmli sərəncam imzaladım. Sərəncamda bütün məsələlər öz əksini tapdı. Yəni ədalətli seçkilərin keçirilməsi üçün Azərbaycanda tam şəkildə hüquqi və praktiki əsas var. Ümid edirik ki, bizim Yeni Azərbaycan Partiyasının, Azərbaycanın siyasi səhnəsində aparıcı qüvvənin şansları çox yüksəkdir. İndi mövcud olan parlamentdə bizim nümayəndələrimiz əksəriyyət təşkil edir. Mən inanıram ki, bu seçkilərdə də bizim namizədlərimiz qələbə çalacaqlar. Bunu deməyə əsas verən bir neçə amil var. İlk növbədə, Azərbaycanda xalqla iqtidar arasında olan vəhdət və inam, Azərbaycanda aparılan uğurlu iqtisadi islahatlar və ildən-ilə, aydan-aya yaxşılaşan vəziyyət. Rəy sorğuları nəticəsində görürük ki, ictimai rəy bizim siyasətimizi dəstəkləyir.

Azərbaycanda son aylar ərzində bir neçə qurum tərəfindən rəy sorğusu keçirilir, ictimai rəy öyrənilir. Bunu Soros Fondu, Gellap İnternasional, Amerikanın Respublikaçılar Partiyasının nümayəndələri keçirirlər. Hər üç sorğuda Azərbaycanın prezidentinə inam və dəstək 73–77 faizdir. Yəni bunu biz demirik, dünyanın tanınmış sorğu təşkilatları deyir. Belə olan halda, biz seçkilərə çox böyük inamla gedirik. Eyni zamanda, bütün namizədlərə eyni şərait yaradılacaqdır.

Onu da vurğulamalıyam ki, əhalidə seçkilərin ədalətli keçirilməsinə böyük inam var. Çünki seçkilərdə namizədliyini irəli sürmək üçün 2 min adam artıq öz sənədlərini veribdir. Bizdə 125 dairə var, yəni Milli Məclisdə 125 yer var. İki min adam seçilmək istəyir. Əgər seçkilərin ədalətli keçməsinə inam olmasaydı, təbii ki, onlar özlərinə belə əziyyət verməzdilər. Lazım olan bütün şərait var. Həm iqtidarın, həm müxalifətin namizədləri, həm də müstəqil namizədlər sərbəst şəkildə öz kampaniya-

larını aparırlar. Əminəm ki, Azərbaycan xalqı öz sözünü deyəcəkdir.

**– Təbii, bundan öncəki seçkilərdə olduğu kimi, Azərbaycanda indiki parlament seçkilərinin ədalətli, demokratik keçəcəyinə bizim də inamımız böyükdür.**

**Mən Türkiyə–Azərbaycan əlaqələrinə yenidən toxunmaq istəyirəm. Təbii ki, seçki öncəsi Türkiyə–Azərbaycan əlaqələrində parlament üzvlərinin gəlib-getməsi çox önəmlidir. Həm bu dövr üçün, həm də gələcək üçün Türkiyədən gözlədikləriniz nədir?**

– Bilirsiniz, bizim Türkiyə ilə olan əlaqələrimiz o qədər sağlam, o qədər səmimidir ki, onlar hansısa bir müddət üçün deyil, əbədidir, onlar bütün gələcək nəsillər üçün də önəmlidir. Bizim əlaqələrimiz çox səmimi və işgüzardır. Bu qarşılıqlı gediş-gəlişlər bütün dövrlərdə mövcuddur. Mən prezident vəzifəsinə seçiləndən sonra, demək olar ki, ya Türkiyədən hər ay böyük heyət gəlir, ya da Azərbaycandan böyük heyət gedir. Bu bizim əlaqələrimizi səciyyələndirən çox önəmli cəhətdir. Mən hesab edirəm ki, dünyada ikinci belə ölkələr yoxdur ki, bir-biri ilə belə sıx işbirliyi etsinlər və bir-birinə belə sıx bağlı olsunlar. Əlbəttə, biz Türkiyədə gedən proseslərə çox böyük maraqla yanaşırıq. Burada yayımlanan bir neçə Türkiyə kanalı vasitəsilə biz, demək olar ki, məlumatı ilk mənbədən alırıq. Türkiyədə gedən proseslər bizə aydındır, bəllidir. Eyni zamanda, Azərbaycanda gedən proseslərə Türkiyə ictimaiyyəti biganə qala bilməz. Bu da çox böyük maraq doğurur və bu təbiidir. Ona görə bütün sahələrdə və səviyyələrdə – hökumət səviyyəsində, parlamentlərarası əlaqələrdə, sivil toplum səviyyəsində, sadə insanların səviyyəsində çox səmimi əlaqələr, qardaşlıq, dostluq üzərində qurulmuş əlaqələr var və bu bizi çox sevindirir. Mən demişəm, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra dünyaya yeni atılmışdı. Yəni bizim bu sahədə biliyimiz də, təcrübəmiz də yox idi. Bizə elə gəlirdi ki, bütün dünya bizə yardım etməyə gəlməlidir. Belə ümidlərlə yaşayırdıq. Amma sonra gördük ki, elə deyildir. Bizim yanımızda kim oldu? Türkiyə!

Azərbaycan öz dərdləri, öz bəlaları ilə təkbaşına qalmışdı. Yalnız Türkiyə bizə qardaş əlini uzatdı, kömək etdi və bu gün də biz bu dəstəyi hiss edirik. Bizim qarşılıqlı fəaliyyətimiz həm ölkələrimiz üçün lazımdır, eyni zamanda, bölgənin inkişafı üçün lazımdır. İndi Türkiyə güclənir və Azərbaycan güclənir. Azərbaycan 10 il bundan əvvəl çox pis vəziyyətdə idi. Tam iqtisadi tənəzzül və iflas hökm sürürdü. Amma indi Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. Bu ilin altı ayında iqtisadiyyatın artımı 16,5 faizdir.

**– Bu bir rekorddur.**

– Rekorddur, amma ilin sonunda bu 20 faiz olacaqdır. Bu, rekord olacaqdır. Bunu Beynəlxalq Valyuta Fondu da bəyan edir. Sənaye istehsalının artımı altı ayda 20 faiz oldu. Yəni bu göstərir ki, Azərbaycan güclənir. Bizim gücümüz Türkiyənin gücüdür. Ona görə bu əlaqələr o qədər sağlam təməldə qurulub ki, onlar əbədi yaşayacaq və hər gələn nəsil gərək buna öz töhfəsini versin, gərək bizim bu gözəl müştərək inamımızı da möhkəmləndirsin.

**– Hörmətli Cümhur başqanı, bu Sizin son sözünüz kimi oldu. Mən bilmək istərdim, «bir millət, iki dövlət» olan Türkiyə və Azərbaycan üçün Sizin son mesajınız nədir?**

– Mən ümid edirəm ki, ölkələrimiz daha da güclənəcəkdir. Biz öz problemlərimizi çözəcəyik, haqq-ədalət öz yerini tapacaq və Türkiyəni, Azərbaycanı narahat edən problemlər çözüləcək, xalqlarımız rahat yaşayacaqlar. Ədalətsiz təzyiqlər sona çatacaq və bizim xalqlarımız əl-ələ verib gələcəyə çox inamla gedəcəklər. Mən buna şübhə etmirəm.

Bilirsiniz, dünyada gedən prosesləri indi hamımız diqqətlə izləyirik və görürük ki, dünya necə dəyişir, mövqe necə dəyişir. 5–10 il bundan əvvəl vəziyyət tamamilə başqa idi. Amma indi dünyada gedən proseslər bizim xeyrimizədir. Yəni bizim istədiyimizə və arzularımıza yaxındır. Mən şübhə etmirəm ki, bir neçə ildən sonra, bizim böyük layihələrimiz Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, böyük önəm verdiyimiz və iştirak etmək istədiyimiz Qars–Axalkalaki–Tbilisi–Bakı

dəmir yolu layihəsi işə düşəndən sonra bölgədə vəziyyət tamamilə dəyişəcəkdir. Türkiyə və Azərbaycanın gücü artacaqdır. Mən bunu istəyirəm. Mən istəyirəm ki, bütün türk dünyası möhkəmlənsin, birləşsin. Biz böyük qüvvəyik. Açığını deyim, biz öz gücümüzü tam səmərə ilə işlətmirik. Bütün türk dünyasının birləşməsi, möhkəmlənməsi bizim hamımızın xeyrinədir. Mən bunu arzulayıram və əminəm ki, həmişə olduğu kimi, Türkiyə bu işdə də öz aparıcı rolunu oynayacaqdır. Gələcəyə çox böyük inamla baxıram.

**– Hörmətli Cümhur başqanı, çox təşəkkür edirəm. Sizin arzularınızın, diləklərinizin qarşılıqlı olduğunu bildirmək istəyirəm. «Strateji rapor» proqramının qonağı olduğunuz, bizi şərəfləndirdiyiniz üçün çox təşəkkür edirəm.**

– Sağ olun, mən də təşəkkür edirəm.

**– «Strateji rapor» proqramı Bakıdan xüsusi yayımını burada tamamlayır. Azərbaycanın hörmətli cümhur başqanı İlham Əliyevlə önəmli bir reportajı gerçəkləşdirdik. Türkiyənin Azərbaycan ilə əlaqələri, regional əməkdaşlığı və çox mühüm məsələlər ətrafında danışdıq. Bir daha ona minnətdarlığımı bildirirəm.**

## ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ RİÇARD LUQARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 avqust 2005-ci il*

*Görüş zamanı Azərbaycan prezidenti İlham Əliyev ölkələrimiz arasında münasibətlərin çox uğurla inkişaf etdiyini vurğulayaraq dedi: Hesab edirəm ki, sizin başçılıq etdiyiniz nümayəndə heyətinin Azərbaycana səfəri ikitərəfli əlaqələrin inkişafına mühüm töhfə olacaqdır.Ölkələrimiz arasında qarşılıqlı anlaşmanın səviyyəsindən çox məmnun olduğunu bildirən dövlətimizin başçısı dedi ki, əməkdaşlığımızın gələcəkdə də inkişaf edəcəyinə əminəm. ABŞ ilə Azərbaycan arasında müxtəlif sahələrdə uzunmüddətli əlaqələr mövcuddur və hesab edirəm ki, bu, qarşılıqlı anlaşma və dəstəyin səviyyəsinin göstəricisidir.*

*Azərbaycan prezidenti daha sonra bildirdi ki, biz ölkələrimiz arasındakı əlaqələri yüksək qiymətləndiririk. Müxtəlif sahələrdəki əməkdaşlığımızın çox böyük əhəmiyyəti vardır. Bu sahələrdən biri də terrorizmə qarşı birgə mübarizədir. Dünyanın müxtəlif yerlərində sülhyaratma əməliyyatlarında birgə iştirakımız da fəal əməkdaşlığımızın yaxşı nümunələrindən biridir.*

*Dövlətimizin başçısı vurğuladı ki, biz digər sahələrdə də əlaqələrimizin inkişafından çox məmnunuq.*

*Senator Riçard Luqar ölkələrimiz arasında olan çox möhkəm əlaqələrə görə prezident İlham Əliyevə minnətdarlıq edərək dedi: Azərbaycan və ABŞ Əfqanıstanda, İraqda birgə fəaliyyət göstərirlər. Azərbaycanın bizə öz hava məkanından istifadə etmək hüququ verməsi terrorizmə qarşı mübarizə baxımından çox mühümdür. Bütün bunlar ümumi dəyərləri bölüşmək, inkişaf*

*barədə birlikdə fikirləşmək üçün böyük* imkanlar *yaradır. Biz bu imkanları* bir daha *alqışlayırıq. Ölkənizdə gedən tərəqqi ilə bağlı Sizi təbrik etmək istərdim. Eyni* zamanda, *əməkdaşlıqla bağlı mövcud* olan *geniş* imkanlar *barədə birgə müzakirələr* aparmaq *istərdik.* Sizin *gözəl ölkənizdə isə bu cür* imkanlar *həddən* artıq *çoxdur.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA**

Hörmətli cənab Prezident!

Ölkənizin cənub ştatlarında baş vermiş Katrina qasırğası nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Baş vermiş bu ağır təbii fəlakət ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını, dağıntıların, iqtisadiyyata dəyən ziyanın tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 avqust 2005-ci il*

## İRAQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CƏLAL HÜSAMƏDDİN ƏT-TƏLABANİYƏ

Hörmətli cənab Prezident!

Bağdad şəhərində əl-Əimmə körpüsündə çoxlu sayda zəvvarın faciəli şəkildə həlak olması xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş bu ağır hadisə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İraq xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2005-ci il*

# NORVEÇ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT KATİBİ KİM TRAAVİK İLƏ GÖRÜŞ

*1 sentyabr 2005-ci il*

*Ölkəmizin çox uğurla inkişaf etdiyini vurğulayan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev dedi ki, regionda çoxlu birgə layihələrimiz mövcuddur. Azərbaycanla Norveç arasında əlaqələr çoxdan yaradılmışdır və əminik ki, gələcəkdə daha sürətlə inkişaf edəcəkdir. Ölkələrimizin müxtəlif sahələrdə uğurlu əməkdaşlığını xatırladan prezident İlham Əliyev Norveçin Dövlət katibinin səfərinin qarşılıqlı əlaqələrin inkişafında mühüm addım olacağına əminliyini bildirdi.*

*Səmimi qəbula görə təşəkkür edən cənab Kim Traavik dedi ki, ikitərəfli əlaqələr və regional məsələlər barədə müzakirələrin davam etdirilməsi üçün yenidən Azərbaycana gəlməyimizdən məmnunluq duyuruq. Norveç ilə Azərbaycan arasında möhkəm əməkdaşlıq əlaqələri yaranmışdır və uğurla inkişaf edir. Bu əlaqələrin daha da möhkəmləndirilməsi üçün böyük imkanlar var və biz bunlardan istifadə olunmasında maraqlıyıq*

## TÜRKİYƏNİN «HÜRRİYYƏT» QƏZETİNDƏ NƏŞRİN YAZI İŞLƏRİ MÜDİRİ TUFAN TÜRENC İLƏ MÜSAHİBƏ

*2 sentyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevlə Prezident sarayında söhbətimizdə ilk sualım Kipr barədə oldu. Təcridin aradan qaldırılması üçün ilk addımı atmasının Kiprdə və Türkiyədə böyük məmnunluqla qarşılandığını bildirdim və məni çox maraqlandıran sualı verdim:*

***– Təyyarə səfərlərinin başlanmasına dair qərarınızı açıqladıqda və bu səfərlər başlayanda Sizə qarşı təzyiqlər oldumu?***

– Oldu, amma mən bunları təzyiq kimi qəbul etmirəm. Çünki heç kəs bizə təzyiq göstərə bilməz. Ona görə, gəlin bunu reaksiya adlandıraq. İlk etiraz Yunanıstandan gəldi. Səfirimizi çağırıb nota verdilər. Ancaq biz buna fikir vermədik. Sonra yunanların prezidenti mənə məktub göndərdi. Onu aldım, baxmadan bir kənara qoydum.

***– Məktubu göndərən Papadopulos idimi? (Bu suala İlham Əliyev heç gözləmədiyim mənalı bir cavab verdi.)***

– Bilmirəm. Adını belə xatırlamıram.

***– Bu addımı atmağı nə vaxt qərara almışdınız?***

– Keçən il «Azərbaycan Kiprdə təcridin aradan qaldırılması üçün addım atacaq» demişdim. Media mənim bu sözlərimə inanmadı. Hətta bir çox tənqidlər oldu. Amma mən sözümün üstündə durdum. İndi bu addımı digər türk cümhuriyyətləri də atmalıdır. Növbə indi onlarındır.

***– Bu addımın ardınca yeniləri olacaqmı?***

– Biz əlimizdən gələni edəcəyik. Çünki biz inanırıq ki, Kipr təcriddən çıxmalıdır. Bu haqsızlığa son qoyulmalıdır. «Yox» de-

yən cəzalandırılmaq əvəzinə, «hə» deyən cəzalandırılır. Bunu başa düşmək mümkün deyildir. Bu qəbuledilməzdir.

***– Türkiyə ilə əlaqələri necə qiymətləndirirsiniz?***

– Ölkələrimiz arasındakı əlaqələr çox yaxşıdır və daha da yaxşı olacaq. Bölgədə Türkiyə ilə Azərbaycanın iştirak etmədiyi heç bir layihə həyata keçirilə bilməz. Heydər Əliyevin «biz bir millət, iki dövlətik» kəlamı bizim üçün dəyişməz bir prinsipdir. Hesab edirəm ki, bu, hər şeyi anlatmaq üçün yetərlidir.

***– Azərbaycan Dağlıq Qarabağ məsələsində son dərəcə həssas və hirslidir. Hər bir azərbaycanlı bir gün o torpaqların geri alınıb, orada Azərbaycan bayrağının qaldırılacağına ürəkdən inanır. Bu günlərdə prezident İlham Əliyev münaqişənin həlli üçün Kazan şəhərində Ermənistan prezidenti Köçəryanla görüşdü. Bu barədə soruşdum: Münaqişənin həlli üçün bir ümid yarandımı?***

– Hələlik bir nəticə yoxdur. Ermənilər Dağlıq Qarabağa müstəqillik verməyimizi gözləyirlər. Bunu verməyimiz mümkün deyildir. Azərbaycanın ərazi bütövlüyü bizim üçün çox önəmlidir. Mən Köçəryana dedim ki, orada yaşayan ermənilərin təhlükəsizliyini təmin edərik. Onların təhlükə ilə üz-üzə qalmasına imkan verməridik. Amma onlar torpaqlarımızdan çıxmaq istəmirlər.

***– Amerika münaqişənin həlli üçün təzyiq göstərdimi?***

– Dövlət katibi Rays mənə zəng etdi. Münaqişənin həllində razılığa gəlməyimizi istədiklərini bildirdi. Mən bir şeyi anlamıram: işğalçı Ermənistandır. Nəyə görə cəzalandırılmır? Bilirəm, erməni lobbisi güclüdür. O buna mane olur. Bu, son dərəcə ədalətsiz bir vəziyyətdir.

***– Rays Köçəryana da zəng etmişdimi?***

– Deyəsən edib. Çünki Köçəryanda bir az yumşalma olduğunu gördüm, amma bu bizi münaqişənin həllinə çatdıracaq qədər deyil.

***– Münaqişənin həllinə ümid tükənərsə...***

– Biz hər şey etdik. Ermənistan beynəlxalq təşkilatların qərarlarını qulaqardına vurur. 1 milyon insanımızı yerindən-yur-

dundan etmişdir. Qərb deyir ki, gedin razılaşın. Belə vəziyyətdə necə razılaşaq? Bütün yolları sınaqdan çıxaracağıq, sonra oturub fikirləşəcəyik.

***– Müharibəni də fikirləşə biləcəksinizmi?***

– Fikirləşərik. Biz çox güclüyük, Ermənistan qarşımızda tab gətirə bilməz. Amma biz müharibə istəmirik. Çünki çoxlu tələfat olacaq. Mən ona inanıram ki, o torpaqları gec-tez alacağıq. Buna heç kimin şübhəsi olmasın.

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Medan şəhəri yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2005-ci il*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİSENTE FOKS KESADAYA**

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı–Müstəqillik elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza salamlarımızı və təbriklərimizi yetirirəm.

Əmin olduğumu bildirirəm ki, Azərbaycan ilə Meksika arasında dostluq və əməkdaşlıq münasibətlərinin genişlənməsi üçün qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2005-ci il*

# ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ, SLOVENİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ DİMİTRİ RUPELİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 sentyabr 2005-ci il*

*Görüş zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar, münaqişənin nizama salınması perspektivləri, ölkəmizdə qarşıdan gələn parlament seçkilərinə hazırlıq, Azərbaycan–ATƏT əməkdaşlığı və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunmuşdur.*

## AVROPA ŞURASININ BAŞ KATİBİ TERRİ DEVİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 sentyabr 2005-ci il*

*Görüş zamanı Azərbaycanda cəmiyyətin daha da demokratikləşməsi istiqamətində həyata keçirilən işlər, ölkəmiz tərəfindən Avropa Şurası qarşısında götürülmüş öhdəliklərin yerinə yetirilməsi, parlament seçkilərinə hazırlıq prosesləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə Sizi salamlayır, Sizin simanızda bütün dost xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında dostluq münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur.

Ümidvaram ki, əlaqələrimizin daha da genişlənməsi, əməkdaşlığımızın hərtərəfli inkişafı üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Səudiyyə Ərəbistanı xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2005-ci il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ ƏLAHƏZRƏT SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, xalqlarımızın iradəsindən qaynaqlanan dostluq və əməkdaşlıq münasibətlərimiz daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2005-ci il*

.

**MALTA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB EDUARD FENEÇ ADAMİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm. Ümidvaram ki, Azərbaycan ilə Malta arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2005-ci il*

## «AZƏRBAYCAN NEFT TƏSƏRRÜFATI» JURNALINA

Hörmətli əməkdaşlar!

Sizi respublikanın neft sənayesi və elminin bütün sahələrində aparılan tədqiqatların dünya elmi ictimaiyyətinə çatdırılmasında xüsusi yeri olan «Azərbaycan neft təsərrüfatı» jurnalının 85 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanda neft sənayesi və elminin, eləcə də iqtisadiyyatın tərəqqisində, yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsində xüsusi xidmətləri olan jurnalınız ötən illər ərzində böyük yol keçmişdir. Neft təsərrüfatı və elminə dair onun səhifələrində dərc edilmiş məqalələr ölkəmizdə neft sənayesi ilə bağlı elmin inkişafına əhəmiyyətli təsir göstərmişdir. Elm və texnikanın ən son nailiyyətlərinin, qabaqcıl təcrübənin və istehsalın idarə olunmasının mütərəqqi metodlarının təbliği işində nüfuzlu informasiya mənbəyi kimi, jurnalın fəaliyyəti təqdirəlayiqdir. Neft elminin bütün sahələrində alimlərimizin nailiyyətlərini işıqlandırmaqla yanaşı, respublikamızda bu sahədə elmi mühitin formalaşdırılmasında da jurnalın xidmətləri vardır.

Ölkəmizdə «Əsrin müqaviləsi»nin həyata keçirilməsi, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum ixrac boru kəmərlərinin tikilməsi kimi əzəmətli və tarixi layihələrlə əlaqədar neft sənayesinin prioritet istiqamətlərinin yeni çalarlar kəsb etməsi neftçi-alimlərin qarşısında mühüm vəzifələr qoymuşdur.

Əminəm ki, alimlərimizin neft elminin yeni istiqamətləri üzrə apardıqları tədqiqat işləri jurnalınızın səhifələrində əksini tapacaq və «Azərbaycan neft təsərrüfatı» jurnalı bundan sonra da öz ənənələrinə sadiq qalaraq onların elmi araşdırmalarının nəticələrini və kəşflərini, bu sahənin inkişafındakı səylərini beynəlxalq aləmdə layiqincə təbliğ edəcəkdir.

Bu əlamətdar yubiley münasibətilə sizə böyük müvəffəqiyyətlər, cansağlığı və səadət arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 sentyabr 2005-ci il*

# FİNLANDİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ XANIM TERHİ HAKKALA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 sentyabr 2005-ci il*

*Finlandiya prezidenti xanım Tarya Halonenin Azərbaycana qarşıdakı səfəri ilə əlaqədar Bakıya gəldiyini vurğulayan Terhi Hakkala prezident İlham Əliyev ilə görüşdən böyük məmnunluq duyduğunu bildirdi.*

*Finlandiya prezidentinin səmimi salamlarını dövlətimizin başçısına çatdıran diplomat xanım Tarya Halonenin Azərbaycana səfərini çoxdan gözlədiyini vurğuladı. Səfir Finlandiya dövləti başçısının Azərbaycana səfəri ilə bağlı hazırlıq işlərinin yüksək səviyyədə təşkil olunduğunu nəzərə çatdırdı.*

*Xanım Tarya Halonenin Azərbaycana səfərini gözlədiyini bildirən prezident İlham Əliyev Avropa Şurasının üzvü olan ölkələrin dövlət başçılarının Varşava sammiti zamanı Finlandiya prezidenti ilə keçirdiyi görüşü, apardığı danışıqları məmnunluqla xatırladı.*

*Səmimi salamlara görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da səmimi salamlarını prezident Tarya Halonenə çatdırmağı xahiş etdi.*

## BEYNƏLXALQ SOSİAL TƏMİNAT ASSOSİASİYASININ «QLOBALLAŞMA VƏ ƏMƏK MİQRANTLARININ SOSİAL MÜDAFİƏSİ» MÖVZUSUNDA AVROPA İCLASININ İŞTİRAKÇILARINA

Hörmətli iclas iştirakçıları!

Sizi Azərbaycan torpağında ürəkdən salamlayır və iclasın işə başlaması münasibətilə təbrik edirəm!

Son illər Azərbaycan Respublikasında həyata keçirilən radikal islahatlar və məqsədyönlü iqtisadi siyasət ölkənin iqtisadi inkişafında köklü irəliləyişə nail olmağa imkan yaratmışdır. Makroiqtisadi sabitlik və yüksək dinamikliyə malik iqtisadi artım indi ölkəmizdə günün reallığıdır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2005-ci ildə Azərbaycanda ümumi daxili məhsulun real artımının 20 faizə çatacağı, 2006-cı ildə isə bu rəqəmin 30 faizdən az olmayacağı gözlənilir.

Bu gün Azərbaycan öz sosial-iqtisadi inkişafında yeni prioritetlə və inkişaf perspektivləri ilə səciyyələnən növbəti mərhələyə qədəm qoyur. Ölkədə sosial-iqtisadi inkişafın davamlı dinamikliyini təmin etmək üçün qeyri-neft sektorunun sürətlə inkişaf etdirilməsi, iqtisadiyyatın diversifikasiyası, infrastruktur obyektlərinin müasir tələblərə uyğun yenidən qurulması əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

Bununla yanaşı, Azərbaycan dövlətinin iqtisadi siyasətində əhalinin həyat səviyyəsinin yüksəldilməsi, onun sosial təminatının yaxşılaşdırılması mərkəzi yer tutur. Biz öz praktiki fəaliyyətimizdə belə bir müddəanı rəhbər tuturuq ki, sosial sahənin yetərli inkişafı nəinki başlıca məqsəd, həm də dayanıqlı iqtisadi inkişafın əsas şərtlərindən biridir. Ölkəmizdə bazar münasibətləri sisteminin bərqərar olması əhalinin sosial müdafiəsi və pensiya təminatı sahəsin-

də köklü dəyişikliklərin həyata keçirilməsini, beynəlxalq təcrübədə özünü doğrultmuş müasir sosial müdafiə modellərinin tətbiqini tələb edir və bununla bağlı islahatlar hazırda gündəlikdə duran ən vacib məsələlərdəndir. Artıq 2006-cı ildən Azərbaycanda fərdi uçota əsaslanan və həmrəylik prinsipləri ilə yanaşı, yığım komponentinin önəmli rolunu nəzərdə tutan üçpilləli pensiya sistemi fəaliyyətə başlayacaqdır.

Əziz qonaqlar!

Mən sizin öz iclasınız üçün Bakı şəhərini seçməyinizdən məmnunluq hissi duyuram.

Güman edirəm ki, bu mötəbər tədbirdə sığorta-pensiya məsələləri, əmək miqrantlarının sosial müdafiəsi ilə bağlı zəruri fikir mübadiləsi aparılacaq, qarşılıqlı maraq doğuran fikirlər söylənilərək, məqsədyönlü təkliflər irəli sürüləcəkdir. Əminəm ki, pensiya və sosial fondlar bu sahədə öz praktiki fəaliyyətinin qurulmasında və təkmilləşdirilməsində iclasın materiallarından bəhrələnəcəklər.

İclasın işinə uğurlar və hər birinizə şəxsi həyatınızda müvəffəqiyyətlər arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 sentyabr 2005-ci il*

## TÜRKİYƏ RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ QURU QOŞUNLARININ KOMANDANI, ORDU GENERALI YAŞAR BÖYÜKANITIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 sentyabr 2005-ci il*

*Respublikamızda özünü evindəki kimi hiss etdiyini söyləyən general Yaşar Böyükanıt ölkəmizdə səfərdə olmaqdan, azərbaycanlı qardaşlarını görməkdən son dərəcə xoşbəxt olduğunu bildirdi. O dedi ki, iki ölkə arasındakı qardaşlıq sadəcə sözdə deyil, qəlblərdə, əməllərdə mövcuddur, mən Azərbaycanı ziyarət etməkdən qürur duyuram. İnanıram ki, geri qayıdarkən Azərbaycana sevgim bir az da artmış olacaqdır. Bizim xalqlarımız arasındakı dostluq əbədidir. Ölkələrimizin dostluq, qardaşlıq münasibətləri xalqlarımızın dostluğuna, qardaşlığına əsaslanır.*

*Qonaqların respublikamıza səfərinin zəngin proqramı və keçirəcəkləri görüşlər barədə məlumatı olduğunu və bundan məmnun qaldığını vurğulayan dövlətimizin başçısı ölkələrimizin yüksək səviyyədə olan əməkdaşlığının müxtəlif sahələrdə, o cümlədən hərbi sahələrdə əlaqələrinin sürətlə inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev dedi ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra biz Türkiyənin dəstəyini daim hiss etmişik, köməyini görmüşük. Azərbaycanın müasir güclü ordusunun yaranmasında Türkiyə ordusunun çox böyük xidməti olmuşdur və bu gün də vardır.*

*Dövlətimizin başçısı bildirdi ki, Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi, hərbi və digər sahələrdəki əməkdaşlıq regionda sülhün, sabitliyin təmin olunması işinə xidmət edir. Ölkələrimizi böyük, qlobal layihələr birləşdirir, lakin «Bir millət, iki dövlət» kimi, bizi ilk növbədə birləşdirən ürəyimizin duyğularıdır.*

## AMERİKANIN MƏŞHUR «FORÇUN» JURNALINA MÜSAHİBƏ

*Prezident sarayı*

*7 sentyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının çox məşhur iqtisadi-siyasi nəşri olan «Forçun» jurnalının müxbiri Brett Forrestə müsahibə vermişdir.*

*Dövlətimizin başçısı Xəzərin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının işlənilməsi, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri, qarşıdakı parlament seçkiləri və digər məsələlər barədə suallara cavab vermişdir.*

## «QLOBALLAŞMA VƏ ƏMƏK MİQRANTLARININ SOSİAL MÜDAFİƏSİ» MÖVZUSUNDA AVROPA İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 sentyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Beynəlxalq Sosial Təminat Assosiasiyasının «Qloballaşma və əmək miqrantlarının sosial müdafiəsi» mövzusunda Avropa iclasının iştirakçılarını qəbul etmişdir.*

*İclasın iştirakçılarını salamlayan prezident İlham Əliyev ölkəmizdə əhalinin sosial müdafiəsinə çox böyük əhəmiyyət verildiyini qeyd etdi. Dövlətimizin başçısı dedi ki, əhalinin həyat səviyyəsini yüksəltmək üçün bütün imkanlardan istifadə etməyə çalışırıq. Bunun üçün iqtisadi inkişafın əsas şərt olduğunu vurğulayan prezident İlham Əliyev son illərdə bu istiqamətdə yüksək nəticələr əldə olunduğunu söylədi. Büdcənin ötən ilə nisbətən 50 faiz artdığını diqqətə çatdıran dövlət rəhbəri gələn il bu rəqəmin bu ilə nisbətən ən azı 60 faiz artacağını bildirdi.*

*Dövlətimizin başçısı son iki ildə əhalinin minimum əməkhaqqının 3 dəfəyə qədər artdığını və bu prosesin davam etdiyini qonaqların diqqətinə çatdırdı. İqtisadi inkişafın artım sürətinin 8 ayda 18 faiz təşkil etdiyini, lakin qiymətlərin artmasının müəyyən narahatlıq doğurmasına baxmayaraq, bu sahədə də konkret tədbirlər görüldüyünü söylədi. Prezident bütövlükdə ölkənin iqtisadi inkişafının artım tempinin yüksək olmasının əhalinin sosial müdafiəsi istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsinə əlverişli şərait yaratdığını bildirdi. Ölkəmizin başçısı Azərbaycanda 1 milyon 350 min nəfərin pensiya aldığını və onların aldığı vəsaitin yaşayış səviyyəsini ödəmədiyindən bu sahədə*

*ciddi işlərin görülməsinə diqqəti artırmağın vacib olduğunu vurğuladı. Dövlətimizin başçısı dedi ki, hər bir pensiyaçının aldığı vəsait onun həyati tələbatını təmin etməlidir. Bunun üçün də ölkədə daha ciddi iqtisadi nailiyyətlərə nail olmaq lazımdır. Yalnız bu il Azərbaycan 1990-cı ilin iqtisadi inkişaf sürətinə çata bilmişdir. 90-cı illərin əvvəllərində ölkə iqtisadiyyatında baş vermiş tənəzzül Azərbaycana çox böyük zərbələr vurmuşdur. Vəziyyəti normallaşdırmaq üçün 15 ildən artıq vaxt lazım gəlmişdir. Ölkəmizin əhalisinin sosial ehtiyaclarının müdafiəsi üzrə tələbatın ödənilməsi üçün atılan hər bir addımın dəyərli olduğunu bildirən dövlətimizin başçısı xüsusilə əməkdaşlıq etdiyimiz ölkələrin bu sahədə təcrübəsindən bəhrələnməyin vacibliyini söylədi. Prezident İlham Əliyev Bakıda keçirilən bu görüşün pensiya sistemində əsaslı islahatlar həyata keçirən Azərbaycan üçün fikir mübadiləsi aparmaq, əməkdaşlıq etmək baxımından çox dəyərli olduğunu nəzərə çatdırdı.*

*Görüşdə Beynəlxalq Sosial Təminat Assosiasiyasının departament direktoru Alexandro Bonilla Qarsia çıxış edərək dedi: Cənab Prezident, bu gün çox böyük şərəf duyuram ki, assosiasiyamızın prezidenti adından Sizi salamlayıram, onun xoş arzularını Sizə çatdırıram.*

*Cənab Prezident, bizi müdafiə etdiyinizə və iclasın keçirilməsinə dəstək verdiyinizə görə Sizə assosiasiyanın üzvləri adından təşəkkürümüzü bildiririk. Bu görüş mahiyyətinə görə çox vacib bir tədbirdir və iclasın nəticəsi Azərbaycanda bu sahənin inkişafına öz töhfəsini verəcəkdir.*

*Bir məsələni xüsusi olaraq diqqətə çatdıran qonaq dedi ki, cənab Prezident, ölkənizdə əhalinin sosial müdafiəsinə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşkilatımız adından dərin minnətdarlığımızı bildirir və ümumi ailə hesab etdiyimiz bu dünyada bunun vacib bir şərt olduğunu xüsusi vurğulayıram.*

*O, Azərbaycanda əhalinin sosial müdafiəsi sahəsində əldə edilən nailiyyətlərin onlarda xoş hisslər, duyğular yaratdığını və görüş zamanı söylənilən rəqəmlərin, faktların insanların sosial müdafiəsinə xidmət etdiyini diqqətə çatdırdı.*

*Görüşdə Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının sədri Aleksandr Kurtin çıxış edərək, Azərbaycanda keçirilən bu iclasa görə ölkəmizin başçısına təşəkkürünü bildirdi. MDB məkanında insanların sosial müdafiəsi sahəsində müxtəlif sistemlərin mövcud olduğunu vurğulayan qonaq bildirdi ki, bu sahədə əldə edilən uğurlar ölkənin sosial-iqtisadi inkişaf sürətindən asılıdır. O dedi: cənab Prezident, bizi nəinki dövlət sərhədləri birləşdirir, həm də ölkələrimizdə yaşayan xalqların qohumluq, dostluq əlaqələri, tarixi köklər daha da yaxınlaşdırır. İmmiqrasiya ilə bağlı insan axınının çoxalması ölkələrimiz arasında əlaqələri daha da sıxlaşdırır. O, Bakıda çox əhəmiyyətli bir iclasın keçirilməsinə şərait yaratdığına və dəstək verdiyinə görə, dövlətimizin başçısına rəhbərlik etdiyi təşkilat adından təşəkkürünü bildirdi.*

*Bakıda Avropa iclasının keçirilməsindən məmnunluğunu ifadə edən prezident İlham Əliyev uğurlu nəticələr əldə ediləcəyinə əmin olduğunu vurğuladı.*

*Dövlət başçısı dedi ki, başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da bir ictimai sistemdən başqa bir ictimai sistemə keçidlə bağlı üzləşdiyimiz problemləri tədricən həll edir və bu sahədə hərtərəfli əməkdaşlığa böyük önəm veririk. MDB-yə üzv olan ölkələrin əksəriyyəti eyni problemlərlə qarşılaşırlar. Azərbaycanda iqtisadi inkişaf üçün bütün imkanlardan istifadə edilmişdir. Böyük müəssisələrin özəlləşdirilməsi, irihəcmli sərmayələrin, böyük layihələrin reallaşması ölkəmizin bazar iqtisadiyyatı prinsiplərinə ciddi əməl etməsinə geniş imkanlar açmışdır. Ölkəmizə qoyulan milyardlarla dollar sərmayə başqa sahələrin də inkişafına təkan verir. Büdcə layihəsinin hazırlanmasında bazar iqtisadiyyatı və əhalinin sosial müdafiəsinin möhkəmləndirilməsi prinsiplərinin əsas götürüldüyünü bildirən dövlətimizin başçısı Azərbaycanın hər bir ölkə ilə bu sahədə əməkdaşlığa hazır olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev iclas iştirakçıları ilə xatirə şəkli çəkdirdi.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖLKƏMİZİN CƏNUB BÖLGƏSİNƏ SƏFƏRİ

*8 sentyabr 2005-ci il*

## Lənkəran şəhərində ümummilli lider Heydər Əliyevin abidəsinin açılış mərasimində nitq

*Azərbaycan prezidenti İlham Əliyev ilk olaraq Lənkəran şəhərinə gəldi. Şəhərin mərkəzi meydanına toplaşmış on minlərlə sakin prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla, hərarətli alqışlarla, gül-çiçəklə qarşıladı. Prezidenti qarşılamağa gələnlərin əllərində Azərbaycanın dövlət bayraqları, ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısının portretləri, respublikamızın rəhbərini salamlayan şüarlar yazılmış transparantlar var idi.*

*Prezident İlham Əliyev əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin təntənəli açılış mərasimində iştirak etdi. Prezident İlham Əliyev şəhər icra hakimiyyəti binasının qarşısında ucaldılmış abidənin üzərindən ağ örtüyü götürdü, heykəlin önünə gül dəstəsi qoydu. Dövlətimizin başçısının xanımı Mehriban Əliyeva və qızı Leyla da abidənin önünə gül dəstələri qoydular.*

*Tuncdan hazırlanmış və hündürlüyü 3,8 metr olan abidənin müəllifi Lənkəran Şəhər Rəsm Qalereyasının direktoru Məmmədsadıq Axundovdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Əziz lənkəranlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz dərin hörmət və məhəbbətimi bildirmək istəyirəm. Bu gün çox əlamətdar bir gündür. Bu gün Lənkəran şəhərində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi açılır. Heydər Əliyevin müasir Azərbaycanın tarixində müstəsna xidmətləri var. Onun fəaliyyəti nəticəsində ölkəmiz 1990-cı illərdə yaşanan böhrandan şərəflə çıxdı, inkişafa qədəm qoydu və 1993-cü ildən indiyə qədər bu inkişaf yolu ilə inamla addımlayır. 1990-cı illərin əvvəllərinin çətin anları bizim hamımızın xatirindədir. O vaxt ölkədə təkcə iqtisadi cəhətdən yox, eyni zamanda siyasi cəhətdən hərc-mərclik, xaos, anarxiya hökm sürürdü. Ölkəmizin gələcəyi, müqəddəratı aydın deyildi. Yalnız Heydər Əliyevin qətiyyəti, onun siyasi biliyi, təcrübəsi və cəsarəti nəticəsində ölkəmiz bu çətin dövrdən şərəflə çıxdı və indi Azərbaycan bölgədə və dünyada ən sürətli inkişaf edən ölkədir.

Mən Lənkəranda dəfələrlə olmuşam və hər dəfə buraya gələndə yenilik görəndə, abadlıq, quruculuq işlərinin getdiyini görəndə çox sevinirəm. Mən çox istəyirəm ki, Azərbaycanın hər bir yeri inkişaf etsin, hər bir bölgəsi, rayonu daha da sürətlə abadlaşsın və insanlar daha da yaxşı yaşasınlar. Bunu etmək üçün, şübhəsiz ki, ilk növbədə ölkəmizin iqtisadi potensialı möhkəm olmalıdır. 1990-cı ilin ortalarında, Azərbaycanda ictimai-siyasi sabitlik bərqərar olunandan sonra başlamış iqtisadi islahatlar bu gün öz nəticələrini verməkdədir.

Əgər o islahatlar aparılmasaydı və bu gün davam etdirilməsəydi, biz istədiyimizə nail ola bilməzdik. Hər bir ölkənin gücü onun iqtisadi potensialına bağlıdır. Azərbaycanda gedən inkişaf prosesləri deməyə əsas verir ki, biz yaxın zamanlarda ölkəmizi zəngin, qüdrətli dövlətə çevirəcəyik. Sosial problemlərin həlli üçün, müdafiə potensialının güclənməsi, ölkəmizin beynəlxalq miqyasda daha da möhkəm yerini tutması üçün iqtisadi amillər çox mühüm rol oynayır. Ona görə təsadüfi deyildir ki, biz əsas diqqətimizi bu məsələlərə yönəldirik və son iki il ərzində görül-

müş işlər nəticəsində ölkəmiz iqtisadi cəhətdən sürətlə inkişaf etməyə başladı. Bu ilin səkkiz ayında Azərbaycan iqtisadiyyatında artım 20 faiz olmuşdur. Bu, dünyada misli görünməmiş göstəricidir. Dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatı ildə 2–3 faiz artır. Azərbaycan iqtisadiyyatı isə səkkiz ayda 20 faiz artıbdır. Sənaye potensialı isə 23 faiz artıbdır. Bu, əlbəttə ki, statistik göstəricilərdir. Amma eyni zamanda bu göstəricilər həyatda da öz əksini tapmaqdadır. Son illər ərzində sosial məsələlərə göstərilən diqqət maaşların, pensiyaların, tələbələrin təqaüdlərinin qaldırılmasına imkan yaradıbdır. Tələbələrin təqaüdləri 2,5 dəfə qaldırılıbdır. Orta əməkhaqqı sürətlə qalxır. Minimum əməkhaqqı son iki il ərzində 3 dəfə artırılıb və oktyabrın 1-dən Azərbaycanda minimum əməkhaqqı 150 min manat olacaqdır. Ancaq bu da son hədd deyildir. Biz bilirik ki, ölkədə çoxlu problemlər var, sosial problemlər var. Onların ən əsası işsizlik və yoxsulluqdur. Əminəm ki, bu istiqamətdə görülən işlər yaxın gələcəkdə hər iki məsələnin aradan qaldırılmasına imkan verəcəkdir.

Azərbaycanda keçən ilin fevral ayında başlanmış regionların sosial-iqtisadi inkişaf proqramının icrası indiyədək 300 minə qədər yeni iş yerinin açılmasına imkan yaradıb və onların əksəriyyəti daimi iş yeridir. Hansı başqa ölkədə qısa müddət ərzində 300 min yeni iş yeri açılıbdır? Azərbaycanda iki il bundan əvvəl yoxsulluq səviyyəsində, şəraitində yaşayan insanların sayı 50 faiz idi. İndi 40 faizdir. Əlbəttə, bu da çoxdur, amma gələn il yəqin ki, daha da aşağı düşəcək və nəticə etibarilə Azərbaycanda yoxsul adam olmamalıdır. Biz elə bir dövlət, elə bir ölkə yaratmalıyıq, qurmalıyıq ki, Azərbaycanda hər bir vətəndaş yaxşı yaşasın, rahat yaşasın, maddi problemlərlə üzləşməsin. Sosial problemlərin həlli üçün də imkanlar yaransın. Bütün bu istiqamətlərdə biz çalışırıq ki, əlimizdən gələni edək, işlər daha da yaxşı getsin.

Bayaq dediyim kimi, mən Lənkəranda dəfələrlə olmuşam. Xatırlayıram, 2004-cü ilin yanvar ayında burada qəza baş verərkən də gəldim və vəziyyətlə tanış oldum, zərər çəkmiş insanlara

xəstəxanada baş çəkdim və gördüm ki, bu xəstəxananın səviyyəsi o qədər də yaxşı deyildir. Yəni təkcə burada deyil, Azərbaycanın bütün bölgələrində xəstəxanaların çox böyük təmirə ehtiyacı var. Bu da təbiidir. Çünki uzun illər, iqtisadi imkanımız olmayan dövrdə sosial məsələlərə diqqət, vəsait ayırmaq çətin idi.

Ancaq bu gün vəsait var və biz də bunu etməliyik. Bildirmək istəyirəm ki, bu gün Lənkəranda yeni diaqnostika və müalicə mərkəzinin təməl daşının qoyulması mərasimi keçiriləcəkdir. Mən şübhə etmirəm ki, yaxın zamanlarda Lənkəranda ən yüksək standartlara cavab verən müasir xəstəxana inşa ediləcəkdir. Burada həm gözəl, müasir avadanlıq olacaq, həm də xəstələr üçün bütün şərait yaradılacaqdır. Eyni zamanda bu yaxınlarda mənim təşəbbüsümlə qəbul edilmiş qərara əsasən, Lənkəranda yeni aeroportun tikintisi də nəzərdə tutulubdur. Bilirsiniz ki, vaxtilə Lənkəranda aeroport var idi və fəaliyyət göstərirdi. Amma son illər ərzində faktiki olaraq işləmir. Hesab edirəm ki, yeni müasir aeroportun tikilməsi də Lənkəranın, bu bölgənin inkişafına böyük təsir göstərəcəkdir. Bütün bunları biz edəcəyik.

Yenə də deyirəm, qarşıda duran bütün planların həyata keçirilməsi üçün iqtisadi potensial yaranmalıdır. Azərbaycanın büdcəsi ildən-ilə artır. 2004-cü ildə 1 milyard 500 milyon, 2005-ci il 2 milyard 200 milyon dollar idi. 2006-cı ildə isə bizim büdcəmiz ən azı 3 milyard 500 milyon dollar olacaqdır. Hələ dəqiqləşdirmə gedir və bəlkə biz bundan da artıq rəqəmə çıxacağıq. Bu nəyi göstərir? Onu göstərir ki, ölkədə inkişaf var. Ölkənin maddi vəziyyəti yaxşılaşır və belə olan halda bütün mövcud problemlər öz həllini tapacaqdır.

Elektrik enerjisi ilə təminat yaxşılaşmalıdır və bu gün Astarada yeni tikiləcək elektrik stansiyasının təməlqoyma mərasimi keçiriləcəkdir. Stansiya 90 meqavat elektrik enerjisi istehsal edəcəkdir ki, bu da bölgənin təchizatına böyük kömək olacaqdır. Bu il və gələn il Azərbaycanın bütün bölgələrində belə stansiyalar tikiləcəkdir. Yerlər də müəyyən olunubdur. Mən göstəriş

verdim ki, ilk növbədə bu stansiya ilin sonuna qədər Astarada tikilsin. Bu məsələlər öz həllini tapmalıdır.

Əgər biz Azərbaycanı zəngin dövlət kimi görmək istəyiriksə, bunları etməliyik və edəcəyik. İqtisadi potensialın möhkəmlənməsi Azərbaycanda bütün başqa məsələlərin həlli üçün gözəl şərait yaradacaqdır. İlk növbədə, ölkədə siyasi islahatların aparılması daha da sürətlə gedəcəkdir. Azərbaycanda demokratikləşmə proseslərinin sürətlənməsi çox böyük əhəmiyyət kəsb edir. Bu baxımdan bu ilin noyabrında keçiriləcək parlament seçkilərinin əhəmiyyəti çox böyükdür. Seçkilərə hazırlığın birinci mərhələsi başa çatdı və çox uğurla başa çatdı. 2 mindən artıq adam öz namizədliyini irəli sürdü və qeydiyyata alındı. Bu bir daha onu göstərir ki, insanlarda seçkilərin ədalətli keçirilməsinə inam var.

Əgər bu inam olmasaydı, 2 min adam öz namizədliyini qeydiyyata aldırmazdı. Müqayisə üçün deyə bilərəm ki, 2000-ci ilin parlament seçkilərində namizədlərin sayı 400 nəfər idi. İnam var, iradə var və belə olan halda, mən şübhə etmirəm ki, seçkilərin ədalətli keçirilməsi mümkün olacaqdır. Azərbaycan xalqının iradəsi öz əksini tapacaq, xalqımız istədiyi namizədə səs verəcəkdir. Ümid edirəm ki, yeni seçiləcək parlament Azərbaycanda qanunvericilik bazasının təkmilləşməsində mühüm rol oynayacaqdır. Yeni, mütərəqqi qanunlar qəbul olunacaq ki, bu da öz növbəsində bizim həyatımızın hər bir sahəsinə təsirini göstərəcəkdir.

Bilirsiniz ki, mən bölgələrin inkişafına çox böyük diqqət göstərirəm. Bölgələrə səfərlərim də bu məqsədi daşıyır. İstəyirəm və bu mənim siyasətimdir ki, Azərbaycanın hər bir bölgəsi, hər bir rayonu inkişaf etsin. Yaxşı yollar salınsın, elektrik xətləri, qaz, su xətləri çəkilsin, xəstəxanalar, məktəblər, infrastruktur obyektləri tikilsin. Azərbaycan belə, hərtərəfli inkişaf etməlidir. Bizim iqtisadiyyatımız da hərtərəfli inkişaf etməli və çoxşaxəli olmalıdır, bölgələrimiz də inkişaf etməlidir. Ümid edirəm ki, aparılan siyasət bizə imkan verəcək ki, qarşıda duran bütün vəzifələr öz həllini tapsın.

Mən 2003-cü ildə prezident seçkiləri ərəfəsində Lənkəranda olarkən burada Olimpiya İdman Kompleksinin açılışında sizə müraciət edərək demişdim ki, əgər mənə etimad göstərsəniz, əlimdən gələni edəcəyəm ki, öz doğma xalqıma, vətənimə ləyaqətlə xidmət edim və qarşıda duran problemlərin həllində fəal iştirak edim. Sizə deyə bilərəm ki, keçən dövr ərzində qarşıya qoyulmuş bütün məsələlər öz həllini tapıb, yaxud da tapmaqdadır. İstər daxildə, istər xarici siyasətdə elə bir məsələ, verilən vəd, yaxud da söz yoxdur ki, həyatda təsdiqini tapmasın. Bütün sahələrdə – Azərbaycanın beynəlxalq aləmdə rolunun yüksəlməsində, ölkədə ictimai-siyasi asayişin bərpa olunmasında və qorunmasında.

Əlbəttə ki, bizi ən çox narahat edən torpaqlarımızın işğal altında olmasıdır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi öz həllini tapmalıdır. Bilirsiniz ki, biz böyük səylər göstəririk, uğurlu siyasi-diplomatik addımlar atırıq. Amma nəticə yoxdur. Nəticə də ona görə yoxdur ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi məsələnin sülh yolu ilə öz həllini tapmasına imkan vermir. Biz hələ ki, sülh prosesinə ümid edirik. Ümid edirik ki, biz problemi danışıqlar yolu ilə həll edə biləcəyik. Ancaq eyni zamanda biz hərbi potensialımızı da möhkəmlətməliyik və bunu edirik.

Müqayisə üçün sizə deyə bilərəm ki, 2004-cü ildə bizim hərbi büdcəmiz 175 milyon dollar idi, 2005-ci ildə bunu 300 milyon dollara çatdırdıq. 2006-cı ildə isə bizim hərbi büdcəmiz 600 milyon dollar olacaqdır. Bu nə deməkdir? O deməkdir ki, biz güclü hərbi və müdafiə potensialı yaradırıq və düşmən bilməlidir ki, istənilən anda Azərbaycan ordusu öz doğma torpaqlarını azad etməyə qadirdir. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Ermənistan üzərində hərbi üstünlüyümüz artıq mövcuddur. Eyni zamanda biz bunu daha da möhkəmlətməliyik.

Bir sözlə, əziz dostlar, sizə demək istəyirəm ki, bizim siyasətimiz çox şəffafdır, çox aydındır və Azərbaycan xalqının gələcəyinə və bu gününə xidmət edir. Görülən bütün işlər bizə ümid verir ki, istədiyimizə nail olaq, ölkəmizi həm iqtisadi, siyasi və

hərbi cəhətdən, həm də sosial məsələlərin həlli baxımından irəliyə aparaq. Biz hamımız bunu etməliyik. Azərbaycan xalqı bunu etməlidir və biz bunu edəcəyik. Mən bir daha sizin hamınızı ürəkdən salamlayıram, öz hörmət və məhəbbətimi ifadə edir, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

*Prezident İlham Əliyev mərasimdən sonra yerli sakinlərlə səmimi görüşüb hal-əhval tutdu, onların problemləri ilə maraqlandı.*

## Lənkəran Müalicə-Diaqnostika Mərkəzinin təməlinin qoyulması mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev Lənkəran şəhərinin Tofiq İsmayılov küçəsində Dövlət Neft Şirkətinin vəsaiti hesabına inşa ediləcək Müalicə-Diaqnostika Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etmişdir. İnşaatçılar, lənkəranlılar dövlətimizin başçısını böyük səmimiyyətlə qarşıladılar. Prezident İlham Əliyev onlarla görüşüb, hal-əhval tutdu.*

*Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev respublikamızın rəhbərinə məlumat verdi ki, yeni tibb müəssisəsi Avropa standartlarına uyğun, 2,7 milyon ABŞ dolları dəyərində avadanlıqla təchiz ediləcəkdir. 2006-cı ilin birinci yarısında istifadəyə verilməsi nəzərdə tutulan Mərkəzdə 300 nəfər daimi işlə təmin olunacaqdır. Burada cərrahiyyə, diaqnostika şöbələri də fəaliyyət göstərəcəkdir.*

*Prezident İlham Əliyev Mərkəzin binasının layihəsi ilə tanış oldu, onun müasir standartlara cavab verməsi üçün müvafiq tövsiyə və tanışlıqlarını söylədi. Dövlətimizin başçısına bildirildi ki, burada quraşdırılacaq avadanlıqlar Almaniyanın «Siemens» şirkətinin istehsalı olacaqdır. Əsasən böyrək xəstəliklərinin diaqnostikası və müalicəsi üçün lazım olan avadanlıq isə dünyanın ən tanınmış, nüfuzlu şirkətləri tərəfindən quraşdırılacaqdır. Mərkəz üçün əlavə 10 ədəd təcili tibbi yardım avtomobili alınacaqdır.*

*İstilik, elektrik enerjisi və su təchizatı ilə bağlı hər cür şərait yaradılacaq Mərkəzdə oftalmologiya, kompüter tomoqrafiyası, kardiologiya kabinetləri də fəaliyyət göstərəcəkdir.*

*Son bir ayda burada görülən işləri yüksək qiymətləndirən prezident İlham Əliyev tikintinin tezliklə başa çatdırılmasının zəruriliyini bildirdi. Sonra dövlətimizin başçısı rəsmi təməlqoymanın rəmzi olan gilizi bünövrəyə qoydu və ilk beton qarışığını tökdü, yeni müalicə ocağının xeyirli və uğurlu olmasını, xəstələrə şəfa verməsini arzuladı.*

## Lənkəran hava limanının yeni tikintisində

*Sentyabrın 8-də Azərbaycan prezidenti İlham Əliyev Lənkəran hava limanına gəldi. Burada «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktoru Cahangir Əsgərov və aviatorlar dövlətimizin başçısını hörmət və ehtiramla qarşıladılar.*

*Konsernin Baş direktoru yeni hava limanının maketi və layihəsi, görüləcək işlər barədə prezidentə məlumat verildi. Bildirildi ki, 40 hektardan çox ərazidə yerləşən Lənkəran hava limanı istismara yararsız olduğuna görə tamamilə yenidən tikiləcəkdir. Bu, 150 milyard manata başa gələcəkdir. Beynəlxalq statusa malik olması nəzərdə tutulan hava limanı müasir tipli avadanlıq və texnika ilə təmin ediləcəkdir. Uçuş-enmə zolağının uzunluğu 3,3 min metr olacaqdır.*

*Bakıdan Lənkərana hava reysləri yeni alınmış «AN» tipli təyyarələr vasitəsilə həyata keçiriləcəkdir. Lənkəran hava limanından Moskvaya da birbaşa reys açılacaq, meyvə-tərəvəz və digər kənd təsərrüfatı məhsulları daşınacaqdır.*

*Prezident İlham Əliyev layihənin yüksək standartlara cavab verdiyini vurğulayaraq, öz tövsiyə və tapşırıqlarını verdi, bildirdi ki, gələcəkdə Lənkərandan Moskvaya sərnişin reyslərinin açılması da mühümdür.*

*Dövlətimizin başçısı ölkəmizdə artıq 4 beynəlxalq hava limanının olacağını yüksək qiymətləndirdi və bunun Azərbaycanın*

*iqtisadi cəhətdən inkişafına dəlalət etdiyini vurğuladı. Azərbaycan prezidenti hava limanında tikinti işlərini həyata keçirən Türkiyənin «Zema» şirkətinin böyük təcrübəyə malik olduğunu da xatırlatdı.*

*Prezident İlham Əliyev «Lənkəran aeroportunun sərnişin terminalının təməl daşı Azərbaycan Respublikası prezidenti İlham Əliyev tərəfindən qoyulmuşdur. 8 sentyabr 2005-ci il» sözləri yazılmış iri qaya parçasının üzərindən örtüyü götürdü, tikinti işləri gedəcək əraziyə baxdı və ölkəmizdə bu cür hava limanları şəbəkəsinin genişlənməsinin böyük fayda gətirəcəyini bildirdi.*

## «Xəzər–Lənkəran» futbol klubunun stadionu ilə tanışlıq

*Sentyabrın 8-də Azərbaycan prezidenti İlham Əliyev «Xəzər–Lənkəran» futbol klubunun yeni stadionunda tikinti işlərinin gedişi ilə tanış olmuşdur. İdmançılar və gənclər dövlətimizin başçısını stadionun girəcəyində böyük hörmətlə qarşıladılar.*

*Prezidentə məlumat verildi ki, «Palmali» şirkətlər qrupu tərəfindən tikilən stadionun 15 min tamaşaçı üçün örtülü yerləri olacaqdır. Hazırda tikinti işlərində 300 nəfər inşaatçı çalışır. Burada 100 yerlik mehmanxana da inşa ediləcəkdir. Stadion istifadəyə verildikdən sonra 150 nəfər daimi işlə təmin olunacaqdır.*

*1957-ci ildə istifadəyə verilmiş və tamamilə yararsız vəziyyətə düşmüş stadionun yerində tikilən idman qurğusu 4,5 hektar sahəni əhatə edir. Onun uzunluğu 108 metr, eni isə 72 metrdir ki, bu da beynəlxalq standartlara uyğundur. Burada idmançılar üçün hər cür şərait yaradılacaqdır.*

*Stadionda 25 kvadratmetrlik işıq tablosu da quraşdırılacaqdır. İdman qurğusunda uşaq futbolunun inkişafı üçün xüsusi meydança, tennis kortu da tikilib istifadəyə veriləcəkdir. Ümumiyyətlə, stadionun tam tikintisi 15 milyon ABŞ dollarına başa gələcəkdir.*

*Prezident İlham Əliyev görülən işlərin əhəmiyyətini vurğuladı, tövsiyələrini verdi və bildirdi ki, artıq Lənkəranda Olimpiya İdman Kompleksi də var və stadion da istifadəyə veriləndən sonra rayonda idmanın inkişafı üçün gözəl şərait olacaqdır. Dövlətimizin başçısı «Xəzər–Lənkəran»ın güclü komanda olduğunu və beynəlxalq aləmdə Azərbaycanı ləyaqətlə təmsil etməsi üçün bu cür stadionun tikilməsinin əhəmiyyətini vurğuladı.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirərək bir daha qeyd etdi ki, Lənkəranda Olimpiya İdman Kompleksi var, stadion, hava limanı tikilir, dəniz limanı var. Lənkəran inkişaf edir, arzumuz budur ki, komanda da yaxşı oyun göstərsin. Başqa idman növlərinin inkişafı üçün hər cür şərait yaradılmışdır və gərək Lənkəran idmançıları beynəlxalq yarışlarda Azərbaycanı ləyaqətlə təmsil etsinlər.*

*Sonra prezident İlham Əliyev idmançılarla, gənclərlə səmimi görüşdü. Gənclər onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.*

## Hirkan Milli Parkının açılış mərasimi

*Sentyabrın 8-də Lənkəranda Hirkan Milli Parkının açılış mərasimi olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Mərasimə toplaşanlar dövlətimizin başçısını böyük səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev Milli parkın rəmzi açılışını bildirən qırmızı lenti kəsdi. Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov dövlətimizin başçısına məlumat verdi ki, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 9 fevral tarixli sərəncamı ilə yaradılmış Hirkan Milli Parkı Lənkəran və Astara rayonlarının ərazisində yerləşir. Parkın sahəsi 21435 hektardır. Onun yaradılmasında əsas məqsəd həmin ərazidə təbiətin kompleks şəkildə qorunması, üçüncü dövrün relikt və endemik bitki növlərinin mühafizəsi, Azərbaycanın «Qırmızı kitabı»na daxil edilmiş tipik flora və fauna növlərinin qorunub*

*saxlanması, ətraf mühitin monitorinqinin həyata keçirilməsi, ictimaiyyətin məlumatlandırılması, eləcə də tədqiqatlar, turizm və istirahət üçün şərait yaratmaqdır. Hirkan Milli Parkının ərazisinin çox hissəsini meşələr, sıra dağlar əhatə edir. Buranın yayı quraq, payızı rütubətli, qışı isə mülayimdir. Park bitkilərin növ zənginliyinə görə Qafqazda birinci yeri tutur. Bunların əksəriyyətinin adı Azərbaycanın «Qırmızı kitabı»na daxil edilmişdir. Ərazidə kökü kəsilməkdə olan müxtəlif heyvanlar vardır. Ümumiyyətlə, ərazinin bitki aləminin zənginliyi burada çoxsaylı heyvanların yaşaması üçün əlverişlidir. Burada bəbir, xallı maral, vaşaq, porsuq, çöl donuzu, cüyür, yenot və digər heyvanlara rast gəlmək olar.*

*Hirkan Milli Parkı özünün nadir təbiət abidələri ilə də məşhurdur. Burada 100-dən çox təbiət və mədəniyyət abidəsi var.*

*Hirkan Milli Parkına xaricdən də qonaqlar gəlir.*

*Prezident İlham Əliyev parkın ekoturizm və məlumat mərkəzi, treninq otağı, əməkdaşlar üçün iş otaqları, fauna və flora muzeyi ilə tanış oldu, Azərbaycanın zəngin təbiətinin bu nadir guşəsinin flora və faunasının qorunması üçün müvafiq göstəriş və tapşırıqlar verdi.*

*Sonra prezident İlham Əliyev parkın inzibati binasının qarşısına toplaşan sakinlərlə səmimi görüşdü, onların problemləri ilə maraqlandı. Sakinlər dövlətimizin başçısına təşəkkür edərək, göstərilən diqqət və qayğını yüksək qiymətləndirdilər, ümummilli lider Heydər Əliyevin Lənkərana və Astaraya tarixi səfərlərini xatırlatdılar və onun daxili və xarici siyasətini uğurla davam etdirdiyinə, xalqın güzəranının yaxşılaşdırılması, sosial rifahının yüksəlməsi istiqamətində gördüyü tədbirlərə görə minnətdarlıqlarını bildirdilər.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ASTARA RAYONUNDA

*8 sentyabr 2005-ci il*

## Modul tipli elektrik stansiyasının təməlinin qoyulması mərasimində nitq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 8-də Lənkərandan Astara rayonuna gəlmişdir.*

*Yol boyu yerləşən kəndlərin sakinləri dövlətimizin başçısının pişvazına çıxmışdılar və onu hərarətlə salamlayırdılar.*

*Azərbaycan prezidenti əvvəlcə respublikamızda ilk modul tipli elektrik stansiyasının təməlinin qoyulması mərasimində iştirak etmək üçün tikinti meydançasına gəldi. Mərasimə toplaşanlar respublikamızın rəhbərini və onun xanımını hərarətlə qarşıladılar. Astaralılar bu mərasimə əllərində Azərbaycanın dövlət bayraqları, ümummilli liderimiz Heydər Əliyevin portretləri, prezidenti salamlayan sözlər yazılmış transparantlarla gəlmişdilər.*

*«Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev modul tipli elektrik stansiyasının sxemi barədə ətraflı məlumat verdi. Bildirildi ki, 90 meqavat gücündə olan bu stansiyanın bölgənin elektrik enerjisi ilə təminatına böyük köməyi olacaqdır.*

*Prezident İlham Əliyev tikintinin təməlinə giliz qoydu və beton tökdü.*

*Sonra stansiyanın təməlinin qoyulması münasibətilə mərasim keçirildi.*

*Azərbaycan prezidenti İlham Əliyev nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar!

Əziz astaralılar!

Bacılar və qardaşlar!

Mən çox şadam ki, yenidən Astaraya gəlmişəm, Sizinlə görüşürəm və bu gün burada yeni elektrik stansiyasının təməlqoyma mərasimində iştirak edirəm. Bu çox əlamətdar hadisədir. Bildiyiniz kimi, bu yaxınlarda qəbul edilmiş qərara əsasən, Azərbaycanın müxtəlif bölgələrində kiçik elektrik stansiyalarının tikintisi nəzərdə tutulmuşdur. Ancaq mən göstəriş vermişəm ki, ilk stansiyanı biz Astarada tikək və tezliklə istismara verək. Bu stansiya qısa müddət ərzində, ilin sonuna qədər tikiləcək və 90 meqavat elektrik enerjisi verəcəkdir. Bu stansiyaların tikintisi ilə Azərbaycanın bütün bölgələrində, o cümlədən cənub bölgəsində təkcə yay mövsümündə deyil, qış mövsümündə də elektrik enerjisi problemi aradan qaldırılacaqdır. Bilirsiniz ki, bu məsələlərə çox böyük diqqət göstərilir. Azərbaycanın iqtisadi inkişafı, bölgələrin inkişafı, enerji təhlükəsizliyi məsələləri diqqət mərkəzindədir. Çünki bunlar hər bir ölkənin inkişafını müəyyən edən amillərdir.

Ölkəmiz inkişaf edir, yeni müəssisələr işə düşür, yeni iş yerləri açılır. Əlbəttə ki, bütün bu işlərin görülməsi üçün, yeni müəssisələrin işləməsi üçün ilk növbədə elektrik enerjisi olmalıdır. Əgər elektrik enerjisi yoxdursa, bundan həm əhali əziyyət çəkir, çünki işıq olmayanda qışda da problem yaranır, eyni zamanda, yeni müəssisələr də işləyə bilmir. Çünki əgər elektrik enerjisi yoxdursa, heç bir müəssisə işləyə bilməz. Bu yaxınlarda qəbul edilmiş uzunmüddətli strategiyamız bu sahədə ciddi dönüşün yaranmasına imkan verəcəkdir. Bir müddət əvvəl Sumqayıtda 500 meqavat gücündə yeni stansiyanın təməli qoyulmuşdur. Bakıda «Şimal-2» elektrik stansiyasının tikintisi nəzərdə tutulub, o da təxminən 400 meqavat gücündədir. Astarada 90 meqavatlıq stansiyanın, Şəkidə, Xaçmazda, Naxçıvanda və Bakıda modul stansiyaların tikintisi Azərbaycanı bu problemlərdən uzaq edəcəkdir. Bu bizi ən çox narahat edən problemdir. Çünki bu həm əhaliyə, həm də bütövlükdə inkişafa problem yaradır.

Bizim inkişafımız isə çox sürətlidir. Ölkədə gedən islahatlar, yeni iş yerlərinin açılması, işsizliyin aradan qaldırılması, bölgələrin inkişafı – bütün bunlar Azərbaycanı çox parlaq gələcəyə aparan amillərdir. Görülən işlər nəticəsində artıq, demək olar ki, nəzərdə tutduğumuz proqramların yerinə yetirilməsinin ilk nəticələri görünməkdədir. İki ilə yaxın müddətdə 300 minə qədər yeni iş yerlərinin açılması böyük göstəricidir. Ümumi daxili məhsulun artması, maaşların, ilk növbədə ən çətin vəziyyətdə yaşayanların maaşlarının artırılması, pensiyaların qaldırılması, hesab edirəm ki, özlüyündə çox mühüm hadisədir. Minimum əməkhaqqının artırılması ən çətin vəziyyətdə yaşayanların həyat səviyyəsinin yaxşılaşması deməkdir.

Bir sözlə, bütün bu görülən işlər imkan verəcək ki, ölkəmiz hərtərəfli inkişaf etsin, bölgələrdə abadlıq-quruculuq işləri daha da sürətlə getsin.

Bu bölgədə son illər ərzində böyük işlər görülüb və daha da böyük işlər görüləcəkdir: Astara elektrik stansiyasının tikintisi, qaz-kompressor stansiyasının tikintisi, Astara–Qazıməmməd magistral qaz kəmərinin bərpası. Sonuncu bu bölgəyə böyük təzyiqlə qaz verilməsini təmin edəcəkdir. Bu gün Lənkəranda tikiləcək aeroportun təməl daşını qoyduq. Bu aeroport bütün bölgəyə xidmət edəcəkdir. Eyni zamanda, Lənkəranda Regional Müalicə və Diaqnostika Mərkəzinin təməlini qoyduq. Orada ən müasir tibb avadanlığı olacaqdır. Həmin mərkəz bütün bölgəyə xidmət edəcəkdir.

İqtisadi islahatlar və sosial problemlərin həlli paralel məsələlərdir. Biz bunları bir-birindən ayıra bilmərik. Bazar iqtisadiyyatı siyasətinə sadiqik və Azərbaycan bu yolla inkişaf edir. Ancaq eyni zamanda, sosial məsələlərin həllinə böyük diqqət göstərilməlidir. Çünki biz xalq üçün işləyirik, xalq üçün fəaliyyət göstəririk. Xalq bizə, iqtidara etimad göstərib və biz də çalışmalıyıq ki, bu etimadı doğruldaq.

Bizim büdcəmiz həm investisiya yönümlüdür, həm də sosial yönümlüdür. Büdcəmiz artır. Mən dəfələrlə bəyan etmişdim ki, büdcəmiz ildən-ilə çox yüksək templə artmalıdır. Gələn il büd-

cəmiz 1 milyard və bəlkə də 1,5 milyard dollar artacaqdır. Azərbaycanın illik büdcəsi 3,5 milyard dollar olmalıdır. Halbuki 2004-cü ildə 1,5 milyard dollar idi. İki il ərzində xəzinəmizə iki milyard dolların daxil olması çoxlu problemlərimizin həllinə kömək edəcəkdir.

Bu stansiya da həmin pullara alınır. Stansiyanın tikintisi üçün biz heç bir kredit götürmürük, beynəlxalq maliyyə təsisatlarına müraciət etmirik. Öz vəsaitimiz var, öz pulumuz var. Bu pulu da gərək çox səmərəli işlədək, Azərbaycanı narahat edən, ölkəmizə ən böyük çətinlik yaradan problemlərin aradan qaldırılmasına yönəldək.

Bütün bu görülən işlərin təməlində 1990-cı ilin ortalarında başlanmış Heydər Əliyevin neft strategiyası dayanır. Bu barədə çox danışılır, çox sözlər deyilir. Artıq hamı üçün aydındır ki, bu siyasət Azərbaycanın indiki inkişafına çox gözəl təsir göstərir. Eyni zamanda, bu, ölkəmizin qarşısında duran bütün məsələlərin həllinə kömək edəcəkdir.

Çünki hər şey imkanla, iqtisadi vəziyyətlə, ölkəmizin maliyyə durumu ilə bağlıdır. Əgər imkan olmasa, vəsait olmasa, heç bir işi görmək mümkün deyildir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra tək qalmışdı. Heç kim bizə kömək etmirdi, heç bir yardım almırdıq. Biz həmişə öz gücümüzə arxalanırdıq. Ancaq yadınızdadır ki, o illər necə ağır keçibdir. 1990-cı illərin əvvəlindəki iqtisadi böhran, xaos, hərc-mərclik, ictimai-siyasi sabitliyin pozulması ölkəmizi faktiki olaraq dünya xəritəsindən silirdi.

Ancaq Azərbaycanın bugünkü inkişafına baxın. Düzdür, problemlər var və biz onları bilirik və həll də edirik. Ancaq Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. Azərbaycana çoxlu investisiyalar qoyulur. Azərbaycanda yeni yollar, elektrik stansiyaları tikilir, su xətləri, qaz xətləri çəkilir. Azərbaycanın hərbi potensialı möhkəmlənir. Bura sərhəd rayonudur. Sərhədlərimiz də lazımi səviyyədə qorunur və sərhəd infrastrukturunun inkişafına vəsait ayrılır. Hərbi büdcəmiz gələn il iki dəfə artacaqdır. Bütün başqa xərclər də artacaq, maaşlar, təqaüdlər

qaldırılacaqdır. İnkişaf budur. Hər bir ölkənin inkişafı üçün bu amillər çox böyük əhəmiyyət kəsb edir. Ona görə bu gün görülən işlər Azərbaycanın həm bu gününə, həm də sabahına xidmət edəcəkdir.

Bu stansiya, sadəcə, bir stansiya deyil, bölgənin inkişafına böyük təsir göstərəcək obyektdir. Mən əminəm ki, stansiya dekabrın sonuna qədər tikilib istifadəyə veriləcək və siz də bunun səmərəsini görəcəksiniz.

Əziz astaralılar, yadımdadır, bir il bundan əvvəl Astaraya gəlmişdim, sizinlə görüşmüşdüm. O vaxt müraciətlər oldu, şikayətlər oldu, mənə məktublar verildi. Bu müraciətlərə, məktublara operativ şəkildə reaksiya verildi. Çünki hər bir fərdin məsələsi bizim üçün vacibdir. Əgər insanı nə isə narahat edirsə, əgər o, müraciət edirsə, deməli, problemi var və o problem də gərək öz həllini tapsın. Mən sizi əmin etmək istəyirəm ki, gələcək fəaliyyətimdə də bu siyasətə sadiq olacağam, əlimdən gələni edəcəyəm ki, Azərbaycan daha da möhkəmlənsin, Azərbaycanda hər bir insan daha da yaxşı yaşasın.

Sizi bir daha ürəkdən salamlayır və sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

## Astara Qaz-kompressor stansiyası ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 8-də Astara Qaz-kompressor stansiyasında olmuşdur. Dövlətimizin başçısını burada çalışan fəhlələr böyük hörmətlə qarşıladılar. "Azəriqaz" QSC-nin sədri Əlixan Məlikov stansiyanın texniki-iqtisadi göstəriciləri barədə Azərbaycan prezidentinə məlumat verərək bildirdi ki, Astara Qaz-kompressor stansiyasının tikintisinə 2004-cü ilin dekabrında başlanmışdır. Bildirildi ki, tikinti ilə bağlı müsabiqədə Ukraynanın Sumı Maşınqayırma Elm-İstehsalat Birliyi qalib gəlmişdir. Tikintidə əsas işləri onlar görürlər. Obyekt istifadəyə veriləndən sonra burada 50 nəfər daimi işlə təmin olunacaqdır. Stansiyanın əsas funksiyası İran İslam Respublikasına ötürüləcək qazın təzyiqini 12 atmosferdən 55 at-*

*mosferə qaldırmaqdır. Onun ümumi gücü sutkada 3 milyon kubmetr olacaqdır. Stansiya istifadəyə verildikdən sonra cənub bölgəsinin qazla təminatında problem olmayacaqdır.*

*Prezident İlham Əliyev regional qaz şəbəkəsinə baxdı. Stansiyada quraşdırılan nasosların, qurğuların, qəbuledici və ötürücü kompressorların iş prinsipi ilə maraqlandı, İrandan Naxçıvana qaz verilməsinin böyük əhəmiyyət kəsb etdiyini vurğuladı.*

**V l a d i m i r L u k y a n e n k o** (*Sumı Maşınqayırma Birliyi İdarə Heyətinin sədri*): Cənab Prezident, mən Sizi Sumı maşınqayıranları, Ukrayna nümayəndələri adından salamlamaq istəyirəm. Fəxr edirəm ki, Moskvada dahi Heydər Əliyeviçin rəhbərliyi altında işləmişəm. Biz Azərbaycanın nail olduğu çox böyük uğurları heyranlıqla izləyirik. Ukrayna ilə Azərbaycan arasındakı dostluqdan qürur duyuruq. Fürsətdən istifadə edərək, cənab Məlikova və onun mütəxəssislərinə, Azərbaycan inşaatçılarına, dostlarımıza təşəkkürümü bildirmək istəyirəm. Onlar stansiyanın tikintisi ilə əlaqədar bizə Bakıda da, burada da kömək göstərmişlər.

Siz bütün xalq tərəfindən seçilmiş prezidentsiniz. Bizim Ukraynada gürz bütün dövrlərdə hakimiyyət rəmzi olubdur. Ona görə də mən bu hakimiyyət rəmzini Ukrayna nümayəndə heyəti adından Sizə təqdim edirəm və Sizə, Azərbaycan xalqına firavanlıq, xoşbəxtlik, sülh və tərəqqi arzulayıram. Biz isə həmişə Sizinlə çiyin-çiyinə olacaq, kömək edəcək və əməkdaşlığımızı inkişaf etdirəcəyik.

**İ l h a m Ə l i y e v**: Belə həcmdə işləri qısa müddətdə və dünya standartlarına cavab verən yüksək səviyyədə yerinə yetirdiyinizə, Azərbaycanın qaz şəbəkəsi üçün çox böyük əhəmiyyəti olan bu kompressor stansiyasını tikdiyinizə görə sizə çox minnətdaram. Bu stansiya vasitəsilə qaz yüksək təzyiqlə vurulacaqdır. İran Naxçıvan üçün qaz alacaqdır. Lakin bununla yanaşı, Azərbaycanın cənub bölgəsi də qazla təmin ediləcəkdir. Bizim buna ehtiyacımız var. Bilirəm ki, bu, Azərbaycanla çox uğurlu əməkdaşlıq sahəsində ilk təcrübə deyildir. Ona görə də təşkilatlarımız arasında və əlbəttə ki, ölkələrimiz arasında

əməkdaşlığın daha da genişlənəcəyinə ümid bəsləyirəm. Bir sözlə, belə müştərək layihənin tez, keyfiyyətlə başa çatmasına çox şadam.

*Prezident İlham Əliyev daha sonra Ukrayna nümayəndələri ilə xatirə şəkli çəkdirdi, onlara və yerli mütəxəssislərə işlərində uğurlar arzuladı.*

## Telmankənd konserv zavodu ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Astara rayonuna səfəri zamanı Telmankənddə müasir standartlara cavab verən konserv zavodu ilə də tanış olmuşdur. Müəssisənin işçiləri dövlətimizin başçısını böyük hörmətlə qarşıladılar.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, konserv zavodunun 2005-ci ilin yanvarında tikintisinə başlanmış və iyul ayında müəssisə istifadəyə verilmişdir. Zavod Siyaku kənd sakini, iş adamı Osmanağa Qurbanov tərəfindən tikilmişdir. Tikintidə yüzlərlə insan çalışmışdır, indi isə 180 nəfər daimi işlə təmin olunmuşdur. Zavod gün ərzində 300 ton tərəvəz qəbul edə bilir. İndiyədək 1200 ton pomidor emal edilmiş, 200 ton tomat pastası hazırlanmışdır. Zavod rəhbərliyi məhsul yetişdirilməsi üçün 1500 nəfəri birləşdirən 30 fermer təsərrüfatına 150 milyon manat faizsiz kredit vermişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev istehsal prosesi ilə tanış oldu, məhsulun çeşidi və keyfiyyəti ilə maraqlandı, müəssisədə quraşdırılmış avadanlığı yüksək qiymətləndirdi. Dövlətimizin başçısı istehsal sahəsinin genişləndirilməsinin vacibliyini vurğuladı, ən müasir texnologiyaların alınması üçün köməyin göstəriləcəyini bildirdi.*

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA ASTARA RAYONUNUN TƏNGƏRUD KƏNDİNDƏ MƏKTƏB BİNASININ TİKİNTİSİ İLƏ TANIŞ OLMUŞDUR

*8 sentyabr 2005-ci il*

*Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva dövlətimizin başçısının cənub bölgəsinə səfəri çərçivəsində, Astara rayonunun Təngərud kəndində yeni məktəb binasının tikintisi ilə tanış olmuşdur.*

*Mehriban xanımı gülərüzlə qarşılayan müəllim və valideynlər məktəb barədə ona ətraflı məlumat verdilər. Bildirdilər ki, yaxşı ənənələri olan bu məktəbdə on illərdən bəri təmir işi görülməmişdir. Heydər Əliyev Fondunun vəsaiti hesabına məktəbdə 16 sinif otağı olacaq yeni binanın tikintisindən son dərəcə razı qalan sakinlər Mehriban xanıma öz təşəkkürlərini bildirdilər. İnşaatçılar isə söz verdilər ki, bina oktyabrın 1-dək tam hazır olacaqdır.*

*Mehriban Əliyeva ölkəmizin gələcəyi olan uşaqlara qayğı və diqqətin ifadəsi kimi, «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində Fondun vəsaiti hesabına hazırda respublikamızda 132 məktəbin tikildiyini xatırlatdı və bildirdi ki, Fond gələn ildən daha 500 məktəbin tikintisi üçün geniş proqram hazırlamışdır.*

*YUNESKO-nun Xoşməramlı səfiri kənd sakinləri ilə səmimi söhbət etdi, onlarla xatirə şəkli çəkdirdi.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV LERİK RAYONUNDA

*8 sentyabr 2005-ci il*

## Lənkəran–Lerik avtomobil yolunun açılışı

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 8-də Astara rayonuna səfərini başa çatdıraraq, Lerik rayonuna gəlmişdir. Bu, rayonun tarixində respublika rəhbərinin Lerikə ilk səfəri idi.*

*Dövlətimizin başçısı əvvəlcə burada Lənkəran–Lerik avtomobil yolunun istifadəyə verilməsinə həsr olunmuş mərasimdə iştirak etdi. Mərasimə toplaşan yol inşaatçıları, minlərlə sakin respublikamızın rəhbərini hərarətlə, böyük səmimiyyətlə qarşıladı. Prezidentə gül-çiçək təqdim olundu.*

*Təxminən bir əsr əvvəl, 1912-ci ildə əsası qoyulmuş bu yol uzun müddətdən sonra, 1970-ci illərdə hissə-hissə çəkilməyə başlansa da, işlər yarımçıq qalmışdı. Bir neçə ay əvvəl prezident İlham Əliyevin tapşırığı ilə yolun çəkilməsinə başlanmışdı. Uzunluğu 56 kilometr olan yolun əsaslı şəkildə yenidən qurulmasına 50 milyard manat vəsait ayrılmışdır. Bu yolun istifadəyə verilməsi Lerik rayonunun yaradılmasının 75 illiyi ərəfəsində Azərbaycan prezidentinin leriklilərə ən gözəl hədiyyəsidir.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, 3-cü texniki dərəcəli bu yola asfalt-beton döşənmişdir. Yol boyu 10 körpü var və bunlar da yenidən qurulmuşdur. Yolun torpaq yatağının eni 12 metr, hərəkət hissəsinin eni isə 7 metrdir. Hazırda yolun 50 kilometrində işlər başa çatmış-*

*dır. Qalan 6 kilometrlik hissə isə ilin sonunadək hazır olacaqdır.*

*Rayon sakinləri uzun illər həsrətində olduqları bu yolun qısa müddətdə çəkilib istifadəyə verilməsinə görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını ifadə etdilər. Bildirdilər ki, bu yol Lerik rayonunun sosial-iqtisadi inkişafına, əhalinin güzəranının yaxşılaşmasına çox böyük kömək göstərəcəkdir. Leriklilər yetişdirdikləri kənd təsərrüfatı məhsullarını respublikanın müxtəlif bölgələrinə apara biləcəklər.*

*Prezident İlham Əliyev dedi ki, bir neçə ay bundan əvvəl mənə Lənkəran–Lerik yolunun çox bərbad vəziyyətdə olması barədə məlumat vermişdilər. Yolun çəkilişi üçün dərhal tapşırıq verdim və Nəqliyyat Nazirliyi, digər əlaqədar qurumlar burada çox böyük işlər görmüşlər. Rahat yolun olması hər bir bölgənin inkişafı üçün əsas şərtlərdəndir. Bu yolun istifadəyə verilməsi rayonda turizmin inkişafına da təkan verəcəkdir.*

*Dövlətimizin başçısı yolun istifadəyə verilməsini bildirən qırmızı lenti kəsdi, yol inşaatçıları ilə xatirə şəkli çəkdirdi.*

# AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN DOSTU XANIŞ ŞAHIYEVLƏ GÖRÜŞ

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 8-də Lerik rayonuna səfəri zamanı ümummilli liderimiz Heydər Əliyevin yaxın dostu Xanış Şahıyevə baş çəkdi. Xanış kişi prezident İlham Əliyevi və ailə üzvlərini böyük hörmət və mehribanlıqla qarşıladı.*

**X a n ı ş Ş a h ı y e v:** Bu diqqətə görə Sizə ürəkdən minnətdarlıq edirəm.

Cənab Prezident! Mən həmişə demişəm, indi də deyirəm, gələn yollarınıza qurban olum. Mənim 76 yaşım var. Heydər Əliyev kimi, İlham kimi adamlar görməmişəm. Gözəl ad daşıyan, hörməti olan adamlar həyatda çoxdur. Amma onlardan da gözəli kimdir? Gözəl ölkələrdə, gözəl cəmiyyətdə gözəl danışan. Kim idi o gözəl adı daşıyan? Prezident Heydər Əliyev! Biri Həzrəti Əliyə deyir, ya Əli, mən səni çox istəyirəm. Həzrəti Əli deyir ki, mən də istəyirəm. Biri o tərəfdən deyir, ya Əli, mən də səni çox istəyirəm. Həzrəti Əli cavabında deyir ki, mən istəmirəm. Həmin adam soruşur ki, nəyə görə? Həzrəti Əli deyir ki, onun istəməyi mənim qəlbimdə sevinc doğurur, sənin istəməyin isə kədər.

«İlham» sözü ruh verən, yüksək ruh coşğunluğu deməkdir. Ailəsinə baxın – gözəl adlı Mehriban xanım. Televizorda hamımız, uşaqlar da, biz də görürük uşaqları necə öpür, onları necə bağrına basır.

Hörmətli Prezident, 400–500 qoyun-quzum var. Bir mənəm, bir də arvadımdır. Mənim işimin bir saatını 100 dəfə deməkdənsə, bir dəfə görmək yaxşıdır. Xalqın qarşısında deyirəm ki, zirəklikdə ikinci bir Xanış Şahıyev yoxdur. Təkcə Miri Qənbəro-

vu deyə bilərəm ki, bəli, 91-ci ildən bu yana çox iş görüb, o bir az məndən üstündür. Mən bu cür zəhmət çəkirəm, bax, bu mənim əllərim. 400–500 qoyunu 10 nəfərlik ailə bir qış saxlaya bilməz. Hörmətli Prezident, bunu həmişə demişəm, əlimin qabarını görəndə başqasının belinin, gözünün, ürəyinin qabarını görürəm.

Hörmətli Prezident, Avropada böyük təşkilatın büro üzvü oldun, sədrin müavini seçildin. İlhamın başına dönüm, Azərbaycan xalqına, Prezident Əliyevə sübut elədi ki, bəli, belə atanın belə oğlu var. İdman sahəsində də Azərbaycanı bəşəriyyətə tanıtdırdı. Prezidentimizin ən axırıncı sözü nə oldu? Cəmiyyəti bəzi-bəzi adamların, müxalifətin, kimin-kimin ümidinə saxlamadı. Seçkilərdə çox adamlar dedi ki, belə eləyərəm, elə eləyərəm. Amma mən həmişə demişəm, camaat da bilir, sənin vədlərinin biri də kənarda qalmayıb. Lerik özünün tarixində prezidentin üzünü görməyib. Keçmişdə bir dəfə Bağırov buraya gəlib, bir neçə kəndi köçürdü. Zirək kişi kimi, mən deyirəm ki, sənin tayın yoxdur. Bir il Qurban bayramında gəlmədim, Heydər Əliyev zəng elədi ki, nə olub? İki uşağım şəhid olub, mən onlar üçün ağlamamışam. Ancaq hər iki gündən bir kasetə baxmasam, ona ağlamasam, başımda papaq gəzdirmərəm. Bunu o qazanıb.

**İ l h a m  Ə l i y e v:** Sağ ol, Xanış əmi, çox sağ ol. Sən atamın da qardaşı olmusan, siz çox yaxın olmusunuz. Mən o günləri xatırlayıram, gəlirdin Bakıya, görüşürdün. O gözəl xatirələr hamısı mənim üçün əzizdir. Yadımdadır, özü demişdi ki, gələcəyəm Lerikə, sənin qonağın olacağam. Allah nəsib etmədi. Amma onun yerinə mən gəlmişəm sənin yanına. Çox şadam ki, səni belə gümrah görürəm. Həmişə belə möhkəm olmusan, həmişə haqq sözünü demisən, bir sifətin olub. Həmişə vətənpərvər olmusan, Azərbaycan dövlətinin müstəqilliyinə töhfələr vermisən. Bu, təsadüfi deyil ki, Heydər Əliyev səni özünə dost seçib. Azərbaycanda 8 milyon adam var, onların da yarısı kişidir. Onların içərisində az adam tapılardı ki, dost deyərdi, onlardan da biri sənsən. Bu həqiqətdir. Mən də buraya ürəklə gəlmişəm. Mən demişdim ki, Lerikə mütləq gələcəyəm. Özü də əliboş gəl-

məmişəm, yol çəkdirib gəlmişəm. Lənkərandan Lerikə qədər yeni, müasir yol salınıb ki, camaat əziyyət çəkməsin, rahat gəlsin-getsin. Çünki mənə demişdilər ki, yol bərbad vəziyyətdədir, gəlib-getmək çətindir, çala-çuxurdur. Bundan sonra başqa işlər olacaq, inkişaf olacaq. Ən əsası odur ki, ürək təmiz olsun, qəlb təmiz olsun. Adam, necə deyərlər, öz hərəkətlərinə məsuliyyət daşısın və sözlə əməl arasında birlik olsun. Bu, atamın yoludur, onun mövqeyidir, mənim də yolumdur. Mən bir xatirə fotoalbomu gətirdim. Bu çox əzizdir. Sənin prezidentlə bütün görüşlərinin şəkilləridir. O şəkillər yəqin ki, sizdə var, amma bunlar bir albomdadır.

**X a n ı ş Ş a h ı y e v:** Mən söz üçün gəzən adam deyiləm. Mən zəhmət adamıyam, nəyinsə xatirinə, kimisə tərifləmərəm. Hər sözün düzü olmadan danışmağa dəyməz. Sənin bircə əmi sözün hər şeydir. Prezident adi bir çobana əmi deyir!

**İ l h a m Ə l i y e v:** Prezident olsam da, olmasam da, mən həqiqəti deyirəm. Prezident bir vəzifədir, böyük məsuliyyətdir.

**X a n ı ş Ş a h ı y e v:** Əminin bir böyüklüyü də odur ki, mən heç vaxt heç kimdən təmənna etmirəm. Ali təhsili olan bir oğlum, üç-dörd nəvəm var. Amma heç kimə söz deməmişəm. Cənab Prezident, burada bir cöngəm var, onu Sizin ayağınız altında kəsərəm.

**İ l h a m Ə l i y e v:** Sağ ol, biz gedək, sonra kəsərsən.

*Prezident İlham Əliyev Xanış Şahıyevə televizor hədiyyə etdi, onun ulu öndər Heydər Əliyev ilə görüşləri zamanı çəkilmiş şəkillərdən ibarət fotoalbomu təqdim etdi.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİNDƏ VƏ RAYON İCTİMAİYYƏTİ İLƏ GÖRÜŞDƏ NİTQ

*8 sentyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 8-də Lənkəran–Lerik avtomobil yolunun açılışından sonra Lerik qəsəbəsinə gəldi.*

*Rayon mərkəzinin və ətpaf kəndlərin minlərlə sakini dövlətimizin başçısını çox böyük səmimiyyətlə, hərarətli alqışlarla qarşıladı. Azərbaycan prezidentinə və xanımına gül dəstələri təqdim edildi.*

*Əvvəlcə burada müstəqil Azərbaycanın memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin büstünün açılış mərasimi oldu. Prezident İlham Əliyev büstün üzərindən ağ örtüyü götürdü, abidənin önünə gül dəstəsi qoydu.*

*Sonra Lerik rayonu ictimaiyyətinin nümayəndələri ilə görüş oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev görüşdə nitq söylədi.*

**İlham Əliyev:** Əziz leriklilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizi öpürəm, bağrıma basıram.

Bu gün çox əlamətdar bir gündür. Lerikdə xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü açıldı. Heydər Əliyevin müasir Azərbaycanın tarixində müstəsna rolu və çox böyük xidmətləri vardır. Bu, Azərbaycanın inkişafına, Azərbaycanın müstəqil dövlət kimi formalaşmasına xidmət olubdur. Sirr deyil ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra çox ağır və-

ziyyətdə idi, çox böyük problemlərlə üzləşmişdi. Hətta o problemlər Azərbaycanın müstəqil dövlət kimi yaşamasını da şübhə altında qoyurdu. Ancaq ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə Azərbaycanda rəhbərliyə qayıdışı vəziyyəti tamamilə dəyişdi. Ölkədə asayiş, sabitlik bərpa olundu, inkişaf başladı. Hər bir inkişafın başlıca şərti sabitlik və insanların rahat yaşamasıdır. Məhz bu amillər hər bir ölkənin inkişafını təmin edir. Azərbaycan da son illər ərzində inkişaf edir. Aparılmış siyasi və iqtisadi islahatlar öz səmərəsini verməkdədir. Son vaxtlar, xüsusilə regional proqramlar həyata keçirilməyə başlandıqdan sonra Azərbaycan daha da sürətlə inkişaf etməyə başladı.

Mən dəfələrlə vəd etmişdim ki, fəaliyyətimin əsas prioritetlərindən biri də regionların inkişafı olacaq, Azərbaycanın hər bir bölgəsi, hər bir kəndi inkişaf etməlidir. Bütün bölgələri gəzərkən, rayonlara səfər edərkən gedən işlərlə özüm şəxsən tanış oluram. Regional inkişaf proqramının icrası ilə tanış olur, inkişafı görəndə, yeniliyi görəndə, abadlıq-quruculuq işlərini görəndə, əlbəttə, çox sevinirəm. Azərbaycanın çox gözəl gələcəyi, çox gözəl perspektivləri vardır. İqtisadi inkişaf baxımından ölkəmiz dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Bizim iqtisadi potensialımız güclənir, sənaye potensialımız güclənir, sosial məsələlər daha da sürətlə öz həllini tapır. İqtisadi imkanlar artır, büdcəmiz artır, maaşlar artır, tələbələrin təqaüdləri, pensiyalar, digər sosial müavinətlər artır. Bu faktdır, artım çox sürətlə baş verir.

İki il bundan əvvəl Azərbaycanda minimum əməkhaqqı 60 min manat idi. Oktyabrın 1-dən minimum əməkhaqqı 150 min manat olacaqdır. Qısa müddət ərzində belə bir inkişafın olması çox böyük göstəricidir. Bizim büdcə xərclərimiz də artır və bu bizə imkan verir ki, bütün məsələlərə daha da diqqətlə yanaşaq.

Bir müddət bundan əvvəl mənə xəbər gəldi ki, Lənkəran–Lerik yolu çox bərbad vəziyyətdədir və demək olar ki, dağılmış vəziyyətdədir. İnsanlar çox böyük əziyyət çəkir. Dərhal Nəqliyyat Nazirliyinə göstəriş verdim ki, təkliflər planı hazırlasınlar və qısa müddət ərzində bu yolun bərpasını təmin etsinlər. O vaxt

demişdim ki, yol bərpa ediləndən, faktiki olaraq yenidən tikiləndən sonra özüm Lerikə gələcək, yolun açılışında iştirak edəcəyəm və özüm burada vəziyyətlə tanış olacağam. Mən sözümün üstündə durdum. Bu gün sizinlə bərabər Lerikdəyəm və buraya gələrkən o yolun açılışını da qeyd elədik.

Yol həyat deməkdir, yol inkişaf deməkdir. Bu həm bölgənin inkişafı üçün çox mühüm bir amildir, eyni zamanda insanlarımızın rahatlığı üçün də çox vacib bir vasitədir. Nə üçün bizim insanlarımız əziyyət çəkməlidir, nə üçün pis yollardan istifadə etməlidir? Axı bizim imkanımız var, maliyyə imkanımız var və iradəmiz də var. Əsas məsələ odur ki, Azərbaycanda güclü iqtisadi bazanın yaradılmasına nail olaq. Əgər bizim büdcə xərclərimizə nəzər salsaq görərik ki, 2004-cü ildə büdcəmiz 1 milyard 500 milyon idi, 2006-cı ildə isə büdcəmiz ən azı 3 milyard 500 milyon dollar olacaqdır. Bu, imkan verəcək ki, maaşlar yenə də qalxsın, pensiyalar qalxsın, digər sosial ödənişlər daha da sürətlə artsın, yeni fabriklər, zavodlar tikilsin, iş yerləri açılsın. Bu gün Lənkəranda aeroportun təməlini qoyduq. O aeroport bütün bölgəyə xidmət edəcəkdir və bu zonada mərkəz aeroport olacaqdır. Eyni zamanda bu gün Lənkəranda müalicə-diaqnostika mərkəzinin təməlinin qoyulmasında da iştirak etdik. Orada ən müasir avadanlıq quraşdırılacaq və bütün bu zonanın insanları da müalicə, müayinə üçün Mərkəzin xidmətindən çox yüksək səviyyədə istifadə edəcəklər.

Astarada bu gün yeni elektrik stansiyasının təməl daşını qoyduq. Dekabrın sonuna qədər stansiya istismara veriləcək, beləliklə, bölgənin elektrik enerjisinə tələbatı ödəniləcəkdir. Lerikə yolun çəkilməsinə nail olduq. İndi tapşırıq verdim ki, Masallı–Yardımlı yolunun çəkilməsinə də başlayaq. Bütün bu işləri biz görürük. Verdiyimiz bütün vədlərə sadiqik və bundan sonra da sadiq olacağıq.

Prezident seçkiləri ərəfəsində mən söz vermişdim ki, əgər bu yüksək etimada layiq görülsəm, Azərbaycan xalqına xidmət edəcəyəm və öz fəaliyyətimlə sübut etməyə çalışacağam ki, Azərbaycan xalqı mənə səs verəndə səhv etmədi. Bu gün çox

böyük qürur hissi ilə sizə bəyan etmək istəyirəm ki, qarşıda duran bütün vəzifələr öz həllini tapır, verilən bütün vədlər icra olunur. Görülən işlər deməyə əsas verir ki, yaxın zamanlarda ölkəmiz daha da güclənəcək, daha da zənginləşəcək və qüdrətli dövlətə çevriləcəkdir.

Əziz dostlar, iqtisadi islahatlar, sosial məsələlərin həlli, Azərbaycanın beynəlxalq nüfuzunun gücləndirilməsi, əlbəttə, çox vacibdir və ölkəmizin gələcəyini təmin edəcək amillərdir. Ancaq eyni zamanda insani əlaqələrə də çox böyük diqqət göstərilməlidir və mən buna da çox böyük ürəklə yanaşıram. Bu gün buraya gələrkən yolda Xanış əmi ilə görüşdük. Bilirsiniz ki, Xanış əmi bizim ailə üçün çox əziz bir insandır. Mən Xanış əmiyə onun xalqımızın ulu öndəri Heydər Əliyevlə birlikdə çəkdirdiyi şəkillərdən ibarət albomu da hədiyyə kimi gətirdim. Bu bir xatirə olacaqdır. Heydər Əliyevin dostu olmaq həm çox böyük məsuliyyətdir, həm də çox böyük şərəf. Bilirsiniz ki, mənim atam Xanış əmiyə dost deyirdi, çox səmimi görüşləri, çox mehriban, açıq söhbətləri olubdur. Bu mənim üçün də bir məktəbdir. Artıq Xanış əmi mənim üçün də doğma bir insandır, mənim əmimdir, bizim ailəmizin üzvüdür və onu burada görməyimdən çox şadam.

Yenə də deyirəm, iqtisadi islahatlar davam edəcək, ölkəmiz güclənəcək, qarşıda duran problemləri həll edəcəyik. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini də biz öz xeyrimizə, ədalətli şəkildə həll edəcəyik. Buna həm siyasi iradə var, həm iqtisadi imkanlar var, həm də indi hərbi potensial da yaranır.

Amma bütün bunlarla yanaşı, biz insani əlaqələrə də böyük diqqət göstərməliyik. Əlbəttə, biz vəzifə sahibiyik, haradasa işləyirik, kiminsə məsuliyyəti daha böyükdür, kiminsə daha da azdır. Amma biz hamımız insanıq, hamımızın da vətəni Azərbaycandır. Hərə öz yerimizdə, öz fəaliyyətimizlə, öz işimizlə ümumi işimizə töhfə verməliyik və veririk. Biz gərək mehriban olaq, bir-birimizə həmişə xoş münasibət göstərək, həmişə bir-birimizin uğurlarına sevinək. Əgər hansısa problem varsa, onu

birlikdə həll edək. Mən çox şadam ki, Azərbaycanda uzun illər ərzində hökm sürən bu gözəl ab-hava, bu gözəl qardaşlıq mühiti davam edir, bu siyasət davam edir. Bu bizim xalqımızın xoşbəxtliyidir, onun gələcəyini müəyyən edəcəkdir. Azərbaycan müasir, həm siyasi, həm də sosial cəhətdən inkişaf etmiş ölkə olmalıdır və olacaqdır.

Mən ilk dəfədir ki, Lerik rayonundayam. Düzdür, əvvəllər Lerik rayonunun ərazisində olmuşam. Amma qəsəbəyə ilk dəfədir ki, gəlmişəm. Eşitmişəm ki, məndən əvvəl burada yüksək vəzifəli şəxslər olmamışdır. Bəziləri olmuşdur, amma başqa məqsədlə gəlmişdilər, yəni xoş niyyətlə gəlməmişdilər. Mən isə xoş niyyətlə gəlmişəm. Azərbaycanın hər bir bölgəsi mənim üçün doğmadır, əzizdir, mənim vətənimdir. Azərbaycanın ən ucqar rayonlarından biri olan Lerikin inkişafına da çox böyük diqqət göstərilir. Yolun çəkilməsi, məktəblərin tikintisi, abadlıq-quruculuq işlərinin aparılması, rayonun inkişafı – bütün bu işlər var və daha da sürətlə gedəcəkdir. Mən şübhə etmirəm ki, hələ bundan sonra da bizim çoxlu görüşlərimiz olacaqdır və mən buraya çox gələcəyəm. Hər dəfə gələndə də istəyirəm ki, yenilik görəm, abadlıq görəm, inkişaf görəm.

Əziz bacılar və qardaşlar, sizi bir daha səmimi-qəlbdən salamlayıram, sizə öz dərin hörmət və məhəbbətimi ifadə edirəm, sizə cansağlığı və xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

*Prezident İlham Əliyev sonra rayon sakinləri ilə səmimi hal-əhval tutdu, onların qayğıları və problemləri ilə maraqlandı, şikayətlərini dinlədi. Bildirdi ki, bütün məsələlər diqqətlə araşdırılacaq və lazımi tədbirlər görüləcəkdir.*

## Tarix-diyarşünaslıq muzeyi ilə tanışlıq

Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 8-də Lerik rayon Tarix-Diyarşünaslıq muzeyi ilə tanış olmuşdur.

Rayon mədəniyyət şöbəsinin müdiri Həmzə Vəliməmmədov dövlətimizin başçısına muzeyin tarixi və burada saxlanılan eksponatlar barədə məlumat verdi. Bildirildi ki, rayon kimi yaranmasının 75 illiyi bu il qeyd olunan Lerik Azərbaycanın qədim tarixə malik bölgələrindəndir. Tarix-Diyarşünaslıq muzeyinin binası ümummilli liderimiz Heydər Əliyevin göstərişi ilə ötən əsrin 80-ci illərində tikilmişdir. 5 bölmədən ibarət muzeydə 4 min eksponat nümayiş etdirilir. Onların arasında eramızdan əvvəl XIV–XII əsrlərə aid tunc xəncərlər, ox ucluqları, amuletlər və s. maddi mədəniyyət nümunələri vardır.

Muzeydə müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, ümummilli lideri Heydər Əliyevə həsr olunmuş xüsusi bölmə yaradılmışdır. Vətən uğrunda döyüşlərdə həlak olmuş lerikli şəhidlərə – beş Milli Qəhrəmana həsr olunmuş guşələr də vardır. Hazırda muzeyin binasında yüksək səviyyəli təmir-bərpa işləri aparılır və artıq başa çatmaqdadır.

Prezident İlham Əliyev muzeylə yaxından tanış oldu, burada saxlanılan eksponatların rayonun qədim tarixini əks etdirən nümunələr kimi qiymətli olduğunu vurğuladı.

Dövlətimizin başçısına xatirə olaraq Lerik rayonunun mənzərəsi çəkilmiş tablo hədiyyə edildi.

## Kənd təsərrüfatı məhsulları sərgisində

*Sentyabrın 8-də Azərbaycan prezidenti İlham Əliyev Lerik qəsəbəsində təşkil olunmuş kənd təsərrüfatı məhsulları sərgisinə baxmışdır.*

*Sərgidə yerli fiziki və hüquqi şəxslərin istehsal etdikləri məhsullar, habelə sənaye məhsulları təqdim olunmuşdur.*

*Prezident İlham Əliyev mineral su istehsal edən «Zərinqala» Məhdud Məsuliyyətli Cəmiyyətinin, «Yüksəliş» arıçılıq təsərrüfatının, kənd təsərrüfatı məhsulları istehsal edən «Sədrəddin və ortaqları» fermer təsərrüfatının, Lerik konserv zavodunun, sənaye məhsulları istehsal edən «Şahmurad», «Nurlan» müəssisələrinin, «Azərxalça» İstehsalat Birliyinin*

*Lerik xalça sexinin məhsulları ilə, «Meşəbəyi» ailəvi istirahət zonasının, «Təbəssüm» turizm, istirahət və əyləncə mərkəzinin fotosərgiləri ilə yaxından tanış oldu. Tikinti materialları istehsal edən «Mars-M» firmasının, sənaye məhsulları istehsal edən «Kaspi Yıldız» Holdinq Şirkətinin, Lerik damazlıq arıçılıq təsərrüfatının, «Niftan» fermer təsərrüfatının və başqalarının məhsulları da maraq doğurdu.*

*Sahibkarlar prezident İlham Əliyevə minnətdarlıqlarını bildirərək iş adamlarına, özəl sektora yaradılan şəraitdən razılıqlarını söylədilər, eyni zamanda, kreditlə bağlı bəzi problemlərin olduğunu vurğuladılar. Bildirdilər ki, əgər maliyyə köməyi olarsa, fəaliyyəti genişləndirmək və iş yerlərinin sayını artırmaq mümkündür.*

*Azərbaycan prezidenti sahibkarlara dövlət qayğısının bundan sonra da artırılacağını, gələn il kredit ayrılması üçün 400 milyard manat vəsaitin ayrılacağını vurğuladı. Dövlətimizin başçısı gözəl təbiətə malik bu bölgədə özəl sektorun inkişafına xüsusi qayğı göstəriləcəyini də bildirdi.*

*Sonra dövlətimizin başçısına xatirə hədiyyələri təqdim olundu.*

## Valeh İbrahimov adına Lerik qəsəbə orta internat məktəbi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Lerik rayonuna səfərinin sonunda Valeh İbrahimov adına Lerik qəsəbə orta internat məktəbində olmuşdur.*

*Dövlətimizin başçısı və xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 1960-cı ildə tikilmiş və əsaslı təmirə ehtiyacı olan məktəb binasının vəziyyəti ilə yaxından tanış oldular, eyni zamanda, fənn kabinetlərinə baxdılar, tədris üçün şəraitlə, dərsliklərlə təminatın vəziyyəti ilə maraqlandılar.*

*Məktəbin direktoru, elmlər namizədi Musa Bədəlov bildirdi ki, burada 180 şagird təhsil alır. Bina çox köhnəldiyindən təmirə böyük ehtiyacı vardır.*

*Prezident İlham Əliyev binanın əsaslı təmiri üçün yaxın vaxtlarda hər cür kömək göstəriləcəyini bildirdi.*

*Prezident İlham Əliyev məktəbin xatirə kitabına ürək sözlərini yazdı:*

«Azərbaycan dili və ədəbiyyat kabineti uşaqların ana dilinin mükəmməl öyrənilməsi işində böyük rol oynayır. Bizim ədəbiyyatımız, ana dilimiz müstəqil Azərbaycan Respublikasının inkişafında çox böyük əhəmiyyət kəsb edir. Arzu edirəm ki, uşaqlar ədəbiyyatımızı yaxşı oxusunlar, yaxşı tərbiyə alsınlar, yaxşı vətəndaş olsunlar. İnternat məktəbinin təmirə böyük ehtiyacı vardır. Yaxın zamanlarda burada əsaslı təmirə başlayacağıq. İnternat məktəbinin kollektivinə və burada oxuyan bütün uşaqlara uğurlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

***8 sentyabr 2005-ci il».***

*Məktəbin direktoru Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya öz kitabını hədiyyə etdi.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MASALLI RAYONUNDA

*9 sentyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da Masallı rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı yolüstü Masallı şəhərinin girəcəyində inşa edilən Olimpiya İdman Kompleksində tikinti işlərinin gedişi ilə yaxından tanış oldu. Olimpiya kompleksinin təməli ötən ilin noyabrında Azərbaycan prezidenti tərəfindən qoyulmuşdur.*

*Buraya toplaşan inşaatçılar və şəhər sakinləri prezident İlham Əliyevi sürəkli alqışlarla və ehtiramla qarşıladılar.*

*Prezidentə məlumat verildi ki, bu ilin noyabrında tikinti başa çatdırılacaq, gələn ilin may ayınadək isə kompleks tam istifadəyə veriləcəkdir.*

*Dövlətimizin başçısı tikinti işlərinin sürətləndirilməsi və keyfiyyətlə aparılması üçün müvafiq tövsiyə və tapşırıqlarını verdi. Kompleksin memarlıq baxımından gözəl olmasının və bütün işlərin ən yüksək səviyyədə görülməsinin vacibliyini vurğuladı.*

*Olimpiya kompleksində örtülü üzgüçülük hovuzu, futbol meydançası, tennis kortları, avtodayanacaqlar və digər xidmət obyektləri tikiləcək, idmançılar üçün hər cür şərait yaradılacaqdır.*

## MASALLI ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİ ÖNÜNDƏ RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*9 sentyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevi Masallı şəhərinin mərkəzində on minlərlə sakin böyük hörmət və ehtiramla, alqışlarla, gül-çiçəklə qarşıladılar. Prezidenti qarşılamağa gələnlərin əllərində Azərbaycanın dövlət bayraqları, ulu öndərimiz Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, dövlətimizin başçısını salamlayan şüarlar var idi.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoydular.*

**İlham Əliyev:** Əziz masallılılar!

Əziz bacılar və qardaşlar!

Sizin hamınızı ürəkdən salamlayıram, sizi öpürəm, bağrıma basıram. Mən çox şadam ki, yenidən Masallıdayam, sizinlə görüşürəm. Bildiyiniz kimi, dünəndən mən cənub bölgəsindəyəm, müxtəlif görüşlər keçirmişəm. Görürəm ki, bu bölgədə inkişaf çox sürətlə gedir. İndi ağsaqqal 1970-ci illəri xatırlatdı. Həqiqətən, o illərdə Azərbaycanın bütün bölgələri inkişaf edirdi. Azərbaycanın rayonları, kəndləri abadlaşdı. İnsanlar daha da yaxşı yaşamağa başladılar. Məhz o illərdə Azərbaycanın inkişaf strategiyası işlənildi və icra olunmağa başladı. Azərbaycan hərtərəfli inkişaf etməyə başladı və əgər statistik göstəricilərə nəzər salsaq görərik ki, 1970-ci illər inkişaf baxımından, iqtisadi potensialın güclənməsi baxımından Azərbaycanın tarixində ən önəmli illər olmuşdur. O illərdə ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının rifah halının yaxşılaşmasına çox çalışırdı və həqiqətən də, kəndlərdə həyat dəyişdi. İnsanlar daha yüksək

maaş almağa başladılar, kənd təsərrüfatı istehsalı artdı. Beləliklə, Azərbaycanda insanlar daha yaxşı yaşamağa başladılar.

Ondan sonrakı dövr Azərbaycan tarixində çox böyük çətinliklərlə yadda qaldı. Çünki Heydər Əliyev Azərbaycandan gedəndən sonra ölkədəki inkişaf yavaş-yavaş tənəzzülə uğradı və 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində artıq ölkə idarəolunmaz vəziyyətə gəlib çıxmışdı. 1990-cı illərin əvvəllərində Azərbaycana rəhbərlik edən şəxslər ölkəmizi tamamilə məhvə aparırdılar və onun gələcəyi qeyri-müəyyən idi. Ölkədə iqtisadi böhran hökm sürürdü. Hərbi və siyasi böhran da ölkəmizi çox çətin vəziyyətə salmışdı. Nəzərə alsaq ki, o illərdə Ermənistan Azərbaycana qarşı təcavüz edirdi və müharibə gedirdi, təsəvvür etmək çətin deyil ki, bizi hansı bəlalar gözləyirdi. Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışı ölkəmizi bu bəlalardan qurtardı, inkişafa qədəm qoyduq və bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. Həmin inkişafın təməli məhz o illərdə qoyulmuşdu. Sabitlik, əmin-amanlıq yaradılandan sonra ölkəmiz çox sürətlə inkişaf etməyə başladı.

İndi mənim regionlara səfərlərim də bu məqsədi güdür. Bilirsiniz ki, keçən ilin əvvəllərində regionların sosial-iqtisadi inkişaf proqramı işlənildi, qəbul edildi və artıq bu proqram icra olunur. Özü də çox uğurla icra edilir. Proqramda nəzərdə tutulmuşdur ki, 2008-ci ilə qədər Azərbaycanda 600 min yeni iş yeri açılacaqdır. Artıq indi Azərbaycanda 300 minə qədər yeni iş yeri açılıbdır. Bu onu göstərir ki, bizim qarşımıza qoyduğumuz məsələlər real məsələlərdir, o məsələlərin həlli yolları var və bunlar həll olunur. Ölkə iqtisadiyyatı inkişaf edir, sənaye potensialı artır, büdcəmiz kəskin surətdə artır. Əgər 2004-cü ildə büdcə 1 milyard 300 milyon dollar idisə, 2006-cı ilin büdcəsi ən azı 3 milyard 500 milyon dollar olacaqdır. Bu, dünyada görünməmiş bir göstəricidir, artımdır, böyük nəticədir. Şübhəsiz, bizə imkan verəcək ki, ölkəmizin bütün iqtisadi və sosial problemlərini həll edək.

Bu bölgədə görülən işlər yaxın zamanlarda gözəl nəticələrini verəcəkdir. Dünən Astarada yeni elektrik stansiyasının təməlini qoyduq.

Çox qısa müddət ərzində, ilin sonuna qədər stansiya işə başlayacaq və 90 meqavat elektrik enerjisi verəcəkdir ki, bu da bütün bu zonanın işıqla təmin olunmasını təmin edəcəkdir. Eyni zamanda, magistral qaz kəməri təmir olundu. Astara–Qazıməmməd qaz kəməri uzun illər çox bərbad vəziyyətdə idi. Biz onu təmir elədik və indi yüksək təzyiqlə qazın nəqli mümkündür. Nəzərə alsaq ki, Azərbaycanda qaz hasilatı ildən-ilə artırılacaq, yaxın zamanlarda bölgələrdə qaz problemi də aradan qaldırılmalıdır. Lənkəranda yeni aeroportun, yeni regional müalicə-diaqnostika mərkəzinin tikintisi – bütün bunlar xalqa xidmət edəcək, Azərbaycanın inkişafına xidmət edəcəkdir.

Bu bölgənin çox böyük potensialı, çox böyük imkanları var. Biz gərək bu imkanlardan səmərəli istifadə edək. Əlbəttə ki, investisiya qoyuluşu, sahibkarlığa yardım strategiyası daha da güclənməlidir. Bu il sahibkarlığın inkişafına dövlət büdcəsindən 200 milyard manat vəsait ayrılmışdır, gələn il isə bu məbləğ 400 milyard manat olacaqdır. Yəni bizdə artım 5, 10, 15 faiz deyil, 50, 60, 70 faizdir. Bu, sosial sahədə də özünü büruzə verir. 2003-cü ildə Azərbaycanda minimum əməkhaqqı 60 min manat idi, yəni ən aşağı maaş alan 60 min manat alırdı. Oktyabrın 1-dən Azərbaycanda minimum əməkhaqqı 150 min manat olacaqdır. Əlbəttə, 150 min manat da bizi qane edə bilməz. Bu elə məbləğ deyil ki, insanın normal həyatını təmin etmək üçün şərait yaratsın. Amma bu bir dinamikadır, meyldir, artımdır. Mən ümid edirəm ki, gələcəkdə də bütün sahələrdə artım bu templə gedəcəkdir.

Bir məsələni də istəyirəm sizin diqqətinizə çatdırım. Uzun illərdir ki, keçmişdə banklara qoyulmuş əmanətlər dondurulmuş vəziyyətdə qalmışdır. Bizim imkanımız yox idi ki, bu əmanətləri əhaliyə qaytaraq.

Mən qərar qəbul etdim ki, gələn ildən əmanətlərin qaytarılmasına başlayaq. Biz buna başlayacağıq və sovet dövründə əmanət kitabçalarında qalmış pullar yavaş-yavaş, əlbəttə ki, müəyyən olunmuş əmsalla qaytarılacaqdır.

Kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilir. Masallıda da kənd təsərrüfatı çox inkişaf edir. «Aqrolizinq» Səhmdar Cəmiyyətinin yaranması da bu məqsədi güdür. Kənd təsərrüfatı ilə məşğul olmaq üçün ilk növbədə pul lazımdır, texnika və gübrə lazımdır. Əgər bunlar yoxdursa, inkişaf mümkün deyildir. Ona görə ilk növbədə vəsaitin ayrılması nəzərdə tutulub və kreditlərin həcmi artırılacaqdır. Digər tərəfdən, «Aqrolizinq» tərəfindən texnika artıq alınıb və kəndlilərə pulsuz, icarə formasında veriləcəkdir. Eyni zamanda, gübrələr də alınacaq və veriləcəkdir. Biz gərək bütün istiqamətlərdə bir məqsədə qulluq edək, xidmət edək ki, ölkəmizi necə daha da gücləndirək, insanların həyat səviyyəsini necə yaxşılaşdıraq.

Bunun müxtəlif yolları var. Əlbəttə ki, büdcəmiz artır və büdcə xərcləri də artacaqdır. Maaşlar, təqaüdlər, pensiyalar artır və gələcəkdə də artırılacaqdır. Ancaq eyni zamanda, sahibkarlıq da inkişaf etməlidir. Bunu inkişaf etdirmək üçün dövlət vəsait ayırır, yerli sahibkarlara da gərək yaxşı şərait yaradılsın. Onların işinə müdaxilə olunmasın, əksinə, yerli icra orqanları sahibkarlara kömək etməlidir. Biz inkişaf etmiş ölkələrin təcrübəsini yaxşı bilirik. O ölkələrdə ki, orta sahibkarlıq inkişaf edib, o ölkələr çox sürətlə inkişaf edir. Ona görə inkişaf yolu budur: dövlət siyasəti, dövlət strategiyası və yerlərdə onun icrası və bütün göstərişlərin yerinə yetirilməsi.

Azərbaycanda xalqımızın lideri Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı illərin ortalarında başlanmış neft strategiyası da öz gözəl nəticələrini verməkdədir. Neft kəmərlərinin tikintisi, qaz kəmərlərinin yaranması, Azərbaycan neftinin dünya bazarlarına çıxarılması nəticə etibarilə artıq ölkəmizi iqtisadi cəhətdən çox gücləndiribdir. Büdcə gəlirlərinin artımının bir hissəsi də bunun hesabınadır. Bizim Neft Fondumuz vəsaitləri çox şəffaf idarə edir. Bizim Dövlət Neft Şirkətimiz öz potensialını gücləndirir. Nəzərə alsaq ki, gələn ildən Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəcək, təsəvvür etmək mümkündür ki, Azərbaycanda hansı böyük imkanlar yaranacaq, bizim qarşımızda hansı imkanlar açılacaqdır. Biz bu imkanlardan, daxil olacaq vəsaitdən

çox səmərəli istifadə etməliyik və hər bir vətəndaş öz gündəlik həyatında bunun nəticələrini görməlidir.

Maaşların, pensiyaların artırılması artıq bu istiqamətdə atılmış çox önəmli addımdır. Gələcəkdə biz bunları daha da böyük həcmdə artırmalıyıq. Çünki Azərbaycan xalqının bir hissəsinin yoxsulluq səviyyəsində yaşaması bizi qane edə bilməz. Biz bunu qəbul edə bilmərik. Ölkə prezidenti kimi, şəxsən mən qəbul edə bilmərəm ki, Azərbaycanda yoxsulluq səviyyəsində yaşayanların sayı belə çoxdur. Nə üçün bu belə olmalıdır? Hansı səbəblərə görə? Bu səbəblər aydındır. Azərbaycana vurulmuş o zərbələr ölkəmizi iqtisadi cəhətdən elə zəiflətdi ki, biz hələ indi-indi özümüzə gəlirik. Bir rəqəmi də sizə xatırlada bilərəm. Ancaq 2005-ci ildə Azərbaycan öz iqtisadi potensialına görə 1990-cı ilin səviyyəsinə gəlib çıxmışdır. Görün, o illərdə ölkəmizə nə qədər böyük zərbələr vuruldu ki, 1990-cı ilin səviyyəsinə çıxmaq üçün bizə 15 il vaxt lazım oldu. Biz bu 15 ili, demək olar ki, itirdik. Əgər 1980-ci illərin sonunda, 1990-cı illərin əvvəllərində ölkəmizə rəhbərlik edən bacarıqsız, səriştəsiz, xəyanətkar adamlar o bəd əməlləri törətməsəydilər, yaxud da, ümumiyyətlə, siyasətdən uzaq olsaydılar, əlbəttə ki, belə çətin vəziyyətə düşməzdik. Ona görə bu gün Azərbaycan əhalisinin bir hissəsinin yoxsulluq səviyyəsində yaşamasının səbəbkarları məhz onlardır. Biz isə çalışırıq ki, bunu aradan qaldıraq və qısa müddət ərzində, son il yarım ərzində yoxsulluğun səviyyəsi 50 faizdən 40 faizə düşübdür. Gələn il daha da aşağı düşəcəkdir. Mən qarşıya məqsəd qoymuşam ki, Azərbaycanda bir nəfər də yoxsul adam olmamalıdır. Azərbaycan xalqı yaxşı yaşamalıdır, bizim buna haqqımız çatır. Bizim siyasi iradəmiz var və biz bunu təmin edəcəyik.

Əziz dostlar!

Mən hər dəfə cənub bölgəsinə gələndə, inkişafı görəndə, bu gözəl ab-havanı görəndə çox sevinirəm. Sevinirəm ki, bu bölgə çox sürətlə inkişaf edir. Dediyim kimi, bu bölgənin böyük potensialı var və biz hamımız çalışmalıyıq ki, bundan çox səmərəli istifadə edək. Elə edək ki, qısa müddət ərzində burada inkişaf daha da sürətlə getsin. Bu da olacaqdır. Yeni elektrik stansiyala-

rının tikintisi, qaz xətlərinin çəkilməsi, yeni yolların salınması, digər infrastruktur layihələrin həyata keçirilməsi, məktəblərin, xəstəxanaların tikintisi – bütün bunlar artıq reallıqdır, Azərbaycanın reallıqlarıdır. Biz öz işimizlə məşğul oluruq. Biz heç bir başqa ölkənin daxili işinə qarışmırıq. Biz öz xarici siyasətimizi də məhz milli maraqlarımızın qorunması üzərində qururuq.

Biz istəyirik ki, Azərbaycanda sülh olsun, sabitlik olsun, əmin-amanlıq olsun, əməkdaşlıq olsun. Qonşularımızla əlaqələrimiz də bu məqsədə xidmət edir. Görürsünüz ki, bizim qonşularımızla heç bir problemimiz yoxdur. Əvvəllər bəzi problemlər olmuşdur. Onlar tamamilə aradan qaldırıldı. Eyni zamanda, biz öz milli maraqlarımızı ən yüksək səviyyədə qoruyuruq və imkan verə bilmərik ki, hansısa məsələdə güzəştə gedək. Heç bir güzəştə də getmirik, getməyəcəyik də. Bizim buna siyasi iradəmiz də var, gücümüz də var. Ona görə Azərbaycanın xoşbəxt gələcəyi, Azərbaycanın hərtərəfli inkişafı məndə şübhə doğurmur. Biz buna nail olacağıq. Bunu etmək üçün, əlbəttə ki, iqtisadi islahatlar da bu sürətlə getməlidir və siyasi islahatlar da getməlidir. Bu proses də gedir.

Bilirsiniz ki, noyabrda parlament seçkiləri olacaqdır. Mən şübhə etmirəm ki, seçkilər tam ədalətli və şəffaf keçiriləcəkdir. Artıq birinci mərhələ başa çatdı və bildiyiniz kimi, heç bir irad ifadə edilmədi. Birinci mərhələ çox ədalətli, bütün qanunlara uyğun şəkildə başa çatdı. Əminəm ki, seçki kampaniyası da, təşviqat kampaniyası da eyni şəkildə keçəcəkdir. Bütün namizədlərə eyni şərait yaradılmalıdır. Bilirsiniz ki, may ayının 11-də mən seçki praktikasının təkmilləşdirilməsinə dair sərəncam imzalamışam. Bu sərəncam hər bir yerdə icra olunmalıdır. Yerli icra orqanları seçki prosesinə müdaxilə etməməlidir. Əksinə, çalışmalıdırlar ki, bütün namizədlərə eyni şərait yaradılsın ki, seçkilər tam ədalətli və şəffaf keçirilsin. Şübhə etmirəm ki, belə də olacaqdır. Eyni zamanda, şübhə etmirəm ki, bizim siyasətimiz, gördüyümüz işlər Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndiriləcək və Azərbaycan xalqı inandığı, inam qazanan, etimad qazanan, işləri görən namizədlərə səs verəcəkdir. Boşboğazlığın vaxtı çoxdan keçibdir. Yalançı vədlərə, qeyri-real

təkliflərə, yaxud da hansısa ideyalara heç kim inanmır. Azərbaycan xalqı çox yaxşı bilir ki, kim-kimdir, kim işlə məşğul olur, öz xalqına xidmət edir, gündəlik fəaliyyətində çalışır ki, Azərbaycan daha da möhkəmlənsin. Kimsə öz çirkin siyasi hikkələri naminə gedib istənilən qüvvələrlə işbirliyinə də girə bilər. Ona görə mən əminəm ki, Azərbaycan xalqı bu seçkilərdə öz düzgün seçimini edəcək və seçkilərdən sonra ölkəmiz daha da güclənəcəkdir. Bu bizim qarşımızda yeni üfüqlər açacaq, Azərbaycan Dünya Birliyinə daha da sürətlə inteqrasiya etməyə başlayacaq, siyasi və iqtisadi islahatlar daha da sürətlə aparılacaq və nəticədə Azərbaycan daha da möhkəmlənəcəkdir. Mənim məqsədim budur və bu məqsədlə, bu məramla xalqın dəstəyi ilə bu vəzifəyə gəlmişəm.

Mənim başqa heç bir niyyətim yoxdur. İstəyirəm ki, Azərbaycan gələcək illərdə möhkəm dövlətə çevrilsin. Regiondakı mövqelərimiz indi də çox güclüdür. Azərbaycan həm siyasi cəhətdən, həm iqtisadi cəhətdən, həm də hərbi cəhətdən regionda lider dövlətdir, bunu hamı etiraf edir. Bizim hərbi xərclərimiz gələn il 600 milyon dollar olacaqdır. Bilirsiniz ki, mən qarşıya vəzifə qoydum ki, bizim hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və biz bu məqsədə nail olacağıq. Bir halda ki, mən bu vəzifəni qarşıya qoymuşam, buna nail olmalıyıq.

Əziz dostlar!

Mən hamınızı bir daha ürəkdən salamlayıram. Arzu edirəm ki, Masallıda bundan sonra da inkişaf sürətlə getsin, burada hər şey yaxşı olsun, əmin-amanlıq olsun, siz yaxşı yaşayasınız. Prezident kimi, mən də əlimdən gələni edəcəyəm ki, hamımız birlikdə buna nail olaq. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

*Sonra prezident İlham Əliyev rayon sakinlərinə yaxınlaşaraq səmimi görüşdü, hal-əhval tutdu, onların qayğı və problemləri ilə maraqlandı. Sakinlər ulu öndərimiz Heydər Əliyevin tarixi xidmətlərini, Masallıya səfərlərini xatırlatdılar və regionun inkişafına göstərdiyi qayğıya görə dövlətimizin başçısına təşəkkürlərini bildirdilər.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MASALLI RAYONUNDA

*9 sentyabr 2005-ci il*

## Heydər Əliyev parkı ilə tanışlıq

*Sentyabrın 9-da Azərbaycan prezidenti İlham Əliyev Masallı şəhərində salınmış və xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan parkla tanış olmuşdur. Parkın qarşısında toplaşan sakinlər dövlətimizin başçısını böyük hörmət və ehtiramla, mehribanlıqla salamladılar.*

*Prezident İlham Əliyev parkın görünüşünü əks etdirən fotostendə baxdı. Rayon İcra Hakimiyyətinin başçısı parkda görülmüş işlər barədə məlumat verdi, o cümlədən 16 metr diametrində dairəvi fəvvarə yaradıldığını bildirdi. Parkın ərazisindəki köhnə yay kinoteatr binası da yenidən qurularaq, burada Heydər Əliyev muzeyi yaradılmışdır. Muzeyin sahəsi 620 kvadratmetrdir.*

*Eyni zamanda, bildirildi ki, parkda ümummilli liderimiz Heydər Əliyevin böyük abidəsi də ucaldılacaqdır.*

*Prezident İlham Əliyev parkla yaxından tanış oldu, Heydər Əliyev muzeyinə, ulu öndərin abidəsi ucaldılacaq yerə baxdı. Yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı Masallıda fəaliyyət göstərən müəssisələrin istehsal etdiyi məhsullardan ibarət sərgi ilə də tanış oldu, çeşidləri ilə maraqlandı. Onlara göstərilən qayğıya görə prezidentə minnətdarlıq edən sahibkarlar istehsal sahələrinin daha da genişləndirilməsi, yeni iş yerlərinin açılması üçün regionların sosial-iqtisadi inkişafı proqramına uyğun olaraq fəaliyyət göstərdiklərini bildirdilər.*

*Prezident İlham Əliyev bu sahədə onlara dövlət tərəfindən daim qayğı göstəriləcəyini vurğuladı.*

## Masallı Ticarət Mərkəzi ilə tanışlıq

*Sentyabrın 9-da Azərbaycan prezidenti İlham Əliyev Masallıda kənd təsərrüfatı məhsulları satılan ticarət mərkəzində olmuşdur.*

*Mərkəzin direktoru Nizami Alışov dövlətimizin başçısına məlumat verərək bildirdi ki, 2004-cü ildə istifadəyə verilmiş ticarət mərkəzinin sahəsi 0,65 hektar, smeta dəyəri 2,2 milyard manatdan çoxdur. Burada 500 nəfər özünə yeni iş yeri tapmışdır. İrandan gətiriləcək texnologiya hesabına şirniyyat məhsulları da istehsal ediləcəkdir.*

*Vəziyyətin günbəgün yaxşılaşdığını söyləyən ticarətçilər yaradılan şəraitə görə minnətdarlıqlarını bildirərək, bu diqqət və qayğının rayon sakinləri tərəfindən rəğbətlə qarşılandığını söylədilər və prezidentə xoş arzularını yetirdilər. Prezident İlham Əliyev burada satılan məhsulların keyfiyyəti ilə maraqlandı, ticarətçilərə işlərində uğurlar arzuladı.*

## «Fəxrəddin–K» Məhdud Məsuliyyətli Cəmiyyətin kərpic zavodunda

*Prezident İlham Əliyev Masallıya səfərinin sonunda «Fəxrəddin-K» Məhdud Məsuliyyətli Cəmiyyətin kərpic zavoduna gəlmişdir. Fəhlələr dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.*

*Zavodun direktoru Fəxrəddin Baxşıyev prezidentə məlumat verdi ki, zavod 1989-cu ildə tikilmişdir. O vaxt sahəsi 2,5 hektar, illik gücü 3 milyon ədəd idi. 1997-ci ildə müəssisə tam özəlləşdirildikdən sonra sahəsi 10 hektara, illik gücü isə 60 milyon ədədə çatdırılmışdır. Hazırda burada 380 nəfər işçi çalışır. Müəssisə kirəmit, divar üzlükləri istehsal edir. Zavodu elektrik enerjisi ilə davamlı təmin etmək üçün ayrıca yardımçı stansiya tikilmişdir.*

*Zavodun 24 avtomobili və traktoru var. Fəhlələri işə gətirib-aparmaq üçün 4 avtobus ayrılmışdır.*

*Prezident İlham Əliyev zavodun sexlərini gəzdi, istehsal prosesini izlədi, burada yaradılan şəraiti və görülən işləri yüksək qiymətləndirdi. Bu cür müəssisələr hesabına ölkənin iqtisadi tərəqqisinə nail olunduğunu və regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla həyata keçirildiyini vurğuladı və zavodun kollektivinə müvəffəqiyyətlər arzuladı.*

*Dövlətimizin başçısı daha sonra zavodun istehsal etdiyi məhsulların çeşidləri ilə də tanış oldu, ümummilli liderimiz Heydər Əliyevin Masallıya səfərləri zamanı çəkilmiş fotoşəkillərə baxdı.*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA MASALLI RAYONUNUN TƏZƏKƏND MƏKTƏBİNDƏ

*9 sentyabr 2005-ci il*

*Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva sentyabrın 9-da dövlətimizin başçısının cənub bölgəsinə səfəri çərçivəsində Masallı rayonunda tikintisi yenicə başa çatmış Təzəkənd məktəbində olmuşdur.*

*İnşaatçılar, müəllimlər, məktəblilər, valideynlər Mehriban xanımı səmimiyyətlə qarşıladılar. Hörmətli qonağa gül dəstəsi təqdim olundu.*

*Fondun prezidentinə məlumat verildi ki, 22 sinif otağı olan məktəb binası cəmi 42 günə inşa edilmişdir. Burada 35 müəllim 500-dək şagirdin təlim-tərbiyəsi ilə məşğul olacaqdır.*

*Heydər Əliyev Fondunun vəsaiti hesabına inşa edilmiş yeni tədris ocağının tikintisindən olduqca razı qalan kənd sakinləri Mehriban xanıma təşəkkürlərini bildirdilər, ona xalqımızın gələcəyi naminə xeyirxah işlərində uğurlar arzuladılar.*

*Mehriban Əliyeva rəhbərlik etdiyi Fondun vəsaiti hesabına «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində gələn il respublikamızda daha 500 məktəb binasının tikiləcəyini bildirdi.*

*YUNESKO-nun Xoşməramlı səfiri sonra kənd sakinləri ilə səmimi söhbət etdi, onların qayğıları və problemləri ilə maraqlandı, yeni məktəbdə çalışacaq müəllimləri, təhsil alacaq şagirdləri təbrik edərək uğurlar arzuladı, onlarla xatirə şəkli çəkdirdi.*

* * *

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva dövlətimizin başçısının cənub bölgəsinə səfəri çərçivəsində Masallı rayonunun Yeddioymaq kəndindəki 1nömrəli orta məktəbdə də olmuşdur.

Məktəbin pedaqoji kollektivinin nümayəndələri, şagirdlər, valideynlər Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar. Müasir standartlara cavab verən 400 yerlik məktəb binasında təlim-tədris prosesinin normal təşkili üçün hər cür şərait yaradılmışdır.

Fondun prezidenti əvvəlcə məktəbin foyesində yaradılmış Heydər Əliyev guşəsinə baxdı. Sonra ayrı-ayrı fənn kabinetləri, sinif otaqları və kompüter otağı ilə tanış oldu, təhsil müəssisəsinin dünənini və bu gününü əks etdirən fotostendlərə baxdı. Azərbaycan xalqının tarixinin müxtəlif dövrlərini əks etdirən, torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban verən qəhrəmanların fotolarından ibarət guşələr diqqəti cəlb edirdi. Mehriban Əliyevaya məlumat verildi ki, məktəb hər cür texniki avadanlıqla, müasir kompüterlərlə təchiz olunmuşdur.

YUNESKO-nun Xoşməramlı səfiri yeni tikilmiş idman salonuna da baxdı, istilik təchizatı sistemi ilə maraqlandı.

Mehriban xanım Əliyeva sonra müəllim və şagirdlərlə, valideynlərlə səmimi söhbət etdi, kənd camaatının qayğıları və problemləri ilə maraqlandı, Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində görülən işlərdən danışdı və bunun gələcəkdə də davam etdiriləcəyini vurğuladı.

# YARDIMLIDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİNDƏ VƏ RAYON İCTİMAİYYƏTİ İLƏ GÖRÜŞDƏ NİTQ

*9 sentyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev respublikanın cənub bölgəsinə səfəri çərçivəsində sentyabrın 9-da Yardımlı rayonuna gəlmişdir.*

*Rayon mərkəzinin girəcəyində dövlətimizin başçısını minlərlə sakin böyük hörmət və ehtiramla qarşıladı. Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül-çiçək dəstələri təqdim olundu.*

*Son vaxtlar Yardımlı rayonunda quruculuq-abadlıq işləri genişlənmiş, yeni obyektlərin tikintisinə başlanmışdır. Onlardan bir neçəsi istifadəyə verilmişdir.*

*Belə obyektlərdən biri də həmin gün açılış mərasimi keçirilən Heydər parkı idi. Mayın 25-dən tikintisinə başlanan bu park ulu öndərin adını daşıyan küçənin başlanğıcında – Masallı–Yardımlı magistral yolunun kənarında salınmışdır. Parkın uzunluğu 122 metr, eni 43 metrdir. Dağlıq ərazi üçün bu heç də az deyildir.*

*Parkda ümummilli lider Heydər Əliyevin büstü ucaldılmışdır. Postamentlə birlikdə onun hündürlüyü 3,9 metrdir. Parkda sakinlərin istirahəti üçün gözəl şərait yaradılmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev ümummilli liderimizin büstünün üzərindən ağ örtüyü götürdü. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva büstün önünə gül qoydular.*

*Sonra Yardımlı rayonu ictimaiyyətinin nümayəndələri ilə görüş oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev görüşdə nitq söylədi.*

**İ l h a m   Ə l i y e v:** Əziz bacılar və qardaşlar!

Əziz yardımlılılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz dərin hörmət və məhəbbətimi bildirirəm.

İki gündür ki, mən cənub bölgəsindəyəm, burada gedən işlərlə, regional inkişaf proqramının icrası ilə tanış oluram. Deyə bilərəm ki, burada hökm sürən inkişaf, sabitlik, əmin-amanlıq məni çox sevindirir. Mən bu zonanın inkişafına çox böyük əhəmiyyət verirəm, çox böyük diqqət yetirirəm. Görülən işlər deməyə əsas verir ki, bölgə sürətlə inkişaf edir və bu inkişaf bundan sonra daha da sürətlə gedəcəkdir. Burada yeni elektrik stansiyaları, aeroport, xəstəxanalar, məktəblər, müxtəlif müəssisələr tikilir, yeni iş yerləri açılır, abadlıq-quruculuq işləri sürətlə gedir. Bu bir daha onu göstərir ki, biz hər şeyə nail ola bilərik. İş olan yerdə nəticə də var.

Mən bilirəm ki, uzun illər ərzində Yardımlıda işlər o qədər də yaxşı getməyibdir. Bu rayonun çox böyük imkanları var, çox böyük potensialı var. Ancaq mənə xəbər gəlirdi ki, burada işlər daha da yaxşı gedə bilər. Ona görə də bir neçə ay əvvəl rayon rəhbərliyi dəyişildi, yeni icra başçısı təyin olundu. Mənə verilən məlumata görə, işlər daha sürətlə getməyə başlayıbdır. Abadlıq-quruculuq işləri, məktəblərin tikintisi, infrastrukturun yaradılması, iş yerlərinin açılması məsələləri öz həllini tapmaqdadır. Bu həm də onu göstərir ki, yeni seçilmiş kadrlar bütün işlərimizin yaxşı getməsinə şərait yaradacaqdır.

Şübhəsiz ki, Azərbaycanın hərtərəfli inkişaf strategiyası, bunun perspektivləri Bakıda müəyyən olunur, prezident tərəfindən müəyyən olunur. Ölkəmiz həm iqtisadi sahədə, həm sosial sahədə, həm də xarici siyasət sahəsində müəyyən olunmuş istiqamətlər üzrə inkişaf edir. Ancaq o da faktdır ki, çox şey yerlərdəki rəhbərlikdən asılıdır. Elə məsələ var ki, nə böyük vəsait tələb edir, nə də hansısa böyük texnoloji yenilik tələb edir. Sadəcə olaraq, onlar gərək ürəklə işləsinlər, öz vəzifə borclarını şərəflə və ləyaqətlə yerinə yetirsinlər, insanlara diqqətlə yanaşsınlar və

işlədikləri sahədə əllərindən gələni etsinlər ki, yerlərdə inkişaf daha da güclü getsin.

Bizim ölkəmizin çox böyük potensialı var. Azərbaycanın coğrafi vəziyyəti, təbii ehtiyatlarla zəngin olması, çox güclü kadr potensialı, istedadlı insanların fəaliyyəti, neft strategiyası – bütün bu amillər Azərbaycanı qüdrətli ölkəyə çevirmək üçün çox gözəl şərait yaradır. Ölkəmizi daha da gözəlləşdirmək, dünyadakı mövqelərini möhkəmləndirmək, Azərbaycanda gedən həm iqtisadi, həm də siyasi islahatları daha da sürətləndirmək bizdən asılıdır. Bu istiqamətdə ardıcıl işlər aparılır.

2003-cü ilin prezident seçkiləri ərəfəsində çoxsaylı görüşlərimdə mənim platformam, məni maraqlandıran prioritet məsələlər ictimaiyyətə bəlli olmuşdur. Bu gün çox şadam ki, bütün istiqamətlərdə uğurlardan danışmağa əsas var. Azərbaycan həm xarici siyasətdə böyük uğurlar əldə edib, həm də bölgədə öz nüfuzunu artırıbdır. Ermənistan–Azərbaycan münaqişəsinin həlli işində bizim mövqeyimiz üstünlük təşkil edir. Beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar, danışıqlar prosesində müşahidə olunan meyllər, başqa amillər bizim haqlı olmağımızı dünyaya daha da dolğun şəkildə sübut etdi.

Biz qonşularımızla münasibətlərdə də müsbət nəticələrə nail olmuşuq və Azərbaycanın heç bir ölkə ilə heç bir problemi yoxdur. Biz qonşu dövlətlərlə münasibətləri qarşılıqlı hörmət və etimad prinsipləri əsasında qururuq.

İqtisadi islahatlar sürətlə gedir. Azərbaycanda qısa müddət ərzində 300 minə yaxın iş yerləri açılıbdır ki, onun da tam əksəriyyəti daimi iş yerləridir. Xatırlayıram, prezident seçkiləri ərəfəsində mənim Azərbaycanda 5 il ərzində 600 min yeni iş yeri yaradılacağı barədə verdiyim vədlər bəziləri tərəfindən inamsızlıqla qarşılanırdı. Ancaq biz sübut etdik ki, bu reallıqdır. Azərbaycanın elə bir bölgəsi yoxdur ki, iş getməsin, orada yenilik, yeni yanaşmalar olmasın.

Sosial sahəni götürsək, bu illər ərzində minimum əməkhaqqı 3 dəfə qaldırılıb, pensiyalar qaldırılıb, orta aylıq əməkhaqqı artıbdır.

Əlbəttə ki, bu bizi hələ qane etmir və edə də bilməz. Çünki hələ ki, bu, insanların tələbatlarının ödənilməsinə imkan yaratmır. Amma əgər biz müqayisə etsək və görsək ki, iki il əvvəl minimum əməkhaqqı 60 min manat idi, bu ilin oktyabr ayından 150 min manat olacaqdır, bu o deməkdir ki, insanlar daha yaxşı yaşayacaq, daha yaxşı imkanlar yaranacaqdır. Azərbaycanda 1 milyondan artıq pensiyaçı var, onların pensiyaları nə onları qane edir, nə də bizi. Ancaq bu istiqamətdə də işlər görülür. Pensiyalar da artırılacaq, amma o da sirr deyil ki, bütün bunlara nail olmaq üçün güclü iqtisadi potensial yaratmalıyıq.

Ona görə də biz başqa məsələlərlə yanaşı, son bir il ərzində iqtisadi islahatlara da böyük diqqət göstərmişik. Hər şey ölkənin maddi vəziyyətinə bağlıdır. 2004-cü ilin dövlət büdcəsi 1 milyard 500 milyon dollar idi. 2005-ci ilin büdcəsi 2 milyard 200 milyon dollardır. 2006-cı ilin büdcəsi ən azı 3 milyard 500 milyon dollar olacaqdır. Qısa müddət ərzində görün Azərbaycanda nə qədər imkanlar yaranıbdır. Bütün bunların əsas hissəsi maliyyə nizam-intizamının güclənməsi sayəsində mümkün olubdur.

Əlbəttə ki, burada neft amili güclü rol oynayır, bu da təbiidir. Azərbaycan neft ölkəsidir. Dünyada neft ölkəsi kimi tanınır. Amma təbii ehtiyatlar ölkəyə də, əhaliyə də o zaman xeyir verir ki, onlar dənizin dibindən çıxarılır, müvafiq infrastrukturlar vasitəsilə etibarlı şəkildə dünya bazarlarına çatdırılır, sonra ondan gələn gəlir ölkəyə daxil olur. Əgər neft-qaz sərvətləri yerin altında qalırsa, ondan səmərəli istifadə olunmursa, onun heç bir əhəmiyyəti yoxdur. Ona görə də, Azərbaycanda xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı illərin ortalarında başlamış olduğu neft strategiyasının əsas mahiyyəti məhz bundadır: neft ehtiyatlarını Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəltmək, bundan səmərəli istifadə etmək. Çox çətin vəziyyətə, çox ağır şəraitə, hər tərəfdən müxtəlif maneələrin olmasına baxmayaraq, Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq reallıqdır. Bu bir əfsanə idi, Heydər Əliyevin siyasəti, onun qətiyyəti, cəsarəti və xalqın dəstəyi bu əfsanəni reallığa çevirdi. Artıq bir neçə aydan sonra bu kəmər istismara veriləcək və Azər-

baycana milyardlarla dollar vəsait gətirəcəkdir. Biz bu vəsaitdən səmərəli istifadə etməliyik və Azərbaycanın bütün bölgələrində çox ciddi inkişaf getməlidir. İndi də inkişaf var, amma daha da sürətlə gedəcək, bizim maliyyə imkanlarımız artacaqdır.

Belə olan halda, ölkədə sosial problemlər də öz həllini tapacaqdır. Mən buna şübhə etmirəm, çünki biz öz siyasətimizi ictimaiyyətə çox aydın və şəffaf şəkildə çatdırırıq.

İqtisadi potensialın güclənməsi, Azərbaycanın dünya miqyasında rolunun artırılması, sosial problemlərin həlli, hərbi potensialın güclənməsi, sosial ədalət prinsiplərinin tam bərqərar olunması – bütün bu əsas istiqamətlərdə irəliləyiş var.

Əlbəttə ki, regionların inkişafı bu ümumi strategiyada mühüm yer tutur. İndi Azərbaycanın hər bir regionu inkişaf etməlidir. Azərbaycan təkcə Bakıdan ibarət deyildir. Bakı bizim paytaxtımızdır, doğma, əziz şəhərimizdir. Amma paytaxtla rayon mərkəzləri arasında bu qədər böyük fərq ola bilməz. Biz inkişaf etmiş ölkələrin təcrübəsini yaxşı bilirik. Olmuşuq, görmüşük, oxumuşuq. Görürük ki, inkişaf etmiş ölkələrdə paytaxtla o biri şəhərlər arasında fərq var, amma bu o qədər də böyük deyildir. Bu, ümumi inkişaf səviyyəsinin göstəricisidir. Bizdə belə deyil və bu da təbiidir. Çünki 1990-cı illərin əvvəllərində vurulmuş zərbələr ölkəmizi iqtisadi cəhətdən faktiki olaraq məhv etmişdi. Mən bu yaxınlarda demişəm, iqtisadi potensial baxımından biz ancaq bu ilin yayında 1990-cı ilin səviyyəsinə gəlib çıxmışıq. Görün nə qədər böyük zərbələr dəymişdi ki, Sovet İttifaqında Azərbaycan kimi ən qabaqcıl respublika – bütün sovet statistikası bunu göstərir – 1990-cı illərin əvvəllərində ən geridə qalmış ölkəyə çevrilmişdi. Bütün ötən dövr ərzində biz çalışmışıq ki, itirilmiş o illərin əvəzini çıxaq, iflic vəziyyətinə düşmüş sənaye müəssisələrinin hamısını bərpa edək. Buna yavaş-yavaş nail oluruq. Ona görə regionların inkişafı, rayonlarda vəziyyətin yaxşılaşması, həyat səviyyəsinin yüksəlməsi həm bizim insanlarımızın yaşayışı üçün, həm də ölkənin hərtərəfli inkişafı üçün lazımdır.

Qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatının inkişafı – bunlar Azərbaycanın gələcəyini müəyyən edən amillərdir. Bu istiqamətlərdə də işlər gedir. Deyə bilərəm ki, biz indi ilkin mərhələdəyik. Bütün istiqamətlərdə siyasət müəyyən olunub, onun icrasına başlanıbdır. Ancaq əsas güclü təkan 2006–2008-ci illərdə olacaqdır. O illərdə ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri tam şəkildə işə düşəcəkdir. Ondan sonra Azərbaycanda ildən-ilə, aydan-aya insanların həyat səviyyəsi yaxşılaşmalıdır, iqtisadi potensial güclənməlidir və ölkəmiz daha da güclü olmalı və zəngin dövlətə çevrilməlidir.

Bu bizim hamımızdan asılıdır. Əlbəttə ki, burada ən böyük məsuliyyət prezidentin üzərinə düşür. Mən də bu məsuliyyəti öz üzərimə götürmüşəm, buna hazıram və əlimdən gələni etməyə çalışıram ki, gündəlik fəaliyyətimlə doğma vətənimə, doğma xalqıma xidmət edim və vəziyyət günü-gündən yaxşılaşsın. Eyni zamanda, bütün başqa icra orqanlarından, yerli icra orqanlarından çox şey asılıdır, ictimaiyyətdən, insanlardan, bizim hamımızdan da çox şey asılıdır. Çünki Azərbaycan bizim hamımızın vətənidir. Hamımızın məqsədi olmalıdır ki, vətənimizi daha da möhkəmlədək, ölkədə siyasi proseslər, demokratikləşmə prosesləri daha da sürətlə getsin.

Yenə də inkişaf etmiş ölkələrin təcrübəsinə qayıdıram. Harada ki demokratiya inkişaf edib, o ölkələr iqtisadi cəhətdən də inkişaf edibdir. Harada ki demokratiya inkişaf etməyib, o ölkələrdə inkişaf da sürətlə getməyibdir. Bu məsələdə heç bir təbii ehtiyatlar, neft, qaz böyük rol oynamır, bunlar müvəqqəti amillərdir.

Amma əgər biz Azərbaycanın uzunmüddətli strategiyasını işləyib hazırlayırıqsa, əgər Azərbaycanın gələcəyi haqqında fikirləşiriksə, 10, 20, 30, 50 ildən sonrakı gələcəyi düşünürüksə, gərək bu gün Azərbaycanın bütün sahələrini dünya səviyyəsinə çatdıraq və ona uyğunlaşdıraq.

Əlbəttə ki, bizim öz xüsusiyyətlərimiz var, Azərbaycanda başqa ölkələrin təcrübəsini kortəbii tətbiq etmək mümkün deyil, biz ona imkan verə bilmərik. Amma dünyada harada ki mütə-

rəqqi islahatlar gedir, harada ki insanın həyatına müsbət təsir edən işlər gedir, biz onları da öyrənməliyik.

Əziz yardımlılılar, mən ilk dəfədir buradayam, ilk dəfədir ki, Yardımlıdayam, əvvəllər burada olmamışam. Çox şadam ki, bu gün sizinlə bərabər burada, bu büstün açılışında iştirak edirəm. Heydər Əliyevin Azərbaycan tarixindəki rolunun çox böyük əhəmiyyətini, bəlkə də, indi tam demək çətindir. Vaxt keçdikcə, zaman keçdikcə, Heydər Əliyevin fəaliyyəti dolğun şəkildə təhlil olunandan sonra biz bu insanın əzəmətini, Azərbaycan xalqına verdiyi töhfəni daha da yaxşı görəcəyik.

Əgər 1993-cü ildə xalqın iradəsi ilə Heydər Əliyev Azərbaycana rəhbərliyə qayıtmasaydı, Azərbaycanın gələcəyi tam başqa ola bilərdi, o illərdə bizim, ümumiyyətlə, müstəqil ölkə kimi yaşamağımız sual altında idi. İqtisadi tənəzzül, siyasi böhran, hərbi böhran, torpaqlarımızın itirilməsi – bütün bunlar Azərbaycanı iflic vəziyyətinə salmışdı. Bir adam gəldi, nə ordusu var idi, nə dəstəsi var idi, nə bir silahı var idi. Onun təkcə nüfuzu var idi, siyasi biliyi var idi, xalqın ona olan məhəbbəti, inamı var idi, onun cəsarəti var idi, xalqa bağlılığı var idi, müstəqil Azərbaycana sevgisi-məhəbbəti var idi. Tək adam xalqın dəstəyi ilə Azərbaycanı oddan-alovdan qurtardı və bu gün Azərbaycan dünyada iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkədir.

Bu, böyük nemət, bu, böyük sərvətdir. Bizim hamımızın borcudur ki, bu yolu davam etdirək, bu siyasəti davam etdirək. Bu, Azərbaycanın gələcəyi üçün lazımdır, gələcək nəsillərə lazımdır, bizim ölkəmizə lazımdır. Biz bunu edəcəyik. Azərbaycan Respublikasının Prezidenti kimi, mən bu siyasətə sadiqəm, bu yoldan heç zaman dönməyəcəyəm və Azərbaycanı xalqın dəstəyi ilə Heydər Əliyev yolu ilə irəliyə aparacağam.

Əziz bacılar və qardaşlar, sizi bir daha ürəkdən salamlayıram, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun!

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev sakinlərə yaxınlaşaraq onlarla səmimi söhbət etdi, qayğıları ilə maraqlandı.*

*Ağsaqqallar, müharibə veteranları dövlətimizin başçısına dərin minnətdarlıq edərək dedilər ki, kaş bizim rayonumuzun yeni rəhbərliyini bura iki il əvvəl göndərəydiniz. Üç aydır işə başlayıb, amma nə qədər işlər görübdür. O gələndən Yardımlı inkişafa başlayıbdır.*

**İlham Əliyev:** Mən onu təyin edəndə tapşırıq verdim ki, get, insanlara qayğı göstər, bütün işləri gör və Yardımlını qabaqcıl rayona çevir. Yardımlı ucqar rayondur. Buraya gəlmirdilər, amma bundan sonra gələcəklər. Mən də gəlib yoxlayacağam. Yaxşı işlər görür, işə yaxşı başlayıb, gərək yaxşı da davam etdirsin.

**Sakinlər:** Yardımlıya Sizin bu gəlişiniz çox lazım idi. Kənd təsərrüfatı texnikası sarıdan çox əziyyət çəkirik.

**İlham Əliyev:** İndi hər şey veriləcəkdir. Mən «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaratdım. Onun xətti ilə texnika alınır, gətiriləcək və bütün bölgələrə paylanacaqdır.

**Sakinlər:** Traktorlar, kombaynlar sovet dövründən qalmadır, köhnəlibdir. İnsanlar bellə, xışla şumlayırlar.

**İlham Əliyev:** Mən deyirəm ki, burada işlər yaxşı gedəcəkdir. Bu həm sizin üçün, həm də bütövlükdə ölkə üçün lazımdır. Ən çətin vəziyyətdə olan rayon ən qabaqcıl olmalıdır. İş, həmrəylik olan yerdə, quruculuq işləri aparılanda bu mümkündür. Ona görə bu hamımızın borcudur.

**Sakinlər:** Bakıda, Lənkəranda və digər yerlərdə bizdən soruşanda ki, haralısınız, deyirdik Lənkərandanıq. Yardımlı deyə bilmirdik. Yeni icra hakimiyyəti başçısı Süleyman müəllim tərifi xoşlamır, ancaq həqiqətən tərifəlayiqdir. Onun gəlişindən sonra rayonda ağ daşdan evlər, məktəblər tikilir.

**İlham Əliyev:** Neçə məktəb tikilir?

**Sakinlər:** 18 məktəb tikilir. Sizin kadr siyasətiniz çox güclüdür, uzaqgörənsiniz. Biz Sizinlə fəxr edirik. Bəlkə də, ilin sonunadək rayon mərkəzi şəhərə bənzəyəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Elə də olmalıdır. Kadr məsələsini düz deyirsiniz. Bu, eyni zamanda niyyətdən asılıdır. İcra hakimiyyətinin başçısı xalqa xidmət etməyə gəlməlidir. O, başqa məramla gəlməməlidir. Gəlib adamları soymaqla, onların qanını sormaqla, rüşvət almaqla məşğul olmamalıdır. Mənim prinsipim budur. Mən göndərdiyim icra hakimiyyəti başçılarına bildirirəm ki, yaxşı işləsən, fəaliyyətini qiymətləndirəcək, sənə daha böyük vəzifə verəcəyəm. Amma təmiz işlə, insanlara qayğı göstər, çünki biz insanlar üçün işləyirik. Prezident də xalqın xidmətçisidir. Sadəcə olaraq, bu, ən yüksək icra vəzifəsidir. Ona görə əsas budur ki, hansı niyyətlə gəlir.

*Yardımlı sakinləri problemlərdən də söhbət açdılar. Dövlətimizin başçısı məktub və şikayətlərə diqqətlə baxılacağını bildirdi.*

**İ l h a m  Ə l i y e v:** Mən buraya gəldim, yol yaxşı vəziyyətdə deyil, çoxdandır təmirsizdir. Mən tapşırıq vermişəm ki, baxsınlar. Nəqliyyat naziri də buradadır, tapşırıram, məşğul olun və qısa müddət ərzində Masallıdan Yardımlıya yaxşı, rahat yol çəkilsin.

**Z i y a  M ə m m ə d o v** (*Nəqliyyat naziri*): Cənab Prezident, Sizin tapşırığınızla 15 milyard manat ayrılıbdır. Gələn ilin birinci yarısında 50 kilometrlik bu yol beynəlxalq standartlara uyğun qurulub Sizə məruzə olunacaqdır.

**İ l h a m  Ə l i y e v:** Yol tikilib qurtarandan sonra açılışına gələcəyəm.

**S a k i n l ə r:** Allah qoysa. Biz həmişə Sizin və kadrlarınızın arxasınca gedəcək, dəstəkləyəcəyik. Bizə qalsa, 20–30 il Sizi prezident seçəcəyik. Allah Sizdən razı olsun.

### *Heydər Əliyev muzeyinin açılış mərasimində*

*Azərbaycan prezidenti İlham Əliyev Yardımlı rayonunun mərkəzində Heydər Əliyev muzeyinin təntənəli açılışı məra-*

*simində iştirak etmişdir. Dövlətimizin başçısı muzeyin açılışını bildirən qırmızı lenti kəsdi.*

*Ulu öndərin xatirəsinə yaradılmış muzey qəsəbənin mərkəzi küçəsində ikimərtəbəli binada yerləşir. Binanın birinci mərtəbəsində Heydər Əliyevin tuncdan büstü qoyulmuşdur. İkinci mərtəbədə ümummilli liderimizin həyat və fəaliyyətini əks etdirən geniş materiallar toplanmışdır.*

*Prezident İlham Əliyev xalqımızın ümummilli liderinin uşaqlıq, gənclik illərinə, Dövlət Təhlükəsizlik Komitəsinə, 1970-ci illərdə və müstəqillik illərində respublikaya rəhbərlik etdiyi dövrlərə aid, habelə ailəvi fotoşəkillərə, ulu öndərə həsr olunmuş kitablara, Heydər Əliyevin yeni obyektlərin açılışlarındakı iştirakını, xarici ölkələrə və respublikamızın regionlarına səfərlərini, zəhmətkeşlərlə keçirdiyi görüşləri əks etdirən fotoşəkillərə baxdı.*

*Muzeylə tanışlıqdan sonra prezident İlham Əliyev Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

«Bu gün çox əlamətdar bir gündür. Yardımlıda ulu öndər Heydər Əliyevin büstü və muzeyi açıldı. Müasir Azərbaycanın qurucusu Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən ibarət idi. Ölkəmizin müstəqilliyinin möhkəmlənməsində Heydər Əliyevin müstəsna rolu olmuşdur. Ölkədə gedən islahatlar Heydər Əliyevin siyasi kursunun davamıdır. Yardımlıda regionların inkişafı proqramı uğurla icra olunur. Ümid edirəm ki, yaxın zamanlarda Yardımlı Azərbaycanın qabaqcıl rayonlarından birinə çevriləcəkdir. Yardımlılara cansağlığı və xoşbəxtlik arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Yardımlı, *9 sentyabr 2005-ci il».*

## Yardımlı qəsəbəsində yeni stadionun istifadəyə verilməsi mərasimində

*Sentyabrın 9-da Yardımlıda stadion istifadəyə verilmişdir. Azərbaycan prezidenti İlham Əliyev bu münasibətlə stadiona gəldi. Buraya toplaşan gənc idmançılar və rayon sakinləri dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.*

*Vaxtilə qəsəbənin mərkəzində tikilmiş stadion uzun illər baxımsız qaldığından bərbad vəziyyətə düşmüşdü. Rayonda gənclərin idmana marağını nəzərə alaraq və onların asudə vaxtlarının səmərəli təşkilinə şərait yaratmaq məqsədi ilə iyun ayının ortalarında stadionda əsaslı yenidənqurma işlərinə başlanılmışdır. Tikintidə hər gün 35–40 nəfər çalışırdı və onlar qısa müddətdə işləri başa çatdırdılar. Stadionun ümumi uzunluğu 140 metr, eni 70 metr, yaşıl örtüklü futbol meydançasının ölçüləri isə 90x50 metrdir. Tribunalarda 2200 nəfər tamaşaçı üçün plastik oturacaqlar qoyulmuşdur.*

*Stadiona xidmət etmək üçün onlarca adam daimi işə götürülmüşdür.*

*Prezident İlham Əliyev burada incəsənət ustalarının və idmançıların çıxışlarına baxdı.*

## Yeni açılan ticarət mərkəzində

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da Yardımlıda yeni açılan Ticarət mərkəzi ilə tanış olmuşdur.*

*Qəsəbənin «Yeni Yardımlı» yaşayış massivində yerləşən Ticarət mərkəzinin inşasına bu il iyunun 20-də başlanmış və tez bir vaxtda istifadəyə verilmişdir. Ticarət mərkəzi sənaye malları, tikinti materialları, ət məhsulları satışı, çörək və un məmulatlarının istehsalı və satışı bölmələrindən və digər xidmət sahələrindən ibarətdir. Ticarət mərkəzində ümumilikdə 110 nəfər daimi işlə təmin olunacaqdır.*

*Dövlətimizin başçısı Ticarət mərkəzinin satış bölmələrinə, yardımçı sahələrə baxdı, satılan məhsulların keyfiyyəti, sakinlərin alıcılıq qabiliyyəti ilə maraqlandı.*

*Prezident İlham Əliyev Yardımlıda kənd təsərrüfatı ilə məşğul olan fermerə bir ədəd traktor hədiyyə etdi və gələcəkdə kəndlilərə bu cür texnikanın icarəyə veriləcəyini vurğuladı.*

*Kəndlilərə göstərilən diqqət və qayğıdan razılıqla danışan fermer prezidentin siyasətinin dəstəkləndiyini söylədi və hədiyyəyə görə dərin minnətdarlığını bildirdi.*

## Xalça və tikiş sexləri ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da Yardımlıda xalça və tikiş sexləri ilə tanış olmuşdur.*

*Xalçaçı qızlar dövlətimizin başçısını və xanımını hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.*

*Bu sexlər ümummilli liderimizin adını daşıyan mərkəzi küçədəki üçmərtəbəli binada yerləşir. Birinci mərtəbədə Heydər Əliyev guşəsi yaradılmışdır. İkinci mərtəbədə 103 nəfər daimi işçisi olan xalça sexi, üçüncü mərtəbədə isə 42 nəfərin çalışdığı tikiş sexi fəaliyyət göstərir. Bina əsaslı təmir olunmuşdur. Rayonun bu ilk sənaye müəssisəsi gələcəkdə Yardımlının iqtisadi inkişafında mühüm rol oynayacaq, eyni zamanda, qədim xalq sənəti olan xalçaçılığın inkişafına təkan verəcəkdir.*

*Prezident İlham Əliyev sexlərlə tanış oldu, hanada toxunub qurtarmış xalçanın iplərini kəsdi, ilk xalça hazır oldu.*

*Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və qızı Leyla isə hana arxasında oturaraq xalça toxudular.*

*Dövlətimizin başçısına xatirə olaraq xalça hədiyyə olundu. Prezident və ailə üzvləri xalçaçı qızlarla xatirə şəkli çəkdirdilər.*

## Akademik Zərifə Əliyeva adına körpələr evi–uşaq bağçasının istifadəyə verilməsi mərasimində

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da Yardımlı qəsəbəsində akademik Zərifə Əliyeva adına körpələr evi–uşaq bağçasının istifadəyə verilməsi mərasimində iştirak etmişdir. Dövlətimizin başçısını, xanımı Mehriban Əliyevanı və qızı Leylanı uşaqlar, valideynləri binanın qarşısında böyük sevinclə qarşıladılar, onlara gül dəstələri təqdim etdilər. Bala-calar Heydər babaya, prezidentə həsr olunmuş şeirlər söylədilər.*

*Prezident İlham Əliyev körpələr evi–uşaq bağçasının rəmzi açılışını bildirən qırmızı lenti kəsdi. Sonra binanın vestibülündə akademik Zərifə Əliyevanın büstü önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə təxminən iki aya tikilmiş bina ən müasir standartlara cavab verir. Ümumi sahəsi 720 kvadrat-metr olan binada uşaqlar üçün oyun zalı, yataq, yemək, dərs, həkim müayinəsi otaqları vardır. Burada Heydər Əliyev guşəsi də yaradılmışdır. Həyətdə karusellər qoyulmuş, oyun meydan-çası, gəzinti yerləri düzəldilmişdir. 800 kvadratmetrə yaxın ərazidə yaşıllıq salınmış, müxtəlif bəzək kolları və güllər əkilmişdir. Binanın öz qızdırıcı sistemi də vardır.*

*Dövlətimizin başçısı Heydər Əliyev guşəsinə, görkəmli alim Zərifə xanımın fotoşəkillərinə baxdı, ayrı-ayrı otaqları gəzdi, yaradılan yüksək şəraitdən razılığını bildirərək, bunu xalqımızın gələcəyi olan uşaqlara göstərilən qayğının təzahürü kimi qiymətləndirdi.*

*Azərbaycan prezidenti və ailə üzvləri uşaqlarla xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏMİZİN CƏNUB BÖLGƏSİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA VƏ PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*Lənkəran*

*9 sentyabr 2005-ci il*

Mənim ölkəmizin cənub bölgəsinə səfərim başa çatır. Bu gün və dünən burada vəziyyətlə, işlərin gedişi ilə tanış oldum və bütövlükdə deyə bilərəm ki, bölgədə inkişaf sürəti çox yüksəkdir. Regional inkişaf proqramı icra olunur, qarşıda duran vəzifələr öz həllini tapır və burada proseslər çox müsbət istiqamətdə gedir. Yerli icra orqanları yaxşı işləyirlər, yaxşı nəticələr göstərirlər. Eyni zamanda, mərkəzi icra orqanları da göstəriş alırlar ki, bu bölgəyə xüsusi diqqət olmalıdır, burada mövcud olan problemlər həll edilməlidir.

Bildiyiniz kimi, dünən və bu gün bölgənin hərtərəfli inkişafı üçün lazım olan tədbirlər görüldü. Burada yeni elektrik stansiyasının təməli qoyuldu. Bu stansiya bütün bölgəni elektrik enerjisi ilə fasiləsiz təmin edəcəkdir. Son müddət ərzində görülən tədbirlər nəticəsində elektrik enerjisi ilə təchizat xeyli yaxşılaşıbdır. Demək olar ki, işıq sutka ərzində 20–22 saat verilir və bu çox müsbət haldır. Amma biz elə etməliyik ki, qış aylarında da elektrik enerjisi davamlı verilsin. Ona görə Astarada tikiləcək stansiyanın əhəmiyyəti çox önəmlidir və o bu ilin sonuna qədər tikilib istifadəyə verilməlidir.

Onu da demək istəyirəm ki, bu, Azərbaycanda gələn il quraşdırılacaq 5 stansiyadan biridir. İlk növbədə, biz qərara gəldik

ki, bu stansiya cənub bölgəsində tikilsin. Lənkəranda bütün bölgəyə xidmət göstərəcək yeni Diaqnostika və müalicə mərkəzinin təməli qoyuldu. Hesab edirəm ki, bu da əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün önəmli addımdır. Biz öz iqtisadi potensialımızı gücləndiririk. Ancaq biz xalq üçün işləyirik və işləməliyik. Səhiyyə sisteminin təkmilləşməsi məsələləri də böyük əhəmiyyət kəsb edir. Qısa müddət ərzində, gələn ilin yayına qədər ən yüksək standartlara uyğun olan, müasir avadanlıqla təchiz edilən xəstəxana istifadəyə veriləcəkdir.

Yolların çəkilməsi, məktəblərin tikilməsi, digər sosial infrastrukturun yaranması da böyük əhəmiyyət kəsb edir. Bütün bunlar bölgənin hərtərəfli inkişafına çox gözəl şərait yaradır. Bu inkişaf da artıq göz qabağındadır. Problemlər də var. Biz bunları bilirik və mənim bölgələrə səfərlərimin əsas məqsədi də məhz bundan ibarətdir ki, birinci tərəfdən, regional inkişaf proqramının icrası ilə tanış olum, gedən prosesləri öz gözümlə görüm, digər tərəfdən, mövcud olan problemləri operativ şəkildə həll edək.

Əlbəttə, qəbul edilmiş və bütün ölkəmizi əhatə edən regional inkişaf proqramında məsələlərin hamısını nəzərdə tutmaq qeyri-mümkündür. Elə məsələlər var ki, orada öz əksini tapmayıb və elə məsələlər də var ki, proqram qəbul olunandan sonra ortaya çıxıbdır. Əlbəttə ki, zona müşavirələrinin də məqsədi məhz budur – proqramda öz əksini tapmayan, yaxud sonra ortaya çıxan məsələlərə də diqqət göstərmək və bunları operativ şəkildə həll etmək.

Burada 5 rayonun icra hakimiyyətlərinin başçıları iştirak edirlər. Mən istərdim biz müzakirələrə keçək və onlar görülmüş işlər haqqında qısa məlumat versinlər və mövcud olan ən əsas problemlər haqqında danışsınlar. Biz sonra müvafiq qərarlar qəbul edəcəyik.

**Zeynal Nağdəliyev** (*Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, Lənkəranda Dövlət Proqramının həyata keçirilməsi sahəsində müəyyən işlər görülmüş-

dür. Bilavasitə Sizin diqqət və qayğınız, Lənkəranda mövcud olan problemlərin həllinə göstərdiyiniz dəstək buna imkan vermişdir. Ölkənin hər yerində olduğu kimi, Lənkəranda da nəzərəçarpan dəyişikliklər baş vermişdir. Bu da sosial gərginliyin aradan qaldırılmasına kömək etmiş, əhalinin əhval-ruhiyyəsində müsbət dəyişikliklərə səbəb olmuşdur.

Göstərdiyiniz qayğıya görə Sizə camaatımızın, lənkəranlıların, xüsusilə də dağ kəndləri əhalisinin minnətdarlığını çatdırıram. Rayonumuzun dağ kəndlərində uzun illər yol yox idi və bu da əhaliyə olduqca böyük problemlər yaradırdı. Sizin tapşırığınızdan sonra zəruri olan vəsait ayrılmışdır. Lənkəranda təməlini qoyduğunuz Diaqnostika Mərkəzinin, aeroportun tikintisi cənub bölgəsinə Sizin əvəzsiz bir hədiyyənizdir. Camaatımız bunu bilir, hər zaman qayğınızı hiss edir.

2003-cü il yanvarın 29-da Lənkəranda baş verən qəzadan sonra Sizin birbaşa tapşırığınızla bütün binalarda yoxlama keçirilmişdir və lazımi tədbirlər görülüb. Sizin tapşırığınızla şəhərin abadlaşdırılması üçün aldığımız 2,5 milyard manat vəsaitin artıq 1,5 milyard manatını istifadə etmişik. Lənkəran yağmurlu yerdir və ona görə əsas problem olan su axan kanalları bərpa etmişik. Bu, şəhəri subasma təhlükəsindən xilas edir. Şəhərin küçələrinin abadlaşdırılması bu il başa çatacaqdır.

Son 25 ildə Lənkəranda cəmi 9 məktəb tikilmişdir. Son il yarımda isə Heydər Əliyev Fondu tərəfindən 7 məktəbin inşasına başlanmışdır. Ümumiyyətlə, Dövlət Proqramının yerinə yetirilməsi nəticəsində 2003-cü il oktyabrın 1-dən 2005-ci il sentyabrın 1-dək yaradılmış müəssisələrdə 1996, fəaliyyəti bərpa olunmuş müəssisələrdə 120 və digər tədbirlərin həyata keçirilməsi sayəsində 11159 iş yeri açılmışdır. Proqramın həyata keçirilməsi nəticəsində 24 min iş yeri açılmasını nəzərdə tutmuşduq. Amma artıq tamamlanmaqda olan süd zavodu və «Azərsun» şirkətlər qrupunun Lənkəranda həyata keçirdiyi layihə əsasında tikilən rayonlararası baza, əlillərin bərpa mərkəzi, stadion, dəniz limanı imkan verəcək ki, bu ilin sonuna biz bu rəqəmi təxminən 1,5 dəfə artıraq. Ən əsası da odur ki, bunlar daimi iş yerləri ola-

caqdır. 2005-ci ilin birinci yarısında rayonda ümumi sahəsi 12325 kvadratmetr olan yeni fərdi yaşayış evləri tikilmişdir ki, bu da əhalinin rifah halının yaxşılaşdığını göstərir. 2004-cü ildən bəri fərdi yaşayış evlərinin tikintisi 4 dəfə artmışdır.

Rayonun problemlərinin həlli üçün bütün potensial imkanlar səfərbər edilir. Kənarda yaşayan lənkəranlılar da kömək göstərirlər. Bütün işlərimizin əsasında prezidentin qəbul etdiyi qərarlar və bizim qarşımızda qoyduğu tapşırıqlar durur. 2003-cü il 24 noyabr tarixli fərmandan irəli gələn tapşırığa əsasən, əhalini narahat edən məsələlərə, müraciətlərə daha həssaslıqla yanaşılır. Son 6 ayda şəhər icra hakimiyyətində 5402 vətəndaş qəbul edilmişdir. Bu müddətdə icra hakimiyyətinə ünvanlanmış məktubların sayı 56,5 faizdən 80,9 faizə çatmışdır. Bu bilavasitə yerlərdə əhalinin Sizin həyata keçirdiyiniz siyasətə inamının artması ilə bağlıdır. Daxil olmuş müraciətlərin təhlili əhalinin maddi vəziyyətinin yaxşılaşmasından xəbər verir. Belə ki, müraciətlərin böyük əksəriyyəti fərdi ev tikintisi, sahibkarlıqla məşğul olmaq üçün torpaq sahələrinin ayrılması, icarəyə verilməsi məsələləri ilə bağlıdır. Digər mühüm cəhət də şikayətlərin azalmasıdır. Yarım ildə daxil olmuş 3225 müraciətin cəmi 98-i, yəni 3 faizi şikayətdir. Bu da onu göstərir ki, sosial problemlərin həllində Sizin həyata keçirdiyiniz siyasət əhali tərəfindən razılıqla qarşılanmışdır.

Lənkəran şəhərində əhalinin sayı 59 min nəfərə çatmışdır. 1960-cı illərdə tikilmiş su və kanalizasiya sistemləri isə 20 min əhaliyə nəzərdə tutulmuşdur. Bu məsələ Dövlət Proqramına daxil edilmişdir və «Azərsu» ilə danışıqlar aparılır. Onlar mütəxəssislər göndərmişlər. Bu məsələdə kömək göstərilməsini istəyirik.

Qaz təchizatında da problem var. Yay mövsümündə gündə 50 min kubmetr qaz alır, 8650 abonentdən 6600-nü təchiz edə bilirik. Biz layihə hazırlamışıq, 117 kilometr xəttin çəkilməsinə ehtiyac vardır. Qış dövründə gündə 300–350 min kubmetr qaz ala bilsək, bu, Lənkərana əvəzsiz kömək olardı.

Lənkəranın problemlərindən biri də turizmlə bağlıdır. Sizin tapşırığınıza əsasən müvafiq işlər görmüşük, layihələr işlənib hazırlanmışdır. Lənkəranda turizmin, kurort-sanatoriya sisteminin inkişafı Dövlət  Proqramına daxil edilmişdir. "İstisu" pansionatının yenidən qurulması, turizm bazalarının tikintisi ilə bağlı bir neçə layihə işlənib hazırlanmışdır və Sizin dəstəyinizə ehtiyac vardır.

Qarşıdan gələn parlament seçkilərinə toxunaraq demək istəyirəm ki, seçki praktikasının təkmilləşdirilməsinə dair sərəncamla icra hakimiyyəti strukturlarının üzərinə düşən bütün işlər görülür. Əhalinin sərbəst toplaşması, təşviqat aparılması üçün müvafiq şərait yaradılmışdır. Seçkilərin yüksək səviyyədə keçməsi üçün əlimizdən gələni edəcəyik.

Cənab Prezident, ümumiyyətlə, Siz Lənkəranın çətin, xoş günlərində həmişə bizə dayaq olmusunuz. Sizi bir daha əmin edirəm ki, Azərbaycanın, xalqımızın gələcəyi üçün gördüyünüz bütün işlərinizdə Sizin köməkçiniz olacağıq.

**O q t a y   A b b a s o v** (*Astara Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, respublikamızda ictimai-siyasi sabitliyin bərpası və iqtisadi tənəzzülün dayandırılması məhz ümummilli lider Heydər Əliyevin dövrünə təsadüf etmişdir. Bu gün də həmin siyasət davam etdirilir, respublikamız sürətlə inkişaf edir.

Sizin təsdiqlədiyiniz sosial-iqtisadi inkişaf proqramı həyata keçirilir. Siz konserv zavodunda oldunuz. Yerli sahibkarın öz vəsaiti hesabına tikdiyi 2 konserv zavodu istifadəyə verilmişdir. Həmin ərazidə süd zavodunun tikintisinə də başlanacaqdır. Rayonda abadlıq işləri də geniş vüsət almışdır. Təhsilə böyük diqqət yetirilir. Rayonda 9 yeni məktəb, o cümlədən Heydər Əliyev Fondunun vəsaiti ilə 3, daxili imkanlar hesabına 4 məktəb tikilir. Çalışacağıq ki, bu il onları istifadəyə verək.

Rayonda 38 fermer təsərrüfatı yaradılmışdır. Bunlardan 13-ü heyvandarlıqla, 25-i sitrus bitkiləri becərməklə və çayçılıqla məşğuldur.

«Azərsun Holdinq» şirkətlər qrupu çayçılıq sahəsində çox böyük işlər görür, artıq 15 hektar torpaq sahəsi alıblar. Çayçılığın inkişaf etdirilməsi üçün daha 5 hektar torpaq sahəsi ayrılmışdır.

Astara rayonunun ən böyük problemlərindən biri kəndarası yolların və dağ yollarının vəziyyətidir. Onların təmirə çox böyük ehtiyacı var. Rayonun üç yaşayış məntəqəsinə – Astara şəhərinə, Sərab və Ərçivan kəndlərinə qaz verilir. Şəhərin 18 minə yaxın əhalisinin təxminən 60 faizi qazla təmin olunur. 9 minə yaxın əhalisi olan Ərçivan kəndində də camaatın tam 60 faizə qədəri qaz alır. Daxili imkanlarımız hesabına yeraltı qaz xətlərini üstə çıxarıb təmir edirik. Lakin bu sahədə Sizin köməyinizə ehtiyac vardır.

Ən böyük problemlərdən biri də Xəzər dənizi ilə bağlıdır. Astara rayonunun Xəzər dənizi ilə 18 kilometr sərhədi var. Artıq su şəhərə – dəmir yoluna yaxınlaşmaqdadır. Nəqliyyat Nazirliyi tərəfindən bizə daim kömək göstərilir, ancaq orada əsaslı işlər görülməlidir.

Astarada olan yaşayış binalarının çoxu SSRİ vaxtında tikilmiş, bəziləri yarımçıq istifadəyə verilmişdir. Bu binaların mərkəzləşmiş kanalizasiya xətti yoxdur.

Dənizin səviyyəsinin qalxması ilə əlaqədar yay vaxtı şəhərdə içməli su problemi yaranır. 1988–89-cu illərdə, hətta 1980-ci illərin əvvəlində Astarada tədqiqat aparılmışdır. 48 kilometr aralıda böyük bulaq var, əgər oradan su çəkilsə, həm Astara şəhərini, həm də bəzi qəsəbələri içməli su ilə təmin etmək olar.

Cənab Prezident, Siz dünən modul tipli elektrik stansiyasının təməlinin qoyulması mərasimində iştirak etdiniz. Fürsətdən istifadə edərək, bu stansiyanın və qaz-kompressor stansiyasının Astara rayonu ərazisində tikilməsinə görə bütün astaralılar adından Sizə minnətdarlığımı bildirirəm. Əmin olun ki, bütün astaralılar var qüvvəsi ilə çalışacaq ki, Sizin tövsiyə və tapşırıqlarınız yerlərdə həyata keçirilsin.

Regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində görülən işlər nəticəsində Astarada 2400 daimi iş yeri açılmışdır.

Mövsümi iş yerlərinin sayı isə 7400-ə yaxındır. Sahibkarlığın inkişafı, iş yerlərinin sayının artırılması və əhalinin sosial rifahının yaxşılaşdırılması üçün bütün imkanlardan istifadə olunacaqdır.

**İ l h a m Ə l i y e v:** Qaz təchizatı, ümumiyyətlə, çox ciddi problemdir. Bu öz həllini tədricən tapır, amma hələ ki, biz bunu tam şəkildə həll edə bilmirik. İlk növbədə, qazın həcminin az olmasına görə. Çünki Azərbaycanda 4 milyard kubmetr qaz hasil edilir, təxminən 4 milyard 500 milyon kubmetr də idxal olunur. Amma bu yenə də çatmır. Bizim hələlik əlavə imkanımız yoxdur. İdxal qazını da 4 milyard 500 milyon kubmetrdən artıq ala bilmirik. Ona görə yox ki, bizim pulumuz yoxdur. Pulumuz var, qaz yoxdur. Ona görə, indi bizim ümidimiz «Şahdəniz» qaz yatağının işlənilməsinə, eyni zamanda, «Azəri» yatağından çıxarılan səmt qazının artırılmasınadır. Hər iki layihə Azərbaycana əlavə qazın verilməsini təmin edəcək və ondan sonra yəqin ki, qaz problemi aradan qaldırılacaqdır.

Ancaq elektrik enerjisi ilə təchizat daha sürətlə yaxşılaşır. Yaz-yay aylarında, ümumiyyətlə, problem yoxdur. Çalışmalıyıq ki, qış aylarında da olmasın. Azərbaycanın müxtəlif bölgələrində modul tipli elektrik stansiyalarının tikintisi, 500 meqavatlıq Sumqayıt buxar-qaz qurğusunun, Bakıda «Şimal-2» elektrik stansiyasının tikintisi bu problemin aradan qaldırılmasına imkan yaradacaqdır. Eyni zamanda, bildiyiniz kimi, bu yaxınlarda «Azəristiliktəchizat» Səhmdar Cəmiyyəti yaradıldı və o, istilik təchizatı problemləri ilə məşğuldur. Məqsəd qoyulubdur ki, gələn ilin sonuna qədər Bakıda istilik təchizatı problemi tamamilə aradan qaldırılsın. Yeni texnologiyalar tətbiq olunacaq, mən bu məsələ ilə çox ciddi məşğulam və müvafiq göstərişlər verilibdir. Məhəllədaxili müasir qazanxanalar quraşdırılacaq və beləliklə, hər bir məhəllə muxtar şəkildə, rejimdə istiliklə təmin olunacaqdır. Birincisi, bu, problemi aradan qaldıracaq, ikinci tərəfdən isə, elektrik enerjisinə tələbat o qədər də çox olmayacaq, xüsusilə qış aylarında bu qıtlıq aradan qaldırılacaqdır.

Əlbəttə ki, bu məsələlər indi bizi ən çox narahat edən məsələlərdir. Çünki ölkə inkişaf edir, iqtisadiyyat inkişaf edir, yeni müəssisələr fəaliyyətə başlayır, yeni evlər tikilir, əhalinin rifah halı yaxşılaşır, fərdi ev tikintisi çox sürətlə gedir. Hər bir ev tikiləndə onun qazı da, suyu da, işığı da olmalıdır. Bunu çatdırmaq çətindir. Ancaq əminəm ki, bu problemlər həll ediləcəkdir. Sadəcə olaraq, bir az vaxt lazımdır.

**F ü z u l i  H a c ı y e v** (*Lerik Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, iki gündür bütün leriklilər böyük təəssürat altındadır. Lənkəran–Lerik yolunun açılışı ilə bağlı sevincimizin həddi-hüdudu yoxdur. Bu tarixi hadisə ilə əlaqədar Sizə bütün leriklilərin minnətdarlığını bildirirəm. Dövlət Proqramının qəbulundan sonra bütün regionlarda olduğu kimi, bizdə də bu istiqamətdə müəyyən işlər görülür. Rayon üzrə 10–15 əsas istiqamət müəyyənləşdirilmişdir və müvafiq iş gedir. Məhz bunun nəticəsidir ki, rayonumuzda 5 il üçün nəzərdə tutulmuş 3500 iş yerindən 1000-i açılmışdır. Bunun da 70 faizindən çoxu daimi iş yeridir. Təkcə Lənkəran–Lerik yolunun çəkilişi dövründə, bu neçə ay ərzində 500-dən çox adam işlə təmin olunmuşdur. Bu bizim rayon üçün çox böyük əlamətdar hadisədir.

Vaxtilə ümummilli liderimizin xüsusi tapşırığı və göstərişi ilə dağ rayonlarının inkişafına dair 14 illik bir proqram icra olunur. Bu proqram respublikanın 5 rayonunda, o cümlədən Lerikdə həyata keçirilir. Təkcə bu proqram çərçivəsində 400 nəfərə yaxın adam işlə təmin edilmişdir. Bu təkcə yerli əhalinin iş yeri tapmasına yox, rayonda sosial infrastrukturun yaradılmasına, təmir işlərinə, məktəblərin tikilməsinə, xəstəxanaların bərpa olunmasına, uşaq bağçalarının inşasına səbəb olur. Xüsusilə nəqliyyat və tikinti materialları istehsalı, turizm, mineral suların istehsalı, kənd təsərrüfatının inkişafı ilə bağlı yaxşı nəticələr vardır.

Son iki-üç il ərzində Lerikdə 8 məktəb son altı ayda isə 5 məktəb inşa edilmişdir və sentyabrın 15-dək istifadəyə veriləcəkdir.

Əhalinin maddi vəziyyəti, güzəranı günü-gündən yaxşılaşır. Miqrasiya məsələsində də dəyişiklik hiss olunur, yəni əhalinin torpaqla təminatı onların rayonda qalmasına kömək edir. Xüsusilə də ucqar kəndlərdən köçmənin sayı minimuma enmişdir. Bu, sosial-iqtisadi inkişafla bağlı görülən mühüm işlərin nəticəsidir və gələcəkdə də davam etdiriləcəkdir.

Hələ 1980-ci illərin axırlarında İran İslam Respublikası ilə sərhəd-keçid məntəqəsinin açılmasına səy göstərilmişdir. Azərbaycanın sərhəd rayonlarının sakinləri sadələşdirilmiş qaydada İrana gedirlər. Bizim camaat da bu imkandan istifadə edir. Ancaq onlar bundan ötrü Lənkərana, oradan Astaraya və sonra İrana gedirlər. Bu da müəyyən problemlər yaradır. Halbuki bizim sərhəd kəndimizdən İranın Ərdəbil şəhərinə cəmi 29 kilometrdir. Bu məsələ həll olunarsa, rayonun yüksək dağlıq ərazilərinin kənd təsərrüfatı, ticarət-iqtisadi əlaqələri inkişaf edərdi.

Başqa bir əsas məsələ qazlaşdırma ilə bağlıdır. Lerikin füsunkar meşələri var və əhali yanacaqla bağlı həmişə meşələrdən istifadə edir. Bu problem həll olunsa, meşələrin qırılmasının qarşısı alınardı. Vaxtilə rayondaxili, rayonlararası yollar, xüsusilə Lerik–Kəlvəz sərhəd yolu, Lerik–Yardımlı, Lerik–Masallı yolu dövlət yolları idi. Sonradan bunlar kənd yolları kimi, rayonun tərkibinə verilib. İstərdik sərhəd bölgəsi olduğu üçün gələcəkdə bunlara dövlət yolu statusu verilsin.

**İlham Əliyev:** Lənkəran–Lerik yolu rayon yolu hesab olunur?

**Füzuli Hacıyev:** Dövlət yoludur. Ondan sonra sərhədə qədər Kəlvəz kəndinədək yol var. Yəni bu, dövlət yolu olarsa, gələcəkdə rayonumuzun iqtisadiyyatının inkişafına böyük təkan yaradar.

Cənab Prezident, Lerik kənd təsərrüfatı rayonudur, çoxlu mal-qaramız var. 25 min hektar qışlaqlarımız var, başqa rayonlardan 20 illiyə bizə verilmişdi. Əhali indi də ondan istifadə edir, amma müəyyən problemlərlə qarşılaşır. Yəni, artıq bunun hüquqi əsası yoxdur. Bu torpaqların bizə verilməsinin müddəti 2000-ci ildə qurtarıbdır. Kənd təsərrüfatı texnikası ilə bağlı da

çətinlik çəkirik. Xüsusilə taxıl biçini zamanı kombaynlarla, şum traktorları, aqroservis xidməti ilə bağlı müəyyən problemlərimiz olur.

Rayonda əhalinin əhval-ruhiyyəsi yüksəkdir. Lerik rayonunda 161 kənd var. Bunların 70-ə yaxını dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşir və buna görə adamlar 20 faiz əlavə vəsait alırlar. İstərdik ki, əhalinin sosial rifahının yaxşılaşdırılması və miqrasiyanın qarşısının alınması üçün bu əmsal 1200 metr yüksəklikdə yerləşən yaşayış məntəqələrinə də tətbiq edilsin. Məsələn, Lerik qəsəbəsi 1480 metr yüksəklikdədir.

**İ l h a m  Ə l i y e v:** 20 metr çatmır.

**F ü z u l i  H a c ı y e v:** Bəli, 20 metr çatmır ki, adamlar 20 faiz əlavə vəsait alsın. Cənab Prezident, mən xahiş edirəm ki, əgər gələcəkdə imkan olarsa, bu məsələdə bizə köməyinizi göstərəsiniz. Mən Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

**İ l h a m  Ə l i y e v:** Biz bütün məsələlərə baxacağıq, indi göstərişlər veriləcəkdir. Hündürlük məsələsinə də baxarıq. Ümid edirəm ki, bu da öz müsbət həllini tapacaqdır. Buraxılış-keçid məntəqəsi barədə biz sizinlə dünən söhbət etdik.

Əlbəttə, bu, insanlara da böyük əziyyət verir. Onlar gərək Lerikdən Lənkərana gəlsinlər, Lənkərandan Astaraya getsinlər, oradan da İrana keçsinlər. Halbuki buradan, yaxın məsafədən keçə bilərlər. Ona görə biz bu məsələyə gərək aydınlıq gətirək. Müvafiq göstərişlər veriləcəkdir, müvafiq orqanlar bu məsələyə baxacaqlar. Əgər heç bir başqa fikir olmasa, biz bunu həll edərik.

Qazlaşdırma ilə bağlı məsələ də mənə tanışdır. Mən bilirəm, Azərbaycanda bir neçə rayon var ki, ümumiyyətlə, orada heç vaxt qaz olmamışdır. Bunlardan biri Lerikdir, o biri isə Yardımlıdır. Mən bu məsələ ilə 2001-ci ildə çox ciddi məşğul idim. Çünki bilirsiniz ki, Azərbaycana 2001-ci ilə qədər xaricdən qaz gətirilmirdi. Ancaq Azərbaycanda çıxarılan qazdan istifadə edirdik. O da çatmırdı. Çünki onun böyük hissəsi elektrik stansiyalarına gedirdi və əhaliyə qaz, faktiki olaraq, çox az verilirdi. Ancaq Bakı və bir neçə rayon qazla təmin olunurdu.

2001-ci ildə biz yeni proqrama başladıq və onun da təşəbbüskarı mən olmuşdum. Rusiyadan 2001-ci ildə 1 milyard kubmetr, ondan sonra 2 milyard kubmetr qaz idxal edirdik. Tədricən bu rəqəmi, həcmi artıraraq, 4 milyard 500 milyon kubmetrə çatdırdıq. O vaxt da öyrəndim ki, Azərbaycanda Lerik və Yardımlı rayonları qaz ala bilmir, çünki xətlər yoxdur. Buraya gəlməmişdən əvvəl "Azəriqaz" Səhmdar Cəmiyyətinin rəhbərinə göstəriş verdim ki, məsələ araşdırılsın və təkliflər verilsin ki, biz Lerikə və Yardımlıya qaz xətlərini necə çəkək. Əlbəttə, bu, texniki cəhətdən çətin bir məsələdir. Çünki özünüz bilirsiniz, burada relyef çox mürəkkəbdir. Həm texniki cəhətdən çətindir, eyni zamanda, çoxlu vəsait tələb edən bir layihədir. Amma mən göstəriş verdim. Yaxın zamanlarda təkliflər hazırlanacaqdır. Mən ümid edirəm ki, bu məsələ də öz müsbət həllini tapacaq və tapmalıdır. Çünki Azərbaycanda bütün rayonlar qazla təmin edilməlidir. Hər halda, infrastruktur yaradılmalıdır. Ondan sonra qazın verilməsi onun həcmindən asılı olacaqdır. Bayaq dediyim kimi, növbəti illərdə qazın həcmi həm Azərbaycanın özündə artacaq, həm də bəlkə idxal imkanlarımız daha da genişləncək və beləliklə, biz bu məsələni həll edə biləcəyik.

«Aqrolizinq» Səhmdar Cəmiyyətinin yaranması da bir yenilikdir. Azərbaycanda bu praktika yox idi. Mən bir müddət bundan əvvəl göstəriş verdim ki, araşdırsınlar, görək bizim kənd təsərrüfatında ən çox problem yaradan nədir. Dedilər ki, ən çox problem yaradan texnikanın olmaması, yaxud köhnəlməsi, bir də gübrələrin olmamasıdır. «Aqrolizinq»in yaranmasının səbəbi də budur. Bu il büdcədə 100 milyard manat nəzərdə tutulub, artıq xaricdən texnika alınıb və bu yaxınlarda bölgələr arasında paylanacaqdır. Gələn il isə 150 milyard manat dəyərində texnika alınacaqdır. Lazım olarsa, biz bu məbləği də artırarıq ki, texnikanın çatışmaması qısa müddət ərzində aradan qaldırılsın. Gübrə də alınacaq və paylanacaqdır. Çünki bizim əhalimizin yarısı kənd təsərrüfatı ilə məşğuldur. Kənd təsərrüfatının inkişafı ölkəmiz üçün çox vacibdir, bu sahədə böyük perspektivlər

var. Biz bunu da həll etməliyik. Qalan bütün məsələlərin hamısına baxılacaqdır.

**O q t a y  Ə l i y e v** (*Masallı Rayon İcra Hakimiyyətinin başçısı*): Hörmətli cənab Prezident, Masallı rayonu bu günlər Sizin gəlişinizlə əlaqədar xoş təəssürat içindədir. Regionların sosial-iqtisadi inkişafına dair Sizin təsdiq etdiyiniz proqrama uyğun olaraq rayonda çox böyük işlər görülübdür. 2 kərpic zavodu, qazlı sular istehsal edən sexlər, iaşə və ticarət mərkəzləri, 8 şadlıq sarayı tikilibdir. Ticarət mərkəzlərindən birində bu gün Siz oldunuz, orada 450–500 nəfər adam işlə təmin edilmişdir. Bundan əlavə, mebel fabriklərimiz, kərpic zavodlarımız da var və onlarda əlavə sexlər yaradılır. Dövlət Proqramına uyğun olaraq, Masallı rayonunda 6 min daimi iş yeri açılmalıdır. İndiyədək 2291 daimi iş yeri yaradılmışdır ki, onun da 976-sı son səkkiz aya təsadüf edir. Abadlıq işlərinə də diqqət artırılmışdır. Heydər Əliyev prospekti tam abadlaşdırılıb, asfaltlaşdırılıb, müasir işıq dirəkləri qoyulubdur. 20 kilometr sahəyə asfalt, bütün kəndarası yolların hamısına çınqıl döşənmişdir, qışda camaat yoldan əziyyət çəkməyəcəkdir.

Sement zavodu, beynəlxalq avtovağzal tikiləcək, Heydər Əliyev adına 5 hektarlıq park tam abadlaşdırılacaq, orada ulu öndərimizin heykəli ucaldılacaqdır.

Bəzi problemlərimiz də vardır. Əsas məsələlərdən biri çayçılığın bərpasıdır. Masallıda vaxtilə 11 min ton yaşıl çay yarpağı yığılır və bu sahədə 10 min adam işləyirdi.

**İ l h a m  Ə l i y e v:** İndi nə qədər yığılır?

**O q t a y  Ə l i y e v:** İndi cəmi min ton yığılır. O da daxili imkanlarımız hesabına, büdcə vəsaitindən istifadə etmədən bərpa olunmuş 50–60 hektar sahədən götürülür. Bilirsiniz ki, çay kolları 7–8 ilə məhsul verir. Ona görə də bizə uzunmüddətli güzəştli kreditlər verilsə, bu məsələ həll olunar.

Qaz problemimiz də var, rayonun cəmi 30–40 faiz abonenti qazla təmin olunur ki, bu da azdır. Ona görə də meşələrin qırılmasına və məhvinə gətirib çıxarır. Bunlar proqrama salınsa, yaxşı olardı.

İndi Masallı şəhərinin əhalisi 25 minə yaxındır. Lakin şəhərin kanalizasiya, su sistemi yoxdur. Suyu maşınlarla gətirirlər. Ərçivan kəndindən 5,5 kilometr məsafədən su çəkmişik, ancaq o, üç yerə gəlib çatır, camaat suyu oradan aparır. Bu işdə də köməyinizə ehtiyac duyuruq.

Qaz, elektrik sayğaclarının qoyulması da çox ciddi məsələdir. Sayğaclar qoyulsa, pul yığımı ilə əlaqədar problemlər azalar.

**İ l h a m  Ə l i y e v:** Sizdə sayğac qoyulmur?

**O q t a y  Ə l i y e v:** Başlayıblar, ancaq çox azdır. Qoyulsa, çox kömək edər və qənaətə gətirib çıxarar.

Cənab Prezident, kənd təsərrüfatında işləyən traktorlar köhnəlib və demək olar, sıradan çıxıbdır. «Aqrolizinq»in Masallıda məntəqəsi yaradılsa, fermerlər texnikanı icarə yolu ilə götürüb istifadə edərdilər.

Rayonda turizmin inkişafına da fikir verilir. Bu sahədə 6 böyük şirkət fəaliyyət göstərir. Çoxlu kotteclər tikilib və istifadə olunur. Yer məsələsi ilə bağlı problem yoxdur.

Söz verirəm ki, qarşımızda qoyduğunuz proqramlar Masallıda tam yerinə yetiriləcəkdir. Masallı camaatı Sizi çox sevir, xarici və daxili siyasətinizi tam dəstəkləyir və axıra qədər də belə olacaqdır.

**İ l h a m  Ə l i y e v:** Qaldırdığınız məsələlər çox vacibdir və biz çalışırıq ki, bunları həll edək. Bu məsələlər, demək olar ki, bütün rayonlarda mövcuddur. Əsas narahat edən məsələlər işıq, qaz, su, kanalizasiya sistemi və kənd təsərrüfatı texnikasının çatışmamasıdır. Bütün bu məsələlərə, əlbəttə, çox böyük diqqət göstərilir. Vaxt var idi ki, ümumiyyətlə, Masallıya, bu bölgəyə qaz verilmirdi. Bu bölgəyə qazın verilməsinin dayanması təxminən 1990-cı, yaxud 1991-ci ilə təsadüf edir.

O illərdən sonra 10 il ərzində qaz verilmədi. 2001-ci ildə biz Lənkəran, Masallı, Astaraya, sonra o biri rayonlara – Cəlilabad, Biləsuvara qaz verilməsini bərpa etdik. Amma çatmır. Bunun da səbəbi aydındır – qaz yoxdur. Bir var ki, nəyisə tez, qısa müddət ərzində eləmək olar, biz bunu edirik.

Elektrik enerjisi ilə bağlı problem də bizi çox narahat edir. Nə etdik? Qısa müddət ərzində 52 kiçikhəcmli, modul tipli elektrik stansiyasının alınmasına nail olduq. Büdcədən vəsait ayırdıq, heç bir kredit götürmədik. Bu çox böyük məbləğdir. Göstəriş verdim ki, 2006-cı ilin sonuna qədər 5 yerdə bu stansiyalar tikilsin, birincisi də Astarada. Beləliklə, qısa müddət ərzində bu problem aradan qaldırılacaqdır. Sonra Sumqayıt elektrik stansiyası, Bakıda «Şimal-2» elektrik stansiyası, daha sonra Əli Bayramlı elektrik stansiyası tikiləcəkdir. Bunlar 2–3 il vaxt aparacaqdır. Modul elektrik stansiyalarının tikilməsi qısa müddət ərzində bu problemi aradan qaldırır.

Qaz təchizatında isə biz buna nail ola bilmirik. Çünki hasil olunan qaz çatmır, idxal qazı da azdır. Biz Rusiya ilə bu il üçün 5,5 milyard kubmetr qazın alınması haqqında saziş bağlamışdıq. 5,5 milyard kubmetr qaz bizi tam qane edəcəkdir. 4 milyard kubmetr də özümüz hasil edirik. Amma onlardan xəbər gəldi ki, maksimum 4,5 milyard kubmetr qaz verə biləcəklər. Belə olan halda, 1 milyard kubmetr qaz çatmır. Yalnız və yalnız «Şahdəniz» qaz yatağının işə düşməsi, «Azəri» yatağından səmt qazının hasilatının artırılması bu məsələni həll etməyə imkan verəcəkdir.

Sayğaclar da quraşdırılmalıdır. Mən tamamilə razıyam və göstəriş vermişəm, həm qaz, həm elektrik, həm su sayğacları qoyulmalıdır. İnsanlar bilməlidir ki, nəyə görə pul verirlər. Mən demişəm ki, kimin imkanı yoxdursa, qazın pulunu imkanı olanda versin. Çünki biz qazın qiymətini qaldırdıq. Amma elektrik enerjisinin qiymətini qaldırmadıq. Ona görə bunun pulu necə verilirdisə, elə də verilməlidir. Daha da çox verilməlidir. Çünki az yığılır. Qonşu ölkələrdə yığım 100 faiz təşkil edir və hər kilovat-saat elektrik enerjisinin qiyməti bizdəkindən 2–3 dəfə yuxarıdır. Dollarla desək, Azərbaycanda əhaliyə qazın min kubmetri 8 dollara satılırdı. Qonşu ölkələrdə 130 dollara satılır. Biz bunu qaldırdıq 48 dollara, yenə də bizim, necə deyərlər, xərclərimizi ödəmir. Çünki biz Rusiyadan 62 dollara alırıq. Hansı ölkə 62 dollara alıb, əhaliyə 48 dollara satır? Heç bir ölkə bunu

etməz. Ancaq biz buna, necə deyərlər, ədalətli yanaşırıq. Amma imkanlar artdıqca, indi maaşlar, minimum əməkhaqqı, pensiyalar qaldırılır – əlbəttə, qazın pulu ödənilməlidir. Amma adamlar bilməlidir ki, nəyə görə pul ödəyirlər. Ona görə sayğaclar tez bir zamanda quraşdırılmalıdır.

**S ü l e y m a n M i k a y ı l o v** (*Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı*): Çox hörmətli cənab Prezident, Yardımlı rayonuna səfəriniz əhalinin böyük sevincinə səbəb olmuşdur. Ona görə rayonumuzun sakinləri adından Sizə təşəkkürümüzü bildiririk. Yardımlının problemlərinin həllinə dair verdiyiniz tapşırıqların hamısı may ayından yerinə yetirilir. Tikiş və xalça sexləri tam gücü ilə işləyir, müasir texnologiya və avadanlıqla təchiz olunubdur. Burada 150 nəfərə qədər işçi çalışır. Ticarət mərkəzində 110-a qədər işçi çalışır. Yeni açılan çörək sexi Türkiyədən gətirilmiş müasir avadanlıqla təchiz olunub, burada 15 nəfər işləyir.

Heydər Əliyev küçəsində 260-dan çox müasir tipli işıq dirəkləri quraşdırılıbdır. 2200 yerlik, müasir standartlara uyğun stadion istifadəyə verilib, Heydər Əliyev muzeyi yaradılıbdır.

Yardımlıda məktəblərlə bağlı çox böyük problem var idi, son zamanlar aradan qaldırılmışdır. Heydər Əliyev Fondu tərəfindən 6 məktəb tikilmişdir, sentyabrın 15-də təhvil veriləcəkdir. 18 məktəb daxili imkanlar hesabına yenidən tikilib və tam hazır vəziyyətdədir. 6 məktəbdə də müasir standartlara uyğun təmir işləri aparılıbdır. Bütün bunların nəticəsində ümumilikdə rayonda 2100 adam işlə təmin olunubdur.

Üç ayda rayonda 360 nəfər daimi işlə təmin edilmişdir. Yardımlının da su problemi var. Daxili imkanlar hesabına artezian qurğuları almışıq, kəndlərdə quyular qazılır.

Cənab Prezident, bizim rayonda kadr çatışmazlığı var. 412 müəllim çatışmır. Şərait olmadığına görə, uzaq dağ rayonu olduğu üçün gəlmirlər.

**İ l h a m Ə l i y e v:** Gəlmək istəmirlər?

**S ü l e y m a n M i k a y ı l o v:** Heç kim gəlmək istəmir. Bu barədə Təhsil Nazirliyinə yazmışıq, bəlkə bir kömək göstərdilər. 40-dan çox həkim çatışmır. Bu da problem olaraq qalır. Qaz problemi də var.

**İ l h a m Ə l i y e v:** Yardımlıda qaz heç vaxt olmayıbdır.

**S ü l e y m a n M i k a y ı l o v:** Amma böyük problemdir. Meşələr qırılır.

**İ l h a m Ə l i y e v:** Mən bunu dedim, göstəriş verdim, indi «Azəriqaz» təkliflər hazırlayır. Texniki təklif hazır olan kimi, mən lazım olan vəsaiti ayıracağam, həm Lerikə, həm də Yardımlıya qaz xətləri çəkiləcəkdir.

**S ü l e y m a n M i k a y ı l o v:** Cənab Prezident, bizim elektrik enerjisi problemimiz də var. Elektrik dirəkləri çox köhnədir. Külək olan kimi bir neçə gün kəndlər işıqsız qalır. Son vaxtlar daxili imkanlarımız hesabına 20-yə yaxın transformator alıb quraşdırmışıq. «Bayva» ilə danışıqlar gedir. Bizə bu sarıdan Sizin köməyiniz lazım olacaqdır. 35 min kilovoltluq Masallı–Yardımlı xətti sıradan çıxmaq üzrədir. İndi bəzi müəssisələrin açılması ilə əlaqədar Yardımlı rayonuna yeni xətt çəkilsə, çox yaxşı olar.

Yardımlıda da sərhəd buraxılış-keçid məntəqəsinin açılması zəruridir. Çünki İranın böyük şəhəri olan Ərdəbilə 25 kilometrdir.

**İ l h a m Ə l i y e v:** 25 kilometrdir?

**S ü l e y m a n M i k a y ı l o v:** Bəli.

**İ l h a m Ə l i y e v:** Yol var?

**S ü l e y m a n M i k a y ı l o v:** Bəli, yaxşı yol deyil, amma var.

**İ l h a m Ə l i y e v:** Yaxşı, biz bu məsələyə kompleks şəkildə baxarıq.

**S ü l e y m a n M i k a y ı l o v:** Cənab Prezident, Sizin bütün daxili və xarici siyasətinizi dəstəkləyirik. Yardımlı camaatı həmişə Sizə arxadır.

## YEKUN NİTQİ

Yardımlı doğrudan da böyük sürətlə inkişaf edir. Mən bu gün vəziyyətlə tanış oldum. Çoxlu yeni müəssisələr, binalar, sosial obyektlər gördüm, uşaq bağçası ən yüksək səviyyədədir, stadion təmir olunubdur, məktəblər tikilir. Orada ağsaqqallarla söhbətdə də hiss elədim ki, bu işlərə nə qədər böyük rəğbət var, onlar görülən işləri nə qədər yüksək qiymətləndirirlər. Qısa müddətdə, 3–4 ay ərzində o qədər iş görülüb ki, bəlkə bunları 1–2 ilə görmək mümkün deyil. Bu onu göstərir ki, iş olan yerdə nəticə də var və insanlar da buna həmişə ədalətlə yanaşırlar. Əgər haradasa hansısa bir narazılıq varsa, deməli, onun səbəbi var. Səbəb olmasa, heç kim irad tutmaz. Problemlər var və onlar gərək həll olunsun. İnsanlar hər şeyi çox yaxşı bilirlər, hər şeyə çox düzgün qiymət verirlər. Yaxşı iş, yenilik, diqqət olanda, bu həmişə yüksək qiymətləndirilir.

Mən demək istəyirəm ki, bu məsələlərə çox böyük diqqət göstərilməlidir. İnsanların şikayətlərinə baxılmalıdır və orada əks olunan məsələlər operativ qaydada həll olunmalıdır. Mən getdiyim bütün rayonlarda məktublar, ərizələr alıram, öz nümayəndələrimi də orada qoyuram ki, məndən sonra da o məktubları yığsınlar. Sonra bütün məktublara baxılır, təhlil olunur. Zeynal Nağdəliyev qeyd elədi, təhlil apararkən görürsən ki, artıq ərizələrin məzmunu dəyişir, daha çox xahişə rast gəlinir, şikayətə yox. Kiminsə xəstəsi var, xahiş edir ki, o, müalicəyə göndərilsin. Kiminsə tutaq ki, övladı instituta pullu bölməyə qəbul olunub, pulu yoxdur ki, ödəsin. Xahiş edir ki, həmin pulu ödəməkdə ona kömək olunsun. Bu da müsbət haldır. Biz bütün məktublara reaksiya veririk, çalışırıq ki, məsələləri həll edək. O ərizəni, məktubu verən, eşidəndə ki, başqasının məktubuna müsbət cavab verildi, məsələ həll olundu, uşağın müalicəsinə kömək edildi, xəstə sağaldı, bu da insanlarda möhkəm inam yaradır. Nə qədər belə hallar var. O qədər elə məktublar alıram. Həmin məktubları ürək ağrısı ilə oxuyuram. İndi uşaq, övlad xəstədir, müalicəsi mümkündür, amma pul yoxdur. Biri var ki, müalicəsi yoxdur, indi nə edəsən? Amma müalicəsi olan halda,

maddi çətinlikdən uşağın əldən getməsi ilə necə barışmaq olar?!. Ona görə də biz hər bir məsələyə fərdi qaydada yanaşırıq və onu həll edirik. Əlbəttə ki, insanlar bunu görəndə bu müraciətlərin sayı da çoxalır.

Amma sevindirici haldır ki, biz o məktublarda hansısa ədalətsizlik barədə şikayətə, yaxud narazılığa çox nadir hallarda rast gəlirik. Bu da ölkədə gedən inkişafın, sosial şəraitin yaxşılaşmasının təzahürüdür, əlamətidir. Əminəm ki, getdikcə bütün problemlər öz həllini tapacaq və Azərbaycanda insanlar yaxşı, rahat yaşayacaqlar.

İş yerlərinin yaranması ən başlıca problemlərdən biridir. Mən ümid edirəm ki, görülən işlər nəticəsində bir neçə ildən sonra biz işçi qüvvəsi axtaracağıq. Bu gün Masallıda kərpic zavodu ilə tanış olarkən soruşdum, dedilər ki, fəhlə axtarırıq, tapa bilmirik, başqa rayondan axtarırıq. Bəzən müəyyən bir maaşa razı olmurlar, daha da yüksək maaş istəyirlər. Yəni, işsizlik tədricən aradan qaldırılır. İl yarım ərzində 300 min iş yerinin açılması 8 milyon əhalisi olan ölkə üçün böyük nailiyyətdir. Nəzərə alsaq ki, onların tam əksəriyyəti daimi iş yeridir, deməli, bu insanlar daimi işlə təmin olunurlar, yüksək maaş alırlar. Beləliklə, Azərbaycanda işsizlik problemi və onunla bərabər yoxsulluq da aradan qaldırılacaqdır.

Yoxsulluğun səviyyəsi il yarım ərzində 10 faiz aşağı düşübsə, gələn iki-üç il ərzində tamamilə aşağı düşəcəkdir. Mən qarşıya vəzifə qoymuşam ki, Azərbaycanda yoxsul olmamalıdır. Əlbəttə, hər bir ölkədə tənbəllər, işləmək istəməyən adamlar var. Beləəri ən inkişaf etmiş ölkələrdə də vardır. Belə adamlar ya evində, ya küçədə oturur, işləmir. Amma işləmək istəyən adam mütləq işlə təmin olunmalıdır. Açılan fabriklər, zavodlar, yeni müəssisələr, yeni iş yerləri bu məqsədi güdür. Həm fəhlələr, eyni zamanda, ali təhsilli insanlar işlə təmin olunmalıdırlar. Hər kateqoriya üçün də yeni imkanlar yaranır.

Bu baxımdan sahibkarlığın inkişafı çox böyük əhəmiyyət kəsb edir. Çünki bu iş yerlərinin əksəriyyəti özəl sektorda yaranmalıdır. Sahibkarlığın inkişafına bizim ayırdığımız kreditlə-

rin ildən-ilə artırılması da bu məqsədi güdür. Sahibkarlara 2004-cü ildə 100 milyard, 2005-ci ildə 200 milyard güzəştli kredit ayrılmışdır. 2006-cı ildə isə onlara 400 milyard güzəştli kredit ayrılacaqdır. Artıq bu kreditlər işləyir. Biz həmin kreditlərin nəticələrini görürük. Məsələn, rayonlarda sərgilərdə, yaxud da əmək yarmarkalarında olarkən görürəm, stendlər qoyulub və göstərilir ki, bax, alınan kreditin hesabına bu müəssisə yarandı, bu turizm obyekti, bu fabrik tikildi. Pul, ilkin kapital, şərait yoxsa, sahibkar necə işləsin? Bir tərəfdən, güzəştli kreditlərin ayrılması, digər tərəfdən, rayon icra hakimiyyəti orqanlarının sahibkarlara diqqətinin artması məsələləri çox vacibdir. Bu mənim siyasətimdir və əlbəttə, yerlərdə də icra olunur. Həmişə deyirəm ki, sahibkarlara problem yaratmaq olmaz, əksinə, kömək edin. Qoy o, sahibkarlıqla məşğul olsun, varlansın. Azərbaycanda zəngin adamlar çox olmalıdır, orta təbəqə yaranmalıdır. Hər bir ölkənin inkişafını müəyyən edən amillər bunlardır.

«Aqrolizinq» şirkətinin yaranmasının da məqsədi budur. Kənd təsərrüfatı ilə məşğul olanlar texnika, gübrə ilə təmin olunacaqlar. Qoy o bunun pulunu bir neçə ildən sonra, 5 ildən, 10 ildən sonra qaytarsın, yenə qaytaracaq. Bu, önəmli deyil. Məqsəd texnikanı ona verib icarə haqqını tez almaqdan ibarət deyil. Yox. Texnikanı ona verməkdən məqsəd onun fəaliyyətini genişləndirmək, yetişdirdiyi məhsulu artırmaqdır. Beləliklə, bu həm sahibkarlığın, həm də ölkəmizin inkişafına böyük xidmət olacaqdır.

Mən qaz təchizatı məsələsinə toxundum. Amma demək istəyirəm ki, Astarada qaz-kompressor stansiyasının tikintisi zamanı həm də Astara–Qazıməmməd magistral qaz kəməri də bərpa olundu. O çox yararsız vəziyyətdə idi və təzyiq də aşağı idi. İndi təzyiq qalxıbdır. Əgər kifayət qədər qaz olarsa, cənub bölgəsinə yüksək təzyiqlə qaz vermək mümkün olacaqdır.

Kənd yollarının tikintisi də çox vacibdir və mən Bakıya qayıdarkən göstəriş verəcəyəm ki, beş rayona rayondaxili yolların təmirinə vəsait ayrılsın. Bu vəsaitdən həm rayon mərkəzlərinin abadlığı üçün, həm də kənd yollarının tikintisi üçün istifadə

edin. Mən artıq bir neçə dəfə bu vəsaiti ayırmışam. Büdcədə də bu var, amma bəzi hallarda büdcədə vəsait çatışmır. Beş rayona əlavə vəsait ayrılacaq, siz də bundan səmərəli istifadə edin. Gələn il də əlavə ayrılacaq. Bu ilin sonuna qədər müəyyən edin ki, hansı kəndlərə, rayon mərkəzlərinə gedən yolları təmir etmək lazımdır. Çünki yol inkişafdır, yol olmasa, inkişaf da olmayacaqdır. Lənkəran–Lerik yolunu biz qısa müddətə bərpa etdik. Mən bilmirdim ki, bu yol bərbad vəziyyətdədir. Haradan bilərdim? Dedilər ki, gedib-gəlmək mümkün deyildir. Səhv etmirəmsə, keçən ilin sonunda, 2004-cü ildə Nazirlər Kabinetinin iclasında göstəriş verdim. Nəqliyyat Nazirliyi də çox yaxşı səmərəli işlədi, qısa müddət ərzində biz bu məsələni həll etdik və dünən mən o yolu açdım. İndi 40–45 dəqiqəyə Lerikdən Lənkərana gedirlər.

**F ü z u l i  H a c ı y e v** (*Lerik Rayon İcra Hakimiyyətinin başçısı)*: Cənab Prezident, əvvəllər üç saata gedirdilər.

**İ l h a m  Ə l i y e v:** Üç saata gedirdilər. Görün nə əziyyətlə gedilirdi. Hələ Lənkərana üç saata, bəs Lənkərandan sonra? Tutaq ki, Bakıya, yaxud da başqa yerə. Yəni, elə məsələ yoxdur ki, həllini tapa bilməsin. Sadəcə olaraq, bu məsələləri vaxtında qaldırmaq lazımdır. Biz də bunlara operativ reaksiya verməliyik. İndi insanlar rahat gedib-gələcəklər. Həm də ki, bu abadlıqdır, mədəniyyətdir. Azərbaycanın bütün yolları belə olmalıdır. Özü də mən göstəriş verdim ki, elə edin, bu yol Avropa standartlarına uyğun olsun. Yoxsa deyərdilər ki, kənd yoludur, rayona gedir. Amma yüksək səviyyədə elədilər. Yol işarələri, xətlər var, möhkəm dayaq divarları tikildi. Kənd yollarına da vəsait ayıracağıq, siz səmərəli istifadə edin.

Bütövlükdə, işlər müsbət istiqamətdə gedir. İndi mən qeyd elədim, Masallı–Yardımlı yolunun da tikintisinə başlayacağıq və gələn ilin birinci yarısında o yol da Lənkəran–Lerik yolu səviyyəsində çəkiləcək, orada gediş-gəliş daha da asanlaşacaqdır. Bunlar hamısı lazımlı məsələlərdir. Bu, ölkəmizin inkişafıdır. Ölkəmizin qlobal problemləri var, makroiqtisadi problemləri var, sosial problemləri var.

Amma hər bir rayonun da öz problemləri var. Əgər hər rayonun problemi həll edilərsə, deməli, bütün ölkənin problemləri həll olunacaq. Çünki ölkə rayonlardan ibarətdir. Ona görə mənim rayonlara diqqətim, xüsusi qayğım bu məqsədi daşıyır. Bir tərəfdən, bu belə də olmalıdır. Çünki bura Azərbaycandır. Bütün rayonlar Azərbaycanındır və ölkəmiz hərtərəfli inkişaf etməlidir.

Digər tərəfdən, əgər hər bir rayonda məsələlər qaldırılsa, bunlar artıq müsbət şəkildə həll olunacaqdır. Mən inanıram ki, biz buna nail olacağıq. Biz ki, belə sürətlə başladıq, cəmi il yarım keçib üstündən, regional inkişaf proqramı belə sürətlə icra olunur. Gələcəkdə bizim nə qədər vaxtımız var, nə qədər işlər görəcəyik. Hələ Azərbaycana böyük vəsaitlər gəlməyib, Bakı–Ceyhan gələn ildən fəaliyyətə başlayacaqdır. Ancaq biz artıq bu il iqtisadi irəliləyişə nail olduq. Büdcəmizi 3,5 milyard dollara çatdırdıq, ondan da çox olacaqdır. Hələlik bu, ilkin rəqəmdir, dəqiqləşmə gedir. Bəlkə də 3 milyard 600–700 milyon dollar olacaqdır. Kimin ağlına gələ bilərdi? Azərbaycan büdcəsi uzun illər ərzində 1 milyard dollardan yuxarı çıxmamışdı. 1 milyard dollara nail olanda sevinirdik ki, artıq Azərbaycan büdcəsi bu qədərdir. Amma 2004-cü ildə 1,5 milyard dollar, 2005-ci ildə 2 milyard 200 milyondur. Yenə deyirəm, 2006-cı ildə ən azı 3 milyard 500 milyon dollar olacaqdır. Ondan sonrakı illərdə daha da artacaqdır.

Bütün infrastruktur yeniləşməlidir, elektrik xətləri, qaz xətləri, su, kanalizasiya xətləri, yollar, xəstəxanalar, məktəblər, mədəniyyət ocaqları. Əlbəttə, hərbi potensial, maaşlar, pensiyalar, tələbələrin təqaüdləri artmalıdır. Haraya baxsan, hər yerdə irəliləyiş var. Özü də 3, 4, 5, 10 faiz yox, 30, 40, 50, 100, 200 faiz. Həm maaşların qaldırılması, həm büdcə xərclərinin artırılması, həm də ümumi inkişaf baxımından çox sürətlə irəliləyirik.

Mən MDB-nin statistik məlumatlarını alıram. Hər rübdə bir dəfə göndərirlər, müqayisə edirəm. Azərbaycan kimi sürətlə inkişaf edən ikinci bir ölkə yoxdur. Təkcə Müstəqil Dövlətlər Birliyində yox, bütövlükdə, dünyada yoxdur. Hansı ölkədə 8 ayda iqtisadiyyat 20 faiz artır, yaxud da ki, sənaye 23 faiz artır? Heç

bir ölkədə! Avropa İttifaqının üzvü olan, dünyanın ən inkişaf etmiş ölkələrində ildə iqtisadiyyat 1–2 faiz, ən yaxşı halda 3 faiz artır, ya artmır. Bunun da səbəbi var. Əlbəttə, orada potensial tam şəkildə istifadə olunub, böyük inkişaf üçün artıq imkan yoxdur. Çünki onlar artıq o yolu keçiblər, bu təbiidir. Ancaq eyni zamanda, Azərbaycan kimi, tutaq ki, bizim səviyyədə olan ölkələrin inkişaf dinamikasını götürün. Görərik ki, ümumi daxili məhsul 5 faiz, yaxud 7 faiz artır. 8 faiz olanda böyük nailiyyət kimi qəbul edilir. Bizdə isə bu il 20 faizdən çox olacaq. Gələn il 30 faiz olacaq, ondan sonra artım daha da sürətlə gedəcəkdir.

Mən demək istəmirəm ki, biz bütün məsələləri həll etdik, hər şey yaxşıdır. Yox. Mən bütün problemləri bilirəm və rayonlara səfərlərimin məqsədi də məhz budur ki, problemləri dərindən öyrənim. Yaxşı təcrübəni də, çatışmayan cəhətləri də öz gözümlə görüm ki, yaxşısını tərifləyim, dəstəkləyim, pisini də tənqid edim və nöqsanları göstərim. Ona görə mən real vəziyyəti yaxşı bilirəm. Bütün bu problemlərə baxmayaraq, bizim siyasətimiz, atdığımız addımlar deməyə əsas verir ki, biz problemləri həll edəcəyik.

Seçkilər yaxınlaşır, artıq seçki kampaniyasının ikinci mərhələsinə başlanıbdır. Birinci mərhələ çox yaxşı keçdi, heç bir problem olmadı. Bunu həm seçicilər görür, həm də deputatlığa namizədlər görür, beynəlxalq təşkilatlar da bunu qiymətləndirir. 2 mindən çox namizəd var və hər biri üçün eyni şərait yaradılmışdır. Qeydiyyat məsələsində heç bir problem yaranmadı. İndi təşviqat kampaniyası başlayıb və yerli icra orqanlarından çox şey asılıdır. O mənada ki, bu prosesə müdaxilə etməsinlər. Asılıdır ona görə yox ki, nəsə etməlisiniz. Yox, heç nə etməməlisiniz. Kənarda durmalısınız, seçki prosesinə müdaxilə etməməlisiniz. Namizədlərə heç bir çətinlik yaratmamalısınız. Əksinə, çalışmalısınız ki, bütün namizədlərə eyni şərait yaradılsın. Hamı eyni şəraitlə təmin olunsun. Harada ki, seçicilərlə görüşəcəklər – qapalı şəraitdə, yoxsa açıq havada – bütün namizədlərə eyni şərait yaradılmalıdır və heç bir müdaxilə olmamalıdır, sərbəst toplaşma hüququ təmin edilməlidir. Mənim may ayında imzala-

dığım sərəncamın bütün bəndləri yerinə yetirilməlidir və təşviqat kampaniyasının normal keçirilməsi üçün bütün şərait yaradılmalıdır.

Əlbəttə, seçkilər günü də eyni vəziyyət olmalıdır. Yəni, yerli icra orqanları seçkilərə heç bir müdaxilə etməməlidir, heç bir namizədə nə mənfi, nə də müsbət münasibət göstərilməməlidir. Azərbaycan xalqı müdrik xalqdır, öz seçimini edəcək, inandığı namizədlərə səsini verəcəkdir. Əminəm ki, yeni parlament qanunvericilik bazasının təkmilləşməsi sahəsində çox önəmli işlər görəcəkdir.

Bir daha demək istəyirəm, mən bölgədəki vəziyyətlə tanış olarkən belə qənaətə gəlirəm ki, burada işlər yaxşı gedir. Sizin fəaliyyətinizi qiymətləndirirəm. Mən hər şeyə ədalətli yanaşıram. Harada ki, işlər yaxşı gedir, bunu demək lazımdır. Harada ki, yaxşı getmir, tədbir görülür. Bilirsiniz ki, son il yarım ərzində 34 icra hakimiyyətinin başçısı vəzifədən çıxarıldı, yeni adamlar təyin olundu. Onların böyük əksəriyyəti qarşıya qoyulan vəzifələrə məsuliyyətlə yanaşırlar və çalışırlar əllərindən gələni etsinlər ki, vəziyyət yaxşılaşsın. Bundan əvvəl təyin olunmuş icra hakimiyyəti başçılarının da fəaliyyəti məni qane edir. Burada heç bir ayrı-seçkilik yoxdur. Kimi mən təyin eləmişəm, kim məndən əvvəl təyin olunub, mənim üçün fərqi yoxdur. Çünki biz hamımız Heydər Əliyev komandasının üzvləriyik. Bu kadr siyasəti də özünü doğruldur. Sadəcə olaraq, qarşımıza yeni vəzifələr çıxır, zaman yerində durmur, ölkə inkişaf edir. Mənim kadrlara qarşı tələblərim aydındır: yaxşı, səmərəli işləmək, öz fəaliyyəti ilə rayonun sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq, əhaliyə diqqətlə yanaşmaq və qəbul edilmiş bütün proqramların uğurla icra olunmasını təmin etmək.

Mən sizi əldə edilmiş nailiyyətlərə görə təbrik edirəm, sizə uğurlar arzulayıram. Arzu edirəm ki, bundan sonra da xalq naminə, Vətən naminə belə canla, ürəklə işləyəsiniz. Sağ olun.

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Biz Azərbaycanın xarici siyasətində Misir Ərəb Respublikası ilə münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, dost ölkələrimiz və xalqlarımız arasında əlaqələrin hərtərəfli inkişafı üçün əməkdaşlığımızı bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Misir xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 sentyabr 2005-ci il*

# KARDİNAL KREŞENTSİO SEPENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 sentyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 12-də Prezident sarayında İncilin təbliği konqreqasiyasının prefekti, kardinal Kreşentsio Sepenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Dövlətimizin başçısı bazar günü Bakıda katolik kilsəsinin təməlinin qoyulması mərasiminin çox əlamətdar bir hadisə olduğunu vurğulayaraq bildirdi ki, kilsənin tikilməsi haqqında qərar bir il əvvəl qəbul edilmişdi. Prezident İlham Əliyev Vatikana səfərini məmnunluqla xatırlayaraq dedi ki, onun gedişində kilsənin tikintisi ilə bağlı son sənədləri Vatikana təqdim etmişdi. Azərbaycanda bu kilsənin tikilməsi bir daha göstərir ki, ölkəmizdə dini dözümlülük, tolerantlıq çox yüksək səviyyədədir. Bütün dinlər sərbəst şəkildə fəaliyyət göstərir, insanların hamısı bir ailə kimi yaşayır.*

*Prezident İlham Əliyev vurğuladı ki, biz Vatikanla münasibətlərin inkişafına böyük əhəmiyyət veririk və əlaqələrimizin yüksək səviyyədə olmasından çox məmnunuq. Əminik ki, əməkdaşlığımız bundan sonra da inkişaf edəcəkdir. Sizin Azərbaycana səfəriniz əlaqələrimizin daha da inkişafına xidmət göstərəcəkdir.*

*Dövlətimizin başçısı Roma Papası II İohann Pavelin Azərbaycana səfərini yüksək qiymətləndirdi və ümummilli liderimiz Heydər Əliyev ilə Papa arasında çox səmimi dostluq münasibətlərinin olduğunu vurğuladı.*

*Kardinal Kreşentsio Sepe qəbula görə öz adından və nümayəndə heyətinin adından Azərbaycan prezidentinə minnətdarlığını bildirdi, ona Vatikan Dövlətinin başçısı XVI Benediktin salamlarını və ən xoş arzularını çatdırdı. Qonaq dedi ki, mənim Azərbaycana səfərim barədə Papanın məlumatı vardı və o bu səfəri çox vacib hesab edir. Zati-müqəddəsləri Papa XVI Bene-*

*diktin adından Sizə dərindən təşəkkür edirik ki, xeyirxahlıq göstərərək, Azərbaycanda bizim gördüyümüz işləri dəstəkləmisiniz və əminik ki, gələcəkdə bu dəstəyi görəcəyik. Papa II İohann Pavelin dəfn mərasimində iştirakınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Vatikan tərəfi bunu çox yüksək qiymətləndirmişdir. Sizin atanız, möhtərəm Heydər Əliyev ilə Papa II İohann Pavel arasında çox səmimi və sıx dostluq münasibətləri var idi. Bakıda katolik kilsəsinin tikintisi üçün torpaq sahəsinin ayrılması barədə prezident Heydər Əliyev tərəfindən qəbul edilən qərar bizim üçün böyük hədiyyə idi və bunu çox yüksək qiymətləndiririk. Bu, Vatikanla əlaqələrin inkişafına böyük əhəmiyyət verməyinizin bariz nümunəsidir.*

*Kardinal daha sonra dedi ki, biz bu gün səhər Azərbaycanın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini anmaq üçün onun məzarını ziyarət edərək əklil qoyduq. Eyni zamanda, Şəhidlər xiyabanını da ziyarət etdik. Biz kimsəsiz, yoxsul adamlar üçün evin tikilməsini arzu edirik və bu məqsədlə torpaq sahəsinin ayrılması barədə qərar qəbul etdiyinizə görə Sizə bir daha təşəkkürümüzü bildiririk. Azərbaycanda tolerantlıq mühiti hökm sürür və bu çox vacibdir. Ölkənizdə bütün sahələrdə böyük inkişaf vardır, həm dini, həm də mülki baxımdan tam dözümlülük, tolerantlıq mövcuddur. Dünyanın hər bir guşəsində insanların əmin-amanlıq şəraitində yaşaması və möhkəm sülhün olması Müqəddəs taxt-tacın əsas arzularından biridir. Bu baxımdan zati-alinizə dəstək olaraq, bu işə öz töhfəmizi vermək məqsədi ilə ölkənizdə Vatikanın nümayəndəsi fəaliyyət göstərir. Eyni zamanda, Bakıdakı katolik icmasının rəhbəri də bu sahədə Sizi dəstəkləməyə həmişə hazırdır. Onlar bundan sonra da səylərini davam etdirərək, Azərbaycan xalqının rifahı, sülh şəraitində tərəqqiyə nail olması naminə əllərindən gələni əsirgəməyəcəklər.*

*Prezident İlham Əliyev Roma Papasının səmimi salamlarına görə minnətdarlığını bildirdi və özünün də səmimi salamlarını, xoş arzularını zati-müqəddəsləri Papa XVI Benediktə çatdırmağı xahiş etdi.*

## BAKIDA «KARVAN-L BOYALARI» ŞİRKƏTİNİN EYNİADLI İSTEHSAL MÜƏSSİSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*13 sentyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Bakıda «Karvan-L boyaları» şirkətinin eyniadlı istehsal müəssisəsinin tam istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Müəssisənin kollektivi dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladı.*

*Respublikamızın rəhbəri müasir standartlara cavab verən şirkətin istehsal sahələrinin əvvəlki və indiki vəziyyətini, eləcə də ölkəmizdə sahibkarlığın inkişafına göstərilən diqqət və qayğını əks etdirən fotoguşəyə baxdı.*

**Hacı Əbülfəz Qafarov** (*şirkətin rəhbəri*): Cənab Prezident, məlumat verərək bildirim ki, ümummilli liderimiz Heydər Əliyevin «Yeni tikilən hər bir obyekt, infrastruktur ən yüksək dünya standartlarına cavab verməlidir» devizi altında fəaliyyət göstərən bu müəssisə 80 adda məhsul, o cümlədən dəmir dam örtükləri, lak, boya və onun komponentləri, duz, üzvi turşu istehsalı ilə məşğuldur. 1997-ci ildə işə başladığı gündən indiyədək müəssisəyə 2 milyon dollar sərmayə qoyulmuşdur. Avadanlıq əsasən Finlandiyadan və Polşadan gətirilmişdir. Hazırda ildə 1000–1200 ton boya, 300 min kvadratmetrə yaxın dam örtüyü istehsal olunur. Ötən 8 ayda mal dövriyyəsi 7 milyard 200 milyon manat təşkil etmişdir. Məqsəd milli istehsalı artırmaq, keyfiyyətli məhsul istehsal etməklə istehlakçıların inamını qazanmaq və daxili bazarı qorumaqdır. 170 nəfərin çalışdığı müəssisənin 5 satış mağazası fəaliyyət göstərir. İşçilərin orta aylıq əmək haqqı 1,2 milyon manatdır. İş növbəli olduğuna görə onlara pulsuz yemək, iş paltarı verilir.

Sosial-iqtisadi inkişaf Dövlət Proqramına uyğun olaraq, gələcəkdə istehsal sahələrini genişləndirməklə yeni iş yerləri yara-

dılacaqdır. Avropa standartlarına uyğun istehsal olunan məhsullar nəinki MDB məkanına, habelə Almaniya, Rumıniya və Argentinaya da ixrac olunur. Almaniyalı tərəfdaşlarla imzalanmış müqaviləyə əsasən, Berlinə 1 milyon dollarlıq mal göndəriləcəkdir. Rumıniyaya isə 500 min dollarlıq mal göndərilmişdir.

*Prezident İlham Əliyev müəssisənin ayrı-ayrı istehsal sahələrini, o cümlədən günəbaxan yağı və boyaların qablaşdırılması sexlərini gəzdi, dam örtüyü, katalizatorlar və üzvi turşu istehsalı prosesi ilə tanış oldu, məhsulların keyfiyyəti ilə maraqlandı, burada yaradılan şəraitdən razılığını bildirdi. Dövlətimizin başçısı Almaniya və Rumıniyaya məhsul aparan yük maşınlarının sürücülərinə yaxşı yol arzuladı.*

*Mərkəzi laboratoriya ilə tanış olan prezidentə məlumat verildi ki, burada ən müasir cihazlarla bütün məhsulların keyfiyyəti yoxlanılır. Mütəxəssislər bəzi komponentlərə görə yeni texnologiya ixtira etməyi düşünürlər. Bunun üçün lazımi şərait vardır.*

**İlham Əliyev:** Çox gözəl müəssisədir. İl yarım bundan əvvəl Ağstafada mənə deyəndə ki, belə müəssisə var, söz verdim ki, gələcəyəm, Bakıda müəssisə ilə tanış olacağam. Siz bilirsiniz ki, Azərbaycanın bütün yerlərində inkişaf gedir, regional inkişaf proqramı icra olunur. Ancaq Bakıda da güclü inkişaf var. Ona görə Bakıda fəaliyyət göstərən müəssisələrlə tanış olmaq da mənim üçün çox vacibdir.

Eşidəndə ki, bu müəssisədə artıq ixrac qabiliyyətli məhsullar istehsal olunur, sözün düzü, çox sevindim. Avropaya məhsul ixrac edirsiniz, bu çox böyük göstəricidir. Bu həm müəssisənin böyük nailiyyətidir, eyni zamanda Azərbaycanda gedən proseslərin nəticəsidir. Biz artıq təkcə xammal yox, hazır məhsul ixrac edirik. Bizim şirkətlərimiz böyuk şirkətlərlə rəqabət aparır və qələbə qazanır. İndi laboratoriyada mənə dedilər ki, bəzi komponentlərə görə hətta siz yeni texnologiya ixtira edirsiniz. Bunlar böyük işlərdir. Azərbaycan belə inkişaf etməlidir, sahibkarlıq belə inkişaf etməlidir. Dövlət də həmişə sahibkarlığa, sahibkarlara qayğı göstərməlidir.

Mənim bu müəssisələrlə tanış olmağımın, gəlməyimin, bu məsələlərlə dərindən, yaxından məşğul olmağımın da səbəbi məhz budur ki, sizə dəstək verim. Bütün müvafiq dövlət icra orqanları da bilsinlər ki, sahibkarlığa kömək etmək lazımdır. Müdaxilə etmək olmaz, qeyri-qanuni yoxlamalar aparmaq olmaz, əziyyət vermək, qanunsuz tələblər irəli sürmək olmaz. Mən sahibkarları qorumalıyam ki, siz də yaxşı yaşayasınız, yaxşı maaş alasınız, iş yerləri açılsın, Azərbaycanın iqtisadi potensialı güclənsin. Vergi verəcəksiniz, büdcəmiz artacaq, onsuz da artır. Bunun da nəticəsində ölkə daha da inkişaf edəcək, insanlar daha da yaxşı yaşayacaqlar. Yəni burada məntiq çox sadədir. Sadəcə olaraq, gərək hərə öz yerində öz vəzifə borcunu ləyaqətlə icra etsin. Siz bunu edirsiniz, həm özünüz, necə deyərlər, imkanlarınızı genişləndirirsiniz, şirkət inkişaf edir, daha da böyük vəsait əldə edir, sərmayə qoyur, insanlar yaxşı maaş alır, eyni zamanda dövlət də bundan faydalanır. Belə olmalıdır. Ona görə mən sizi təbrik edirəm. Əbülfəzi də təbrik edirəm. Böyük iş görübdür.

Yəni mən şəkillərdə gördüm, buralar xarabaxana idi, məişət tullantılarının atıldığı yer idi. Amma indi görürsünüz necə abadlaşıbdır. Müxtəlif sahələr var, müxtəlif sexlər var və burada bütün istehsalat birləşibdir.

**Mirabbas Qasımov** (*ağsaqqal)*: Hörmətli Prezident, bizim arzumuz idi, Sizi çoxdandı gözləyirdik. Allaha şükür ki, bu gün bizə nəsib oldu. Sizin şirkətə gəlməyiniz burada çalışanların məsuliyyətini artırır və onlara böyük qüvvət verir. Allah Sizdən razı olsun. Allah-təala Sizin kölgənizi xalqımızın üstündən əskik eləməsin. Allah Sizə dayaq olsun. Siz mərhum Heydər Əliyevin nişanəsisiniz, dayağımızsınız. Siz bizim əzizimizsiniz. Xalqımız Sizi dəstəkləyir, ürəkdən sevir, siyasətinizi bəyənir.

*Prezident İlham Əliyev görülən işləri bir daha yüksək qiymətləndirdi və kollektivə uğurlar arzuladı.*

## MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI II ALEKSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 sentyabr 2005-ci il*

**İ l h a m   Ə l i y e v:** Zati-müqəddəsləri, mən Sizi, habelə Sizinlə birlikdə gəlmiş bütün qonaqları Azərbaycanda səmimi-qəlbdən salamlamaq istəyirəm. Xoş gəlmisiniz! Ölkəmizə səfərinizin bizim üçün çox böyük əhəmiyyəti var. Biz hamımız Sizin 2001-ci ildəki səfərinizi xatırlayırıq, indiki gəlişinizi də səbirsizliklə gözləyirdik. Bu, mehriban qonşuluq münasibətlərimizin inkişafı üçün, daha böyük dostluq, qardaşlıq, səmimilik ab-havası yaradılması üçün çox mühümdür. Biz Azərbaycanda fəxr edə bilərik ki, ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri böyük bir ailə kimi yaşayırlar. Bizdə tam qarşılıqlı anlaşma, milli həmrəylik var. Bu, ölkəmizin uğurlu inkişafı üçün başlıca zəminlərdən biridir. Əlbəttə ki, Rus Pravoslav Kilsəsinin və Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri arasında əlaqələr də çox vacibdir. Zənnimcə, biz ölkəmizdə milli həmrəyliyə nail olmuşuq, bütün dinlərin nümayəndələri bərabər hüquqlara malikdir və özlərini eyni cür hiss edirlər.

Sizin səfəriniz ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi baxımından çox əhəmiyyətlidir. Son illər bu münasibətlərin və qarşılıqlı iqtisadi əlaqələrin, siyasi əlaqələrin, sadə vətəndaşlar səviyyəsində əlaqələrin inkişafı üçün çox möhkəm zəmin yaranmışdır. Bunlar ölkələrimizə daha fəal əməkdaşlıq etməyə, həm iqtisadiyyatı, həm də siyasi prosesləri inkişaf etdirməyə imkan verir.

Biz ikitərəfli münasibətlərin səviyyəsindən çox razıyıq. Bu münasibətlərin inkişafında Sizin rolunuz da çox böyük və əhəmiyyətlidir. Bunu nəzərə alaraq, Rusiya ilə Azərbaycan arasında ikitərəfli dostluq münasibətlərinin inkişafına şəxsi töhfənizi yüksək qiymətləndirərək, Azərbaycan dövləti Sizi yüksək mükafatla – «Şöhrət» ordeni ilə təltif etmişdir. Mən onu Sizə böyük məmnuniyyətlə təqdim etmək istərdim.

**P a t r i a r x – II A l e k s i**: Zati-aliləri, icazə verin, yüksək mükafata görə Sizə ürəkdən təşəkkür edim. Bu mənim üçün gözlənilməzdir. Çünki mənə elə gəlir ki, ölkələrimiz arasında münasibətlərin inkişafına verməli olduğum böyük töhfəni verməmişəm. Lakin dini baxımdan artıq neçə illərdir, hələ xalq deputatları qurultaylarının deputatları olduğumuz vaxtdan Şeyxülislam Allahşükür Paşazadə ilə bizim aramızda yaxşı əməkdaşlıq mövcuddur.

Keçən il biz MDB Ölkələri Dini Liderləri Şurasının həmsədrləri seçildik. Biz bu Şurada əməkdaşlığı inkişaf etdirəcək və möhkəmləndirəcəyik, çünki din xadimlərinin sülhyaratma işinə töhfəsi həmişə böyük olmuşdur, xüsusən də indi, dünyanın din xadiminin sözünə, sülhə, əməkdaşlığa çağırışa ehtiyacı olduğu bir vaxtda. Düşünürəm ki, biz işimizi gücləndirməliyik.

Zati-aliləri, Böyük Vətən müharibəsində qələbənin 60 illiyinin bayram olunduğu vaxtda məni Azərbaycana dəvət etdiyinizə görə Sizə ürəkdən təşəkkürümü bildirirəm. Fürsətdən istifadə edərək, qardaşımızın yüksək vəzifədə – Qafqaz Müsəlmanları İdarəsinin sədri vəzifəsində fəaliyyətinin bu ilin sentyabrında 25 ili tamam olmasından istifadə edərək, təbrikimizi bildirmək üçün səfərimizi həmin vaxta salmağı və eyni zamanda, Azərbaycana ikinci səfərimizi həyata keçirməyi qərara aldıq, çünki birinci səfərdən məndə ən xoş, işıqlı xatirələr qalmışdır.

Mən həmin səfər zamanı bizə göstərilmiş qonaqpərvərliyi minnətdarlıqla xatırlayıram. Həqiqətən, görkəmli dövlət xadimi, müdrik xadim olan mərhum valideyniniz müstəqil Azərbaycanın təşəkkülü üçün çox işlər görmüşdür, hələ Sovet İttifaqı vax-

tında insanların həmrəylik, əmin-amanlıq və əməkdaşlıq şəraitində yaşaması üçün çox işlər görmüşdür. Odur ki, bu gün biz hava limanından birbaşa mərhum prezidentin memorialını ziyarət etdik, Heydər Əliyeviç Əliyevin xatirəsinə ehtiramımızı bildirdik. Çünki ölkəmizdə, Rusiyada ona həqiqətən, dərin hörmət bəsləyirdilər. Ona görə biz də bu dərin hörmət hisslərini Azərbaycana gələn kimi ifadə etməli idik.

Valideyninizin ölçülüb-biçilmiş və müdrik siyasətini davam etdirdiyinizə və öz xidməti ilə yetirdiyi bəhrələri artırdığınıza görə Sizə ürəkdən təşəkkür edirəm. Azərbaycanın din xadimlərini, o cümlədən pravoslav rus icmasını, Bakı yeparxiyasını dəstəklədiyinizə görə Sizə təşəkkür etmək istərdim. Mən birinci səfərimdən də bilirəm ki, Azərbaycanın rus icmasının nümayəndələri burada özlərini əsla ikinci dərəcəli adamlar kimi hiss etmirlər, əksinə, ölkənin digər sakinləri ilə birlikdə bərabər hüquqlara malikdirlər.

Son iki əsr ərzində xalqlarımız arasında təşəkkül tapmış möhkəm mənəvi və mədəni əlaqələr, Tanrının ölkələrimiz üçün buyurduğu kimi, ötən ildə də bütün sınaqlardan uğurla çıxmışdır. Xalqlarımız və dövlətlərimiz uydurma dini ekstremizmə, davakar separatizmə qarşı birlikdə çıxış edirlər. Ölkənizin siyasi təbəqələşmə, iqtisadi böhran zolağından keçərək, hazırda Avrasiyada və dünyada layiqli yer tutmasını, beynəlxalq proseslərdə getdikcə daha böyük rol oynamasını görmək xoşdur. Biz belə bir faktı xüsusilə qiymətləndiririk ki, rus icması yerli əhali arasında özünü bərabərhüquqlu hiss edir. Dinlərarası əməkdaşlığın və dialoqun inkişaf etdirilməsi sahəsində mövqelərimizin uyğun gəldiyini xüsusi vurğulamaq istərdim.

Pravoslavlar da, müsəlmanlar da yekdil fikirdədirlər ki, islam terrorçuları deyilən terrorçuların və onların əlaltılarının əməlləri ən sərt şəkildə pislənilməlidir. Kimliyindən, harada olmasından və nə kimi şüarlarla pərdələnməsindən asılı olmayaraq, onlara haqq qazandırmaq olmaz. Beslanda baş vermiş faciəyə münasibətdə nümayiş etdirdiyiniz prinsipial mövqeyi ayrıca vurğulamaq istərdim.

Çox hörmətli İlham Heydəroviç, bu məni terror təcavüzü ilə əlaqədar Rusiya xalqı üçün o ağır günlərdə söylədiyiniz sözlərə görə Sizə səmimi təşəkkürümü bildirməyə vadar edir.

Rus Pravoslav Kilsəsi Qarabağ münaqişəsinin qurbanlarına görə kədərlənir və döyüş əməliyyatları zamanı əzizlərini, ev-eşiyini itirmiş insanların halına dərindən acıyır. Ümidvarıq ki, Dağlıq Qarabağ problemi həll olunacaqdır. Biz, Qafqazın din xadimləri də Qarabağ probleminin həllinə kömək etmək üçün Moskvada mənimlə birlikdə dörd dəfə toplaşmışıq. Bu görüşlərdə həmişə fəal iştirak etdiyinə görə Şeyxülislam Paşazadəyə çox minnətdaram. Həmin görüşlərdə iştirak etmiş bütün ermənilərin ali katolikosuna da minnətdaram. Din xadimləri olaraq, biz görürük ki, bu problemi hərbi yolla deyil, ancaq dialoq yolu ilə, danışıqlar yolu ilə həll etmək lazımdır.

Zati-aliləri, çox hörmətli İlham Heydəroviç, səmimi-qəlbdən Sizə, gözəl Azərbaycan torpağına, vətəndaşlarınıza dövlətin və cəmiyyətin həyatında firavanlığın bərqərar olması yolunda sülh və əmin-amanlıq arzulayıram.

Dediyim kimi, biz Azərbaycanda fəaliyyət göstərən, bütün problemlərin sülh yolu ilə həllində Sizə kömək edən və dinc quruculuğa yardımçı olan din xadimlərinə kömək və dəstəyinizi yüksək qiymətləndiririk. Azərbaycan xalqı üçün etdiyiniz bütün işlərə görə Sizə sağ olun deyirik. Sağ olun ki, mərhum valideyninizin işlərini belə səylə davam etdirirsiniz. Ümidvarıq ki, Azərbaycan xalqı bunu qiymətləndirir və ölkənizdə yaşayan bütün xalqlar arasında sülh və həmrəylik olacaqdır.

Bilmirdim ki, Siz mənə Azərbaycanın yüksək ordenini təqdim edəcəksiniz. İcazə verin, hörmətimizin əlaməti olaraq, təkcə Azərbaycan xalqı qarşısında deyil, həm də rus xalqı qarşısında xidmətlərinizin qiymətləndirilməsi əlaməti olaraq, mərhum valideyniniz kimi, Sizə də Rus Pravoslav Kilsəsinin ordenini – birinci dərəcəli Müqəddəs Sergi Radonejski ordenini təqdim edim. Belə ki, son bir ildə Siz Rusiya ilə Azərbaycan arasında əməkdaşlığı geniş inkişaf etdirirsiniz, Rusiyanın bir çox dövlət xadimləri Azərbaycana gəlmişlər,

Siz Moskvada dəfələrlə rəsmi və işgüzar səfərlərdə olmusunuz, müxtəlif məsul vəzifələrdə çalışan adamlar da gəlmişlər və bütün bu görüşlər xalqlarımız arasında əməkdaşlığın möhkəmlənməsinə xidmət etmişdir. Biz bütün bunları yüksək qiymətləndiririk. Müqəddəs Sergi Radonejski rus elinin böyük zahidi idi, Yer kürəsində yaşayan bütün xalqlara duaçı idi.

**İ l h a m  Ə l i y e v:** Zati-müqəddəsləri, bu yüksək mükafata görə Sizə təşəkkür edirəm. Bu mənim üçün böyük şərəfdir və mükafatı Sizdən qəbul etmək ikiqat xoşdur. Sizi əmin etmək istəyirəm ki, Azərbaycanda xalqlar arasında sülhün qorunub saxlanması və möhkəmlənməsi üçün, ölkələrimiz arasında indi qarşılıqlı etimadın və dəstəyin tamamilə yeni səviyyəsinə çıxan münasibətlərin inkişafı üçün gələcəkdə də var qüvvə ilə səy göstərməyə hazıram. Mən ikitərəfli münasibətlərimizə verdiyiniz qiymətlə tamamilə razıyam. Münasibətlərimiz möhkəm təməl, çox mehriban, səmimi hisslər üzərində qurulmuşdur. Əlbəttə ki, biz bu münasibətlərin inkişaf etməsi üçün bundan sonra da var qüvvə ilə çalışacağıq.

Mənim haqqımda, ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə də Sizə təşəkkür edirəm. Əlavə etmək istərdim ki, cari il Rusiyada Azərbaycan ilidir. Bu ilin əvvəlində biz Moskvada onu təntənəli şəraitdə açdıq və gələn il Azərbaycanda Rusiya ilinin keçirilməsini səbirsizliklə gözləyirik. Biz onu da uğurla keçirəcəyik. Əsla şübhəm yoxdur ki, bütün səviyyələrdə münasibətlərimiz dinamik şəkildə, ölkələrimizin və xalqlarımızın rifahı naminə inkişaf edəcəkdir. Yüksək mükafata görə Sizə bir daha təşəkkür edirəm.

**P a t r i a r x  II  A l e k s i:** Din xadimləri də, öz növbəsində, bu münasibətləri inkişaf etdirəcəklər. Çünki dindarlarımız çox vaxt diqqət yetirirlər ki, əgər din rəhbərləri arasında yaxşı qarşılıqlı münasibətlər varsa, deməli, bu münasibətlərə qoşulmaq lazımdır.

**İ l h a m  Ə l i y e v:** Azərbaycanın kifayət qədər mütəşəkkil və aktiv olan rus icmasının fəaliyyəti də, Rusiyada, onun müx-

təlif şəhər və vilayətlərində yaşayan azərbaycanlıların fəaliyyəti də bu işdə çox mühüm rol oynayır. Bu faktlar əlaqələrimizin möhkəmlənməsinə kömək edir. Biz bütün səviyyələrdə müsbət, fəal dinamika görürük və bu bizi çox sevindirir. Azərbaycana bir daha xoş gəlmisiniz!

## AVROPA BİRLİYİNİN CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 sentyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Prezident sarayında Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüş zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycanda qarşıdan gələn parlament seçkiləri, Azərbaycan–Avropa Birliyi əməkdaşlığı və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunmuşdur.*

## ASİYA İNKİŞAF BANKININ İCRAÇI DİREKTORU, SƏFİR POL SPELTSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 sentyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Asiya İnkişaf Bankının (AİB) icraçı direktoru, səfir Pol Speltsin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Asiya İnkişaf Bankı arasındakı əməkdaşlıqdan məmnun qaldığını, bu əməkdaşlığın çox yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı ümid etdiyini bildirdi ki, qarşıdan gələn illərdə birgə layihələr üzərində uğurla işləyəcəyik.*

*Prezident İlham Əliyev dedi ki, Azərbaycan müstəqillik qazandıqdan sonra bir sıra çətinliklərlə üzləşmişdi. Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal etmişdi, ölkəmiz vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalmışdı, iqtisadiyyat çökmüşdü, sənaye istehsalı tənəzzül vəziyyətində idi. Biz yalnız 2005-ci ildə 1990-cı ilin iqtisadi potensialını bərpa edə bildik. Yəni bunun üçün bizə 15 il lazım oldu.*

*Azərbaycanın iqtisadi cəhətdən sürətlə inkişaf etdiyini, ölkəmizdə yeni imkanların, sahələrin yarandığını nəzərə çatdıran prezident İlham Əliyev dedi ki, hazırda biz regional, sosial-iqtisadi inkişaf strategiyamızı uğurla həyata keçiririk. Yeni iş yerlərinin, yeni infrastrukturun, yeni müəssisələrin yaranması və özəl sektorun inkişafı, ümumdaxili məhsulun artımı Azərbaycanın iqtisadi inkişafının rəmzlərinə çevrilibdir. Qarşıdan gələn*

*illərdə yeni böyük enerji layihələrinin həyata keçirilməsi gözlənilir.*

*Azərbaycana humanitar sahədə, xüsusilə qaçqın və məcburi köçkünlərə göstərdikləri dəstəyə görə Asiya İnkişaf Bankına təşəkkür edən dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, qonaqların bu səfəri gələcək əməkdaşlığımızın inkişafına xidmət edəcəkdir.*

*Asiya İnkişaf Bankına verdiyi dəstəyə və Azərbaycandakı fəaliyyətləri üçün yaradılmış imkanlara görə prezident İlham Əliyevə təşəkkürünü bildirən cənab Pol Spelts dedi: Cənab Prezident, müstəqil Azərbaycan dövləti ilə müqayisədə AİB yeni yaranmışdır. İdarə heyəti üzvlərinin daxil olduğu nümayəndə heyətinin buraya gəlməsində məqsəd Sizin rəhbərliyinizlə həyata keçirilən işlərin, planların reallaşdırılmasına kömək etməkdən ibarətdir.*

*Qonaq daha sonra dedi: Cənab Prezident, Sizin insanlara göstərdiyiniz böyük qayğı, sosial sahədə görülən işlər barədə yaxşı məlumatımız vardır. Bununla əlaqədar Sizi təbrik etmək istəyirik. Biz son iki gün ərzində Azərbaycanın qərb rayonlarında səfərdə olduq, əməkdaşlıq edəcəyimiz yeni sahələri araşdırmaq imkanları əldə etdik, bir çox insanlarla görüşdük, bir sıra məsələləri yerindəcə həll etdik. Hesab edirəm ki, bu səfər zamanı görmək istədiyimiz işlər səmərəli şəkildə və sürətlə həyata keçiriləcəkdir.*

## ÖLKƏMİZDƏ YENİ DƏRS İLİNİN BAŞLANMASI VƏ «BİLİK GÜNÜ» MÜNASİBƏTİLƏ BAKININ XƏTAİ RAYONUNDAKI HEYDƏR ƏLİYEV ADINA LİSEYDƏ KEÇİRİLMİŞ MƏRASİMDƏ NİTQ

*15 sentyabr 2005-ci il*

*Mərasimə toplaşan müəllim və şagirdlər, valideynlər Azərbaycan prezidenti İlham Əliyevi səmimiyyətlə, hərarətli alqışlarla qarşıladılar.*

*«Azərneftyağ» Neft Emalı Zavodunun vəsaiti hesabına tikilən və bir il bundan əvvəl istifadəyə verilən Heydər Əliyev adına lisey 844 şagird üçün nəzərdə tutulmuşdur. 1,25 hektar ərazini tutan lisey üçmərtəbəli 4 korpusdan ibarətdir. Burada müasir avadanlıqla təchiz edilmiş laboratoriyalar, fənn, habelə linqafon kabinetləri, ən müasir kino qurğusu olan akt salonu var. Liseydə ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən xüsusi guşə yaradılmışdır.*

*Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin liseyin binasının qarşısında ucaldılmış büstu önünə gül dəstəsi qoydu.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**İlham Əliyev:** Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli müəllimlər!

Əziz uşaqlar!

Sizin hamınızı yeni dərs ilinin başlanması, «Bilik günü» münasibətilə ürəkdən təbrik edir, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Bu gün burada Heydər Əliyevin adını daşıyan bu gözəl

lisey öz qapılarını yenidən açır. Sizi bu münasibətlə də təbrik edirəm.

Burada deyildiyi kimi, bu lisey ən yüksək standartlara uyğun səviyyədə tikilib və bu gün uşaqların sərəncamına verilir. Mən şübhə etmirəm ki, burada uşaqlar yaxşı oxuyacaq və bu şəraitdən çox səmərəli istifadə edəcəklər. Həm tikinti çox keyfiyyətli aparılmışdır, eyni zamanda buradakı müasir avadanlıq, idman meydançaları, digər infrastruktur imkan verəcək ki, burada oxuyan bütün uşaqlar yaxşı təhsil alsınlar, sağlam olsunlar.

İndiki zamanda yaxşı təhsil almaq çox önəmlidir. Bu o deməkdir ki, gələcəkdə uşaqlar, gənclər həyatda özlərinə layiq yer tutacaqlar. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, o ölkələr inkişaf edir ki, orada təhsil yüksək səviyyədədir, yeni texnologiyalar tətbiq olunur. Ümumiyyətlə, dünyada gedən tərəqqinin əsas əlaməti və səbəbi bilikdir, savaddır. Ona görə Azərbaycanda yeni gənc nəslin yetişdirilməsi və tərbiyə olunmasında təhsilin, məktəbin çox böyük əhəmiyyəti var. Uşaq, demək olar ki, günün yarısını məktəbdə keçirir və burada olan şəraitdən, hökm sürən ab-havadan, təhsilin keyfiyyətindən çox şey asılıdır.

Azərbaycanda son illər ərzində məktəb tikintisi çox sürətlə gedir. Bu yaxınlarda 100-dən çox məktəbin tikintisinə başlanmışdır və artıq başa çatdırılır. Azərbaycanda 4500-dən artıq məktəb var, onların əksəriyyətinin təmirə böyük ehtiyacı vardır. Yenə də demək istəyirəm ki, hər şey iqtisadi inkişafa bağlıdır. Azərbaycanın 1990-cı illərin əvvəllərində üzləşdiyi o çətin şərait imkan vermirdi ki, humanitar sahəyə, təhsil sahəsinə daha böyük həcmdə vəsait ayrılsın, mövcud olan bütün problemlər öz həllini tapsın. Yalnız iqtisadi inkişaf meylləri güclənəndən sonra, bizim büdcəmiz artandan sonra bu sahəyə daha çox vəsaitin ayrılması mümkün oldu. Gələcək illərdə təhsilə, bütövlükdə, humanitar sahəyə çox böyük diqqət göstəriləcək və böyük həcmdə büdcə vəsaitinin ayrılması nəticəsində böyük işlər görüləcəkdir.

Biz ölkəmizi hərtərəfli inkişaf etdirmək istəyirik, bütün sahələri inkişaf etdirmək istəyirik. Ancaq bunu etmək üçün güclü iqtisadi baza lazımdır. Bilirsiniz ki, yeni məktəblərin tikinti prosesi sürətlə gedir, gələn il də davam etdiriləcək, büdcədə də kifayət qədər vəsait nəzərdə tutulacaqdır. Eyni zamanda, məktəblərin kompüterləşməsi proqramı da uğurla icra edilir. Qarşıya belə bir vəzifə qoyulubdur ki, bütün məktəblərdə kompüter sinifləri yaradılsın və uşaqlar bilavasitə internetə çıxış əldə etsinlər, dünyada gedən proseslərlə tanış olsunlar. Azərbaycan Dünya Birliyinə inteqrasiya siyasətini aparır və dünyada gedən bütün hadisələr, yeniliklər, yaranan yeni texnologiyalar – bunların hamısı internet, kompüter vasitəsilə bizim uşaqlarımızın ixtiyarında olmalıdır.

Bütövlükdə, təhsil sahəsində mövcud olan problemlər də öz həllini tapacaqdır. Mən buna şübhə etmirəm. İlk növbədə təhsilin maddi-texniki bazasının möhkəmlənməsi işində artıq müsbət nəticələr görünməkdədir. Bunu etmək vacibdir və biz bunu edəcəyik. Eyni zamanda, bunu etmək üçün gərək iqtisadi potensial olsun. O da var və artır. Ancaq eyni zamanda, tədris prosesinin səviyyəsinin yüksəldilməsi məsələləri də çox önəmlidir. Bu sahəyə də çox böyük diqqət göstərilməli və təhsilin keyfiyyəti daha da artmalıdır. Orta məktəblərdə oxuyan, ali məktəblərdə oxuyan gənclər yüksək savad almalı, yüksək biliyə malik olmalıdır ki, doğma Vətənimizə, ölkəmizə səmərəli xidmət göstərsinlər və Azərbaycanın potensialını gücləndirsinlər.

Bu gözəl lisey xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyır. Heydər Əliyevin Azərbaycan tarixində rolu və fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir. Burada deyildi ki, «Qaraşəhər» adlandırılan bu ərazidə 1970-ci illərdə, demək olar, ekoloji fəlakət hökm sürürdü. Sənaye potensialının güclənməsi ilə yanaşı, bu ərazinin abadlaşdırılması da, hesab edirəm, çox böyük nailiyyətdir. İndi buranı tanımaq mümkün deyildir. Bütün sahələrdə – istər ölkəmizin sosial-iqtisadi inkişafı işində, beynəlxalq aləmə inteqrasiya işində, Azərbaycanda güclü iqtisadi potensialın yaranması, neft strategiyasının uğurla icra olun-

ması, Azərbaycanda vətəndaş cəmiyyətinin yaranması, ictimai-siyasi sabitliyin qorunması və möhkəmlənməsi işində Heydər Əliyevin rolu çox böyük əhəmiyyət kəsb edir. Bu özünü 1970-ci illərdə Sovet Azərbaycanının inkişafında və 1990-cı illərdə göstərirdi.

Onu da demək istəyirəm ki, 1970-ci illərdə bütün başqa işlərlə yanaşı, təhsil sahəsinə də çox böyük önəm verilirdi və bildiyiniz kimi, o vaxt hər il minə qədər azərbaycanlı gənc imtahanları Bakıda verərək güzəştli şərtlərlə Sovet İttifaqının müxtəlif məşhur ali məktəblərinə qəbul olunurdu. Bu gün o insanlar müstəqil Azərbaycanın inkişafı üçün çox böyük işlər görürlər. Faktiki olaraq hər il min nəfər müxtəlif təhsil ocaqlarında təhsil alırdı.

Eyni zamanda, o illərdə Azərbaycanda Sovet İttifaqında analoqu olmayan hərbi təmayüllü məktəb yaranmışdı. O, Heydər Əliyevin təşəbbüsü ilə açılan Naxçıvanski adına məktəb idi və bu gün müstəqil Azərbaycan ordusunun formalaşmasında o məktəbin məzunları çox önəmli rol oynayırlar. Yəni, bütün sahələrdə quruculuq işləri aparılırdı, bütün işlər bir məqsədə xidmət edirdi ki, Azərbaycan daha da inkişaf etsin, ölkəmiz daha da güclənsin. Artıq bu öz nəticələrini verir. Bu gün Azərbaycan bölgədə ən sürətlə inkişaf edən ölkədir. Azərbaycanda gedən sosial-iqtisadi, siyasi islahatlar ölkəmizi daha da inkişaf etdirir və əlbəttə, gələcəyə inamla baxmaq üçün gözəl şərait yaradır.

Heydər Əliyevin «Azərneftyağ» zavodunun həyatında da çox önəmli rolu olmuşdur. 1970-ci illərdə zavodda aparılan yenidənqurma, abadlıq işləri, yeni qurğuların yaranması zavodun əhəmiyyətini çox yüksək səviyyəyə qaldırmışdı. Eyni zamanda, 1990-cı illərin ortalarından başlayaraq bu günə qədər zavodda gedən işlər həm müəssisənin potensialını gücləndirir, həm də Azərbaycan iqtisadiyyatına çox böyük töhfələr verir. Yeni qurğular tikilir, yeni texnoloji proseslər tətbiq edilir. Bir sözlə, «Azərneftyağ» zavodu bu gün Azərbaycanın neft sənayesində və ümumiyyətlə, Azərbaycanın iqtisadiyyatında çox önəmli yerə malikdir.

Eyni zamanda, zavod tərəfindən evlərin, məktəblərin tikilməsi də çox təqdirəlayiqdir. Çünki bu sahəyə daim diqqət göstərilməlidir. Bu ərazidə zavodda işləyənlər üçün evlər tikilibdir, bu cür gözəl lisey tikilibdir və belə də olmalıdır. Biz xalq üçün işləyirik, xalq üçün yaşayırıq. Əlbəttə, iqtisadi potensialın möhkəmlənməsi əsas şərtdir. Amma eyni zamanda, sosial məsələlərə diqqət və insanlara diqqət, qayğı mütləq olmalıdır. Bizim insanlarımız yaxşı şəraitdə yaşamalıdır, onların yaxşı iş şəraiti olmalıdır. Uşaqlar gözəl məktəblərdə oxumalıdırlar. Bir sözlə, Azərbaycan yeniləşməlidir. Azərbaycanda infrastruktur yeniləşməlidir. Əlbəttə, bunu etmək üçün böyük vəsait lazımdır və bunu da əldə edirik. Şübhəsiz ki, istək, iradə və düzgün yanaşma da lazımdır. Bunların hamısı olan təqdirdə işlər də yaxşı gedir.

Əziz dostlar!

Əziz uşaqlar, müəllimlər!

Bu gözəl liseydə dərs ilinin başlaması münasibətilə sizin hamınızı bir daha təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

**NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA**

Hörmətli cənab Prezident!

Nigeriya Federativ Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və xalqım adından təbrik edirəm. Ümidvaram ki, Azərbaycan–Nigeriya münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Nigeriya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 sentyabr 2005-ci il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB XU SZİNTAOYA**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Çin Xalq Respublikasının yaranması günü münasibətilə Sizi və dost xalqınızı öz adımdan və bütün Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Azərbaycan ilə Çin arasında dostluq və əməkdaşlıq münasibətlərinin tarixi ənənələri vardır. Çox şadam ki, bu ənənələr bu gün də uğurla davam edərək, xalqlarımızın daha da yaxınlaşmasına, rifahının yüksəlməsinə xidmət edir.

Fürsətdən istifadə edərək, bir daha bildirmək istərdim ki, ölkənizə səfərimi, Sizinlə görüşlərimizi, apardığımız danışıqları və fikir mübadiləsini həmişə xoş təəssüratla xatırlayıram.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 sentyabr 2005-ci il*

**QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB LANSANA KONTEYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza təbriklərimizi yetirirəm.

Ümidvar olduğumu bildirirəm ki, dövlətlərarası münasibətlərimizin inkişafı xalqlarımız arasında əlaqələrin genişlənməsi üçün əlverişli zəmin olacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 sentyabr 2005-ci il*

# AZƏRBAYCANDA ORDU QURUCULUĞUNUN İNKİŞAFINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*16 sentyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sədrliyi ilə sentyabrın 16-da Müdafiə Nazirliyində ölkəmizdə ordu quruculuğunun inkişafına həsr olunmuş müşavirə keçirilmişdir.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevi nazirliyin binası qarşısında Müdafiə naziri general-polkovnik Səfər Əbiyev qarşıladı və nazirliyin rəhbər heyətinin tədbirə hazır olduğu barədə raport verdi.*

*Dövlətimizin başçısı İlham Əliyev müşavirədə nitq söylədi.*

**İlham Əliyev:** Müşavirə Azərbaycanda ordu quruculuğunun inkişafına həsr olunur. Biz bu gün qarşıda duran vəzifələri müzakirə edəcəyik. Görülən işlər haqqında fikir mübadiləsi, təhlil aparılacaq və gələcək addımlar haqqında öz fikirlərimizi ifadə edəcəyik. Bütövlükdə, Azərbaycanda ordu quruculuğu prosesi sürətlə və çox uğurla gedir. Azərbaycanda nizami ordunun yaranması prosesi ölkəmizə böyük faydalar gətiribdir. Biz öz hərbi potensialımızı gücləndiririk və inanıram ki, bu proses gələcəkdə daha da sürətlə gedəcəkdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin yenidən Azərbaycana rəhbərliyə qayıdışından sonra bu proses sistemli xarakter alıb və nizami ordunun yaranması prosesi, demək olar ki, artıq başa çatıbdır. Bu gün ordumuzun həm hazırlığı, həm də maddi-texniki bazasının genişləndirilməsi prosesləri təqdirəlayiqdir.

Azərbaycan müharibə şəraitində yaşayır. Bizim torpaqlarımız işğal altındadır və belə olan halda orduya diqqət ən yüksək səviyyədə olmalıdır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi, mən bu məsələlərə çox böyük diqqət göstərirəm. Demək olar ki, gündəlik bu məsələlərlə məşğulam. Çünki bizim bundan vacib məsələmiz yoxdur.

Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir. Biz çalışırıq ki, bunu sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Ancaq bildiyiniz kimi, uzun illər ərzində aparılan danışıqların heç bir nəticəsi yoxdur. Bütövlükdə məsələnin ədalətli həlli mümkündür və inanıram ki, biz buna nail olacağıq. Çünki beynəlxalq hüquq normaları Azərbaycanın tərəfindədir, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bizim ərazi bütövlüyümüz bütün Dünya Birliyi tərəfindən tanınır və dəstəklənir. Tarixi ədalət də bizim tərəfimizdədir. Heç kəs üçün sirr deyil ki, ermənilər Dağlıq Qarabağa 1828-ci ildən sonra gəlməyə başlamışlar. Xatırlayıram ki, 1978-ci ildə Dağlıq Qarabağda ermənilərin buraya gəlişinin 150 illiyinə həsr edilmiş bir abidə ucaldılmışdı. Düzdür, erməni separatçıları o bölgələri işğal etdikdən sonra həmin abidəni uçurmuşlar. Ancaq bu tarixdir və hamı bunu bilir. Yəni, həm hüquqi cəhətdən, həm də tarixi baxımdan Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Son illər ərzində Azərbaycan iqtisadi cəhətdən də üstünlüyü əldə edibdir. Sovet İttifaqı dağılandan sonra uzun illər ərzində iqtisadi inkişaf hər iki ölkədə, demək olar ki, eyni səviyyədə idi. Ancaq son illər ərzində Azərbaycan çox güclü sıçrayış etmişdir. Xüsusilə 2004–2005-ci illərdə Azərbaycanın büdcəsi kəskin şəkildə artmış, iqtisadi üstünlük əldə etmişdir. Nəzərə alsaq ki, Azərbaycanın gələcək iqtisadi perspektivləri də çox parlaqdır, bu üstünlük daha da artacaqdır.

Həm dünyada, həm də bölgədə, eyni zamanda bu məsələ ilə məşğul olan beynəlxalq təşkilatlarda siyasi proseslər müsbət istiqamətdə inkişaf edir. Birləşmiş Millətlər Təşkilatının 4 qətnaməsi qüvvədədir. Həmin qətnamələrdə tələb olunur ki, Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan qeyd-şərtsiz

çıxsın. Eyni zamanda bu yaxınlarda Azərbaycan həmin məsələni yenidən Birləşmiş Millətlər Təşkilatının diqqətinə çatdırıbdır və artıq məsələ Baş Assambleyanın gündəliyinə salınıbdır. Bu bizim böyük diplomatik uğurumuzdur. Bu məsələ ilə bilavasitə məşğul olan ATƏT bizim tələbimizlə bölgəyə faktaraşdırıcı missiyasını göndərmişdi. Bu missiyanın məruzəsi dərc olunmuşdur. Məruzədə göstərilir ki, işğal olunmuş torpaqlarda qeyri-qanuni məskunlaşma gedir, orada minlərlə erməni qanunsuz yerləşdirilibdir. Bu da Dünya Birliyinin tələblərinə, beynəlxalq hüquq normalarına Ermənistanın nə qədər məhəl qoymadığına dəlalət edir.

Avropa Şurası bu ilin yanvar ayında bu məsələyə dair birmənalı və çox ədalətli qətnamə qəbul edibdir. Orada göstərilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz edib, Azərbaycan torpaqlarını zəbt edib, etnik təmizləmə siyasəti aparıb və bu siyasətin nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşübdür.

İslam Konfransı Təşkilatı Azərbaycanın mövqeyini daim və bu gün də dəstəkləyir. Biz bu dəstəyi hiss edirik. İKT dünyanın çox mötəbər təşkilatıdır. Regional müstəvidə mühüm rol oynayan – əminəm ki, bu rol artacaqdır – GUAM təşkilatının üzvləri də ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşılmasına dair öz birmənalı bəyanatlarını vermişlər. Bu, GUAM-ın sənədlərində öz əksini tapıbdır. Bir sözlə, bütün beynəlxalq təşkilatlar bu məsələyə dair öz mövqelərini açıq şəkildə ortaya qoymuşlar. Yəni, beynəlxalq təşkilatlardan bu məsələ barədə hansısa yeni bir qərar, yaxud da yeni bir qətnamə gözləmək də düzgün deyildir. Çünki artıq nə mümkün idisə, o da edilibdir. Əlbəttə, biz çalışacağıq ki, bu məsələ gündəlikdə daim saxlanılsın. Ancaq bunu etiraf etməliyik ki, beynəlxalq təşkilatların bu məsələyə dair təklifləri və resursları tükənməkdədir.

ATƏT-in Minsk qrupunun fəaliyyəti son zamanlar daha da görünəndir. Yəni biz bunu görürük, bölgəyə səfərlər və aparılan danışıqlar, yeni yanaşmaların yaranması müsbət haldır. O cümlədən, hesab edirəm ki, Praqa prosesinin mövcud olması da çox

müsbət haldır və bu, danışıqlar prosesinə yeni nəfəs gətirir. Ümid edirəm ki, Praqa prosesi davam edəcək. Hər iki ölkə, Ermənistan və Azərbaycan bu prosesdə iştirak edir. Bir neçə dəfə qeyd etdiyim kimi, Praqa prosesi mərhələli həll deməkdir. Yəni, beynəlxalq aləm və ATƏT, onun Minsk qrupu bu məsələyə öz mövqeyini bildirir.

Bütün bunlarla yanaşı, məsələ öz həllini tapmır. Biz bu amillərdən, bu diplomatik, iqtisadi və başqa siyasi uğurlardan nə qədər danışsaq da məsələ öz həllini tapmır. Belə olan halda Azərbaycan nə etməlidir? Azərbaycan öz sülhməramlı siyasətini uzun illərdir aparır və bunu ifadə edir. Ancaq məsələ öz həllini tapmır. Ona görə, bizim hərbi potensialımızın güclənməsi məsələsi təbiidir. İlk növbədə, Azərbaycan müharibə şəraitində yaşayan bir ölkədir. Torpaqlarımız işğal altındadır və bizim bir nömrəli problemimiz bundan ibarətdir. Bir nömrəli vəzifəmiz də bundan ibarət olmalıdır ki, ölkəmizin müdafiə potensialı güclənsin. Digər tərəfdən, Azərbaycanda aparılan çox səmərəli iqtisadi islahatlar bizim iqtisadi potensialımızı da gücləndirir.

Bizim büdcəmiz sürətlə artır. Gələn ilin büdcəsi təxminən 3 milyard 500 milyon dollardan daha da çox olacaq. İndi dəqiqləşmə gedir. Belə olan halda hərbi xərclər də artır. 2004-cü ildə 175 milyon, 2005-ci ildə 300 milyon, 2006-cı ildə isə 600 milyon və bu da son hədd deyil. Bildiyiniz kimi, mən vəzifə qoymuşam ki, bizim hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır, bəlkə də onu keçməlidir və keçəcəkdir. Biz buna nail olacağıq.

Bu, Ermənistanı və bəzi beynəlxalq təşkilatları narahat edir. Yəni biz bu ifadələri eşidirik ki, Azərbaycanın hərbi büdcəsinin artması narahatlıq doğurur. Bizi də çox şey narahat edir. O cümlədən Minsk qrupunun həmsədrlərindən biri olan Rusiyanın öz hərbi texnikasını Gürcüstandan Ermənistana köçürməsi bizi narahat edir. Ermənistanda gedən hərbi təlimlər bizi narahat edir. Bizim hərbi büdcəmizin artmasının başlıca səbəbi də ondadır ki, 1990-cı illərin ortalarında Rusiya tərəfindən Ermənistana qeyri-qanuni şəkildə 1 milyard dollar dəyərində hərbi texnika göndə-

rilmişdir. Bu yaxınlarda Gürcüstandan hərbi texnikanın Ermənistan ərazisinə köçürülməsi də bizi narahat edir. Ona görə, biz adekvat addımlar atırıq və bundan sonra da atacağıq.

Mən hesab edirəm ki, Azərbaycan torpaqlarının 10 ildən artıq dövr ərzində işğal altında qalması bu məsələ ilə məşğul olan tərəfləri, təşkilatları və bu təşkilatlarda aparıcı rolu olan ölkələri narahat etməlidir. Azərbaycan vətəndaşlarının qaçqın-köçkün vəziyyətində yaşaması narahat etməlidir. Bu ədalətsizliyin davam etdirilməsi narahat etməlidir. Beynəlxalq birliyin bu məsələyə biganə yanaşması narahat etməlidir. Ölkəmizin hərbi büdcəsinin artması bizim suveren haqqımızdır. Heç kimi narahat etməməlidir. Bu bizim öz işimizdir, nə qədər lazım bilsək, gələcəkdə də bunu o qədər artıracağıq.

Bir məsələyə də toxunmaq istəyirəm. Son zamanlar erməni təbliğatı Azərbaycana qarşı hücuma keçibdir. Bu da təbiidir. Bu həmişə belə olubdur. Dünyada fəaliyyət göstərən erməni lobbisi, onun havadarları, onun maliyyə dəstəyi ilə siyasi kapital qazanan bəzi ölkələrin siyasətçiləri Azərbaycana qarşı total hücuma keçiblər. Azərbaycanı dünya ictimaiyyəti qarşısında mənfi surətdə təqdim etməyə çalışırlar. Sübut etməyə çalışırlar ki, guya Dağlıq Qarabağda demokratik institutlar mövcuddur, orada demokratiya inkişaf edir, insan haqları qorunur. Azərbaycanda isə demokratiya inkişaf etmir. Tamamilə yanlış və çox təhlükəli bir tezisdir.

İlk növbədə, Azərbaycan demokratik inkişaf baxımından çox sürətlə inkişaf edən ölkədir. Bunu hamı etiraf edir və ilk növbədə, Azərbaycan xalqı bunu görür və bizim siyasətimizi bəyənir. İkincisi, Dağlıq Qarabağ rejimi qeyri-qanuni bir qurumdur. Heç kim tərəfindən tanınmır. Orada kriminal rejim hökm sürür. Orada narkotiklərin yetişdirilməsi, narkotiklərin qeyri-qanuni dövriyyəsi və nəqli, silahlı qruplaşmaların məskən salması, terrorçu təşkilatların yuva salması, insan haqlarının pozulması, tamamilə hərbiləşmiş rejimin mövcudluğu riyakar siyasətçilər tərəfindən nədənsə qeydə alınmır və Dağlıq Qarabağ sanki bu bölgədə bir demokratiya nümunəsi kimi qələmə verilir. Biz bununla razı ola

bilmərik. Yenə də deyirəm, bu çox təhlükəli, yanlış və ədalətsiz bir tezisdir və bunun səbəbi də bəllidir.

Erməni lobbisinin əlindən qidalanan riyakar siyasətçilər Azərbaycanı bu yolla ləkələmək istəyirlər.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin əleyhinə nə qədər çalışdılar, bir şey əldə edə bilmədilər. Onların bütün səyləri iflasa uğradı. İndi isə Bakı–Tbilisi–Ceyhan neft kəmərini Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə bağlamaq istəyirlər. Bu da tamamilə yanlış bir mövzudur, yanlış bir fikirdir. Bunların arasında heç bir əlaqə yoxdur. Bakı–Tbilisi–Ceyhan neft kəməri beynəlxalq layihədir, beynəlxalq maliyyə qurumları, böyük dövlətlər tərəfindən dəstəklənən və uğurla həyata keçirilən bir layihədir və heç bir lobbi, heç bir erməni təşkilatı bunun qarşısını almaq iqtidarında deyildir.

Bir məsələyə də toxunmaq istəyirəm. Son zamanlar Ermənistan rəsmiləri bölgədə yeni layihənin əleyhinə çıxmağa başladılar. Bilirsiniz ki, biz Azərbaycanı Türkiyə ilə birləşdirən dəmir yolunun çəkilməsinin tərəfdarıyıq və Qars–Tbilisi–Bakı dəmir yolunun çəkilməsi artıq gerçəkliyə çevrilir. Biz çox fəal işləyirik, maliyyə öhdəliyi də götürməyə hazırıq ki, bu dəmir yolu qısa müddət ərzində tikilsin. Texniki-iqtisadi əsaslandırma hazırlanır və hazır olanda, Azərbaycan ilk addım kimi, maliyyə öhdəliklərini öz üzərinə götürəcəkdir.

Erməni rəsmiləri bu yaxınlarda bəyan ediblər ki, Azərbaycanın mənəvi haqqı yoxdur ki, Qars–Tbilisi–Bakı dəmir yolunun çəkilişinə vəsait ayırsın. Çox gülməli bir bəyanatdır. Onlar özlərini bir daha gülünc vəziyyətinə salırlar. Birincisi, bu bizim öz işimizdir. İkincisi, bu, beynəlxalq-regional layihədir. Burada Gürcüstan, Türkiyə və Azərbaycan iştirak edir, gələcəkdə Mərkəzi Asiya ölkələri də iştirak edəcəklər. Çünki bu, Avropanı Asiya ilə birləşdirən dəmir yoludur. Mərkəzi Asiya Azərbaycan vasitəsilə  Gürcüstanla, Türkiyə ilə birləşəcək, Azərbaycan Türkiyə ilə birləşəcək. Bizim tam haqqımız var ki, bunu edək, bunu edəcəyik və heç bir erməni lobbisi bunu etməkdə bizə maneçilik törədə bilməz.

Amma əgər mənəviyyatdan danışırlarsa, gəlin mənəviyyatdan danışaq. Onların hansı mənəvi haqqı var ki, Azərbaycan torpaqlarını uzun illər işğal altında saxlasınlar. Onlara bu haqqı kim verib? Bizim mənəvi haqqımız var ki, öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən azad edək və biz bunu edəcəyik. Biz öz siyasətimizi müstəqil şəkildə aparırıq. Azərbaycan xalqının iradəsinə söykənirik. Biz həm iqtisadi potensialımızı gücləndirəcəyik, həm hərbi potensialımızı gücləndirəcəyik, həm ordumuzu gücləndirəcəyik, həm də cəmiyyətdə vətənpərvərlik ruhunu gücləndirəcəyik və istədiyimizə nail olacağıq.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-ın NÜFUZLU «VAŞİNQTON POST» QƏZETİNİN MÜXBİRİ FİLİP KENNİKOTA MÜSAHİBƏ VERMİŞDİR

*Dövlətimizin başçısı ölkədəki ictimai-siyasi vəziyyət, Milli Məclisə qarşıdakı seçkilər, demokratiyanın daha da inkişaf etdirilməsində parlamentin rolu barədə və digər suallara cavab vermişdir.*

# DAHİ AZƏRBAYCAN BƏSTƏKARI, PEDAQOQU VƏ İCTİMAİ XADİMİ ÜZEYİR HACIBƏYOVUN 120 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİ

*Heydər Əliyev adına saray*

*19 sentyabr 2005-ci il*

*Xalqımız dahi bəstəkar, müasir Azərbaycan professional musiqi sənətinin və milli operamızın banisi, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəyovun anadan olmasının 120 illiyini öz böyük oğluna dərin minnətdarlıq və məhəbbət hissi ilə qeyd edir. Xalqımızın ümummilli lideri, milli mədəniyyətimizin böyük himayədarı Heydər Əliyev Azərbaycan musiqisinin inkişafında Üzeyir Hacıbəyovun misilsiz xidmətlərini nəzərə alaraq, onun yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək üçün 1995-ci ildə imzaladığı fərmanla hər il sentyabrın 18-də «Üzeyir musiqi günü» keçirilməsi barədə qərar vermişdir. Məhz həmin fərmanın davamı olaraq, Azərbaycan prezidenti İlham Əliyev bu il fevralın 28-də Üzeyir Hacıbəyovun 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Həmin sərəncama əsasən respublikamızda silsilə tədbirlər keçirilmiş, Üzeyir Hacıbəyovun ev-muzeyi əsaslı təmir olunmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyeva yubiley gecəsində iştirak etmişlər.*

*Yubiley gecəsini Mədəniyyət naziri Polad Bülbüloğlu açdı.*

* * *

*Yubiley gecəsində incəsənət ustalarının iştirakı ilə böyük konsert oldu. Əvvəlcə xalq artisti Rauf Abdullayevin idarəsi ilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında «Koroğlu» operasının əzəmətli uvertürası səsləndi.*

*Müvəffəqiyyətlə keçən konsertdə Üzeyir bəyin «Leyli və Məcnun», «Koroğlu», «O olmasın, bu olsun», «Arşın mal alan» opera və musiqili komediyalarından parçalar, ariyalar, «Arazbarı», «Sənsiz», «Sevgili canan» kimi musiqi inciləri ifa olundu, bir daha dinləyicilərə və tamaşaçılara unudulmaz anlar bəxş edildi.*

*Dahi bəstəkarın çıxışını, Bülbülün Koroğlusunu əks etdirən kinokadrlar, xalqımızın ümummilli lideri Heydər Əliyevin 1995-ci il sentyabrın 18-də Üzeyir bəyin 110 illik yubileyi gecəsində dediyi sözlər alqışlarla qarşılandı:*

*«Üzeyir Hacıbəyovun yaşadığı hər gün bizim üçün qiymətlidir. Üzeyir Hacıbəyovun yazdığı hər bir əsər, hər bir not vərəqi bizim üçün qiymətlidir. Üzeyir Hacıbəyovun ictimai-siyasi fəaliyyəti əvvəldən axıra qədər bizim üçün qiymətlidir. Çünki bunlar hamısı Azərbaycan xalqının dirçəlməsinə, Azərbaycan xalqının mədəniyyətinin inkişaf etməsinə, Azərbaycan xalqının özünü tanımasına xidmət edibdir. Bu xidmətlər heç vaxt unudula bilməz. Bu xidmətlər əvəzsizdir.*

*Bütün bunlara görə Üzeyir Hacıbəyovun yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir. Üzeyir Hacıbəyov şəxsiyyəti Azərbaycan xalqının iftixarı, bizim milli iftixarımızdır... Üzeyir Hacıbəyovun yaradıcılığı insanları həmişə vətənpərvərliyə çağırdığı kimi, bu gün də Azərbaycan vətəndaşlarını vətənpərvərliyə dəvət edir. Əgər biz bu gün Üzeyir Hacıbəyovun xatirəsini yad ediriksə, əgər onun yaradıcılığını bir daha yüksək qiymətləndiririksə, bu yaradıcılığın ən yüksək nöqtəsi olan vətənpərvərlik hisslərini özümüzdə daha da artırmalıyıq, daha da inkişaf*

*etdirməliyik. Özümüzü bu hissiyyatlarla gələcəyə hazırlamalıyıq.*

*Biz öz torpaqlarımızın sahibi olmalıyıq. Məsələləri sülh yolu ilə həll etməliyik. Nəyin bahasına olursa-olsun, hansı yolla olursa-olsun, Şuşa da, Qarabağ da, işğal edilmiş bütün torpaqlarımız da azad olunacaq – Azərbaycan xalqının iradəsi ilə azad olunacaq, Azərbaycanın qəhrəman oğullarının şücaəti ilə azad olunacaq və Azərbaycanın ərazi bütövlüyü təmin ediləcəkdir».*

*Yubiley gecəsi Üzeyir Hacıbəyovun bəstələdiyi Azərbaycanın Dövlət Himninin əzəmətlə səsləndirilməsi ilə başa çatdı.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev konsertdən sonra səhnə arxasına gələrək, uğurlu çıxışlarına görə incəsənət ustalarını təbrik etdi.*

**İ l h a m   Ə l i y e v:** Çox sağ olun. Sizə təşəkkür edirəm. Bu gün dahi Üzeyir bəyin ölməz əsərləri səsləndi. Siz də onları çox gözəl ifa etdiniz. Çox gözəl konsert oldu. Yenidən bu əsərləri dinləmək çox böyük zövq verir. Sizin hamınıza bu münasibətlə öz təşəkkürümü bildirirəm. Doğrudan da, bu gün Üzeyir bəyin yubileyi bizim hamımız üçün böyük bayramdır. Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

**M ə n s u m   İ b r a h i m o v** (*Xalq artisti*): Cənab Prezident, bu günlərdə bizə fəxri ad vermisiniz. Sənət dostlarım adından Sizə çox böyük minnətdarlığımızı bildiririk. Çox sağ olun ki, bizə belə böyük etimad göstərmisiniz, səhnəmizin Leyli və Məcnununa yüksək ad vermisiniz.

**İ l h a m   Ə l i y e v:** Siz buna layiqsiniz. Mən çalışıram ki, sənət adamlarının əməyini qiymətləndirim. Bu belə də olmalıdır. Bizim ulu öndərimiz Heydər Əliyev həmişə bu məsələlərə çox böyük diqqət göstərirdi. Çünki Azərbaycanın müstəqil ölkə kimi yaşaması üçün mədəniyyət, incəsənət çox böyük əhəmiyyət kəsb edir. İqtisadi cəhətdən nə qədər zəngin olursa-olsun,

əgər mədəniyyət, incəsənət inkişaf etmirsə, ölkə uğurla inkişaf edə bilməz. Ona görə bu bizim bu günümüz üçün lazımdır, gələcək nəsillərin tərbiyə olunması üçün lazımdır. Xüsusilə də nəzərə alsaq ki, bizim mədəniyyətimiz çox zəngin, nadir və dünyada analoqu olmayan mədəniyyətdir. Üzeyir bəyin əsərləri, bizim başqa görkəmli incəsənət, mədəniyyət xadimlərinin əsərləri – bütün bunlar milli sərvətimizdir. Sənət adamlarına həmişə böyük diqqət olmalıdır, həmişə qayğı olmalıdır. Olan problemlər gərək həmişə öz həllini tapsın. Allaha şükürlər olsun ki, indi ölkəmiz sürətlə inkişaf edir, imkanlarımız artır. Əlbəttə, ilk növbədə, siz bu imkanlardan bəhrələnməlisiniz. Mən çalışacağam ki, bundan sonra da həmişə sizin yanınızda olum.

**Lütfiyar İmanov** (*Xalq artisti*): Cənab Prezident, bu gözəl bayram münasibətilə Siz Azərbaycanın incəsənət və mədəniyyət xadimlərinə fəxri adlar verdiniz. Bu çox böyük işdir. Allah Sizi var eləsin. Arzu edirəm ki, belə hadisələr daha da çox olsun. Sağ olun, var olun.

**Afaq Bəşirqızı** (*Xalq artisti*): Cənab Prezident, Siz bizim mədəniyyətimizin mənəvi dayağısınız. Bu bizi çox qüdrətləndirir. Hər bir ölkənin dövlət bayrağından sonra mədəniyyəti gəlir. Siz mənim prezidentimsiniz.

**İlham Əliyev:** Çox sağ olun. Bilirsiniz ki, indi biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Əlbəttə, bu da zəmanənin tələbidir və bütün inkişaf etmiş ölkələr bu şəraitdə yaşayır. Belə olan halda, əlbəttə, bizneslə məşğul olanlar, sahibkarlıqla məşğul olanlar öz məişət şəraitini yaxşılaşdırırlar. Onların böyük imkanları var və daha da artıq olsun. Amma sənət adamlarının belə bir imkanı yoxdur. Ona görə dövlət bu məsələni daim diqqət mərkəzində saxlamalıdır. Mən çalışıram ki, mənə ünvanlanan bütün müraciətlərə müsbət münasibət göstərim. Son müddət ərzində bu məsələlərin böyük əksəriyyəti öz həllini tapmışdır.

**Afaq Bəşirqızı:** Allah eləsin ki, məmurların hamısı öz öhdələrinə düşən vəzifələri dərk etsinlər, bilsinlər ki, biz hər şeyə görə Sizə müraciət etməyək.

**İlham Əliyev:** Gərək onlar da nümunə götürsünlər.

**A f a q B ə ş i r q ı z ı:** Bəli. Çünki incəsənəti qiymətləndirmək lazımdır. Bu gün Üzeyir bəyin yubileyinin keçirilməsi Azərbaycan xalqının böyüklüyüdür. Müharibə vaxtı Nizaminin yubileyi keçirilibdir. Biz müharibəyə görə belə dahilərimizi qurban verə bilmərik. Allah qoysa, müharibəyə Sizinlə birlikdə son qoyacağıq.

**İ l h a m Ə l i y e v:** İnşallah. Çox sağ olun.

# QEYDLƏR

**1. Bəxtiyar Vahabzadə,** Bəxtiyar Mahmud oğlu (1925–2009) – Azərbaycanın Xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, 1991–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın akademiki olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 5-6.

**2. 1990-cı ilin 20 yanvarı** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 5.

**3. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 6,15,24,50,72,76,77,89,91,

113,121,122,128,129,130,131,166,181,182,195,199,220,242, 305,308,320,323,324,329.

**4. İsveç,** İ s v e ç K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 450 min km$^2$, əhalisi 8,9 milyon nəfərdir. İnzibati ərazisi 24 lena bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (riksdaq). Paytaxtı Stokholmdur. – 7-8.

**5. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 7-8,23,140,151,293.

**6. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 9-10,13,21,25,149,150,167-168,176,181, 322,323,324.

**7. Vano Merabişvili** (d.1968) – 2004-cü ildə Gürcüstanın Daxili İşlər naziri olmuşdur. 2003-cü ildə «qızıl gül inqilabı»nı müdafiə etmiş və M.Saakaşvilinin yaxın əməkdaşlarından biri olmuşdur. – 9-10.

**8. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003-cü ildən Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 9,167-168,176.

**9. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 11.

**10. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara

çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan

Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 11,12,14,17,18,19,24,30,31,35,36,39,41,42, 49,53,55,59,60,61,62,65,68,71,84,85,87,92,93,96,97,98,122,123,124, 127,128,131,134,177,178,180,184,195,216,236,237,238,239, 240,242,244,248-254,260,263,266,269,297,304,311,313,314,319, 329.

**11. Cəmşid Naxçıvanski** (1895–1935) – hərbi xadim, briqada komandiri. Birinci dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronun komandiri olmuş, sücaətlə vuruşmuş, dördüncü dərəcəli «Müqəddəs Georgi» ordeni ilə təltif olunmuşdur. Azərbaycanın müstəqilliyi uğrunda Cəmşid xan inamla vuruşmuşdur. 1920-ci ilin martında onun alayı Qarabağda daşnaklara qarşı döyüş əməliyyatlarında fəal iştirak etmişdir. 28 aprel (1920) çevrilişindən sonra Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri təyin olunmuş, yüksək ixtisaslı kadr hazırlığında mühüm rol oynamışdır. 30-cu illərin axırlarında Cəmşid xan guya başçılıq etdiyi «casus təxribatçı dəstəsi» ilə mühacirətdə olan qardaşları (İran) ilə əlaqə saxlamaqda təqsirləndirilərək repressiya qurbanı olmuşdur. – 11.

**12. Elçin Quliyev,** E l ç i n İ s a ğ a o ğ l u (d.1967) – hüquqşünas, general-leytenant. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2001-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif olunmuşdur. – 11,19,21.

**13. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min $km^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 13,17,21,22,24,125,150,151,153,165-169,182,183,302-307, 322,323.

**14. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. –13,17,151,183,230, 231,281.

**15. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 15,23,157,183, 320,321.

**16. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. –19,20,22,24,25,31,49,62,112, 127,136,144,148,149,180,181,184,187,204,211,251,263,265, 324.

**17. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 23,171,183,200,206.

**18. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 23,168,199,321,323.

**19. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 24,25,39,66, 106,135,141,174-175,177-178,179-188,194-196, 209-210,223, 324.

**20. Bakı– Tbilisi – Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 25,187,204.

**21. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 27.

**22. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 27.

**23. Qəbələ** (1930–91-ci illərdə Qutqaşen) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Ərazisi 1,55 km$^2$, əhalisi 95,6 min nəfərdir. – 28-46,78, 81-111.

**24. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü

illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. –28-46,55,57-58,59,80,95,156,157, 158-159,160-162,163-164,215,233,245,246,248-254,258,259,260, 271,327-331.

**25. Qurani–Kərim,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən

çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 36.

**26. Qafqaz Albaniyası,** A l b a n i y a (Qafqaz) – Şərqi Qafqazda qədim dövlət. İndiki Azərbaycan Respublikasının ərazisini və Dağıstanın cənub hissəsini əhatə edirdi. Təqribən e.ə. 4–3-cü əsrlərdə formalaşdığı ehtimal olunur. Paytaxtı Qəbələ, 5-ci əsrdən isə Bərdə şəhəri idi. – 37,41.

**27. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon $km^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 39,40,74, 135,150,151,152,153,184,185,189-190,191,211,326.

**28. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 46,53,57-58,80,85,88,91, 95,233,244,258,259,272,275,327.

**29. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 46,57-58,80,95,155-164,233,258,259,327.

**30. Oğuz** – Azərbaycan Respublikasında inzibati rayon. Şəki rayonunun ərazisi 1963–65-ci illərdə Oğuz rayonunun tərkibində olmuşdur. Şimalda Dağıstanla həmsərhəddir. Sahəsi 1077 $km^2$, əhalisi 37,7 min nəfərdir. – 47-58,78,81-111.

**31. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min $km^2$, əhalisi 23 206 min nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı – prezident, qanunverici orqanı – Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 55,116,167-168.

**32. İsmayıllı** – Azərbaycan Respublikasında inzibati rayon 1931-ci ildə təşkil edilmişdir. Sahəsi 2064 km, əhalisi 33,5 min nəfərdir. – 59-80,81-111,124.

**33. Lahıc** – Azərbaycan Respublikasında şəhər tipli qəsəbə. Lahıc Azərbaycanın qədim yaşayış mərkəzlərindəndir. Əsasının erkən orta əsrlərdə qoyulduğu ehtimal olunur. Lahıc XVIII–XIX əsrlərdə Azərbaycanın misgərlik və silah istehsalı mərkəzlərindən biri idi. – 64,87,104.

**34. Əbülfəs Qarayev,** Ə b ü l f ə s M ü r s ə l o ğ l u (d.1956) – fəlsəfə elmləri namizədi. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Respublika Olimpiya Komitəsinin birinci vitse–prezidentidir.

Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmişdir. –66,102-107,108.

**35. Zərifə xanım,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 71,271-272.

**36. Kazan** – Tatarıstanın paytaxtı. Volqa çayının sol sahilində, Kazanka çayının mənsəbindədir. Şəhəri XIII əsrin 2-ci yarısında bulqarlar salmışlar. 1399-cu ildə Moskva knyazlığının qoşunları dağıtmış, 30–40 il sonra yenidən tikilmişdir. XV əsrdən Kazan xanlığının mərkəzi olmuşdur. 1552-ci ildə Rus dövlətinə birləşdirilmişdir. – 72,165-169, 176,182.

**37. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», «Şöhrət», «Şərəf» Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 73.

**38. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. –74,75,174,175,185.

**39. Ümumdünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 78,79.

**40. Şamaxı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 3848 km$^2$, əhalisi 83,1 min nəfərdir. – 81-111.

**41. Böyük Vətən müharibəsi** – Bax: İkinci dünya müharibəsi.

**42. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon

adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 85,303.

**43. İsmət Abasov,** İ s m ə t D u r s u n o ğ l u (d.1954) – iqtisadçı, iqtisad elmləri namizədi. 2008-ci ildən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 86-87,98-101, 102.

**44. İmadəddin Nəsimi,** əsl adı S e y i d Ə l i (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, «kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə öldürülmüşdür. – 95.

**45. Seyid Əzim Şirvani** (1835–1888) – Azərbaycan şairi. O, Azərbaycan və fars dillərində yazmışdır. XIX əsrin 1-ci yarısında ədəbi məktəb yaradan S.Ə.Şirvani lirik və satirik Azərbaycan şeirini zənginləşdirmişdir. Yüksək bədii sənətkarlıqla yazılmış lirik şeirlərində – qəzəl, qəsidə, tərkibbənd, müxəmməs, müsəddəs, rübai, qitə–məhəbbət, həyat eşqi tərənnüm olunur. Satirik şeirlərində «xalqın qanını şişəyə tutan» çar məmurlarını ifşa etmişdir. – 95.

**46. Xaqani Şirvani,** Ə f z ə l ə d d i n İ b r a h i m İ b n Ə l i N ə c c a r Ş i r v a n i (1126–1199) –Azərbaycan şairi, mütəfəkkir. Xaqani Azərbaycan ədəbiyyatının ən görkəmli simalarındandır. Xaqani Şirvaninin ədəbi irsi olduqca zəngindir. Onun epik poeziyanın ilk görkəmli nümunələrindən «Töhfət ül-İraqeyn» məsnəvisi, «Mədain xərabələri» adlı məşhur fəlsəfi qəsidəsi, saf eşqi, məhəbbəti tərənnüm edən qəzəlləri, «Həbsiyyə» adlandırılan qəsidələri və mərsiyələri klassik Şərq ədəbiyyatında ən kamil əsərlərdir. – 95.

**47. Azərbaycan Milli Elmlər Akademiyası** – Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin

elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 96.

**48. Şamaxı Astrofizika Rəsədxanası,** N ə s i r ə d d i n T u s i a d ı n a Ş a m a x ı A s t r o f i z i k a R ə s ə d - x a n a s ı – Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun «Astrofizika» sektoru bazasında 1960-cı ildə yaradılmışdır. Şamaxı Astrofizika Rəsədxanası dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşir. Bu rəsədxana çətin müşahidə edilən cənub göyünün öyrənilməsində dünyanın bir çox rəsədxanası ilə müqayisədə müəyyən üstünlüklərə malikdir. Burada aydın gecələrin sayı 190–200-ə çatır. – 96.

**49. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 100,104,139, 145.

**50. Gəncə Kənd Təsərrüfatı Akademiyası** – (1991-ci ilə qədər Azərbaycan Kənd Təsərrüfatı İnstitutu) – respublika kənd təsərrüfatı mütəxəssisləri hazırlayan ali məktəb. Universitetin aqronomluq, aqrotexnologiya, zoobaytarlıq və əmtəəşünaslıq, informasiya texnologiyaları, aqromühəndislik və energetika və iqtisadiyyat fakültələri vardır. Yarandığı gündən bu vaxtadək

akademiyada 60 minə yaxın yüksək ixtisaslı kənd təsərrüfatı mütəxəssisi hazırlamışdır. Akademiya 2009-cu ildən Azərbaycan Dövlət Aqrar Universiteti adlanır . – 102.

**51. Xaçmaz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Quba və Qusar rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1045 km$^2$, əhalisi 148,4 min nəfərdir. – 102,130,227.

**52. Balakən** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək Zaqatala rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Şimalda Dağıstanla, qərbdə və cənub–qərbdə Gürcüstan ilə həmsərhəddir. Sahəsi 923 km$^2$, əhalisi 85,3 min nəfərdir. – 103.

**53. Qax** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Zaqatala rayonuna verilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. Şimal–şərqdən Dağıstanla, cənub–qərbdən Gürcüstanla həmsərhəddir. Sahəsi 1494 km$^2$, əhalisi 52,3 min nəfərdir. – 103.

**54. Şəki –** (1968-ci ilədək Nuxa rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən mustəqil rayon olmuşdur. Sahəsi 2397 km$^2$, əhalisi 173 min nəfərdir. – 103,227.

**55. Ümumdünya Turizm Təşkilatı** (ÜTT) – Birləşmiş Millətlər Təşkilatında idarə. Turizm sahəsində aparıcı fəaliyyət göstərən beynəlxalq təşkilat. 1925-ci ildə Beynəlxalq Rəsmi Turizm Assosiasiyası kimi Haaqada yaradılmışdır. Ümumdünya Turizm Təşkilatı sabit və əlverişli turizmin inkişafı ilə məşğul

olur. ÜTT-na 155 dövlət daxildir. Mənzil-qərargahı Madriddədir. – 103.

**56. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 109,137,145,146,251.

**57. «Azərsu» Səhmdar Cəmiyyəti** – 2004-cü ildə Abşeron Regional Su Cəmiyyəti «Azərsu» Səhmdar Cəmiyyətinə çevrildi. Bakı Şəhər İcra Hakimiyyətinin «Bakıkanalizasiya» İstehsalat Birliyinin və Dövlət Tikinti və Arxitektura Komitəsinin ləğv edilmiş «Azərsukanaltəmir» və «Azərkəndsutəchizat» İstehsalat Birliklərinin respublikanın şəhər və rayonlarındakı müəssisə və təşkilatları onun tabeliyinə verilmişdir. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur. – 109,276.

**58. RTR, Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Kompaniyası** (ÜDTRVK) – 1990-cı ildə yaradılmışdır, Rusiya Federasiyası ərazisində televiziya və radio verilişləri təşkil edir. 1998-ci il bazasında yaradılmış ÜDTRVK dövlət media holdinqı federal «Rossiya» və «Kultura» telekanalları, «Radio Rossii», «Mayak», «Orfey», «Yunost», «Qolos Rossii» radiostansiyalarını və 92 regional dövlət teleradiokompaniyalarını, Ostankino televiziya və Rusiya informasiya texniki mərkəzini, «Vesti» agentliyini əhatə edir. – 112.

**59. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağı-

dakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 112,125,165,167,168, 214,293,300,303.

**60. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 113,174-175.

**61. Rene van der Linden** (d.1943) – holland siyasətçisi. 2005–2008-ci illərdə AŞPA-nın sədri olmuşdur. – 113.

**62. Liviya,** L i v i y a Ə r ə b X a l q S o s i a l i s t C ə m a h i r i y y ə s i – Şimali Afrikada dövlət. Sahəsi 1759,5 min km², əhalisi 5,4 milyon nəfərdir. Liviyanın rəhbər orqanı– inqilabi rəhbərdir. Qanunverici orqanı Umumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripolidir. – 114.

**63. Müəmmər Əl–Qəddafi** (d.1942) – Liviyanın dövlət və siyasi xadimi. 1970–2011-ci illərdə Liviyanın prezidenti olmuşdur. – 114.

**64. Slovakiya,** S l o v a k i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min km², əhalisi 3,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident,

qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. –115.

**65. İvan Qaşparoviç** (d.1941) – Slovakiya dövlət xadimi, hüquqşünas-alim, 2004-cü ildən Slovakiya Respublikasının prezidenti. – 115.

**66. İslam Kərimov,** İslam Əbduqəni oğlu (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. –116,167-168.

**67. Vyetnam,** Vyetnam Sosialist Respublikası (VSR) – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 322 min km$^2$, əhalisi 76,1 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, dövlətin və qanunvericiliyin ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Xanoydır. – 117.

**68. Çan Dik Lionq** (d.1937) – 1997–2006-cı illərdə Vyetnamın prezidenti olmuşdur. – 117.

**69. Tacikistan,** Tacikistan Respublikası – Orta Asiyanın cənub–şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 5705 min nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 118,167-168.

**70. İmaməli Rəhmon,** İmaməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. Həmin ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. –118,167-168.

**71. Koreya Xalq Demokratik Respublikası** – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradıl-

mışdır. Sahəsi 121,2 min km$^2$, əhalisi 23,9 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyandır. – 119.

**72. Kim Çen İr** (1941 və ya 1942–2012) – 2003–2011-ci illərdə Koreya Xalq Demokratik Respublikasının başçısı, Koreya Əmək Partiyasının Baş katibi, Koreya Xalq Ordusunun Baş komandanı, KXDR-in Dövlət Müdafiə Komitəsinin sədri olmuşdur, «Dahi rəhbər» Kim İr Senin oğlu. – 119.

**73. Braziliya,** Braziliya Federativ Respublikası – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon km$^2$, əhalisi 157,9 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və federativ (paytaxta) mahala bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Braziliadır. – 120.

**74. Luis İnasiu Lula Silva** (d.1945) – 2003–2011-ci illərdə Braziliya Federativ Respublikasının prezidenti olmuşdur. – 120.

**75. Əli Nağıyev,** Əli Teymur oğlu (d.1954) –1996–2006-cı illərdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri, Azərbaycan Respublikasının Belarus Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı. – 124-126.

**76. Yuri Kovalyov** (1965–1991) – Azərbaycan Respublikasının Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi. – 130.

**77. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal–qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 km$^2$, əhalisi 231,1 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi

olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 130, 142,279.

**78. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 133,167-169.

**79. «Bank Standard»** – 1995-ci ildə fəaliyyətə başlamışdır. 2004-cü ildən etibarən Bank Standard öz konsepsiyasını yeniləşdirmiş, kommersiya bankı kimi, Azərbaycanın maliyyə bazarında özünəməxsus yer tutur; bank həm də fiziki şəxslərlə iş aparır. Bankın inkişaf potensialı ölkənin ən böyük özəl kommersiya bankı kimi nüfuzunun, müştəri ehtiyatının və xidmətlərinin yüksək keyfiyyəti ilə bağlıdır. – 134-143.

**80. Milli Bank,** Azərbaycan Dövlət Milli Bankı – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. – 136,137,138-141,143.

**81. Elman Rüstəmov,** E l m a n S i r a c o ğ l u (d.1952) – iqtisad elmləri namizədi. 1995-ci ildən Azərbaycan Milli Bankı İdarə Heyətinin sədridir. – 138-141,142.

**82. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 139,145,187.

**83. TASİS** – 1991-ci ildə Avropa Şurası tərəfindən MDB dövlətlərinə texniki cəhətdən kömək etmək üçün yaradılan proqram. Proqram 2 hissədən – hər bir ölkəyə, o cümlədən Azərbaycana, region ölkələrinə texniki köməkdən ibarətdir.

Azərbaycan Respublikası TASİS proqramına 1992-ci ildə daxil olmuşdur. – 140.

**84. Ata Bank** – 1994-cü ildə yaradılmışdır. Bank sevrisi kredit depozitlərin verilməsi, fiziki və hüquqi şəxslərin hesabları üzrə əməliyyatlar, kapital qoyuluşunun maliyyələşdirilməsi, qiymətli kağızlar üzrə əməliyyatlar aparır. – 141.

**85. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 144-154.

**86.** ***bp,*** «Britiş Petroleum» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı,

çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 146.

**87. Ukrayna,** U k r a y n a  R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 149,150, 167-168.

**88. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın şimal–şərqində dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4526 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 149,167-168.

**89. Kosovo problemi** – 1980-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları serblərdən qorumaq üçün Kosovoya girdi. 1999-cu ildən sonra Serbiya hökuməti Kosovo ərazisinə de-fakto nəzarətini itirdi. 2008-ci ildə Kosovo özünü birtərəfli şəkildə müstəqil dövlət elan etdi. Hazırda BMT üzv-ölkələrinin 99-u, o cümlədən NATO ölkələri Kosovonun müstəqilliyini tanıyır. – 151.

**90. Əfqanıstan,** Əfqanıstan İslam Dövləti– Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2 mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 151,189.

**91. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 151.

**92. «Human Rights Watsh»** – dünyanın 70 ölkəsində insan hüquqlarını müdafiə edən qeyri-hökumət təşkilatı. 1978-ci ildə Moskva, Varşava, Praqa hüquq müdafiəçilərinin müraciətindən sonra yaradılmışdır. Mənzil-qərargahı ABŞ-dadır. Təşkilat hökumət strukturlarından maliyyə yardımı almır. – 153,154.

**93. Koişiro Matsuura** (d.1937) – 2005–2009-cu illərdə YUNESKO-nun Baş direktoru. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 155-164.

**94. İçərişəhər** – Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Ərazisi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində iki mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII

əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları çəkilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdi. İçərişəhərin üç əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. Abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdi. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 159.

**95. «Kitabi-Dədə Qorqud»** – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV–XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 159.

**96. Qız qalası** – Azərbaycanda tarixi-memarlıq abidəsi. Bakıdadır (İçərişəhərdə). Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 32 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası

silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 159.

**97. Tatarıstan,** T a t a r ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyası tərkibində federal vilayət. Paytaxtı Kazan şəhəridir. Sahəsi 68 min km$^2$, əhalisi 3773,8 min nəfərdir. – 165-169.

**98. Ruşaylo Vladimir** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildə Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildə nazir, 2001-ci ildə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 165,169.

**99. Ramiz Rizayev,** R a m i z H ə s ə n q u l u o ğ l u (d.1939) – kimyaçı, kimya elmləri doktoru, professor. AMEA-nın müxbir üzvü. 1993–2007-ci illərdə Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 165,169.

**100. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 166,321, 322.

**101. Sankt-Peterburq** (1914-cü ilədək Sankt-Peterburq, 1924-cü ilədək Petroqrad, 1991-ci ilədək Leninqrad) –1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzidir. Əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. – 167.

**102. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min $km^2$, əhalisi 10442 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 167-168.

**103. Aleksandr Lukaşenko** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 167-168.

**104. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ- l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-nin prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 167-169.

**105. Kurmanbek Bakiyev** (d.1949) – Qırğızıstan siyasi və dövlət xadimi, «Qırğızıstan xalq hərəkatı» blokunun lideri, 2005–2010-cu illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. Hazırda Belarusda siyasi mühacirdir. –167-168.

**106. Moldova,** M o l d o v a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Sahəsi 33,7 min $km^2$, əhalisi 4,36 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 167-168.

**107. Vladimir Voronin** (d.1941) – Moldova siyasi və dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova prezidenti olmuşdur. – 167-168.

**108. Putin Vladimir Vladimiroviç** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının prezidenti seçilmişdir. – 167-169,182.

**109. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur. – 167-168.

**110. Çernobıl hadisələri** – 1986-cı ilin aprel ayında Çernobıl AES-in 4-cü enerji blokunda avariya baş verdi. Bunun nəticəsində Ukrayna ərazisinin xeyli hissəsi, həmçinin Belorusiya və Rusiya Federasiyasının Bryansk və Kaluqa əyalətləri də radiaktiv çirklənməyə məruz qaldı. Bunun nəticəsində AES-in 30 km-də yaşayan əhalisi bu zonadan köçürüldü. 1986-cı ilin noyabrında 4-cü blok ləğv edildi. – 167.

**111. Musa Cəlil** (Musa Mustafoviç Cəlilov;1906–1944) tatar şairi. 1939–41-ci illərdə Tatarıstan Yazıçılar İttifaqının məsul katibi olmuşdur. 1941-ci ildə ordu sıralarına çağırılmış,1942-ci ildə ağır yaralanmış, əsir alınmış və həbs düşərgəsinə salınmışdı. Burada gizli qrup yaratmış, hərbi əsirlərin qaçmasını təşkil etmişdi, gizli təşkilatda iştirakına görə Plettsenzeje hərbi həbsxanasında edam olunmuşdur. 1956-cı ildə ona Sovet İttifaqı Qəhrəmanı (ölümündən sonra) adı verilmişdir. Musa Cəlilin Moobit həbsxanasında yazdığı 100-dən

çox şeiri belçikalı əsir tərəfindən həbsxanadan çıxarılmışdı. Lenin və SSRİ Dövlət mükafatları laureatıdır. – 169.

**112. Mintimir Şaymiyev** (d.1937) – Rusiya dövlət xadimi. 1985–89-cu illərdə Tatarıstan MSSR Ali Sovetinin sədri, 1991–2011-ci illərdə Tatarıstan Respublikasının prezidenti olmuşdur. – 169.

**113. Abbas Mirzə Şərifzadə,** A b b a s  M i r z ə  M i r z ə  Ə b d ü l r ə s u l  o ğ l u (1893–1938) – Azərbaycan aktyoru, rejissor, teatr xadimi. Şərifzadə 30 illik səhnə fəaliyyəti ərzində milli, eləcə də dünya klassiklərinin əsərlərində müxtəlif rollar oynamış, zəngin obrazlar qalereyası yaratmışdır. V.Şekspirin qəhrəmanları Şərifzadənin aktyorluq istedadının zirvəsidir. O, Hamlet, Otello və Maqbet rollarının mahir ifaçılarından biri kimi tanınmışdır. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan xalqının ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin qurbanlarındandır. – 170.

**114. İctimai Televiziya və Radio Yayımları Şirkəti** (İTV) – mülkiyyətin xüsusi formasında təşkil edilən tele və radio yayımı. 2004-cü ildə yaradılmışdır. Bu tip teleyayım şirkətinin mülkiyyəti nə dövlətə, nə şəxsi sektora aid olmayıb, «ictimai mülkiyyət» sayılır. Mülkiyyəti və şirkəti cəmiyyətin nüfuzlu insanlarından xüsusi qayda ilə seçilən şura idarə edir. – 170-173.

**115. Türkiyə Ədalət və İnkişaf Partiyası** (Adelet və Kalkinma Partisi) – hal-hazırda Türkiyədə hakimiyyətdə olan partiya. 2002-ci ildə Rəcəb Tayyib Ərdoğan və Abdullah Gül tərəfindən yaradılmışdır. – 174-175.

**116. Türkiyə Böyük Millət Məclisi** (BMM) – Türkiyənin Ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki

palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. – 174-175.

**117. Murad Mercan** (d.1959) – türk siyasətçisi. TBMM-in millət vəkili. AŞPA-nın üzvü. – 174-175.

**118. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 174,175.

**119. «Mərmərə» qrupu» Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 177-178.

**120. Akkan Suver** (d.1942) – Türkiyə jurnalisti. Fəlsəfə elmləri doktoru. «Mərmərə» qrupunun sədridir. – 177-178.

**121. Şimali Kipr Türk Cümhuriyyəti** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə–Kipr administrasıyası bu ərazidə federativ türk dövləti – Kipr Respub-

likasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk Respublikası (ŞKTR) – Kıbrıs elan etdi. – 179,194.

**122. Ceyhan** – Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 180.

**123. Rauf Denktaş** (1924–2012) – hüquqşünas, dövlət xadimi. İkinci dünya müharibəsindən sonra London universitetində hüquq fakültəsini bitirmiş və Kiprə qayıtmışdır. Gündəlik hadisələr və senaratist EOKA təşkilatı tərəfdarlarının Kiprin Yunanıstana birləşdirilməsi çağırışları Kipr türklərinin səbr kasasını doldurdu və ingilis qubernatoruna protest məktubunu yazmağa vadar etdi.

Yunanların mürtəce siyasətini Qərb dövlətləri də müdafiə edirdi. Məhz buna görə uzun müddət Türkiyədə yaşayan Denktaş 1963-cü il (o Kiprdə non-qrat elan edilmişdi) hadisələri zamanı gizlin Kiprə qayıtdı. Kipr türklərinin xahişi ilə türk ordusu 1974-cü ildə Kiprə girdi, Şimali Kipr Türk dövləti yaradıldı. Bundan sonra Denktaş Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti seçildi. –179.

**124. Təbriz** – İranda şəhər. Cənubi Azərbaycanın ən böyük şəhəri, iqtisadi və mədəniyyət mərkəzi, Şərqi Azərbaycan ostanının inzibati mərkəzi. Əhalisi 1,1 milyon nəfərdir.

Təbriz Azərbaycanın ən qədim şəhərlərindəndir. «Təbriz» sözünün etimologiyası və şəhərin salınma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Təbriz Rəvvadilər dövlətinin (852), Eldəgəzlər dövlətinin (1174), Ağqoyunlular dövlətinin (1468), Səfəvilər dövlətinin (1501) paytaxtı olmuşdur. XV–XVII əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq və tica-

rət mərkəzlərindən idi. Təbrizi «Şərqin paytaxtı» da adlandırırdılar.

1826–28-ci illər Rusiya–İran müharibəsi nəticəsində Türkmənçay müqaviləsinə (1828) görə Təbriz İranın hakimiyyəti altında qaldı. – 183.

**125. «Gellap İnternasional»** – 1935-ci ildə Corc Gellap tərəfindən yaradılmış Amerika İctimai Rəy İnstitutu. Qərargahı Vaşinqtondadır. İnstitut müntəzəm olaraq əhali arasında daxili və xarici siyasət haqqında rəy sorğusu keçirir. Beynəlxalq aləmdə çox böyük nüfuza malikdir. – 185.

**126. Respublikaçılar Partiyası** – ABŞ-ın iki əsas partiyasından biri. 1854-cü ildə yaradılmışdır. 1861-ci ildən 2001-ci ilədək bir neçə dəfə hakimiyyətdə olmuşdur. – 185.

**127. Riçard Liqar** (d.1932) – amerikan siyasətçisi, senator, Respublikaçılar Partiyasının üzvü. ABŞ Senatında Xarici Əlaqələr Komitəsinin sədri olmuşdur. – 189-190.

**128. İraq,** İ r a q R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min km$^2$, əhalisi 22,4 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 189,192.

**129. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yara-

dıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 191.

**130. Cəlal Hüsaməddin ət-Təlabani** (d.1933) – kürd və İraq siyasi xadimi. 2005-ci ildən İraqın prezidentidir. – 192.

**131. Norveç,** N o r v e ç  K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 387 min km$^2$, əhalisi 4,4 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Oslodur. – 193.

**132. Kim Traavik** (d.1946) – Norveç siyasi xadimi və diplomat. 2001–2005-ci illərdə Norveçdə Dövlət katibi olmuşdur. 2006–2010-cu illərdə isə Norveçin NATO-da və Böyük Britaniyada səfiri vəzifəsində çalışmışdır. – 193.

**133. Kondoliza Rays** (d.1954) – Amerika dövlət və siyasi xadimi. 2004–2008-ci illərdə Amerika Birləşmiş Ştatlarının Dövlət katibi olmuşdur. – 195.

**134. İndoneziya,** İ n d o n e z i y a  R e s p u b l i k a s ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min km$^2$, əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 197.

**135. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004-cü ildən İndoneziyanın prezidentidir. – 197.

**136. Meksika,** M e k s i k a  B i r l ə ş m i ş  Ş t a t l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1958 min km$^2$,

əhalisi 91,1 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar palatası və Senat). Paytaxtı Mexikodur. –198.

**137. Visente Foks Kesada** (d.1942) – Meksikada olmuş prezidentlərin ən məşhuru. Müxalifət partiyalarından seçilən ilk prezident (2000–2006). – 198.

**138. Dimitri Rupel** (d.1946) – Sloveniya siyasi xadimi, diplomat. 2005-ci ildə Sloveniya Xarici İşlər naziri, ATƏT-in sədri olmuşdur. – 199.

**139. Terri Devis** (d.1938) – ingilis leyboristi. Tarix, ədəbiyyat və dil üzrə mütəxəssis. 2005–2010-ci illərdə Avropa Şurasında Baş katib olmuşdur. – 200.

**140. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Piyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 201,202.

**141. Abdullah ibn Əbdüləziz,** Al Səud (1924–2011) – 2005-ci ildən Səudiyyə Ərəbistanı əmiri. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir. Abdullah ibn Səudun oğludur. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuş, Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 201.

**142. Malta,** Malta Respublikası – Cənubi Avropada, Malta arxipelaqında dövlət. Sahəsi 316 $km^2$, əhalisi 372 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Valletta şəhəridir. – 203.

**143. Eduard Feneç Adami** (d.1934) – Malta siyasətçisi. 1987–1996,1998–2004-cü illər Maltanın Baş naziri, 2004–2009-cu illərdə Maltanın prezidenti olmuşdur. – 203.

**144. «Azərbaycan Neft Təsərrüfatı** («ANT») – aylıq elmi-texniki və istehsalat jurnalı. İlk nömrəsi 1920-ci ildə Bakıda nəşr olunmuşdur. Əvvəllər «Xalq təsərrüfatı» adı ilə çıxmış, 1922-ci ildən isə «ANT» adlanmışdır. «ANT»-da neft sənayesinin iqtisadi məsələləri, geologiya, netf və qaz quyularının qazılması, neft və qazın çıxarılması və emalı, neft kimyası, yeni neft yataqlarının kəşfi, həmçinin Azərbaycanda neft sənayesinin inkişafı ilə əlaqədar vəzifələr, mütərəqqi istehsal üsulları və yeni texnikanın tətbiqinə dair məqalələr dərc olunur. – 204-205.

**145. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. –

**146. Finlandiya,** Finlandiya Respublikası – Şimali Avropada dövlət. Sahəsi 397 min $km^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 206,299.

**147. Tarya Halonen** (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının prezidentidir. – 206.

**148. «Forçun»** – Amerikada siyasi-iqtisadi jurnal. Əsası 1030-cu ildə qoyulmuşdur. Nyu-Yorkda ildə 26 dəfə nəşr edilir. – 211.

**149. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 $km^2$, əhalisi 146,9 min nəfərdir. – 215-225,228,238,267,273-295.

**150. Leyla Əliyeva,** L e y l a   İ l h a m   q ı z ı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. –215,271.

**151. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 221,251.

**152. «Siemens»** – alman şirkəti. 1847-ci ildə yaradılmışdır. Bakıda numayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik

məhsulları və elektroavadanlıqların hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi – 118 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 140 min nəfərdir. – 221.

**153. Cahangir Əsgərov,** Cahangir Cəlal oğlu (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. – 222.

**154. Hüseynqulu Bağırov,** Hüseynqulu Seyid oğlu (d.1955) – iqtisadçı. 1993-cü ildən Qərb Universitetinin təsisçisi, prezidenti və rektorudur. 2000-ci ildə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. – 224.

**155. Astara rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib Lənkəran rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Cənubda və qərbdə İranla həmsərhəddir. Sahəsi 616 $km^2$, əhalisi 87,4 min nəfərdir. – 224,225,226-233,277-279,282-285.

**156. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 226.

**157. Etibar Pirverdiyev** (d.1964) – 2001-ci ildən «Azərenerji» ASS-nin prezidenti vəzifəsində çalışır. – 226.

**158. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min $km^2$, əhalisi

67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtı olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 227,231.

**159. «Azəriqaz» – İstehsalat Birliyi** – ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli ilə məşğuldur. «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 230,288.

**160. Əlixan Məlikov** (d.1951) – mühəndis. 2000–2009-cu illərdə «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. – 230.

**161. Lerik rayonu** (1938-ci ilədək Zuvand rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Cənub və cənub–qərbdə İranla həmsərhəddir. Sahəsi 1084 km$^2$, əhalisi 66,2 min nəfərdir. – 234-246,280-281,283.

**162. Ziya Məmmədov,** Ziya Arzuman oğlu (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 234.

**163. Həzrəti Əli ibn Əbu Talib (**598–661**)** – Məhəmməd əleyhüssəlamın əmisi oğlu və kürəkəni (qızı Fatimənin əri). İmam Əli islam dinini ilk qəbul edənlərdən olmuş, müsəlmanların bütün vuruşmalarında iştirak etmiş, igidliyi ilə fərqlənmişdir. – 236.

**164. Mircəfər Bağırov,** M i r c ə f ə r A b b a s o ğ l u (1896–1956) – 1933–53-cü illərdə Azərbaycan KP MK-nın Birinci katibi olmuşdur. Bütün SSRİ-də olduğu kimi, Azərbaycanda da inzibati-amirlik idarəetmə sisteminin möhkəmləndirilməsinə, totalitar Stalin rejiminin bərqərar olmasına, partiya sıralarını «təmizləmə» adı ilə baş verən repressiyaların həyata keçirilməsinə bilavasitə rəhbərlik etmişdir. – 237.

**165. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zil-hiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahının bağışlanması günü kimi qeyd edirlər. – 237.

**166. Masallı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 292 km$^2$, əhalisi 178,8 min nəfərdir. – 247-259,268,284-285.

**167. Yardımlı** (1938-ci ilədək Vərgədüz rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimaldan, qərbdən və cənub-qərbdən İranla həmsərhəddir. Sahəsi 667 km$^2$, əhalisi 51,8 min nəfərdir. – 260-272, 283,287,288.

**168. «Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 279.

**169. Misir Ərəb Respublikası** – Afrikanın şimal–şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 296.

**170. Hüsnü Mübarək,** Seyid Məhəmməd (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 296.

**171. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma-katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma papasıdır. – 297-298.

**172. II İohann Pavel,** dünyəvi adı Karol Voytıla (1920–2005) – ilahiyyat elmləri doktoru. 1523-cü ildən bəri ilk qeyri-italyan mənşəli (polyak) Roma papası olmuşdur. Sülh və beynəlxalq gərginliyin zəiflədilməsində böyük xidmətləri var. II İohann Pavel 1978-ci ildə Roma papası seçilmişdir. Dünyanın bir çox ölkəsində, o cümlədən prezident Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Azərbaycanda rəsmi səfərdə olmuşdur. – 297-298.

**173. İncil** (müjdə, xeyir xəbər) – Bibliyanın xristianlığa aid hissəsi. İncildə əsasən İsa peyğəmbərin və onun «möcüzələrinə» aid erkən xristianlıq əfsanələri toplanmışdır. İncilin harada tərtib olunması məsələsi mübahisəlidir. – 297.

**174. Benedikt XVI** (d.1927) – 2005–2013-cü illərdə Roma papası olmuşdur. – 297-298.

**175. Aleksi II (**1929–2010) – 1990–2010-cu illərdə Moskvanın və Bütün Rusiyanın patriarxı; xristian dinini qorumaq

hərəkatının görkəmli nümayəndələrindən biri; Rusiya pravoslav kilsəsində əmin-amanlıq hərəkatının rəhbəri, Avropa Kilsələr Konfransı Şurasının sədri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 302-307.

**176. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h ş ü-k ü r H ü m m ə t o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 303.

**177. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı Avropa İqtisadi Birliyi – (AİB), Avropa Kömür və Polad Birliyi – (AKPB), Avropa Atom Enerjisi Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun vahid valyuta qəbul etməsi – AVRO) bir neçə mərhələ keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-cı ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi yarandı. – 308.

**178. Heyki Talvitiye** (d.1939)–2003–2006-cı illərdə Avropa Şurasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi olmuşdur. – 308.

**179. Asiya Bankı,** A s i y a İ n k i ş a f B a n k ı – Asiya və Sakit okean hövzəsi ölkələrində inkişaf layihələrinə uzunmüddətli kredit verən beynəlxalq regional bank. Əsası 1966-cı ildə qoyulmuşdur. Asiya İnkişaf Bankına 50-yə yaxın ölkə daxildir. Əsas auksionerləri Yaponiya, ABŞ və Çindir. Mənzil-qərargahı Maniladadır (Filippin). – 309-310.

**180. «Azərneftyağ» İstehsalat Birliyi** – 1994-cü ildə yaradılmışdır. Yanacaq və yağlar istehsal edən neft emalı birliyidir. Birlik 20-dən çox neft məhsulu, o cümlədən, standart və texniki müqavilə şərtlərinə uyğun gələn dizel yanacağı, aviakerosin, odluq mazut, həmçinin müxtəlif markalı sürtgü yağları, neftebitum, neftli turşular və s. hasil edir. Neft emalı sahəsində birliyin terminallarından neft məhsullarının boşaldılıb yüksəlməsində istifadə edilir. – 311,314.

**181. Nigeriya,** N i g e r i y a  F e d e r a t i v  R e s p u b -l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 103,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abusadır. – 316.

**182. Olusequn Obasanco** (d.1937) – Nigeriya siyasi və dövlət xadimi; 1999-cu ildən Nigeriyanın prezidenti. –316.

**183. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı – Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 317.

**184. Xu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002-ci ildə ÇKP MK-nın Baş katibi, 2003-cü ildə ÇXR-nın sədri, 2004-cü ildə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. 2007-ci ildən Ümumçin Xalq Nümayəndələri Məclisinin sədridir. –317.

**185. Qvineya,** Q v i n e y a  R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 246 min km$^2$, əhalisi 6,9 milyon nəfərdir.

İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Konakri. – 318.

**186. Lansana Konte** (1934–2008) – Qvineya siyasi, dövlət və hərbi xadimi; general. 1984–2008-ci illərdə Ovineya Respublikasının prezidenti olmuşdur. – 318.

**187. Səfər Əbiyev,** Səfər Axundbala oğlu (d.1950) – general-polkovnik. 1995-ci ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. – 319.

**188. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə müsəlman ölkələrinin dövlət və hökumət başçılarının Mərakeşin paytaxtı Rabatda keçirilmiş konfransında yaradılmışdır və hazırda ona 57 dövlət daxildir. Azərbaycan Respublikası bu nüfuzlu təşkilatın üzvüdür. Bəzi ölkələrin müsəlman icmalarının, habelə beynəlxalq təşkilatların nümayəndələri İKT-də müşahidəçi statusuna malikdirlər. İKT 1975-ci ildən Birləşmiş Millətlər Təşkilatında müşahidəçi statusu almışdır. İKT-nin ali orqanı dövlət və hökumət başçılarının zirvə toplantısı, siyasi orqanı xarici işlər nazirlərinin konfransıdır. Təşkilatın icraçı orqanı olan Baş katiblik Səudiyyə Ərəbistanının Cillə şəhərində yerləşir. – 321.

**189. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 321.

**190. «Vaşinqton post»** – ABŞ-da gündəlik qəzet. Əsası 1877-ci ildə qoyulmuşdur. Tirajı təxminən 500 min nüsxədir. – 326.

**191. Üzeyir bəy Hacıbəyov,** Üzeyir Əbdülhüseyn oğlu (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. –327-331.

**192. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2005-ci illər Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. I çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 327-331.

**193. Mənsum İbrahimov,** Mənsum İsrafil oğlu (d.1960) – muğam xanəndəsi, professor. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət Opera və Balet Teatrının solistidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 327-331.

**194. Lütfiyar İmanov,** Lütfiyar Müslüm oğlu (1928–2008) – Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ Xalq artisti. 1959-cu ildən M.F.Axundov adına Azərbaycan Opera və Balet Teatrının solistidir. L.İmanov gözəl, məlahətli və geniş diapozonlu səsə malikdir. Onun repertuarında Azərbaycan xalq mahnıları, romanslar mühüm yer tutur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 327-331.

**195. Afaq Bəşirqızı** (d.1955) – aktrisa, Azərbaycan Respublikasının Xalq artisti. 1989-cu ildən Musiqili Komediya Teatrında fəaliyyət göstərir. «Azərbaycanfilm» kinostudiyasının istehsal etdiyi «Bəxt üzüyü» və «Girov» filmlərindəki rolları

daha yaddaqalan olmuşdur. «Qızıl Dərviş» mükafatına layiq görülmüşdür. – 327-331.

**196. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı zəbt etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. –329.

**197. Nizami Gəncəvi,** İlyas Yusif oğlu (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində insanın mənəvi azadlığı tərənnüm olunur. – 331.

## Şəxsi adlar göstəricisi


**Abasov İsmət** – 86-87,98-101,102
**Abbasov Oqtay** – 277-279
**Abdullayev Rauf** – 327-331
**Adami Eduard** – 203
**Axundov Məmmədsadıq** – 215
**Akıyev Edyaz** – 167-168
**Al Səud Abdullah** – 201
**Al Səud Sultan** – 202
**II Aleksi** – 302-307
**Alışov Nizami** – 265
**Allahverdiyev Tofiq** – 40
**Arifoğlu Yunis** – 38
**Bağırov Hüseynqulu** – 224
**Bağırov Mir Cəfər** – 237
**Baxşıyev Fəxrəddin** – 256
**Bakiyev Kurmanbek** – 167-168
**Benedikt XVI** – 297-298
**Bədəlov Musa** – 245
**Bəşirqızı Afaq** – 327-331
**Bəşirli Ruslan** – 129,131
**Böyükanit Yaşar** – 209-210
**Brilyov Sergey** – 112
**Buş Corc** – 191
**Çan Dik Lionq** – 117
**Danielsson Lars** – 7-8
**Denktaş Rauf** – 179
**Devis Terri** – 200
**Dərviş İnci** – 174-175
**Dəyərli Gülay** – 179-188
**Dişli Şaban** – 174-175

**Erentok Əhməd** – 141
**Əbiyev Səfər** – 319
**Əl-Qəddafi Müəmmər** – 114
**Əli (*həzrət)*** – 236
**Əliyev Heydər** –11,12,14,17,18,19,24,30,31,35, 36,39,41,42,49,53,55,59,60,61, 62,65,68,71,84,85,87,92,93,96, 97,98,122,123,124,127,128, 131,134,177,178,180,184,195, 216,236,237,238,239,240,242, 244,248-254,260,263,266,269, 297,304,311,313,314,319,329
**Əliyev Natiq** – 221
**Əliyev Oqtay** – 284-285
**Əliyeva Leyla** – 215,271
**Əliyeva Mehriban** –28-46,55,57-58,59,80,95,156, 157,158-159,160-162,163-164,215,233,245,246,248-254,258,259,260,271,327-331
**Əliyeva Zərifə** – 71,271-272
**Ərdoğan Rəcəb Tayyib** – 174,175
**Əsgərov Cahangir** – 222
**Əm-Tələbani Cəlal** – 192
**Forrest Brett** – 211
**Gəncəvi Nizami** – 331
**Hacıbəyov Üzeyir** – 327-331
**Hacıyev Füzuli** – 280-281,282,292
**Hacıyev Rauf** – 39
**Heydərov Oruc** – 134
**Hakkala Terhi** – 206
**Halonen Tarya** – 206
**Xu Szintao** – 317
**İbrahimov Mənsum** – 327-331
**İbrahimov Tofiq** – 82,83-85,87,107

**İmanov Lütfiyar** – 327-331
**Karasin Boris** – 165,169
**Kennikot Filip** – 326
**Kesada Visente** – 198
**Kərimov İslam** – 116,167,168
**Kim Çen İr** – 119
**Konte Lansana** – 318
**Kovalyov Yuri** – 130
**Kovalyova Tamara** – 130
**Kozlovtsev Aleksey** – 67,70
**Köçəryan Robert** – 166,167-168,182,195,196
**Kurtin Aleksandr** – 214
**Kuteliya Batu** – 176
**Qafarov Əbülfəz** – 299
**Qafarova Nargilə** – 35
**Qarayev Əbülfəs** –66,102-107,108
**Qarsia Alexandro** – 213
**Qasımov Mirabbas** – 301
**Qaşparoviç İvan** – 115
**Qənbərov Miri** – 236
**Qəribov Eldar** – 141
**Quliyev Elçin** – 11,19,21
**Qurbanov Osmanağa** – 232
**Qütqaşınlı İsmayıl bəy** – 85
**Liqar Riçard** – 189-190
**Lukaşenko Aleksandr** – 167-168
**Lukyanenko Vladimir** – 231
**Matsuura Koişiro** – 155-164
**Matsuura Takaka** – 155-164
**Mehdiyev Mehdi** – 73,128-130
**Mehdiyev Ramiz** – 73
**Merabişvili Vano** – 9-10
**Mercan Murad** – 174-175
**Məlikov Əlixan** – 230
**Məmmədov Natiq** – 93-97

**Məmmədov Ziya** – 234
**Mikayılov Süleyman** – 287,288
**Muxametşin Fərid** – 165,169
**Musa Cəlil** – 169
**Mübarək Hüsnü** – 296
**Nağdəliyev Zeynal** – 274-277,289
**Nağıyev Əli** – 124-126
**Naxçıvanski Cəmşid** – 11
**Nazarbayev Nursultan** – 167-169
**Nəsimi İmadəddin** – 95
**Obasanco Olusequ** – 316
**Papadopulos** – 194
**Paşazadə Hacı Allahşükür** – 303
**Pavel II İohann** – 297-298
**Penin Stanislav** – 143
**Pirverdiyev Etibar** – 226
**Polad Bülbüloğlu** – 327-331
**Putin Vladimir** – 167-169,182
**Rays Kondoliza** – 195
**Rəhimov Kamil** – 90-92
**Rəhmon İmaməli** – 118,167-168
**Rizayev Ramiz** – 165,169
**Rupel Dimitri** – 199
**Ruşaylo Vladimir** – 165,169
**Rüstəmov Elman** – 138,141,142
**Saakaşvili Mixeil** – 9,167-168,176
**Silva Luis** – 120
**Spelts Pol** – 309-310
**Sepe Kreşentsio** – 297-298
**Suver Akkan** – 177-178
**Şahıyev Xanış** – 236-238,242
**Şaymiyev Mintimer** – 169
**Şərifzadə Abbas Mirzə** – 170
**Şirak Jak** – 27
**Şirvani Xaqani** – 95

**Şirvani Seyid Əzim** – 95
**Şıxəliyev Saleh** – 131
**Talvitiye Heyki** – 308
**Traavik Kim** – 193
**Vahabzadə Bəxtiyar** – 5-6
**Van der Lind Rene** – 113
**Vəliməmmədov Həmzə** – 244
**Voronin Vladimir** – 167-168
**Yudhoyono Susilo** – 197
**Yuşşenko Viktor** – 167-168

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Ağstafa** | – 300 |
| **Almaniya** | – 221,300 |
| **Amerika Birləşmiş Ştatları** | –39,40,74,135,150,151,152, 153,184,185,189-190,191, 211,326 |
| **Argentina** | – 300 |
| **Asiya** | – 324 |
| **Astara** | – 224,225,226-233,277-279, 282,285 |
| **Avropa** | – 18,66,152,184,237,300,324 |
| **Bakı** | – 6,7,27,35,53,62,97,102,105, 107,109,114,115,116,117, 118,119,120,130,141,142, 148,150,160,169,175,179, 188,191,192,197,198,201, 202,203,205,206,208,213, 214,227,237,261,267,279, 286,296,299,300,316,317,318 |
| **Balakən** | – 103 |
| **Bayan** | – 91 |
| **Belarus** | – 167-168 |
| **Berlin** | – 300 |
| **Biləsuvar** | – 285 |
| **Bizlan** | – 80,88,144 |
| **Böyük Britaniya** | – 144-154 |
| **Braziliya** | – 120 |
| **Bucaq** | – 91 |
| **Cenevrə** | – 78,125 |
| **Ceyhan** | – 180 |
| **Cənubi Qafqaz** | – 38,308 |

**Çin** – 317
**Dağlıq Qarabağ** – 6,15,24,50,72,76,77,89,91, 113,121,122,128,129,130,131, 166,181,182,195,199,220,242, 305,308,320,323,324,329
**Dizarxlı** – 87
**Əfqanıstan** – 151,189
**Ərdəbil** – 281
**Əhən** – 88
**Ərçivan** – 278,285
**Filfili** – 92
**Finlandiya** – 206,299
**Fransa** – 27
**Cəlilabad** – 285
**Gürcüstan** – 9-10,13,21,25,149,150,167-168,176,181,322,323,324
**Hollandiya** – 135
**Xaçmaz** – 102,130,227
**Xaçmaz** (*Oğuz rayonunda kənd*)– 91
**Xalxal** – 55,57-58
**Xəzər dənizi** – 144,278
**İndoneziya** – 197
**İraq** – 189,192
**İran** – 13,17,151,183,230,231,281
**İsmayıllı** – 59-80,81-111,124
**İtaliya** – 135
**İsveç** – 7-8
**İvanovka** – 67-71
**Kazan** – 72,165-169,176,182
**Kəlvəz** – 281
**Koreya XDR** – 119
**Kosovo** – 151
**Qax** – 103
**Qafqaz** – 38,225,305
**Qara dəniz** – 24

**Qazaxıstan** – 133,167-168
**Qəbələ** – 28-46,78,81-111
**Qəmərvan** – 87
**Qırğızıstan** – 149,167-168
**Qusar** – 97,102,109
**Ovineya** – 318
**Lahıc** – 64,87,104
**Lerik** – 234-246,280-281,283
**Lənkəran** – 215-225,228,238,367,273-295
**Liviya** – 114
**London** – 141
**Malta** – 203
**Masallı** – 242-259,268,284-285
**Meksika** – 198
**Mərkəzi Asiya** – 324
**Misir** – 296
**Moldova** – 167-168
**Moskva** – 222,231,302-307
**Naxçıvan** – 227,231
**Nic** – 43-45
**Nigeriya** – 316
**Norveç** – 193
**Nüydü** – 95
**Oğuz** – 47-58,78,81-111
**Orta Asiya** – 25
**Özbəkistan** – 55,115,167-168
**Padar** – 91
**Pirqulu** – 105,106
**Polşa** – 299
**Praqa** – 322
**Rumıniya** – 300
**Rusiya** – 13,17,21,22,24,125,150,151, 153,165-169,182,183,302-307,322,323
**Sankt-Peterburq** – 167

**Sərab** – 278
**Səudiyyə Ərəbistanı** – 201,202
**Slovakiya** – 115
**Sloveniya** – 199
**Sumağallı** – 66
**Sumqayıt** – 130,142,279
**Sumı** – 230,231
**Şamaxı** – 81-111
**Şəki** – 103,227
**Şimali Kipr** – 179,194
**Şuşa** – 118,168-169
**Tatarıstan** – 165-169
**Telmankənd** – 232
**Təbriz** – 183
**Təzəkənd** – 258
**Tircan** – 88
**Türkiyə** – 24,25,39,66,106,135,141, 174-175,177-178,179-188, 194-196,209-210,223,324
**Türkmənistan** – 165-169
**Ukrayna** – 149,150,167-168,230,231, 232
**Vatikan** – 297-298
**Vyetnam** – 117
**Yaqublu** – 91
**Yardımlı** – 97,260-272,283,287,288
**Yaponiya** – 135
**Yeddioymaq** – 259
**Yunanıstan** – 194

# MÜNDƏRİCAT

XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏYƏ

*15 avqust 2005-ci il* ........................................................................ 5

İSVEÇ BAŞ NAZİRİ OFİSİNİN DÖVLƏT KATİBİ
LARS DANİELSSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*15 avqust 2005-ci il* ........................................................................ 7

GÜRCÜSTANIN DAXİLİ İŞLƏR NAZİRİ VANO MERABİŞVİLİ
İLƏ GÖRÜŞ

*15 avqust 2005-ci il* ........................................................................ 9

DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN HƏRBİ HİSSƏLƏRİNƏ DÖYÜŞ
BAYRAQLARININ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ
TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*16 avqust 2005-ci il* ........................................................................ 11

DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN RƏHBƏR HEYƏTİ VƏ HƏRBİ
HİSSƏ KOMANDİRLƏRİNİN İŞTİRAKI İLƏ KEÇİRİLƏN
MÜŞAVİRƏDƏ NİTQ

*16 avqust 2005-ci il* ........................................................................ 17

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB JAK ŞİRAKA

*18 avqust 2005-ci il* ........................................................................ 27

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ
RAYONUNA SƏFƏRİ

*18 avqust 2005-ci il* ........................................................................ 28

QƏBƏLƏ ŞƏHƏRİNDƏKİ HEYDƏR BAĞINDA RAYON
SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*18 avqust 2005-ci il* ........................................................................ 29

QƏBƏLƏ RAYONU NİC QƏSƏBƏSİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*18 avqust 2005-ci il* ........................................................................ *43*

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA QƏBƏLƏ RAYONUNUN DAŞCA KƏNDİNDƏ MƏKTƏB BİNASININ TİKİNTİSİ İLƏ TANIŞ OLMUŞDUR

*18 avqust 2005-ci il* ........................................................................ *46*

OĞUZ ŞƏHƏRİNDƏKİ HEYDƏR PARKINDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*18 avqust 2005-ci il* ........................................................................ *47*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV OĞUZ RAYONUNDA

*18 avqust 2005-ci il* ........................................................................ *51*

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA OĞUZ RAYONUNUN XALXAL KƏNDİNDƏ MƏKTƏB BİNASININ TİKİNTİSİ İLƏ TANIŞ OLMUŞDUR

*19 avqust 2005-ci il* ........................................................................ *57*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İSMAYILLI RAYONUNDA

*19 avqust 2005-ci il* ........................................................................ *59*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSMAYILLI RAYONUNDA

*19 avqust 2005-ci il* ........................................................................ *65*

«Green House» İstirahət-Turizm Mərkəzinin açılışı

İSMAYILLI RAYONU İVANOVKA KƏNDİNİN SAKİNLƏRİ
İLƏ GÖRÜŞDƏ NİTQ

*19 avqust 2005-ci il ............................................................................67*

İSMAYILLI RAYONUNDAKI «GREEN HOUSE» İSTİRAHƏT-TURİZM
MƏRKƏZİNDƏ BÖLGƏYƏ SƏFƏRDƏ ONU MÜŞAYİƏT
EDƏN JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*19 avqust 2005-ci il ............................................................................72*

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun
XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA İSMAYILLI
RAYONUNDAKI BİZLAN KƏNDİNDƏ MƏKTƏB BİNASININ
TİKİNTİSİ İLƏ TANIŞ OLMUŞDUR

*19 avqust 2005-ci il ............................................................................80*

OĞUZ, QƏBƏLƏ, İSMAYILLI VƏ ŞAMAXI RAYONLARININ SOSİAL-
İQTİSADİ İNKİŞAFINA VƏ PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ
ZONA MÜŞAVİRƏSİNDƏ NİTQ

*19 avqust 2005-ci il ............................................................................83*

YEKUN NİTQİ ............................................................................*108*

«ROSSİYA» TELEKANALININ «VESTİ–NEDELYA» PROQRAMINA
MÜSAHİBƏ

*22 avqust 2005-ci il ............................................................................112*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ
RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*22 avqust 2005-ci il ............................................................................113*

LİVİYA İNQİLABININ RƏHBƏRİ, LİVİYA ƏRƏB SOSİALİST XALQ
CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ

CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ

*22 avqust 2005-ci il* ........................................................................... *114*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ

*22 avqust 2005-ci il* ........................................................................... *115*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*22 avqust 2005-ci il* ........................................................................... *116*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DİK LİONQA

*22 avqust 2005-ci il* ........................................................................... *117*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İMAMƏLİ RƏHMONOVA

*22 avqust 2005-ci il* ........................................................................... *118*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ

*22 avqust 2005-ci il* ........................................................................... *119*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA

*22 avqust 2005-ci il* ........................................................................... *120*

ƏLİL OLMUŞ ŞƏXSLƏRİN VƏ ŞƏHİD AİLƏLƏRİ ÜZVLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞ

*23 avqust 2005-ci il* ........................................................................... *121*

QAZAXISTANIN «XƏBƏR» AGENTLİYİNƏ MÜSAHİBƏ

*23 avqust 2005-ci il* ........................................................................ *133*

BAKIDA «BANK STANDARD»IN BAŞ OFİSİ BİNASININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*23 avqust 2005-ci il* ........................................................................ *134*

BÖYÜK BRİTANİYANIN «SKAY NYUS» TELEVİZİYASI MOSKVA BÜROSUNUN MÜXBİRİ LİI LOURENSƏ VERDİYİ MÜSAHİBƏ

*23 avqust 2005-ci il* ........................................................................ *144*

YUNESKO-nun BAŞ DİREKTORU KOİŞİRO MATSUURA VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 avqust 2005-ci il* ........................................................................ *155*

YUNESKO-nun BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*24 avqust 2005-ci il* ........................................................................ *157*

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ YUNESKO ARASINDA BİRGƏ RƏSMİ MƏLUMATIN İMZALANMASI VƏ YUNESKO-nun BAŞ DİREKTORUNA «ŞÖHRƏT» ORDENİNİN TƏQDİM OLUNMASI MƏRASİMİ

*24 avqust 2005-ci il* ........................................................................ *158*

BAKIDA BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNİN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİNDƏ NİTQ

*24 avqust 2005-ci il* ........................................................................ *160*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN YUNESKO-nun BAŞ DİREKTORU KOİŞİRO MATSUURANIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*24 avqust 2005-ci il* ........................................................................ *163*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KAZAN ŞƏHƏRİNƏ

SƏFƏRİ

*26 avqust 2005-ci il ........................................................................165*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KAZAN ŞƏHƏRİNƏ
SƏFƏRİ

*26 avqust 2005-ci il ........................................................................167*

AZƏRBAYCANDA İCTİMAİ TELEVİZİYA VƏ RADİO YAYIMLARI ŞİRKƏTİNİN FƏALİYYƏTƏ BAŞLAMASINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

*29 avqust 2005-ci il ........................................................................170*

TÜRKİYƏNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 avqust 2005-ci il ........................................................................174*

GÜRCÜSTANIN KƏŞFİYYAT DEPARTAMENTİNİN SƏDRİ BATU KUTELİYA İLƏ GÖRÜŞ

*29 avqust 2005-ci il ........................................................................176*

TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPU STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VƏQFİNİN SƏDRİ AKKAN SUVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 avqust 2005-ci il ........................................................................177*

TÜRKİYƏNİN SKAY TV TELEKANALININ «STRATEJİ RAPOR» PROQRAMININ APARICISI GÜLAY DƏYƏRLİYƏ VERDİYİ MÜSAHİBƏ

*30 avqust 2005-ci il ........................................................................179*

ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ RİÇARD LUQARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 avqust 2005-ci il ........................................................................189*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA

*31 avqust 2005-ci il*......................................................................*191*

İRAQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB CƏLAL HÜSAMƏDDİN ƏT-TƏLABANİYƏ

*1 sentyabr 2005-ci il*......................................................................*192*

NORVEÇ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT
KATİBİ KİM TRAAVİK İLƏ GÖRÜŞ

*1 sentyabr 2005-ci il*......................................................................*193*

TÜRKİYƏNİN «HÜRRİYYƏT» QƏZETİNDƏ NƏŞRİN YAZI İŞLƏ-
Rİ
MÜDİRİ TUFAN TÜRENC İLƏ MÜSAHİBƏ

*2 sentyabr 2005-ci il*......................................................................*194*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*5 sentyabr 2005-ci il*......................................................................*197*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB VİSENTE FOKS KESADAYA

*5 sentyabr 2005-ci il*......................................................................*198*

ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ, SLOVENİYA
RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ DİMİTRİ RUPELİN
RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*5 sentyabr 2005-ci il*......................................................................*199*

AVROPA ŞURASININ BAŞ KATİBİ TERRİ DEVİSİN RƏHBƏRLİK
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2005-ci il*......................................................................*200*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*5 sentyabr 2005-ci il.........................................................................201*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ ƏLAHƏZRƏT SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*5 sentyabr 2005-ci il.........................................................................202*

MALTA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EDUARD FENEÇ ADAMİYƏ

*5 sentyabr 2005-ci il.........................................................................203*

«AZƏRBAYCAN NEFT TƏSƏRRÜFATI» JURNALINA

*6 sentyabr 2005-ci il .........................................................................204*

FİNLANDİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ XANIM TERHİ HAKKALA İLƏ GÖRÜŞ

*6 sentyabr 2005-ci il .........................................................................206*

BEYNƏLXALQ SOSİAL TƏMİNAT ASSOSİASİYASININ «QLOBAL-LAŞMA VƏ ƏMƏK MİQRANTLARININ SOSİAL MÜDAFİƏSİ» MÖVZUSUNDA AVROPA İCLASININ İŞTİRAKÇILARINA

*7 sentyabr 2005-ci il.........................................................................207*

TÜRKİYƏ RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ QURU QOŞUNLARININ KOMANDANI, ORDU GENERALI YAŞAR BÖYÜKANITIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 sentyabr 2005-ci il .........................................................................209*

AMERİKANIN ÇOX MƏŞHUR «FORÇUN» JURNALINA MÜSAHİBƏ

*7 sentyabr 2005-ci il.........................................................................211*

«QLOBALLAŞMA VƏ ƏMƏK MİQRANTLARININ SOSİAL MÜDAFİƏSİ» MÖVZUSUNDA AVROPA İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*7 sentyabr 2005-ci il.........................................................................212*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖLKƏMİZİN CƏNUB BÖLGƏSİNƏ SƏFƏRİ

*8 sentyabr 2005-ci il .........................................................................215*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ASTARA RAYONUNDA

*8 sentyabr 2005-ci il .........................................................................226*

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA ASTARA RAYONUNUN TƏNGƏRUD KƏNDİNDƏ MƏKTƏB BİNASININ TİKİNTİSİ İLƏ TANIŞ OLMUŞDUR

*8 sentyabr 2005-ci il.........................................................................233*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV LERİK RAYONUNDA

*8 sentyabr 2005-ci il.........................................................................234*

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN DOSTU XANIŞ ŞAHIYEVLƏ GÖRÜŞ

*8 sentyabr 2005-ci il.........................................................................236*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİNDƏ VƏ RAYON İCTİMAİYYƏTİ İLƏ GÖRÜŞDƏ NİTQ

*8 sentyabr 2005-ci il.........................................................................239*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MASALLI RAYONUNDA

*9 sentyabr 2005-ci il.........................................................................247*

MASALLI ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİ ÖNÜNDƏ RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*9 sentyabr 2005-ci il*..........................................................................*248*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MASALLI RAYONUNDA

*9 sentyabr 2005-ci il*..........................................................................*255*

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA MASALLI RAYONUNUN TƏZƏKƏND MƏKTƏBİNDƏ

*9 sentyabr 2005-ci il*..........................................................................*258*

YARDIMLIDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİNDƏ VƏ RAYON İCTİMAİYYƏTİ İLƏ GÖRÜŞDƏ NİTQ

*9 sentyabr 2005-ci il*..........................................................................*260*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏMİZİN CƏNUB BÖLGƏSİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA VƏ PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*9 sentyabr 2005-ci il*..........................................................................*273*

YEKUN NİTQİ

*9 sentyabr 2005-ci il*..........................................................................*288*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ

*10 sentyabr 2005-ci il*........................................................................*296*

KARDİNAL KREŞENTSİO SEPENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 sentyabr 2005-ci il*........................................................................*297*

BAKIDA «KARVAN-L BOYALARI» ŞİRKƏTİNİN EYNİADLI İSTEH-SAL MÜƏSSİSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*13 sentyabr 2005-ci il..........................................................................299*

MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI II ALEKSİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2005-ci il..........................................................................302*

AVROPA BİRLİYİNİN CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2005-ci il..........................................................................308*

ASİYA İNKİŞAF BANKININ İCRAÇI DİREKTORU, SƏFİR POL SPELTSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2005-ci il..........................................................................309*

ÖLKƏMİZDƏ YENİ DƏRS İLİNİN BAŞLANMASI VƏ «BİLİK GÜNÜ» MÜNASİBƏTİLƏ BAKININ XƏTAİ RAYONUNDAKI HEYDƏR ƏLİYEV ADINA LİSEYDƏ KEÇİRİLMİŞ MƏRASİMDƏ NİTQ

*15 sentyabr 2005-ci il..........................................................................311*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA

*16 sentyabr 2005-ci il ........................................................................316*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XU SZİNTAOYA

*16 sentyabr 2005-ci il ........................................................................317*

QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LANSANA KONTEYƏ

*16 sentyabr 2005-ci il* ....................................................................*318*

AZƏRBAYCANDA ORDU QURUCULUĞUNUN İNKİŞAFINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*16 sentyabr 2005-ci il*........................................................................*319*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-ın NÜFUZLU «VAŞİNQTON POST» QƏZETİNİN MÜXBİRİ FİLİP KENNİKOTA MÜSAHİBƏ VERMİŞDİR

*16 sentyabr 2005-ci il*........................................................................*326*

DAHİ AZƏRBAYCAN BƏSTƏKARI, PEDAQOQU VƏ İCTİMAİ XADİMİ ÜZEYİR HACIBƏYOVUN 120 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİ

*19 sentyabr 2005-ci il*........................................................................*327*

*Q E Y D L Ə R* ........................................................................*332*

Şəxsi adlar göstəricisi........................................................................378

Coğrafi adlar göstəricisi....................................................................383

**Kitabı çapa hazırlayan** *Tofiq Babayev*

**Texniki redaktoru** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət* **Orucov**

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 24,5. Uçot vərəqi 25,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.